# PEDAQOJİ UNİVERSİTETİN
# XƏBƏRLƏRİ

# TRANSACTIONS
## OF PEDAGOGICAL UNIVERSITY

ISSN 2520-2014

*Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası*

*Series of humanitarian, social and pedagogical-psychological sciences*

2020, C.68, №3

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

# TRANSACTIONS
## OF PEDAGOGICAL UNIVERSITY

**ISSN 2520-2014**

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası***

***Series of humanitarian, social and pedagogical-psychological sciences***

# 2020, C. 68, № 3

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası,* 2020, C.68, №3**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov *(baş redaktorun müavini),* f.e.d., prof. V.H.Əliyev, psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., prof. M.M.Əmirov, p.e.d., prof. R.L.Hüseynzadə, f.e.d., prof. B.Ə.Xəlilov, f.e.d., prof. Z.A.Xəlilov, f.e.d., prof. N.M.Xudiyev, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., dos. Ş.Q.Əliyeva, p.ü.f.d., dos. N.Ə.Abdullazadə, p.ü.f.d., dos. N.T.Hüseynova, f.e.ü.f.d. N.Q.Aslanova *(məsul katib)*

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov *(ass. editor*), prof. Dr. V.Q.Aliyev, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. M.M.Amirov, Prof. Dr. R.L.Huseynzadeh, Prof. Dr. B.A.Khalilov, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. N.M.Khudiyev, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. Phd I.N.Isayev, Ass. prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. Phd N.A.Abdullazadeh, Ass. prof. Phd N.T.Huseynova, Phd N.G.Aslanova (*executive secretary*)

***© ADPU, 2020***
***© ASPU, 2020***

# MÜNDƏRİCAT

## *Humanitar elmlər*

***Əliyeva S.C.***
İNGİLİS DİLİNİ ÖYRƏNMƏ SƏVİYYƏLƏRİ ……….............................................. 9
***Hacızadə G.T.***
NLP (NEYROLİNQVİSTİK PROQRAMLAŞDIRMA) ƏSASLI XARİCİ DİL TƏDRİSİNDƏ VAK (VİZUAL, AUDİAL, KİNESTİK) MODELİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ ……………................................................................ 15
***İsmayılova E.A.***
DERİVATİV ÜSUL KİMİ AFFİKSLƏŞMƏ ........................................................... 23
***Məmmədov X.B.***
FOLKLORDA MƏNTİQ MOTİVLƏRİ .................................................................... 31
***Yusifova K.Y.***
QƏHRƏMANLIQ DASTANLARININ TƏDQİQİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ 40

## *İctimai elmlər*

***Ağayeva N.Ş.***
NAXÇIVAN MUXTAR RESPUBLİKASININ XATİRƏ MUZEYLƏRİ .................... 47
***Fərhadov Ə.R.***
SERAYA ŞAPŞAL VƏ AZƏRBAYCANIN GÜNEYİNDƏ YƏHUDİLİYİN TARİXİNDƏN (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ) ....................................................... 53
***Xəlilova X.O.***
MƏHKUMUN ŞƏXSİYYƏTİ VƏ SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ ........ 65
***Qurbanlı Ə.C.***
AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR-DƏN DEPORTASİYASI VƏ QAÇQINLAR PROBLEMİNİN YARANMASI (1988-1989-cu İLLƏR) ................... 74
***Məmmədov Ə.F.***
SOVETLƏŞMƏDƏN SONRA İLK AYLARDA AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT ....................................................................................................... 83
***Mirzəbəyova R.K.***
TÜRKLƏRİN DÜNYA ELM TARİXİNƏ TÖHFƏLƏRİ: ORTA ƏSRLƏRDƏ RİYAZİYYAT ............................................................................................... 96
***Nəsirova S.A.***
MƏRKƏZİ ASİYA SÜZƏNİSİ VƏ AZƏRBAYCAN TƏKƏLDUZU: FƏRQLƏR VƏ OXŞARLIQLAR ........................................................................................ 107
***Ramazanova A.Ş.***
AZƏRBAYCAN RESPUBLİKASI VƏ RUSİYA FEDERASİYASININ CƏNUBİ QAFQAZDA TƏHLÜKƏSİZLİK SAHƏSİNDƏ İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİNİN DİNAMİKASI ..................................................................... 114
***Seyidzadə M.A.***
AZƏRBAYCANDA ƏNƏNƏVİ XINA MƏRASİMİ HAQQINDA (MATM ETNOQRAFİYA FONDUNUN MATERİALLARI ƏSASINDA) .............. 122

## *Pedaqoji-psixoloji elmlər*

***Xəlilov R.Ə.***
TƏHSİLİN MƏQSƏDİ – XARAKTERİN TƏRBİYƏSİ ............................................ 131

***İbrahimov F.N., Abdurahmanov V.Ə.***
PEDAQOJİ PROSESDƏ EHTİVA OLUNAN MƏZMUNUN HƏRƏKƏT FORMALARI ........................................................ 138
***İbrahimova S.P., İbadova P.H.***
YENİ VƏ İNTERAKTİV TƏLİM TEXNOLOGİYALARININ ƏNƏNƏVİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN MÜQAYİSƏLİ TƏHLİLİ .......... 146
***Quliyeva S.M.***
VALİDEYNLƏRDƏ PEDAQOJİ SƏRİŞTƏLİLİYİN FORMALAŞDIRILMASINDA MÜƏLLİMİN ROLU ........................................... 153
***Quliyeva R.E.***
YARADICI TƏXƏYYÜLÜN DİAQNOSTİKASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR MÜASİR YANAŞMALAR ........................................ 160
***Məmmədova M.Ə.***
MƏSAFƏDƏN TƏHSİLİN TƏDRİSİN KEYFİYYƏTİNƏ TƏSİRİ ........................... 168

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

***Алиева С.Дж.***
УРОВНИ ИЗУЧЕНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА ……………………..……… 9
***Гаджизаде Г.Т.***
ЗНАЧЕНИЕ ВАК (ВИЗУАЛЬНОЙ, АУДИАЛЬНОЙ, КИНЕСТЕТИЧЕСКОЙ) МОДЕЛИ В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ НА ОСНОВЕ НЛП (НЕЙРОЛИНГУЗИТНОЕ ПРОГРАММИРОВАНИЕ) .......................................... 15
***Исмайлова Э.А.***
АФФИКСАЦИЯ КАК ПРОИЗВОДНЫЙ МЕТОД ............................................... 23
***Мамедов Х.Б.***
МОТИВЫ ЛОГИКИ В ФОЛЬКЛОРЕ .................................................................. 31
***Юсифова К.Я.***
ВОПРОСЫ ВОСПИТАНИЯ В ИЗУЧЕНИИ ГЕРОИЧЕСКИХ ЭПОСОВ .......... 40

## *Общественные науки*

***Агаева Н.Ш.***
МЕМОРИАЛЬНЫЕ МУЗЕИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ ........................................................................................................ 47
***Фархадов А.Р.***
СЕРАЯ ШАПШАЛЬ И ОБ ИСТОРИИ ЕВРЕЙСТВА В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ (В XIX-НАЧАЛЕ XX ВВ.) ..................................................... 53
***Халилова Х.О.***
ЛИЧНОСТЬ И СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ОСУЖДЕННОГО .......................................................................................... 65
***Гурбанлы А.Дж.***
ДЕПОРТАЦИЯ АЗЕРБАЙДЖАНЦЕВ ИЗ АРМЯНСКОЙ ССР И ВОНИКНОВЕНИЕ ПРОБЛЕМЫ БЕЖЕНЦЕВ (1988-1989 ГГ.) ......................... 74
***Мамедов А.Ф.***
ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ В АЗЕРБАЙДЖАНЕ В ПЕРВЫЕ МЕСЯЦЫ ПОСЛЕ СОВЕТИЗАЦИИ ……..............................…............................................ 83
***Мирзабекова Р.К.***
ВКЛАД ТУРОК В ИСТОРИЮ МИРОВОЙ НАУКИ: МАТЕМАТИКА В СРЕДНИЕ ВЕКА ........................................................................................... 96
***Насирова С.А.***
СРЕДНЕАЗИАТСКИЕ СЮЗАНЕ И АЗЕРБАЙДЖАНСКИЙ ТАКАЛДУЗ: РАЗЛИЧИЯ И СХОДСТВА ........................................................................... 107
***Рамазанова А.Ш.***
ДИНАМИКА ДВУСТОРОННИХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И РОССИЙСКОЙ ФЕДЕРАЦИИ В ОБЛАСТИ БЕЗОПАСНОСТИ НА ЮЖНОМ КАВКАЗЕ ..................................................... 114
***Сейидзаде М.А.***
О ТРАДИЦИОННОМ ОБРЯДЕ ОКРАШИВАНИЯ ХНОЙ В АЗЕРБАЙДЖАНЕ (НА ОСНОВЕ МАТЕРИАЛОВ ФОНДА ЭТНОГРАФИИ НАНА) .................... 122

## *Педагогико-психологические науки*

***Халилов Р.А.***
ЦЕЛЬ ОБРАЗОВАНИЯ – ВОСПИТАНИЕ ХАРАКТЕРА ………………..……... 131
***Ибрагимов Ф.Н., Абдурахманов В.А.***
ФОРМЫ ДЕЙСТВИЙ СОДЕРЖАНИЯ, ОТРАЖЕННЫЕ
В ПЕДАГОГИЧЕСКОМ ПРОЦЕССЕ ....................................................................... 138
***Ибрагимова С.П., Ибадова П.Г.***
ТРАДИЦИОННЫЕ И ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ НОВЫХ И
ИНТЕРАКТИВНЫХ ТЕХНОЛОГИЙ ОБУЧЕНИЯ И ИХ СРАВНИТЕЛЬНЫЙ
АНАЛИЗ ........................................................................................................................ 146
***Кулиева С.М.***
РОЛЬ УЧИТЕЛЯ В ФОРМИРОВАНИИ ПЕДАГОГИЧЕСКОЙ
КОМПЕТЕНТНОСТИ РОДИТЕЛЕЙ ......................................................................... 153
***Кулиева Р.Э.***
СОВРЕМЕННЫЕ ПОДХОДЫ К ДИАГНОСТИКЕ И ОЦЕНКЕ ТВОРЧЕСКОГО
ВООБРАЖЕНИЯ ........................................................................................................ 160
***Мамедова М.А.***
ВЛИЯНИЕ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ НА КАЧЕСТВО
ПРЕПОДАВАНИЯ ....................................................................................................... 168

# TABLE OF CONTENTS

## *Humanitarian sciences*

***Aliyeva S.J.***
LEVELS OF LEARNING THE ENGLISH LANGUAGE ...................................... 9
***Hajizada G.T.***
THE IMPORTANCE OF VAK (VISUAL, AUDIAL, KINAESTHETIC) MODEL IN NLP (NEUROLINGUSITIC PROGRAMMING) BASED FOREIGN LANGUAGE TEACHING ........................................................................... 15
***Ismayilova E.A.***
AFFIXATION AS A DERIVATIVE METHOD ……………….......................... 23
***Mammadov Kh.B.***
LOGICAL MOTIVES IN THE FOLKLORE ......................................................... 31
***Yusifova K.Y.***
EDUCATIONAL ISSUES IN THE STUDY OF HEROIC EPICS ……………….. 40

## *Social sciences*

***Aghayeva N.S.***
MEMORIES MUSEUMS OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC ...... 47
***Farhadov A.R.***
SERAYA SHAPSHAL AND ABOUT THE HISTORY OF JEWISH IN SOUTH AZERBAIJAN (IN THE XIX-BEGINNING OF THE XX CENTURY) ....……… 53
***Khalilova Kh.O.***
PERSONALITY AND SOCIAL PSYCHOLOGICAL CHARACTERISTICS OF THE CONVICTED PERSON ....................................................................................... 65
***Gurbanli A.J.***
DEPORTATION OF AZERBAIJANIS FROM ARMENIAN SSR AND UPRISING THE PROBLEM REFUGEES (1988-1989 YY.) ……..……………… 74
***Mammadov A.F.***
POLITICAL SITUATION IN AZERBAIJAN IN THE FIRST MONTHS AFTER SOVIETIZATION ........................................................................................... 83
***Mirzabayova R.K.***
CONTRIBUTIONS OF TURKS TO WORLD HISTORY OF SCIENCE: MATHEMATICS IN THE MIDDLE AGES ……………..……………..……… 96
***Nasirova S.A.***
CENTRAL ASIAN SUZANI AND AZERBAIJANI TAKALDUZ: DIFFERENCES AND SIMILARITIES ……………………………………….……… 107
***Ramazanova A.Sh.***
DYNAMICS OF BILATERAL RELATIONS OF THE REPUBLIC OF AZERBAIJAN AND THE RUSSIAN FEDERATION IN THE FIELD OF SECURITY IN THE SOUTH CAUCASUS ……………………..……….......... 114
***Seyidzade M.A.***
ABOUT THE TRADITIONAL RITUAL OF HENNA IN AZERBAIJAN (BASED ON MATERIALS FROM THE ETHNOGRAPHY FOUND OF ANMH) 122

## *Pedagogical-psychological sciences*

***Khalilov R.A.***
PURPOSE OF EDUCATION – TRAINING OF CHARACTER .............................. 131
***Ibrahimov F.N., Abdurahmanov V.A.***
FORMS OF ACTION CONTENT CONTAINED IN THE PEDAGOGICAL PROCESS ............................................................................................................ 138
***Ibrahimova S.P., Ibadova P.H.***
TRADITIONAL AND CHARACTERISTIC FEATURES OF NEW AND INTERACTIVE LEARNING TECHNOLOGIES AND THEIR COMPARATIVE ANALYSIS ........................................................................................................... 146
***Gulieva S.M.***
THE ROLE OF THE TEACHER IN THE FORMATION OF PEDAGOGICAL COMPETENCE OF PARENTS .................................................................................. 153
***Guliyeva R.E.***
MODERN APPROACHES TO THE DIAGNOSIS AND EVALUATION OF CREATIVE IMAGINATION ....................................................................................... 160
***Mammadova M.A.***
THE IMPACT OF DISTANCE EDUCATION ON THE TEACHING QUALITY 168

***UOT 811.111***

***S.C.Əliyeva***
*Azərbycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
*saliya05@ mail.ru*

# İNGİLİS DİLİNİ ÖYRƏNMƏ SƏVİYYƏLƏRİ

***Açar sözlər:*** *xarici dil, dünya, ünsiyyət, təcrübə, oxu, yazı, ingilis dili, düşünmə bacarığı*

İngilis dilinin öyrənilməsi prosesinin sistemli şəkildə tədrisi üçün dilin səviyyələrlə proqramlaşdırılması cox vacibdir. Dünyada ingilis dilini hər kəs öyrənmək istəyir. Və bu işin proqramlı şəkildə təşkili istənilən nəticəyə çatmağa imkan verir. Dilin öyrənilməsi prosesi dilin səviyyələrlə öyrənilməsi əsasında daha perspektivli həyata keçirilir. Bildiyimiz kimi, ingilis dilini akademik səviyyədə öyrənmək dilin səviyyələrlə sistemləşdirilməsini tələb edir.

***С.Дж.Алиева***

## УРОВНИ ИЗУЧЕНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

***Ключевые слова***: *иностранный язык, мир, общение, практика, чтение, письмо, английский язык, умение думать*

Программирование на уровне языка очень важно для систематического обучения процессу изучения английского языка. Каждый человек в мире хочет изучить английский язык. Програмное обучение этой работы позволяет добиться желаемого результата. Процесс изучения языка осуществляется более перспективно на основе изучения языка по уровням. Как известно, изучение английского на академическом уровне требует систематизации языка по уровням.

***S.J.Aliyeva***

## LEVELS OF LEARNING THE ENGLISH LANGUAGE

***Keywords****: foreign language, the world, communication, practise, reading, writing, English, habit of thinking*

Programming the language with levels is very important for the systematic teaching of the process of learning English. Everyone in the world wants to learn English. And the programmatic organization of this work allows you to achieve the desired result. The process of language learning is carried out in a more perspective way on the basis of language learning by levels. As we know, learning English at the academic level requires the language to be systematized by levels.

Bu gün ingilis dilinin həyatımızın hər anında qarşımıza çıxa biləcək bir dil olduğunu heç kim inkar edə bilməz. İngilis dilində danışmaq elə bir proses yolu keçir ki, bu dili öyrənməkdə israrlı və həvəsli olmaq ön plana çəkilməlidir. Dil öyrənmək istedad və dəyanətliliyin təzahürü kimi özünü göstərməlidir. Yalnız bu halda məqsədə çatmaq və gözəl danışmaq mədəniyyəti özü-özlüyündə meydana çıxır. Kamyu: "Əgər insan çörəyə və ədalətə ehtiyac duyursa, öz tələbatını ödəmək üçün lazım olan hər şeyə əl atırsa, deməli, bu, insan ruhunun qidasıdır" (4). Beləliklə, Kamyu insanı məşğul olduğu işdə dəyanət və istedad göstərməyə səsləyirdi.

Bu gün beynəlxalq dillər qloballaşan dünyanın tərkib hissəsidir. Millətlərarası ünsiyyət vasitəsi olaraq geniş əhatə dairəsinə malik olduğundan bu gün beynəlxalq münasibətlər sistemini beynəlxalq dillərsiz təsəvvür etmək mümkün deyil. Müasir dünyada beynəlxalq dil kimi işlədilən ingilis, ispan, fransız, ərəb, alman, portuqal, rus və s. dillər bir sıra dövlətlərin rəsmi dilləri olmaqla yanaşı, məsələn, ingilis dili 63 dövlətin, fransız dili 34 dövlətin, ispan dili 23 dövlətin, ərəb dili 22 dövlətin, alman və portuqal dillərindən hər biri 7 dövlətin rəsmi dilləridir. Diplomatik münasibətlərdə, BMT və digər beynəlxalq təşkilatlarda mütəmadi olaraq istifadə edilən ingilis, fransız, ispan, ərəb, rus və çin dilləri BMT-nin müxtəlif qurumlarının rəsmi və işçi dilləridirlər. Bu gün beynəlxalq dillər xarici dil kimi də bir çox ölkələrdə həvəslə öyrənilir.

Dünyada ən çox yayılmış dillər – ingilis, ispan, fransız, ərəb, rus və s. eyni zamanda keçmiş imperiya dilləridir və onların müstəmləkə xalqları tərəfindən öyrənilməsi üçün imperiyalar daim səy göstərmişlər. Lakin bu dillərdən sərbəst istifadə etmək bacarıqları müstəmləkə xalqlarına bir sıra maddi və mənəvi dividentlər də gətirmiş, onların təhsil almasına, sosial və mədəni cəhətdən sürətlə inkişaf etməsinə imkan yaratmışdır (1).

Dil vərdiş və bacarıqları ilk olaraq eşitdiklərimizlə başlayır. Təbii ki, eşitdiklərimiz maraqlarımızla üst-üstə düşməlidir. Sadəcə öyrənmək deyil, təcrübədə dili tətbiq etmək, onu həyatımızın bir tərkib hissəsinə çevirməyə çalışmalıyıq. Məhz bu təqdirdə ingilis dilində danışmaq günlük ehtiyacımıza dönür.

İngilis dili öyrənmək dörd aspektdən həyata keçirilir: danışıq, yazı, oxu və dinləmə. Bu aspektlərin hər biri dili öyrənmək üçün əsas sayılır. İngilis dilini öyrənmək müəyyən bir ardıcıllıq tələb edir. Əgər bu ardıcıllıq qorunarsa, dil öyrənmək prosesi asan və maraqlı olacaqdır. Buna görə dil öyrənərkən ilk növbədə hansı səviyyədə dil bacarıqlarınızın olduğunu müəyyənləşdirməyiniz şərtdir. Heç bir dil danışıq praktikası olmadan öyrənilə bilməz. Bunun üçün hər bir dil öyrənən dil bacarıqları öz səviyyəsində olan həmsöhbəti ilə dialoqa girməli və öz dilöyrənmə qabiliyyətində müsbət nəticəni görməlidir. İstənilən hər bir xarici dildə ilk vaxtlar fikir söyləmək müəyyən çətinliklər yaratmaqla yanaşı, utancaqlıq hissi də yarada bilər. Buna səbəb təcrübənin olmamasıdır.

İngilis dilinin səviyyələrini ardıcıllıq sistemi ilə öyrənərək qarşılıqlı nitq təcrübəsi əldə etmək bu prosesin asanlaşdırılmasına yol açır. Özünəinam yaratmaq üçün yalnız və yalnız dil öyrənmək yolunu planlı şəkildə dil səviyyələrini uğurlu nəticələndirərək nail olmaq mümkündür. Bu uğurlu nəticələr mükəmməl iş planı tələb edir. Tərtib edilən dil səviyyələrinə uyğun dərs planları bu işin qaçılmaz tərəfidir. Bu zaman əsas dil bilikləri ilə bərabər video, audio tapşırıqları və bu tapşırıqlar əsnasında öyrənilən sözlərə aid viktorina tipli tapşırıqlar icra edilməlidir.

Dünyada baş verən hadisələr haqqında məlumatları ingilis dilində dinləmək və öz dil səviyyənizdə xəbərləşmək və fikirlər söyləmək dil vərdişlərinin tezləşməsi baxımından çox maraqlı sayılır. Dil səviyyəsinin irəliləmə şkalası hər bir dil öyrənənin danışıq prosesində özü və digərləri tərəfindən aşkar görülə bilir.

Dinləyərək xarici dili anlamaq bu gün bir qədər çətinliklər yaradır. Buna səbəb ətrafımızda belə bir mühitin çox az mövcud olmasıdır. Bu problemin də həlli yolları artıq mövcuddur. Düzgün seçilmiş seriallara, filmlərə, dialoq videolarına baxmaq, mahnı mətnlərinə qulaq asmaq dil öyrənmənin keyfiyyətli yollarıdır.

Dildə tez-tez işlədilən söz birləşmələri, danışıq formulları, standart ifadələr, cümlə qəlibləri (speach patterns) vardır ki, bunları dil səviyyələri sıralamasında düzgün işlətmək lazım gəlir. Öyrənmək dilöyrənmə prosesinin əsas məqsədi olsa belə, dili öyrənərkən onun ayrı-ayrı sözlərini, ifadələrini, cümlələrini başa düşərək mənimsəmək daha qalıcı olacaqdır. Öyrənilən hər bir materialı praktik şəkildə canlı nitqdə səsləndirmək dili bilmək anlamına daha yaxın sayılır (2).

Gündəlik dilöyrənmə proqramını tərtib etmək çox vacibdir. Hər gün 10-30 dəqiqə ingilis dilinə ayırmaq, nəqliyyatda, yemək yeyərkən belə dil öyrənmək mümkündür. Bu zaman ingilis dilində oxuduğunuz, gördüyünüz nə varsa aktiv şəkildə yaddaşınıza həkk olacaqdır. Dil daşıyıcıları olan insanlarla internet vasitəsi ilə əlaqələr yaratmaq dilin mükəmməl öyrənilməsi baxımından daha xeyirlidir. Gündəlik ingilis dili danışıq bacarıqları işgüzar ingilis dilindən çox fərqlidir. Bu fərqlilik söz ehtiyatları, termin və dil səviyyəsi baxımından özünü göstərir. Xarici dili əyləncəli şəkildə, oyunlar vasitəsi ilə öyrənmək də işin ən maraqlı tərəfidir. Yeni sözləri tez və yadda qalacaq şəkildə öyrənmək üçün bu ən əlverişli yoldur.

Söz bəşər mədəniyyəti tarixində əsrlər boyu həm dünyəvi, həm də dini mənalar daşıdı. Söz səlahiyyət, nüfuz göstəricisi oldu. Söz fəzanı dolaşsa belə, mənası dəyişməz qaldı. Yazı yazmaq sadəcə onun estetik məna daşımasını anlamaq üçün deyil, həm də bir çox yeni şeyləri kəşf etmək üçündür. Başqalarına müraciət etmək imkanı inkişafin ikinci mərhələsidir (4). Söz əzbərləmək bir dildə danışmaq üçün hələ hər şey demək deyil, bu sözləri bir

araya yığıb cümlə şəklində sıralamaq qrammatik bilikləri tələb edir. Qrammatikasız düzgün danışmaq mümkün olmadığı kimi, söz olmadan da dil mövcud deyil. Qrammatik bilik söz ehtiyatları əsasında fəallaşır. Bu fəallıq öz növbəsində ingilis dilində nəinki danışmaq, hətta ingilis dilində düşünmək imkanı da yaratmağa qadirdir.

Ümumiyyətlə, dilin öyrənilməsi dilin səviyyələri haqqında məlumatlara yiyələnməkdən başlayır. İstənilən səviyyəni yaxşı mənimsəmək üçün ondan əvvəl keçirilmiş səviyyəni yaxşı bilmək lazımdır. Əgər tələbə əvvəlki səviyyəni yaxşı mənimsəyə bilibsə, növbəti səviyyədə bir o qədər də əziyyət çəkməyəcək, rahat şəkildə öyrənə biləcək. Dil elə bir sahədir ki, onu işlətmədikdə yaddaşdan silinir. Odur ki, tələbələr mütəmadi olaraq əvvəl keçdikləri dərsləri təkrarlayaraq yaddaşlarında olan bilikləri yeniləməlidirlər.

İngilis dilinin səviyyələri (levels) haqqında məlumatlanmaq dilin öyrənilməsi problemini asanlaşdıran təkandir. Bildiyimiz kimi, ingilis dilini akademik səviyyədə öyrənmək üçün 6 səviyyəni bilmək lazımdır. Bunlar aşağıdakılardır:

- Beginner level
- Elemantary level
- Pre-intermediate level
- İntermediate level
- Upper-intermediate level
- Advanced level (5)

Beginner səviyyəsi ən aşağı səviyyə hesab olunur. Bu səviyyədə ingilis dili öyrənən şəxsin ingilis dilindən heç anlayışı olmur və yaxud da qismən nə isə bilir, lakin onların ingilis dilini başa düşməsi və bu dildə danışması çətindir. Kompyuter, tablet və ağıllı telefonlar başlanğıc səviyyədə olanlar üçün bir kömәkdir. Söz və ifadələrin düzgün tələffüz tapşırıqları, qrammatik qaydaları özündə əks etdirən tapşırıqlar, asan anlaşılan sadə dialoqlar bu səviyyədə olan dinləyicilər üçün daha yararlı sayıla bilər.

Elementary səviyyəsi Beginner səviyyəsindən bir pillə yuxarı səviyyə sayılır. Bəsit ingilis dili şablonları, söz bazası Beginner səviyyəsinə görə daha çox olur, asan təməl qəliblər üzrə qurulan cümlələr çətinlik çəkilmədən anlaşılır.

Pre-intermediate səviyyəsi. Bu qrupda olanlar daha çox söz bazası və daha çox şablonlara hakimdirlər. Qarşısında yavaş-yavaş danışılan bir çox mövzunu rahatlıqla anlaya bilir və çətinlik çəkmədən cavablaya bilirlər. Pre-intermediate səviyyəsi akademik ingilis dili ilə aşağı səviyyəli ingilis dili arasında körpü rolunu oynayır. Bu səviyyəyə çatan tələbələr artıq ingilis dilində danışıq bacarıqlarını istifadə etməyə başlayır. Daha çox söz ehtiyatı mənimsəyir, oxu bacarıqları inkişaf edir, yazı bacarıqları, qulaq asma bacarıqları inkişaf etməyə başlayır. Pre-intermediate səviyyəsinin əsas

xüsusiyyətlərindən biri də odur ki, bu səviyyədə söhbət etmək (conversation) bacarığı, yəni dialoqa girmək bacarığı inkişaf edir. Conversation-də dil öyrənən o vaxta kimi mənimsədiyi dərsləri tətbiq etməyə başlayır. Müxtəlif mövzularda dialoqlar aparır, diskussiyalar edir və demək olar ki, dil bacarıqlarını nümayiş etdirərək daha da irəliyə doğru inkişaf edir. Conversation zamanı səhvlərin düzəlişi getməli və onlar izah edilərək istiqamətlənməlidir.

İntermediate səviyyəsi tamamilə söz ehtiyatina malik olmaqla yanaşı, öyrədilən hər bir qrammatik qaydaların tətbiqində daha geniş izahatlar verməklə onların tətbiqi istiqamətində xüsusi tapşırıqlar vasitəsi ilə danışıq dilinin aktivliyini inkişaf etdirmək deməkdir. Söz ehtiyatları Pre-intermediate səviyyəsindən yalnız forma və birləşmə xüsusiyyətlərinə görə, mükəmməl konstruksiyalarına görə fərqlənə bilər. Danışıq formaları və danışıq modelləri bir qədər daha cox və sistemli şəkildə tədris edilir və nitqdə işlədilir.

Upper-intermediate səviyyəsi keçilmişlərin nitqdə tezliyini artıraraq daha mükəmməlliyə qarşı bir addım deməkdir. Bu zaman tam olaraq self confidence bacarığı (özünəinam) özünü yetərincə göstərir. Biliklərin sərbəst şəkildə tətbiqinə açılan imkanlar daha geniş və yaradıcı olur. Müstəqillik və sərbəstlik bu səviyyə üçün olduqca xarakterik və əsas sayıla bilər. Bu zaman nitqi anlamaq və nitqi daşımaq asan və hərtərəfli imkanlara malik olur.

Advanced səviyyəsi isə yetərli şəkildə nitq imkanları deməkdir. Adından da məlumdur ki, əldə edilənlər əsasında nitq bacarıqları artıq vərdişlərlə üst-üstə düşür. Danışanlar artıq öz dilinin daşıyıcı qismində fəal dil bacarıqları ilə müstəqillik əldə etmiş olur. Bir növ sırf dil daşıyıcısı kimi dilin dəqiq qrammatik, fonetik və leksik imkanları əsasında kifayət qədər bilik vərdişləri ilə silahlanmış olurlar (5).

Ümumiyyətlə, dil səviyyələrinin ümumi Avropa qruplaşdırılmasındakı qarşılıqları bir daha belə sistemləşdirilir:

Primitiv səviyyə: (A1, A2): Beginner və Elementary

Orta səviyyə (B1, B2): Pre-intermediate və İntermediate

Yüksək səviyyə (C1, C2): Upper-intermediate və Advanced

Ümumiyyətlə, dil səviyyələri dil öyrənmək, xüsusilə xarici dil öyrənmək üçün bir tramplin rolunu oynayır. Sadədən mürəkkəbə prinsipi ilə sistemləşdirilmiş bu metodik tədris prosesi son nəticə üçün keçilən ardıcıl bir tədris prosesidir. Bu zaman hər səviyyənin sonunda əldə edilən nəticə növbəti dil səviyyəsinin bünövrəsi sayıla bilər. Bu səviyyələr birdən altıya qədər nömrələnərək dil danışıq pillələri kimi yüksəlişə doğru artaraq dil bacarıq və vərdişləri prosesini tezləşdirir və istiqamətləndirir (5).

Dünyada 1,5 milyard insan ingilis dilində danışır. 53 ölkənin rəsmi dili ingilis dilindədir. Texnologiyanın inkişafı və internet imkanları ingilis dilinin öyrənilməsi prosesini durmadan irəlilədir. İngilis dilini öyrənməyin səbəbləri xeyli çoxdur. Və bu səbəblər düzgün istiqamətləndirilərsə, yaxşı və mükəmməl

nəticələr əldə etmək olar. İlk vaxtlar müəyyən çətinliklər yaranarsa belə özünüzü gözəl nəticələr əldə edə biləcəyinizə inandırmalısınız.

"Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir" (Heydər Əliyev) (3).

Gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün önəmlidir. Cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya məhz onlarla bir addımlayır. Cəmiyyətin gələcəyi gənclərdir və öz gələcəyini düşünən hər bir cəmiyyətdə dünyaya inteqrasiya məqsədli tədbirlər və görüşlər üçün xarici dil səviyyəsi yüksək olan gənclərə və mütəxəssislərə ehtiyac duyulur. Bu da özü-özlüyündə xarici dilə marağın daha çox olmasını tələb edir. Xarici dil öyrənməkdə dilin səviyyələri prinsipinə əməl olunarsa. nəticələr də xeyli şəkildə qənaətbəxş olacaqdır.

**ƏDƏBİYYAT**


1. *Axundov A.* Ümumi dilçilik. Bakı: Şərq-Qərb, 2006, 280 s.
2. *Abdullayev N.* Nitq mədəniyyətinin əsasları / Dərs vəsaiti. Bakı: Yazıçı, 2013, 240 s.
3. *Paşayeva G.* Azərbaycanda beynəlxalq dillərin işlədilməsi // Strateji Təhlil, 19 may, №1, 2015, s.43-55
4. *Qordimer N.* Nobel kürsüsü // Xəzər dünya ədəbiyyatı dərgisi, №3, 2016, s.232
5. https://az.wikipedia.org/wiki/%C4%B0drak


Redaksiyaya daxil olub 17.10.2020

***UOT 811.111;159.9***

***G.T.Hacızadə***
*Bakı Slavyan Universiteti*
*gunay92h@gmail.com*

# NLP (NEYROLİNQVİSTİK PROQRAMLAŞDIRMA) ƏSASLI XARİCİ DİL TƏDRİSİNDƏ VAK (VİZUAL, AUDİAL, KİNESTİK) MODELİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *öyrənmə tərzi, submodallıqlar, duyğular, neyrolinqvistik proqramlaşdırma*

Məqalədə VAK modelinin NLP əsaslı xarici dil tədrisindəki əhəmiyyəti müzakirə olunur. Bura başlıca olaraq görmə, eşitmə və toxunma kimi hisslərin istifadəsindən asılı olan fərqli təqdimat sistemlərinin təhlili daxil edilir. Məqalə həmçinin VAK modeli ilə yaxından tanışlığın ən təsirli öyrənmə metodunu müəyyənləşdirməyə necə kömək etdiyi və beləcə tədris olunan materialın mənimsənilməsinin asanlaşdığını aydınlaşdırır. Bundan əlavə məqalə xarici dilin tədrisində çalışmalardan istifadə etməklə fərqli öyrənmə tərzlərini dəstəkləməyin müxtəlif yollarını təklif edir. Bütün tələbələri razı salmaq və onları daha aktiv olmağa təşviq etmək üçün əsnəkliyin və multisensor üsullarla tədrisin vacibliyi vurğulanır.

***Г.Т.Гаджизаде***

# ЗНАЧЕНИЕ ВАК (ВИЗУАЛЬНОЙ, АУДИАЛЬНОЙ, КИНЕСТЕТИЧЕСКОЙ) МОДЕЛИ В ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ НА ОСНОВЕ НЛП (НЕЙРОЛИНГУЗИТНОЕ ПРОГРАММИРОВАНИЕ)

***Ключевые слова:*** *стиль обучения, субмодальности, смыслы, нейролингвистическое программирование*

В статье рассматривается важность модели ВАК в обучении иностранному языку на основе НЛП. Это влечет за собой анализ различных репрезентативных систем, которые в основном зависят от использования органов чувств, таких как зрение, слух и осязание. В статье также разъясняется, как близкое осознание с помощью модели ВАК помогает определить наиболее эффективный метод обучения, тем самым усвоение преподаваемого материала облегчается. Кроме того, в статье предлагаются различные способы поддержки разных стилей обучения с помощью упражнений при преподавании иностранного языка.

Подчеркивается важность гибкости и мультисенсорного обучения, чтобы удовлетворить всех учащихся и побудить их быть более активными.

***G.T.Hajizada***

**THE IMPORTANCE OF VAK (VISUAL, AUDIAL, KINAESTHETIC) MODEL IN NLP (NEUROLINGUSITIC PROGRAMMING) BASED FOREIGN LANGUAGE TEACHING**

***Keywords:*** *learning style, submodalities, senses, neurolinguistic programming*

The article addresses the importance of VAK model in NLP based foreign language teaching. It entails the analysis of different representational systems which predominantly depends on the use of senses such as seeing, hearing and touching.The article also clarifies that how close awareness with VAK model helps to identify the most effective learning method, thereby the acquisition of taught material is facilitated. Furthermore, the article suggests the different ways of favouring various learner styles through activities in a foreign language teaching. The necessity of being flexible and teaching in multisensory ways is emphasized to satisfy all students and encourage them to be more active.

Neyrolinqvistik proqramlaşdırmada (NLP) duyğusal fərqindəlik anlayışına xüsusi önəm verilir. Belə ki, duyğu üzvlərindən istifadə şəkli ətraf mühitin öyrənilməsi, biliklərin qavranılması, insanlarla ünsiyyət bacarığımıza təsir edir. Bu duyğulara görmə eşitmə, toxunma, qoxu və dad alma aiddir. Görmə, eşitmə və toxunma duyğuları ilə informasiya qəbulu isə daha sıx yayılmışdır. Digər sözlə, NLP-də sensor təqdimat sistemləri mövcuddur ki, bu N.Fleminqin VAK modelinə əsaslanır və vizual, audial, kinestik olmaqla 3 qrupa ayrılır [2]:

Birinci növ – vizual. Psixoloqlar bu anlayışı vizual (göz) yaddaşı adlandırırlar. Statistikaya görə, uşaqların 65%-i bu qrupa aiddir. Onlar öz nitqlərində daha çox görmə ilə hiss edilən feil, sifət, zərfliklər işlədəcəklər: *gördüm ki, ilk baxışdan, al-əlvan* və s. Vizual yaddaşı güclü olan uşaqlar gördüklərini daha yaxşı anlayır və kadrlarla yadda saxlayırlar. Vizualist uşaqlar onlara toxunulmasını sevmir və ətrafdakı insanların emosional hərəkətlərindən, mübahisələrindən daha tez təsirlənirlər. Vizuallar yad məkana tez uyğunlaşırlar. Onlar gördükləri yeni insanları, əşyaları diqqətlə müşahidə edir, onlara yaxından baxmağa çalışır, danışarkən və ya eşidərkən deyilən sözləri obrazlaşdırırlar.

İkinci növ – audial. Audial – eşitmə yaddaşının güclü olmasıdır. Bu növə 30% uşaqlar aid edilir. Bu uşaqlar dinlədikləri məlumatları daha tez mənimsəyir, zəngin lüğət ehtiyatına malik olurlar. Səslərin monotonluğu bu tip insanları tez yorur. Nitqində daha çox eşitmə hissi ilə bağlı feil, sifət, zərfliklər işlədirlər: *dedi, eşidilir, səslənir, məlahətlə* və s. Onlar asanlıqla yeni dostlar tapır, yaşıdları arasında lider olurlar. Audial uşaqlar dərsə hazırlaşarkən mətni özlərinə danışır, müzakirə etdikləri məlumatları daha rahat yadda saxlayırlar. Yüksək səslə danışmağı xoşlayırlar. Onlara hirsli baxışlarınız təsir etməyəcək. Ona görə də baş verənləri sözlərlə izah etmək labüddür.

Üçüncü növ – kinestik. Kinestik tip insanlar toxunma analizatorları vasitəsilə dünyanı daha rahat dərk edə bilirlər. Nitqindəki sözlər də bu hislərə uyğun olur, məsələn: hiss etdim, yumşaq, isti və s. Statistikaya görə bu qrupa aid olan uşaqlar 5%-i təşkil edir. Bu uşaqlar saatlarla bir yerdə əyləşə bilmədiyindən hiperaktiv adlandırlır və diqqətlərini bir obyektdə saxlamaq onlar üçün çətindir. Onların baxışları adətən aşağıya yönəlmiş olur. Bu uşaqların əhvalı tez-tez dəyişir, başqalarından tez inciyir və çox həssas olurlar. Əgər övladınız kinestik qrupa aiddirsə, ona aktiv oyunlar üçün gün ərzində daha çox vaxt ayırın.

Uşaqların müxtəlif informasiyaları mənimsəməsində bunlardan biri əsas sayılsa da digərləri də iştirak edir. Belə ki, körpəlikdən başlayaraq fərqli sensor modellərindən istifadə etsək də, getdikcə bunlardan biri daha dominant olmağa başlayır. Valideyn və pedaqoqların əsas məqsədi ətraf mühitin, tapşırıqların və məlumatların daha asan, daha uzunmüddətli öyrənilməsi üçün uşaqda hansı qavrama növünün dominant olmasını təyin etməkdir. Bu nöqteyi-nəzərdən VAK modeli ilə ətraflı tanışlıq öyrənmə prosesində müxtəlif yolları sınayıb daha effektiv olan üsulu seçməyimizə də kömək edəcəkdir. Məsələn, keçmişdə sən ingilis dilini maşında CD-lərə qulaq asmaqla öyrənmisənsə, indi xarici kinolara baxmaqla daha çox irəliləmə müşahidə edə bilərsən.

Öyrənmə tərzi dedikdə, konkret olaraq şəxsin ətrafdan öyrənmə və uyğunlaşma şəklini əks etdirən özünəxas davranış formaları nəzərdə tutulur. Bir qrup tələbə məlumatı görüntü, şəkil, diaqramlarla yaxşı mənimsədiyi halda, digərləri müzakirə, mühazirə, musiqilərlə, yaxud praktik tapşırıqlar və rollu oyunlarla daha yaxşı qavrayır. Öyrənmə tərzinin müxtəlifliyi isə insan zəkasının təbiət və tərbiyə, yaxud irsilik və təcrübənin vəhdətindən formalaşması ilə bağlıdır. H.Gardnerin "*Çoxşaxəli intellekt nəzəriyyəsi*" bu baxışı dəstəkləyən ən məşhur nəzəriyyələrdən biridir. Müəllimlər də öz növbəsində 2 vacib məqamı diqqətdə saxlamalıdırlar ki, tələbələr resursların zəngin olduğu və təbii öyrənmə tərzinin istifadə olunduğu şəraitdə daha səmərəli öyrənirlər. Bu resurslar həm daxili, həm xarici ola bilər. Daxili resurslara tələbəni öyrənməyə həvəsləndirən təbii atributlar, xarici resurslara isə texniki avadanlıqlar aid edilə bilər. Seçimlərin olduğu şəraitdə də nəticəyə yönəlib ruhdan düşmək yerinə

hədəfə çatmaq üçün görəcəyimiz işə yönələcəyik [4, s.92]. Bu prosesdə eyni zamanda tələbələrin öyrənmə tərzlərini dəstəkləmək və buna uyğunlaşa bilmək üçün öyrətmə yanaşmasında dəyişkənlik göstərmək, eləcə də ünsiyyətdə, dərsin izahında hər 3 tipə də xitab edə biləcək cümlələr qurmağa çalışmaq lazımdır.

Ünsiyyət əsnasında həmsöhbətimizin göz hərəkətlərinə (təmasına) diqqət etməklə də onda hansı sensor sistemin aktiv işlədiyini müəyyən etmək olar:




Hər bir sensor sistemin malik olduğu xarakteristik xüsusiyyətlər (rəng, işıq, səs tonu, temperatur) NLP-də submodallıqlar adlanır. Dərs əsnasında tələbələri motivasiya etmək üçün submodallıqlardan istifadə etmək olar [4, s.205]. Bu məqsədlə ilk öncə tələbənin öz-özünü motivasiya şəklini öyrənmək lazimdır ki, bunu sual vasitəsilə öyrənə bilərik:

Sən futbol oynamağa özünü necə həvəsləndirirsən?

- Mən özümü uniformamda digər komanda üzvləri ilə birlikdə görürəm (V). Mən öz-özümə deyirəm ki, biz qalib gələcəyik (A). Mən həqiqətən yaxşı hiss edirəm (K).

Bu cavaba əsaslanaraq müəllim tələbələrdə keçdiyi fənnə qarşı həvəs yaratmaq üçün artıq necə yanaşacağını müəyyən edə bilər:

- *Keçən həftə ingilis dilindən ev tapşırığını vaxtında etdiyiniz anı xatırlaya bilərsinizmi?*
- *Müəllim sizi təriflədikdə hansı sözləri işlətdiyini xatırlayırsınızmı?*
- *Elə bir anı xatırlaya bilərsinizmi ki, o zaman həqiqətən ingilis dilini başa düşməyə başladığınızı hiss etdiniz?*
- *İndi yenə də ev tapşırığını tamamlayıb təkrar eyni hissləri keçirmək istərdinizmi?*

İndi isə ardıcıllıqla hər bir sensor sistemin məşqi üçün nəzərdə tutulmuş bəzi çalışma nümunələrinə nəzər salaq*:*

**1. Vizual**

- ***Internal pictures.*** Ask students to relax and go inside and imagine a similar sort of picture as they would like it to be, eg my ideal seaside, my ideal garden, my ideal house. Students then work in groups or pairs to describe their own pictures to one another.
- ***Spot the difference.*** Use spot-the-difference pictures from a children's comic book. Students describe their pictures to one another to identify differences. Remember to identify similarities too.

**2. Audial**

- ***Listen and guess the appearance.*** *Students listen to a story or song on cassette and try to describe the appearance of the speaker or singer from the sound of their voice. You then show them a picture and they say what they got correct and where there were differences.*
- ***Echo listening.*** *Teach students this technique to try at home. Each person listens to a tape of spoken language (preferably a monologue). As they listen they repeat what they hear as exactiy as possible (sounds, timing, intonation, rhythm, etc) without stopping the tape. This means that they are about three seconds behind the tape, like an echo, producing what they have just heard, while listening to the next part. If they make a mistake, they go back to the beginning and start again. This is easier than it sounds and the concentration demanded by the overload of information can have a wonderful effect on students' pronunciation.*

**3. Kinestik.** Artmaqda olan sübutlar təsdiq edir ki, hərəkətin tətbiq olunduğu şəraitdə yaddaş daha sürətlə çalışır. Öncədən də qeyd olunduğu kimi NLP fərziyyələrindən biri budur ki, bədən və düşüncə qarşılıqlı əlaqədədir. Tədqiqatlar göstərir ki, uzun müddət oturaq şəkildə hansısa bir şeyə fokuslandığımız zaman fiziki və zehni olaraq özümüzü bitkin hiss edə bilirik. Bunun qarşısını almaq üçün bədənimizi hərəkət etdirməliyik. Bu qan dövranı və oksigenin beyinə daşınmasını optimallaşdırır. Bu yanaşmanın tədris prosesinə tətbiqi "*Beyin məşqi (Brain gym)"* adlanan təhsil kinesiologiyası ilə bağlı aparılan tədqiqatla müəyyən edilimişdir [3, s.43]. Kinestik yanaşmanın tətbiq olunduğu çalışma nümunəsinə nəzər salaq:

- ***Feel and describe.*** *Create a 'feely bag'. Students take it in turns to put their hand into the bag and take hold of one of the objects inside, feeling it carefully to guess what it is, but unable to see it. The other students ask yes/no questions to get clues so they can guess what the object is. Possible contents: rubber, paper clip, sponge, tissue, bow tie, baby's dummy, orange, computer disk, cotton reel, key, cassette, film canister, rubber band, artificial flower, teaspoon, ring, earring, brooch, necklace,*

*credit card, sweets, etc.*

Öncədən qeyd edilmişdir ki, beynin sağ və sol yarımkürələri ayrılıqda müxtəlif funksiyaları yerinə yetirir: sağ beyin analitikdirsə, sol beyin emosionaldır. Lakin son aparılan tədqiqatlar onu göstərir ki, beynimizin hər iki yarımkürəsini hərəkətə keçirdikdə, məşğul etdikdə təlim prosesi daha uğurla həyata keçə bilər. Bu baxımdan sözügedən 3 sensor sistemə eyni anda xitab edən fəaliyyət növlərindən istifadə daha məqsədəuyğundur. Məsələn, aşağıdakı tapşırıqlarda bunu görı bilərik:

***1. Favourites.*** *Give students one or more of the questionnaires below to remind them to experience things through their different senses. Ask them to compare their answers. You can also use different sorts of questions to practise different tenses. For example, you could give students the 'Friday questions' and ask them to turn them into 'Monday questions' by asking about the weekend using the past simple.*

**Favourites**

- *Choose a place you really like.*
- *What is the most beautiful sight in this place?*
- *What sound do you like most there?*
- *What's your main feeling about the place?*
- *What's your favourite smell in this place?*
- *What's the favourite taste associated with this place?*
- *What is one other thing that makes this a favourite place?*

**Friday questions**

- *What is the most interesting thing you've seen this week?*
- *What is the strangest sound you've heard?*
- *What is the most interesting thing you've touched or held in your hands?*
- *What is the strongest feeling you've felt?*
- *What is the nicest thing you've smelt?*
- *What is the most delicious thing you've eaten or drunk?*

***2. Read each word in the box below and identify how you first represent it in your mind:***

**SEE HEAR FEEL SMELL TASTE**

RAIN SILK ONION COMPUTER TELEPHONE
GARLIC STORY BOOK MOON RIVER GRASS BUS
SAND ROSE CHURCH LEATHER COFFEE FISH
CAT TRAIN BABY FRIEND YOUR COUNTRY
LONDON POLITICS LEARNING ENGLISH MATHS
LOVE THE FUTURE

Dərs prosesində musiqilərdən istifadə sözügedən bütün fəaliyyət növlərində stimullaşdırıcı mövqeyə sahibdir. Belə ki, musiqinin bədən, düşüncə və emosiyalarımız üzərində güclü təsiri var. Musiqi emosiyalarımızı və üzünmüddətli yaddaşımızı aktivləşdirir, eyni zamanda beynimizin reseptiv hissəsini tam şəkildə çalışdırır. Musiqidən tədris prosesində keçiləcək mövzunu təqdim etmək ***(introducing a theme),*** fasilə verərkən tələbələri fəallaşdırmaq ***(energisers)***, yaxud onların fikrinin yayınmasının qarşısını alaraq diqqətini mövzuya çəkmək ***(background music)*** üçün istifadə oluna bilər. Bununla yanaşı, musiqi tələbələri bilavasitə şəkildə yazıya və danışığa həvəsləndirmək üçün bir vasitə ola bilər. Məsələn, tələbə musiqi dinləyərkən təsəvvüründə canlandırdığı rəsmi şifahi, yaxud yazılı şəkildə təsvir edə bilər [3, s.41].

Biz dildən istifadə edərkən digər insanların beynində müxtəlif təsvirlər yaratmış oluruq. Buna görə də tələbələrlə ünsiyyət zamanı cümlələri hansı şəkildə qurduğumuza, seçdiyimiz sözlərə də diqqət etməliyik. Müqayisə üçün aşağıdakı iki cümləyə nəzər salaq:

*1. John went into the room. He sat down and looked around. He was scared.*

*2. John looked down at the discolured carpet on the corridor floor behind him, took a deep breath and then, pushing the cold metal door open, he walked slowly and nervously into the small room. There were gray office chairs in the center of the room. He chose the one nearest the door, sat down and looked around. The gray walls and low ceiling of the room caused him feel a drop of cold sweat on neck. He was scared.*

Göründüyü kimi, ikinci təsvirdə vizual, kinestik və audial dil səviyyələrindən məharətlə istifadə edilir. Müasir neyro elm sahəsi göstərir ki, sözlərin mənimsənilməsi və yadda qalması prosesi o zaman səmərəli həyata keçir ki, beyində vizual, kinestik və audial korteksələr aktivləşsin [1, s.58]. Məsələn, "*discoloured carpet*" dedikdə, visual korteksdən istifadəylə həmin xalçanın təsvirini beynimizdə yaradır və bu sözü anlaya bilirik. Bu baxımdan dil tədrisində hekayələrdən istifadənin də bilavasitə və metaforik dillə mesajların daha təsirli formada ötürülməsindəki rolu xüsusilə vurğulanmalıdır.

Söylənilən fikirlərdən gəlinən nəticə budur ki, xarici dil dərslərində müəllim-tələbə ünsiyyətinin səmərəli təşkili, tədris materialının doğru seçilməsi öyrənənlərin malik olduğu sensor təqdimat sisteminin (şəklinin) müəyyənləşdirilməsi ilə birbaşa bağlıdır. Belə ki, məlumatın qavranılması, öyrənmə tərzi şəxsin duyğu üzvləri ilə birbaşa əlaqəli olub individual xarakterik daşıdığı üçün eyni bir tədris metodu bir tələbə üçün səmərəli, digəri üçün səmərəsiz ola bilər. Buna görə də müəllimlər öz öyrətmə tərzində fərqlilik göstərmək və bəzən də bütün öyrənmə tərzlərinə xitab edə biləcək öyrətmə yanaşmasını tətbiq etməklə xarici dilin daha səmərəli tədrisinə nail ola bilərlər.

## ƏDƏBİYYAT

1. *Cullen B., Deacon B., Backwell B., Mulvey S., Roth I.* Explorations in NLP and Language teaching. Standing in Spirit Publications, Japan, 2015, 118 p.
2. *Fleming N.D.* Teaching and Learning Styles: VARK Strategies. Christchurch Press, New Zealand, 2002, 128 p.
3. *Revell J & Norman S.* Handing over: NLP-Based Activities for Language Learning. Saffire Press, England, 1999, 144 p.
4. *Ready R & Burton K.* Neuro-Linguistic Programming For Dummies®, 2nd Edition. John Wiley & Sons Ltd, England, 2010, 416 p.

Redaksiyaya daxil olub 11.10.2020

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2020, C.68, №3, s. 23-30
Transactions of Pedagogical University. Series of humanitarian, social and pedagogical-psychological sciences – 2020, V.68, №3, pp. 23-30

*UOT 81*

***E.A.İsmayılova***
*Gəncə Dövlət Universiteti*
*ismayilovaelnare@mail.ru*

# DERİVATİV ÜSUL KİMİ AFFİKSLƏŞMƏ

***Açar sözlər:*** *derivasiya, affiks, kök, semantik məna, morfoloji üsul*

Qrammatika ilə derivasiya arasında olan bağlar daha sistemli və müntəzəmdir. Yeni söz və söz formalarının yaranmasının eyniliyi, derivasiya və forma yaradıcılığı arasında kəskin sərhədlərin olmaması kimi məsələlər dilçiliyin bu iki sahəsini bir-biri ilə yaxınlaşdırır.

Derivasiyanın öyrənilməsi sözdüzəldici priyomların və növlərin inventarlaşması hesabına həyata keçirilirdi. Onlar arasında əlaqə, affiksləşmənin ümumi qanunauyğunluqları, leksik yolla söz yaradıcılığı və onların qarşılıqlı əlaqəsi, bu verilən hadisələr və ümumilikdə dilin sistemi arasında asılılıq dərindən araşdırılmamışdır.

İngilis dili tarixi inkişaf prosesində xarici dillərdən suffiks və prefiks almışdır. Bu proses derivasiya affikslərini almaqla bitmir, belə ki, bu sözlərdən yaranan sözlər də dilə keçir. Bu alınmalar nəticəsində söz və ondan əmələ gələn törədici söz də dilə daxil olur, məsələn, derive – derivation, esteem – estimation və s. Sonradan -ation suffiksi ingilis dil daşıyıcıları tərəfindən feillərdən hərəkət isimləri formalaşdıran vasitə kimi qəbul olunur. Beləliklə, xarici mənşəli suffiks və prefikslər ingilis dilinin derivatologiyasının əvəzolunmaz hissəsinə çevrilmişdir.

***Э.А.Исмайлова***

# АФФИКСАЦИЯ КАК ПРОИЗВОДНЫЙ МЕТОД

***Ключевые слова:*** *деривация, аффикс, основа, семантическое значение, морфологический способ*

Связи между грамматикой и деривацией более систематичны и регулярны. Такие проблемы, как сходство новых слов и словоформ, отсутствие четких границ между деривацией и словообразованием, сближают эти две области лингвистики.

Изучение деривации проводилось посредством инвентаризации словообразовательных приемов и способов. Взаимосвязь между ними, общие закономерности прикрепления, лексического словообразования и их взаимосвязи, взаимосвязь между этими данными событиями и языковой системой в целом подробно не изучалось.

В процессе исторического развития английский язык заимствовал суффиксы и префиксы из иностранных языков. Этот процесс не заканчивается получением аффиксов деривации, поскольку слова, полученные из этих слов,

также переходят в язык. В результате этих дериваций слово и заимствованное слово также входят в язык, например, derive - derivation, esteem - estimation и так далее. Позже, суффикс -ation принимается носителями английского языка как средство формирования существительных действия из глаголов. Таким образом, суффиксы и префиксы иностранного происхождения стали неотъемлемой частью английской дериватологии.

***E.A.Ismayilova***

## AFFIXATION AS A DERIVATIVE METHOD

***Keywords:*** *derivation, affix, root, semantic meaning, morphological way*

The links between grammar and derivation are more systematic and regular. Issues such as the similarity of the emergence of new words and word forms, the absence of sharp boundaries between derivation and form creation, bring these two areas of linguistics closer together.

The study of derivation was carried out through an inventory of word-formation techniques and ways. The relationship between them, the general regularities of affixation, lexical word formation and their interrelation, the relationship between these given events and the language system in general have not been studied in more depth.

In the process of historical development, English borrowed suffixes and prefixes from foreign languages. This process does not end with the acquisition of derivation affixes, as words derived from these words are also expressed. As a result of these derivations, the word and the borrowed word also enter the language, for example, derive - derivation, esteem - estimation, and so on. Later, -ation suffix is accepted by English speakers as a means of forming action nouns from verbs. Thus, suffixes and prefixes of foreign origin have become an integral part of English derivotology.

Qrammatika ilə derivasiya arasında olan bağlar daha sistemli və müntəzəmdir. Yeni söz və söz formalarının yaranmasının eyniliyi, derivasiya və forma yaradıcılığı arasında kəskin sərhədlərin olmaması kimi məsələlər dilçiliyin bu iki sahəsini bir-biri ilə yaxınlaşdırır.

Derivasiyanın öyrənilməsi sözdüzəldici priyomların və növlərin inventarlaşması hesabına həyata keçirilirdi. Onlar arasında əlaqə, affiksləşmənin ümumi qanunauyğunluqları, leksik yolla söz yaradıcılığı və onların qarşılıqlı əlaqəsi, bu verilən hadisələr və ümumilikdə dilin sistemi arasında asılılıq daha dərindən araşdırılmamışdır. Bir çox dillərdə sözdüzəltmə prosesinin öyrənilməsi ilə sistemsiz olaraq faktik materialın toplanmasını derivasiyanın ümumi nəzəriyyəsinin tam işlənməməsinin nəticəsi olaraq görmək olar. Bir çox dilçi bunun səbəbini bu sahənin konkret təhlil metodunun olmaması ilə bağlayır. Bu baxımdan bu sahənin öz anlayış sistemi və terminologiyası olmasını vurğulamaq düzgün olardı.

İngilis dili tarixi inkişaf prosesində xarici dillərdən suffiks və prefiks almışdır. Bu proses derivasiya affikslərini almaqla bitmir, belə ki, bu sözlərdən yaranan sözlər də dilə keçir. Alınma dildə artıq öz yerini tutmuş törədici sözlər mövcud olduğundan dil hazır məhsulu almağı uyğun bilir. Bu alınmalar nəticəsində söz və ondan əmələ gələn törədici söz də dilə daxil olur, məsələn, *derive – derivation, esteem – estimation* və s. Sonradan *-ation* suffiksi ingilis dil daşıyıcıları tərəfindən feillərdən hərəkət isimləri formalaşdıran vasitə kimi qəbul olunur. Beləliklə, xarici mənşəli suffiks və prefikslər ingilis dilinin derivatologiyasının əvəzolunmaz hissəsinə çevrilmişdir.

Prefiksləşmə, affiksləşmə, daxili fleksiya, təkrarlar həm paradiqmatik sıranın qurulmasında, həm də sözdüzəldici sıranın qurulmasında bərabərhüquqlu işlənə bilər. Morfologiyada sözdüzəltmə şəkilçilər nitq hissələri üzrə qruplaşdırılır: isim düzəldən şəkilçilər, sifət düzəldən şəkilçilər və s.; hətta bu qruplaşma başqa istiqamətdə davam edir.

Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində morfoloji üsul mühüm yer tutur (8, s.162). Bu hallarda hər hansı bir söz kökünə şəkilçi artırılaraq yeni söz düzəldikdə də söz kökü öz əsas məfhum ifadə etmək xüsusiyyətini itirmir və şəkil bütövlüyünü mühafizə edir. Məsələn: tarix – tarixçi – tarixnamə – tarixi və s. (1, s.12). Sözdüzəldici şəkilçilər söz kökünə artırıldıqda onun semantik mənasını dəyişir, sözə yeni leksik-semantik məna verir, yeni vahid yaradır (2, s.79; 6, s.40). S.Yusifova göstərir ki, suffiksin semantik dəyəri vardır, amma ona müstəqil nitq hissəsi kimi rast gəlinmir (12, s.207). Yeni sözlərin düzəltmə modelləri dəyişməyə, inkişaf etməyə bilməz, məhz bu da müasir ingilis dilinin xüsusiyyətlərindən biri olan sözdüzəldici üsulların qarşılıqlı hərəkəti nəticəsində özünü büruzə verir (10, s.171). Müxtəlifsistemli dillərdə və eləcə də ümumi dilçilikdə sözdüzəltmə modellərinin, o cümlədən müxtəlif mənalı prefikslərin araşdırılması, onların müəyyən təsnifatında tədqiqi böyük əhəmiyyətə malikdir (6, s.53). Çoxmənalı və təkmənalı prefikslər vasitəsilə sözlərin bu və ya digər model əsasında yaradılması hər bir dilin, eləcə də ingilis dilinin leksik sisteminin inkişafına güclü təsir göstərərək onun lüğət tərkibinin zənginləşməsində əsas rol oynayır (13, s.42). H.Həsənov müasir Azərbaycan dilində söz yaradıcılığının aşağıdakı növlərini göstərir: a) leksik-semantik, b) morfoloji-sintaktik, c) leksik-morfoloji, ç) leksik-semantik (3, s.295).

Affikslər vasitəsilə söz qrammatik bir funksiya kimi daha geniş yayılmışdır (4, s.22). Affiks anlayışı söz yaradıcılığında geniş yayılmış anlayışdır, belə ki, linqvistik ünsürlərin bu kateqoriyası polifunksionaldır. Bəzi dilçilərin düzgün qeyd etdiyi kimi, ümumqəbul edilmiş prefiks və ya suffiks morfemlərin morfoloji və sözdüzəldici sırasının eyniliyinə əsaslanır (14, s.29). Beləliklə, prefiksin sözlərin düzəldilməsinə xidmət edən vasitə olduğunu, eləcə də sözün formasının düzəldilməsinə köməklik etdiyini bilsək də, qeyd etməliyik

ki, affikslərin digər növləri kimi prefiks sözün bir hissəsi ola bilər, lakin bilavasitə həmin sözün yaranmasında iştirak etməyə də bilər. Bunun nəticəsi olaraq söyləmək olar ki, affikslər dilin elə bir ünsürləri kimi təyin oluna bilər ki, onlar sözə "onun mənası, funksiya, rolunu dəyişmək məqsədilə qoşula bilər, bununla belə, onun bütövlüyünə xələl gətirməz" (15, s.44). Affikslərin müəyyən qrupu müəyyən dil kəsiklərinə hansı məqsədlə sözə qoşulmasından asılı olaraq fərqlənirlər. Bundan asılı olaraq onlar ya sözdüzəldici, ya da formadüzəldici kimi çıxış edir.

Affikslərdən danışarkən, onların məhsuldarlığını da vurğulamaq lazımdır. Bəzi affikslər digərlərinə nisbətən daha məhsuldardır. Bu nə deməkdir? Məhsuldar affikslər qeyri-məhsuldar affikslərə nisbətən daha çox sözdə işlənir? Müəyyən mənada bununla razılaşmaq lazımdır. Lakin onu da qeyd etmək lazımdır ki, bu, müəyyən mənada tarixlə və onun indiki işlənmə tezliyi ilə bağlıdır. Məhsuldar affikslərdən indiki dövrdə yeni sözlərin yaranmasında istifadə etmək olar, lakin tarixə nəzər salsaq, həmin affikslər o dövr bu funksiyanı tam yerinə yetirməmişlər. Məsələn, ingilis dilində *-ness, -ity, -hood* kimi affikslər konkret isimlərdən mücərrəd isimlər yaratmaq funksiyasını yerinə yetirir. Buna misal olaraq, *playfulness, lovableness, electricity, productivity* kimi sözləri göstərə bilərik. Lakin *-hood* suffiksi ilə çox az sayda yeni söz yaratmaq olar, məsələn: *neighbourhood, parenthood, personhood.* Əvvəlki suffikslərə nisbətən bu suffiksi qeyri-məhsuldar adlandırmaq düzgün olardı.

Əksər dillərdə bir çox leksemlər affiksləşmə vasitəsilə düzəlir. Affiksləşmə nədir? Affiksləşmə sözə fonoloji materialı əlavə etməklə onun mənası, sintaktik xüsusiyyətlərini və ya hər ikisini dəyişdirən morfoloji prosesdir (18, s.11). O, affiksi sözün kökünə və ya əsasına affiks əlavə etməklə yeni söz yaradan morfoloji prosesidir. Affikslər asılı morfem olaraq ayrıca ola bilməz, yəni onlar strukturlarında semantik boşluğa malikdir və digər morfemlərə onları (mənasını) doldurmaq üçün birləşirlər. Affikslər derivativ morfemlər kimi funksiyalaşır. Bütün affikslər derivativin mənasını dəyişə bilər. *Expense* ismindən əmələ gələn *expensive* sifətində olduğu sözdəki kimi, bəzi affikslər söz sinfini də dəyişə bilər (17, s.10). Derivativ morfologiya sözlərin forması ilə bərabər, onların məna və kateqoriyalarını da dəyişə bilir. Kateqoriyanı dedikdə, nəyi nəzərdə tuturuq? Derivativ morfologiya feil, isim, sifət kateqoriyasında bir söz götürüb onu dəyişərək bu və ya digər kateqoriyaya geri yollayır. Məsələn, *grime* (isim), *grimy* (sifət), *begrime* (feil); *love* (feil), *lover* (isim), *loveable* (sifət), *lovableness* (isim); *modern* (sifət), *modernize* (feil), *modernization* (isim) və s. (19). P.Kiparski göstərir ki, müəyyən kök morfemlərdən əmələ gələn sözlər müəyyən qeyri-neytral suffikslər əldə edir. Məsələn: *-ceive* köklü sözlər -tion suffiksini götürür, *receive – reception, deceive – deception, perceive – perception* (16, s.24).

Morfoloji səviyyədə affikslər sözün və ya formanın dəyişməsinə xidmət edən köməkçi vasitələrdirsə, sözdüzəltmə səviyyəsində onlar derivativ hissəciklər kimi çıxış edir. Birincilər uyğun olaraq morfemlərin sözdəyişdirici və ya formadəyişdiri sinfini, ikincilər isə sözdüzəldici sinfini əmələ gətirir.

Suffikslər sözün əsasına, kökünə qoşularaq onun qrammatik kateqoriyadan başqa qrammatik kateqoriyaya keçməsinə, yeni sözlərin yaranmasına xidmət edirlər (9, s.72). Qədim dövrə nəzər salsaq, bu şəkilçilərin o dövrdən bu dövrə qədər o qədər də dəyişikliyə məruz qalmadığını görə bilərik. bununla belə, demək lazımdır ki, bu şəkilçilər arasında alınma şəkilçilər də mövcuddur. Ərəb və fars dillərində *-dar, -keş, -kar, -stan, -i, -vi, -dan, -xana, -şünas, -ban, -baz* şəkilçiləri, rus və Avropa dillərindən *-izm, -ist, -oloq, -er* şəkilçilərini misal göstərmək olar. Z.Tağızadə şəkilçilərin sözdüzəldici və sözdəyişdirici bölgüsünü tənqid etmiş, yeni bölgü irəli sürmüşdür. Lakin müəllifin bu bölgüsü türk sistemli dillərin daxili inkişaf qanunlarına uyğun gəlmədiyini kimi, leksik və qrammatik mənaların əlaqəsini əks etdirə bilmir. O, dilimizdəki şəkilçi sisteminin leksika ilə qrammatika arasında olan məna bağlılığını nəzərə almadığından bu məsələyə səthi yanaşmış və düzgün nəticə əldə edə bilməmişdir (11, s.119).

Yerli sayılan suffiks və prefikslərin əksəriyyəti əvvəllər müstəqil sözlər olmuşdur. zamanla onlar müstəqilliyini itirmiş və derivasiya affikslərinə çevrilmişlər. Məsələn: *-dom, -hood* suffiks-sözləri sözlərə qədər izləmək olar. *-Dom* suffiksi söz olaraq qədim ingilis dilində *dom* "hökm, cümlə" mənasını verirdi. Suffiks *-hood had* isminə sözünə gedib çıxır ki, o da "hal, vəziyyət" mənasında işlənirdi. *-Ly* suffiksi də vaxtilə müstəqil söz olmuş, qədim ingilis dilində "bədən, forma" mənasını verir. Məlumdur ki, bəzi suffikslər sekresiya nəticəsində əmələ gəlmişdir. Buna misal olaraq *duckling, yearling, hireling* sözlərindəki *-ling* suffiksini göstərmək olar. Bu suffiks *-ing* suffiksinin genişlənmiş variantı olaraq kökə birləşirdi. İngilis dilinin tarixinə nəzər salsaq, bir çox suffiksin derivasiya affiksi olduğunu müşahidə etmiş olarıq, məsələn: *-ish, -less, -ness* və s.

Eyni fikir prefikslər üçün də keçərlidir; onlardan bəziləri müstəqil sözlərdən əmələ gəlmişdir, məsələn: *out-, under-, over-*, digərləri həmişə derivasiya affiksləri funksiyasında işlənmişdir, məsələn: *mis-, un-*.

Derivativ affikslər bütün nitq hissələrində derivatların müstəqim tərtibçiləridir. Onlar affiksal morfemlərdən söz daxilində funksiyalarına və mənalarına görə fərqlənir. Derivativ affikslər iki əsas funksiyaya malikdir: 1) həm derivativ, həm də derivativ olmayan bütün affiksal morfemlər üçün ümumi olan kök yaratma funksiyası; bu, morfem ardıcıllığını, söz-forma və ya ifadələri sözün bir hissəsinə formalaşdıran funksiyadır. 2) sözyaratma funksiyası; bu, derivativ bazanın yenidən göstərilməsi və mənbə vahiddən fərqlənən struktur və semantik tipə görə leksik vahidin yaradılması

funksiyasıdır.

Yenidən göstərilmə nəticələri ya onu başqa nitq hissəsinin kökünə, ya da eyni nitq hissəsinin ayrı növünə transformasiya edir. Məsələn: *-ness* suffiksi müxtəlif siniflərin derivativ köklərinə qoşulur və beləliklə, yeni söz yaradır, kindliness, boylishness sözlərində *kindly-, boylish-* sifət köklərinə transformasiya edilir, *second-rateness* sözündə *second rate* sözünü kökə çevirir və sonra yeni söz yaradır. "Dilimizdə -çıq və -ça şəkilçiləri müəyyən ölçüsü olan predmet, məkan və s. ifadə edən leksik vahidlərə qoşula bilər və əsas sözün ifadə etdiyi denotativ məzmunun ölçücə keçilməsi motivləşir. Məsələn: ev-cik, gə-lin-cik, qulaq-çıq, qazan-ça və s. (7, s.330).

Bir çox hallarda derivativ affikslər həm derivativ kökləri formalaşdırır, həm də müxtəlif siniflərin leksik vahidləri arasında münasibət yaradır. Bununla belə bəzi derivativ affikslər yalnız kök yaratma funksiyasında işlənə bilir. Məsələn: derivativ suffiks *-ic* hər iki funksiyanı yerinə yetirir. *History, economy* sözünə birləşərək müxtəlif nitq hissələrinə aid sözlər yaradır. *Public, music* sözlərində yalnız kök yaratma funksiyasını yerinə yetirir.

Semantik cəhətdən derivativ affikslər nitq hissəsi məna, leksik və morfem mənalarının bütövlüyü ilə səciyyələnir, derivativ olmayan affikslə, bir qayda olaraq, leksik məna əksikliyi ilə öndədir. Məlumdur ki, nitq hissəsi mənası müxtəlif dərəcədə derivativ suffiks və prefikslərə uyğundur. O, derivativ suffikslərdə aşkardırsa, prefikslərdə az aşkardır. Bəzi prefikslərdə o, ümumiyətlə, yoxdur, bəzilərdə çox seyrək də olsa nəzərə çarpır. "*En-, un-, de-, out-, be-* prefikslərində nitq hissəsi mənası var və onlar feil sinifləndiricisi kimi funksiyalaşır, *deice, unhook, enslave*; derivativ prefiks *a-, un-* sifət nitq hissəsi mənası malikdir, məsələn: *unhesitating, amoral. Co-, under-, mis-* prefikslərində bu məna seyrəkdir, lakin o, yalnız bir nitq hissəsində aktivdir, məsələn: *co-* isimdə və sifətdə (copilot, co-star), *mis-* və *under-* feili prefikslərdir (underdo, underfeed). *Over-* prefiksində nitq hissəsi mənası əksikdir, lakin müstəqil olaraq feil və sifətlərdə işlənir, eyni fikri *non-, pre-, post-* prefiksləri üçün də söyləmək olar.

Derivativ affikslərdə leksik məna müxtəlif xüsusiyyətlərə malikdir və müxtəlif səviyyələrdə nəzərdən keçirilə bilər. Leksik məna fərdi bir affiksə deyil, affiks dəstinə aiddir, bu da onların, məsələn, *-ish, -like, -y, -ly* suffikslərində oxşarlıq mənasının, *en-* prefiksi, *-ise (-ize), -ify* suffikslərində səbəb mənasının, *un-* prefiksi və *-less* suffiksində yoxluq mənası, *-ness, -ity* suffikslərində mücərrəd keyfiyyət mənasının aşkara çıxarılmasında özünü büruzə verir. Digər tərəfdən, derivativ affikslər digər bir leksik mənaya malikdirlər ki, affiksi eyni semantik qrupdakı üzvlərdən fərqləndirir. Məsələn: *-ish, -like, -y* suffiksləri hamısı oxşarlıq mənasına malikdir. Lakin bu suffikslərin hər birinin dar leksik mənası da mövcuddur, məsələn, *-like* suffiksi ümumi oxşarlıq mənasını, *-ish* obyektin tipik keyfiyyəti, daxili oxşarlığı mənasını, *-y*

suffiksi isə bir çox hallarda obyektin xarici həcm, formasının oxşarlığı mənasında işlənə bilir. Bundan əlavə, *-ish* həm də peşə mənasını da ifadə edir. Bu onu göstərir ki, derivativ affikslər monosemantik və polisemantik ola bilər.

Derivativ affikslər çox seçicidir, hər biri müəyyən əsas dəstinə birləşir, bu da bütün affikslərdə rast gəlinən ayırma mənası ilə əlaqəlidir. Bütün affikslər əsasın struktur səciyyələrinə (onların morfem, derivativ, fonoloji və etimoloji cəhətlərinə) görə də seçicidir, onlardan bəziləri əsasın leksik-semantik xüsusiyyətlərinə həssasdır. Məsələn: *-able* suffuksi, demək olar ki, semantik məhdudiyyətsiz feili əsaslara biləşir. Digər bir suffiks *-ful* isə mücərrəd mənalı ismi əsaslara (beautiful) birləşməkdə məhduddur, onun omonimi olan isim formalaşdıran *-ful* suffiksi isə konkret mənalı isimlərin əsaslarına birləşir, məsələn, *bagful*.

Nəticə etibarilə qeyd olunmalıdır ki, dildə olan derivativ modellərin geniş diapazonu affiksləri əhatə edir. Qeyri-müntəzəmliyin ilkin təəssüratına baxmayaraq bu zaman sistematik struktur məhdudiyyəti müəyyənləşdirilə bilər. Affikslərdə bu məhdudiyyətlər zamanı sözlərin semantik, sintaktik və fonoloji xüsusiyyətlərinə istinad oluna bilər.

**ƏDƏBİYYAT**


1. *Axundova G.* Azərbaycan və ingilis dillərində morfoloji üsulla söz yaradıcılığının spesifik xüsusiyyətləri // Terminologiya məsələləri, 2012, №2, s.12-22
2. *Babayeva L.Ə., Manafova İ.H.* İngilis və Azərbaycan dilində zərf düzəldən şəkilçilər // Terminologiya məsələləri, 2012, №2, s.79-83
3. *Həsənov H.* Müasir Azərbaycan dilinin leksikası. Bakı, 1988, 182 s.
4. *Həsənzadə S.* İngilis dilində söz yaradıcılığının bəzi qrammatik xüsusiyyətlərinə dair / Ali məktəblərdə dillərin öyrədilməsinin müasir problemləri. Ali məktəblərarası IX elmi-praktik konfrans materialları. Bakı, 2010, s.22-23
5. *Mahmudova* D. Söz yaradıcılığının müasir fransız dilində inkişaf yolları // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, 2014, №1, s.53-55
6. *Məhərrəmova M.* Dilçilikdə söz yaradıcılığına dair // Filologiya məsələləri, 2014, №7, s.36-41
7. *Məmmədov İ.* Azərbaycan dilinin semantikası. Bakı: Xəzər, 2006, 372 s.
8. *Nəsirova R.* Morfoloji qoşulma morfoloji üsulun xüsusi bir növü kimi // Dilçilik İnstitutunun əsərləri, 2012, №2, s.162-168
9. *Səlimli T.* Suffikslər vasitəsilə lüğət tərkibinin zənginləşməsi // Filologiya məsələləri, 2010, № 4, s.72-79
10. *Süleymanova G.* Məişət leksikasında söz yaradıcılığı / Dil və ədəbiyyat. Bakı, 2018, №1(105), s.171- 174
11. *Tağızadə Z.* Azərbaycan dilində bəzi şəkilçilərin inkişaf tarixindən // Azərbaycan SSR EA Dil və Ədəbiyyat İnstitutunun əsərləri, 1956, VI c.

12. *Yusifova S.* Sifət düzəldən şəkilçilərin ingilis və Azərbaycan dillərində qrammatik və leksik-semantik xüsusiyyətləri // Filologiya məsələləri, 2014, № 7, s.207-209
13. *Zülfüqarova R., Qarayeva X.* Çoxmənalı və təkmənalı prefikslər // Filologiya məsələləri, 2014, № 7, s.42-46
14. *Кумахов М.А.* Морфология адыгских языков. Нальчик, 1964
15. *Марузо Ж.* Словарь лингвистических терминов. М., 1960, 436 с.
16. *Kiparsky P.* Lexical morphology and phonology. In Linguistics in the Morning Calm: Selected Papers from SICOL 1980, 1982
17. Morphology in English: Word formation in cognitive grammar. Continium, 2011, 304 p.
18. *Stranzy Ph.* Encyclopedia of Linguistics. New York: Taylor &Fancis e-Library, 2005
19. http://myweb.scu.edu.tw/~fcosw5/genling/Textbook/Chapter%2002.pdf

Redaksiyaya daxil olub 05.10.2020

*UOT 39*

***X.B.Məmmədov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*kankishimamedov_53@mail.ru*

# FOLKLORDA MƏNTİQ MOTİVLƏRİ

***Açar sözlər:*** *folklor, paremiya, məntiq, analogiya, antinomiya, arqument, tapmaca, riyaziyyat*

Məqalədə dastanlarımızda, nağıllarımızda, rəvayətlərimizdə rast gəldiyimiz abstraksiya, analogiya, antinomiya, arqument, hipotez və digər məntiq elminə aid motivlərdən söhbət açılır. Qeyd edilir ki, folkloru öyrənməklə məntiq məsələlərinin həllinə tez nail olmaq olar. Ağlın çevikliyini və şüuru inkişaf etdirmək üçün paremiyaların rolu böyükdür. Bu isə riyaziyyatla folklorun qarşılıqlı surətdə öyrənilməsi baxımından maraq kəsb edir. O da vurğulanır ki, folklorun öyrənilməsi hər şeydən öncə xalqın ruh yaddaşına və tarixinə olan hörmət və ehtiram deməkdir.

***Х.Б.Мамедов***

## МОТИВЫ ЛОГИКИ В ФОЛЬКЛОРЕ

***Ключевые слова:*** *фольклор, паремия, логика, аналогия, антиномия, аргумент, загадка, математика*

В статье рассматриваются абстракции, аналогии, антиномии, аргументации, гипотезы и другие мотивы логики, которые встречаются в наших эпосах и сказках. Отмечается, что изучая фольклор можно быстро решить логические задачи. Паремии играют важную роль в развитии гибкости и осознанности ума. А это представляет интерес для взаимовыгодного изучения математики и фольклора. Подчеркивается, что изучение фольклора, прежде всего, означает уважение и наставление к разуму и истории народа.

***Kh.B.Mammadov***

## LOGICAL MOTIVES IN THE FOLKLORE

***Keywords:*** *folklore, paremia, logic, analogy, antinomies, argument, riddles, mathematics*

Article is devoted to motives concerning abstraction, analogy, antinomies, argument, hypothesis and other logical sciences which we meet in our epos, fairy tales and narrations. It is indicated here that, by studying folklore, settlement of logical problems is achieved rapidly. Role of paremia is great for development of agility and conscience of intellect. And this causes great interest in point of mutual study of

folklore with mathematics view. It is also emphasized here that, study of folklore means respect and esteem to mental spirit and history of people at first.

Müasir fizika və astronomiya elmlərinin və elmi düşüncəsinin banilərindən biri olan məşhur italyan alimi Q.Qalileyin məşhur bir ifadəsində deyilir ki, dünya riyaziyyat dilində yazılmış bir kitabdır, bunu ancaq həmin dilə yiyələnənlər öyrənə bilər. Riyaziyyatın metodu isə məntiqdir. Deməli, məntiqsiz heç nə əldə etmək olmaz. Amma bir iş var ki, qəlbən şair olmayandan əsl riyaziyyatçı ola bilməz. Əslində M.V.Lomonosovun yazdığı kimi, riyaziyyatı ona görə öyrənmək lazımdır ki, o zehni qaydaya salır. Deməli, folklor riyaziyyatla, məntiqlə və digər elmlərlə qarşılıqlı öyrənilsə, daha yaxşı olar. Bu isə mövzunun aktuallığından xəbər verir. Məqalədə folklorda rast gəlinən məntiq məsələlərindən söhbət açılır.

Bəzən deyirlər ki, intellekt qabiliyyətini, məntiqi düşünmə bacarığını, tənqidi, yaradıcı təfəkkürün inkişafını, idrak fəallığını və s. yüksəltmək məqsədi ilə dəqiq elmlərlə daha çox məşğul olmaq lazımdır. Doğrudan da indiki zamanda erkən yaşdan başlayaraq uşaqların kompüterdən, internetdən, telefondan və digər mobil vasitələrdən istifadə etmələri təbii ki, onların intellekt qabiliyyətlərinin, məntiqi düşüncələrinin inkişaf etdirilməsində müstəsna əhəmiyyətə malikdir. Lakin ağlın çevikliyini, şüuru və intellektual səviyyəni inkişaf etdirmək üçün yeganə bir yol var ki, o da çoxlu zəhmət çəkmək, mütaliə etmək və oxumaqdır. Oxuduqca folklorumuzda da kifayət qədər məntiqi təfəkkür nümunələrinin varlığını görürük. Əslində məntiq düzgün təfəkkür sənəti və metodu olmaqla, o, təkcə riyaziyyatın yox, hər bir elmin metodudur. Ona görə folklorda məntiq motivlərinə xüsusi önəm verilməsi təbii qəbul olunmalıdır. Axı zaman məntiq zamanıdır. Məntiqi isə ağlın, zehnin və təcrübənin köməyi ilə inkişaf etdirmək olar.

Məlumdur ki, banisi Aristotel (özündən əvvəl mövcud olan məntiqi məlumatları ilk dəfə o, sistemləşdirib – X.M.) hesab olunan ərəb mənşəli “məntiq” elmi ("danışmaq” mənasına gələn “nutq” kökündən törənib) hal-hazırda müstəqil qəbul olunan "mülahizələr haqqında elm", "təfəkkürün qanun və formaları haqqında elm", “bilinəndən bilinməyənin əldə edilməsinə vasitə olan elm”, “qaydalarına tabe olunduğu zaman zehni xətaya düşməkdən qurtaran elm” olub nəticə çıxartmaq mümkün olan hər şeyi tədqiq və analiz etmək vəzifəsini daşıyır. Azərbaycan alimlərindən də məntiq sahəsində öz sözünü demiş məşhur alimlərimiz olub və bu gün də var. Təkcə süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadənin adını çəkmək kifayətdir.

Dastanlarımızda, nağıllarımızda, rəvayətlərimizdə rast gəldiyimiz və hiss etdiyimiz kifayət qədər abstraksiya, analogiya, antinomiya, arqument, hipotez və digər məntiq elminə aid motivlərə rast gəlinir ki, bunlar da ulularımızın nə qədər ruhlu, bədii zövq sarıdan zəngin və məntiqli olmaları

fikrini göz önündə canlandırır. Məsələn, analogiya haqqında fikirlərimizə aydınlıq gətirmək üçün aşağıdakı məsələyə diqqət edək.

Fərz edək ki, hər üçü eyni boyda, eyni ölçüdə, eyni rəngdə olan üç almanın hansının builki, hansının keçənilki, hansının inişilki olduğunu müəyyən etmək lazımdır. Bizcə, "Oxxayla Əhməd" nağılını kim oxuyubsa, məsələni o saat həll edər. Sizi intizarda qoymamaq üçün məsələnin həllinə keçək.

Adıçəkilən nağılda qarı cildinə girən Oxxayın qızı qızıl məcməyinin içində üç dənə üçü də bir rəngdə, bir ölçüdə, bir boyda alma gətirib Əhmədə deyir: - Bu almaların biri birillik, biri ikiillik, biri də üçillikdi. Bu sirri təkcə məndən başqa heç kim bilmir. İndi sən görsət görüm bunların hansı hansıdır? Əhməd deyir: - Qarı nənə, bu mənim əlimdə su içimi kimi bir şeydi. Dur bir qab su gətir, bu saat deyim. Qarı bir qab su gətirib qoyur Əhmədin qabağına. Əhməd almaların üçünü də salır suya. Almaların biri o saat batır suyun dibinə, ikincisi suyun ortasında qalır, üçüncüsü isə suyun üzündə üzür. Əhməd deyir: - Qarı nənə, suyun dibinə çökən alma təzədi, həm də ağırdı. O birillikdi. Suyun ortasındakı alma bir xeyli qalıb suyunu çəkib deyə yüngülləşib. Bu da ikiillikdi. Lap suyun üstündə olan alma isə tamam quruyub, suyunu çəkib. Bu da üçillikdi. Qarı görür hamısını düz dedi. Odu ki, deyir: - Bala, elə o almaların sirri bunda idi ki, sən onları tapdın. Görürəm ağıllı oğlansan, səni öldürmürəm, çıxıb gedə bilərsən (1, s.215). Göründüyü kimi, Əhməd məntiqi, "analogiya"nı bilməsəydi, məsələni həll edə bilməzdi və canı əldən gedərdi. Bu məsələyə "Dərzi şagirdi Əhməd" nağılında da rast gəlirik. Qəflətən Firəng padşahının oğlu Pəriyə elçi göndərir. Ya onların suallarına cavab verməli, ya Pərini verməli, yaxud da yeddi ilin baci-xəracını verməlidi. Firənglilər üç alma göndərirlər. Almanın biri builki, biri keçənilki, biri də inişilki. Əhməd məntiqlə məsələni məharətlə açır və Şah Abbasın qızı Pəri Soltanı alır.

Başqa bir misal. "Daşdəmirin nağılı"nda oxuyuruq: Günlərin bir günündə padşah yuxudan oyanıb gördü ki, düşmən olan qonşu bir padşahın qoşunu şəhəri dövrəyə alıb. Öz adamlarını göndərib soruşdu ki, nə istəyirlər. Dedilər ki, "bizim sualımız var, ya gərək suala cavab verəsiz, ya da bizə təslim olasız". Padşah soruşdu ki, sualınız nədir? Düşmən padşahın adamları iki dənə bir boyda, bir biçimdə, bir rəngdə madyan at gətirdilər ki, tapın görək bunlardan hansı anadı, hansı bala?! Amma atların dişlərinə baxmaq olmaz. Adamlar nə qədər baxdılar, fikirləşdilərsə heç kəs cəsarət eləyib bir söz deyə bilmədi. Axırda padşah qapıçını çağırıb əmr elədi ki: - Get zindandan Daşdəmiri gətir. Daşdəmiri gətirdilər. Padşah əhvalatı ona danışıb dedi: - Ümidim bircə sənədi. Daşdəmir dedi: - Gözüm üstə, əmr eləyin burada iki axur qayırsınlar, hərəsinə də bir az arpa töksünlər. Elə ki, axurlar hazır oldu, Daşdəmir atların ikisinin də cilovunu başlarından çıxarıb axurlara buraxdı. Arpanı görcək atların biri kişnədi. O birisi qaçıb onun yanına getdi. Daşdəmir dedi: - Padşah sağ olsun, kişnəyən at anadı, onun yanına qaçan da bala. Hamı Daşdəmirə afərin dedi (2,

s.322). Göründüyü kimi, irəli sürülən "arqument", yəni bir fikri təsdiq etmək üçün verilən sübut və "fakt" – reallığın təsdiq forması, məntiqin əsas motivlərindən hesab olunur.

Həmin nağılda bir gün düşmən padşahın adamları yenə gəldilər. Bu dəfə çox qəribə bir sual gətirmişdilər. Amma çox çətin idi. Torpağın üstündə bir dənə çevrə çəkib soruşdular ki, ya bu suala cavab verin, ya da təslim olun. Yenə köməyə Daşdəmir gəldi. Padşah çevrəni ona göstərib cavab istədi. Daşdəmir əlinə bir ağac alıb çevrəni ortadan iki yerə böldü. Düşmən tərəf işi belə görəndə gətirib çevrənin bir tərəfində bir ox qoydular. Daşdəmir də padşahın qılıncını götürüb ikinci tərəfə qoydu. Belə olanda düşmən tərəf çevrənin içinə bir ovuc darı tökdü. Daşdəmir tez əmr elədi, bir xoruz tutub gətirdilər. Xoruz bütün darını dənlədi. Düşmən tərəf heç nə deməyib yola düzəldi. Bu danışıqsız sual-cavaba hamı məəttəl qalmışdı. Padşah soruşdu: - Daşdəmir, mən heç bir şey başa düşmədim. De görüm onlar nə soruşurdu, sən nə cavab verirdin? Daşdəmir dedi: - Padşah sağ olsun, o çevrəni ki, onlar çəkmişdilər, demək istəyirdilər ki, bütün dünya gərək bizim ola. Mən də araya xətt çəkib dedim ki, bizim bu dünyada öz yerimiz var, heç kəsi oraya qoymarıq. Sonra onlar ortaya ox qoydular ki, əgər belə olsa, biz dava eyləyəcəyik ("Dərzinin şagirdi" nağılında ox əvəzinə ortaya bir soğan qoyurlar, yəni aralığa acılıq düşər). Mən də sənin qılıncını çəkib onların qabağına qoydum ki, biz sizdən qorxmuruq. Sonra onlar çevrəyə darı tökdülər ki, bizim qoşunumuzun sayı-hesabı yoxdu. Mən də bütün darını bir xoruza dənlətdim ki, bizdə də belə oğlanlar var. Ona görə də durub getdilər.

Bu məsələnin sonuncu sualına, yəni darı məsələsinə Nizaminin "Xəmsə"sində də rast gəlirik. "İsgəndərnamə"nin "Şərəfnamə" hissəsində oxuyuruq: İran hökmdarı Dara İsgəndərin yanına öz elçilərini göndərərkən qasidə tapşırır ki, İsgəndərə özünlə bir top, bir, bir çuval da küncüt apar. Dara bununla İsgəndərə demək istəyir ki, uşaqsan hələ al, bu topla, çovganla oyna! Küncüt isə, Daranın ordusunun böyük olduğuna işarə idi. Daranın məqsədini bilən İsgəndər küncütü (darını) evə, eşiyə səpir və öz quşlarını onları dənləməyə səsləyir. Nizami bu sualı poetik dillə belə qələmə alır:

Uşaqsan, sənə top olsun əyləncə,
İstəyin mənimlə çarpışmaq olsa,
Qəlbinə boş yerə sıxıntı dolsa,-
Küncütu saraya səpərək durdu, -
Qarşına cıxarram bundan çox ordu.
Darıya daraşdı saray quşları,
Qalmadı bu yerdə bir dənə darı.
Küncütdən çox olsa Dara qoşunu,
Mənim də quşlarım dənləyər onu (4, s.115-116).

Atla bağlı bir qədər fərqli formada "Dərzinin şagirdi" nağılında oxuyuruq: - Qonşu ölkənin padşahı bu biri qonşuya üç erkək at göndərir ki, bu atların hansi böyükdür, hansi kiçik? Məlum olduğu kimi, erkək atları bir tövləyə salıb yanlarına da bir madyan buraxırlar. Sonra madyanı tövlədən çıxarıb erkək atları da buraxırlar. Bu zaman əvvəlcə böyük at, sonra ortancıl, daha sonra isə kiçik at eşiyə çıxır. Cavab doğru olur. Bu yerdə yada bu atalar sözü düşür: "Hər heyvanın balası/kiçiyi böyüyün dalınca gedər, eşşəyin balası/balacası böyüyün qabağınca".

Qeyd etmək lazımdır ki, bu cür məntiq məsələlərinin şərhini Sədnik Paşa Pirsultanlı "Azərbaycan şifahi xalq şeiri və heca vəzninin inkişaf tarixi" adlı əsərində (3, s.10) vermiş və məntiq məsələlərini bilməcə adı ilə izah etmişdir. Əlbəttə, bu tamamilə doğrudur. Məsələ burasındadır ki, bilməcə özü elə məntiqdir.

"Daşdəmirin nağılı" demək olar ki, başdan-başa məntiq motivlərindən ibarətdir. Yenə həmin nağılda oxuyuruq: - Qadın Daşdəmirdən soruşdu: De görüm, sirr saxlamağı bacarırsanmı? Daşdəmir Mirzə Möhsündən dərs aldığını deyəndə, qadın onun sözünü kəsib, çadrasının altından bir boşqab çıxarıb Daşdəmirin qabağına qoydu və cavab verməsini istədi. Daşdəmir baxıb gördü ki, boşqabda bir nar, bir top iynə, bir qayçı, bir vərəq kağız, bir də bir bıçaq var. Daşdəmir heç nə demədən bıçağı götürüb əti tikə-tikə doğradı, qayçı ilə kağızı kəsik-kəsik elədi, iynələri bircə-bircə nara sancıb boşqaba qoydu. Qadın bunun açmasını soruşanda Daşdəmir dedi: - Xanım, mən başa düşdüm ki, sən mənə bir gizli sirr demək istəyirsən, ancaq qorxursan. Mən bununla demək istəyirəm ki, əgər mənim bədənimi bu ət parçası kimi parçalasalar, bu kağız kimi tikə-tikə doğrasalar, bu nar kimi oxla doldursalar, yenə bu sirri heç kəsə açmaram.

Adıçəkilən nağılda başqa bir məntiq motivinə diqqət verək: Nardan Daşdəmirə dedi: - Atam bir armud, bir gavalı, bir əl dəyirmanı, bir parça dəmir, bir dənə də daş göndərib. Əl dəyirmanı ovdandı. Daşla dəmir sənsən. Amma armudla gavalını başa düşə bilmirəm. Daşdəmir armudu Nardana göstərib dedi: - Nardan, bu armudun adı Abasbəyi armuddu. Bu gavalıya da bağbanlar vəzi Alı deyirlər. Atan demək istəyir ki, Daşdəmirin dəyirmanda başına gələn iş padşahın qoşun böyüyü Abas bəylə və vəzirlə əlaqədardır. Göründüyü kimi, burada da məntiq öz müsbət işini gördü. Beləliklə, qədimlərdə məntiq elmindən diplomatiya sahəsində istifadə edildiyinin və məntiqi güclü olanların uğur qazandığının şahidi oluruq.

Əslində ilk baxışda məntiqi məsələnin tapmaca ilə eyni olduğu söylənilə bilər. Amma bunlar tamamilə fərqli anlayışlardır. Məsələ burasındadır ki, məntiq insan zəkasının geniş mənada sınaq meydanıdır. Burada tapmacalarda olduğu kimi, əlamətlər əsas olmur. Əsas burada rəmzlər hesab olunur və tərəflər rəmzlərlə danışırlar. Rəmzlərin mənası isə həyati-fəlsəfi məna daşıyır. Odur ki, məntiq elminin də köklərini lap qədimdə axtarmaq lazımdır.

“Dərzi şagirdi Əhməd” nağılında oxuyuruq: - Qəflətən Firəng padşahının oğlu Pəriyə elçi göndərir. Ya onların suallarına cavab verməli, ya Pərini verməli, yaxud da yeddi ilin baci-xəracını verməlidi. Firəng padşahının oğlu qırx gənc göndərir, iyirmisi qız, iyirmisi oğlan. Hamısı bir boyda, oxşar, bunları seçmək lazımdır. Məlumdur ki, Əhməd məntiqlə əsaslanaraq özü su düzəldir və suyu tökməklə oğlanları qızlardan seçə bilir. İkinci dəfə üç at göndərirlər, boyları, rəngləri eyni. Biri biryaşar, biri ikiyaşar, biri də üçyaşar. Əhməd bir qab süd, bir qab arpa, bir qədər də yonca qoyur atların qabağına. Biryaşar südə, ikiyaşar arpaya, üçyaşar da yoncaya tərəf gedir. Əhməd bu məsələni də ağlının gücü ilə, məntiqin köməkliyi ilə həll edir. Göründüyü kimi, məntiqi olmayanların bu məsələləri həll etməsi mümkün deyil. Yeri gəlmişkən, tapmacalarla məntiq məsələlərinin bir fərqi də odur ki, məntiq məsələləri nəsrlə olur və onlar daha çox bilməcəyə oxşayırlar. Amma bilməcələr həm də nəzmlə ola bilər, ulu Nizamidə olduğu kimi.

Qədim zamanlarda sevgi, məhəbbət aləmində sevgililər arasında əqli-mahiyyəti öyrənməkdə, qarşı tərəfin ağlının, zəkasının, fəhmi-fərasətinin, müdrikliyinin sübuta yetirilməsində əsl sınaq vasitəsi kimi məntiq məsələlərindən istifadə ediblər. Belə bir məntiqi məsələyə diqqət yetirək:

- Söz misalı, bir gün bir obaya bir qərib gəlir. Görünür, burda çox qalacaqmış deyən, başqalarına əziyyət verməyib özünə bir alaçıq qurub yaşamağa başlayır. Sən demə, bunun qonşuluğunda bir ürəyi yuxa dul qadın yaşayırmış. Bu qadın fikirləşir ki, qərib adamdı, kimsənəsi yoxdur, bəlkə yemək göndərim ona. Bəli, qadın durub iki növ yemək hazırlayır: yarpaq dolması, bir də kələm dolması. Bu qadının bir qulluqçusu varmış, özü də əldən bir az əyriymiş, fürsət düşəndə oğurluğundan qalmazımış. Qadın həm qonağın ağlını yoxlamaq məqsədiylə, həm də qulluqçunun ona sədaqətini sınağa çəkməkçin bu iki növ xörəyi bir qazana qoyur, çörəkləri də qazanın ağzına qoyub çağırır qulluqçusuna verir ki, apar bunu çatdir o qəribə. Bəli, qərib bağlamanı açır, xörək üçün təşəkkür eləyib qulluqçudan soruşur ki, xanım daha başqa söz tapşırmadı ki? Qulluqçu cavab verir: - Xanım tapşırdı sənə deyim ki, ilimiz birdir, on iki ayı var, yarısı gecədir, yarısı gündüz. Bir də de ki, ilimizin dörd fəsli var. Qonaq bir az fikirləşəndən sonra məsələnin özəyini fəhm eləyir. Qayıdır qulluqçuya ki, get xanımına de ki, yox elə deyil, ilimiz bir olmağına birdir, ancaq səkkiz ayı var. Onun da dördü gecədir, dördü gündüz. Fəsil də ki, dörd deyil, üçdür.

Qulluqçu qayıdıb qonağın dediklərini xanımına yetirir. Xanım dərhal qulluqçuya buyurur ki, durma, tez qonağı bura çağır. Qulluqçu getməyində olsun, xanım düşünür ki, əcəb mərifətli, fəhmli adamdır, ömrüm boyu arzum bir beləsinin əyalı olmaq olub.

Bəli, qonaq gəlir xanımın hüzuruna, əvvəlcə bir diqqətlə baxır xanıma, sonra ev-eşiyi gözdən keçirir, üz tutur sahibəyə:

-Xanım, eviniz xoşuma gəldi, ancaq, bircə nöqsanı var, o da ki, buxarının bir balaca əyri olmasıdır. Qadın o saat başa düşür ki, daşı hara atırlar. Cavabında qayıdır ki, ay qardaş, buxarının əyriliyini neynirsən, tüstüsü ki, düz çıxır.

Nağıl dili yüyrək olar, çox keçmir ki, qonaqla xanımın ulduzu barışır, onlar xoşbəxt ailə həyatı qururlar. Aradan bir müddət keçir, qulluqçunun içini başlayır şübhə gəmirməyə ki, bu nə olan işdir ki, iki nəfər asanca dil tapıb birləşdilər. Dözməyib bir gün xanımından xəbər alır. Qadın da sirri gizlətmir, açıb danışır buna. Deyir səni sınamaq üçün qazana altı kələm dolması, altı da yarpaq dolması qoydum, bağlamaya da dörd dənə çörək. Səninlə xəbər göndərdim ki, ilimiz birdir, yəni qazan birdir, fəslimiz on iki – yəni on iki dolma var qazanda. Altısı gecə, altısı gündüz – yəni yarısı yarpaq dolması, yarısı kələm dolması. Dörd dənə də fəslimiz var, yəni dörd çörəkdir. Sən bu xəbəri qonağa çatdıranda özün özünü faş eləmisən. Dözməyib yolda bir çörəyi, dörd də dolmanı yeməklə xanımına xəyanət eləmisən. Odur ki, qonaq da mənə o sayaq cavab qaytardı. O ki, qaldı buxarının əyriliyinə, sən bilirsən ki, sağ gözüm bir balaca çaşdı, qonaq da buna işarə eləyirdi. Mən də ona dedim buxarının əyriliyiylə nə işin, tüstüsü ki, düz çıxır. Yəni, nə olsun ki, gözüm çaşdır, ağlım, kamalım ki, öz yerindədir. İndi başa düşdünmü, niyə birləşdik? (5, s.167-169). Göründüyü kimi, əgər xanım məntiqi bilməsəydi, xoşbəxt də ola bilməzdi.

Bir məsələni də qeyd etmək lazımdır ki, məntiqi məsələlər nə qədər yüksək mövqe qazansalar da, onların başlanğıcı tapmacaların ibtidai və sadə formaları ilə bağlı olub çox vaxt öz varlığında tapmaca nüvəsini qoruyub saxlayır. Beləliklə, kök birdir: bu, tapmacadır. Qalanları hamısı məntiqi məsələ – bilməcə də, bağlama da, qıfılbənd də onun törəmələridir. Onu da qeyd edək ki, tapmacalar uşaq folkloruna aid olduğu halda, məntiqi məsələlər tamamilə fərqlidir və onlar həm kiçik, həm də böyüklər üçün nəzərdə tutulur. Yeri gəlmişkən, bir vaxtlar Rusiyada orta məktəblərdə şagirdlərə tapmaca dərsi də keçirdilər. Əlbəttə, bu yönümdə düşünməyə dəyər, bizcə.

Məlumdur ki, ta qədim zamanlardan nənə-babalarımız, müəllimlərimiz öz övladlarını həm fiziki cəhətdən, həm də zehni cəhətdən ağıllı, düşüncəli olmaları üçün onları hazırcavab böyütməyə çalışıblar. Onların ağlının çevikliyini və şüurunu inkişaf etdirmək üçün məntiqi məsələlərdən və tapmacalardan istifadə ediblər. Orta məktəbdə oxuyarkən bizim də bir müəllimimiz var idi. Bir, iki sual verməklə istənilən adamın yaşını deyə bilirdi. Bizə qəribə gəlirdi. Bunu necə bilmək olar? Amma, zaman keçdi, məsələnin o qədər də çətin olmadığını öyrəndik. Əslində, bu da məntiqdir, amma ənənəvi məntiq üzərində qurulmuş formal məntiq yox, formal məntiq üzərində qurulmuş riyazi məntiq. İndi həmin məsələnin həllini tapmağa çalışaq.

Sualın qoyuluşu belədir: Birinci tərəf ikinci tərəfə deyir: Ürəyində bir rəqəm tut. O da tutur, məsələn, hər hansı bir X. Birinci tərəf deyir: Ürəyində tutduğun rəqəmin üzərinə beş rəqəmi gəl. O da gəlir və nəticədə alır: X+5. Birinci tərəf deyir: həmin rəqəmdən üç rəqəmini çıx. O da çıxır. Alınır X+5-3. Birinci tərəf deyir: Alınan rəqəmdən birinci ürəyində tutduğun rəqəmi çıx. O da çıxır və alınır: X+5-3-X. Birinci tərəf deyir: Alınan rəqəmin üzərinə öz yaşını (fərz edək ki, yaşı on beşdir) gəl və soruşur ki, neçə alındı? O da cavab verir: X+5-3-X+15=17. Birinci tərəf o saat cavab verir ki, sənin yaşın on beşdir. Doğrudan da, belədir. Göründüyü kimi, ürəyində tutduğun rəqəmin hansı rəqəm olmasından asılı olmayaraq onun üzərinə beş əlavə edib ondan iki çıxılsa, ondan da lap əvvəlki ürəkdə tutulan rəqəm çıxılsa, nəticədə iki alınar. Yəni fikirdə tutulan ədədin hesablamanın nəticəsinə heç bir təsiri olmur. İkinin üzərinə yaş gələndə və həmin rəqəm məlum olanda, o rəqəmdən ikini çıxmaqla yaşı müəyyən etmək olur. Əlbəttə, bu cür sadə hesabatlar aparmaqla şüurun inkişafına kömək etmək olur. Özü də belə maraq yaşından asılı olmayaraq hər bir kəsdə yaranır.

Yaxud başqa bir riyazi məsələ. Yerdəki durna göydə uçan durnanın başçısına deyir: Ay göydə uçan yüz durnalar, məni də özünüzlə götürün. Göydəki durnanın başçısı deyir: Siz haradan bildiniz ki, biz yüzük? Əgər bizim qədər, bizim yarımız, yarımızın yarısı və bir də sən olsan yüz olarıq. Görəsən göydə neçə durna uçurdu? Cavab: 36. Doğrudan da 36+36+18+9+1=100. Qeyd etmək lazımdır ki, bu cür riyazi məsələlərə başqa xalqların folklorunda da rast gəlmək olur.

İndi isə məntiqlə bağlı atalar sözü və məsəl kimi qəbul edilən bir neçə müasir riyazi tapmacaya diqqət edək:

...Yan yana düzüləndə<br>
Heç sonumuz görünməz.<br>
Elə buna görə də<br>
Mənə tərif verilməz (Nöqtə).<br>
...İstərəm üçbucaqla<br>
Dostluğa sadiq qalım.<br>
Onun medianı var,<br>
Mənim diaqonalım (Dördbucaqlı).<br>
Hər tərəfim bərabər,<br>
Hər bucağım bərabər.<br>
Sahəmi hesablasan,<br>
Ən sadə düsturam mən (Kvadrat).<br>
Dörd bucağım olsa da,<br>
Düz bucağım yox mənim.<br>
Elə buna görə də,<br>
Qəmim-qüssəm çox mənim (Romb).

Göründüyü kimi, insanların bədii təfəkkürünün, intellekt qabiliyyətinin, məntiqi düşünmə bacarığının, yaradıcı fəallığının artırılmasının və inkişaf etdirilməsinin çoxsaylı yollarından biri də məhz folklordan keçir. Bütün bunlar isə xalqın ruh yaddaşına, keçmişinə və tarixinə olan hörmət və ehtiramla bərabər folklorun nə qədər praktiki əhəmiyyətə malik olmasından xəbər verir.

## ƏDƏBİYYAT

1. Azərbaycan nağılları: 5 cilddə, V c., Bakı: Şərq-Qərb, 2005, 304 s.
2. Azərbaycan nağılları: 5 cilddə, IV c., Bakı: Şərq-Qərb, 2005, 336 s.
3. *Sədnik Paşa Pirsultanlı.* Azərbaycan şifahi xalq şeiri və heca vəzninin inkişaf tarixi. Bakı: Təknur, 2013, 482 s.
4. *Nizami*. İskəndərnamə. Şərəfnamə, Bakı: Lider, 2004, 432 s.
5. *Mehdizadə İ.* Maralı qoca dağlar. Bakı, 2003, 324 s.

Redaksiyaya daxil olub 02.09.2020

*UOT 398:37*

***K.Y.Yusifova***
*Bakı Mühəndislik Universiteti*
*keyusifova@beu.az*

# QƏHRƏMANLIQ DASTANLARININ TƏDQİQİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *"Koroğlu", "Qaçaq Kərəm", "Qaçaq Nəbi", "Qara Tanrıverdi", epos, dastan, tərbiyə, milli-mənəvi dəyərlər*

Qəhrəmanlıq dastanları müxtəlif istiqamətli təhlillərin probleminə çevrilmişdir. Toplama, nəşr və öyrənilmə məsələsində diqqət önünə gətirilən əsas xətlərdən birini tərbiyəvi dəyərlər təşkil edir. Folklorşünaslar, tarixçilər, etnoqraflar, musiqiçilər, pedaqoqlar, psixoloqlar öz yanaşmalarında bütün mülahizələrini dastan epizodlarından çıxış etməklə əsas mahiyyəti aydınlaşdırmağa hesablamışlar. "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qara Məlik", "Qaçaq Kərəm", "Qandal Nağı", "Qaçaq Nəbi", "Qara Tanrıverdi", "Səməd bəy" və s. dastanlar üzərində aparılan təhlillər bunun bariz nümunəsidir. Burada el qəhrəmanı və ona olan sonsuz məhəbbət, toplum münasibətləri, xalqın qəhrəman və qəhrəmanlıq təsəvvürləri, əxlaqi-mənəvi dəyərlərin ümumi sistemi, övlad, ailə tərbiyəsi, böyüyə hörmət və s. kimi məsələlər aparıcı xətti müəyyənləşdirir. Dastana müraciət edənlərin də təhlillərində bu əsas olan kimi görünür. Bütün bunlar qəhrəmanlıq dastanlarının tədqiqində tərbiyə məsələlərinin bir problem olaraq araşdırılma aktuallığını ortaya qoyur.

***К.Я.Юсифова***

## ВОПРОСЫ ВОСПИТАНИЯ В ИЗУЧЕНИИ ГЕРОИЧЕСКИХ ЭПОСОВ

***Ключевые слова:*** *«Короглу», Качаг Керем», «Качаг Наби», «Кара Танверди», эпос, дастан, воспитание, национально-нравственные ценности*

Героические эпосы стали предметом исследования в различных направлениях. В вопросах коллекционирования, издательства и изучения в центре внимания, как главная линия, стоят воспитательно-нравственные ценности. Фольклористы, историки, этнографы, музыканты, педагоги, психологи в своих интерпретациях опирались на различные эпизоды из героических эпосов, этим указывая на важность изучения данных фольклорных произведений. Явными примерами этому являются проведенные исследования таких дастанов, как «Китаби Деде Коргут», «Короглу», «Кара Мелик», Качаг Керем», «Гангал Наги», «Качаг Наби», «Кара Танверди», «Самед бек» и др. В сюжете этих эпосов проходит основной линией народный героизм и безмерная любовь к нему, коллективные отношения, герой и героизм в воображении народа, общая система нравственных ценностей, семья, дети, семейное воспитание, уважение к старшим и др. В работах исследователей, изучающих фольклорно-этнические произведения, эта линия явно

проходит как главная. Все вышесказанное указывает на актуальность исследования воспитательно-нравственных вопросов в народных героических эпосах.

***K.Y.Yusifova***

**EDUCATIONAL ISSUES IN THE STUDY OF HEROIC EPICS**

***Keywords:*** *"Koroghlu", "Gachaq Kerem", "Gachaq Nabi", "Gara Tanriverdi", epos, saga, upbringing, national-moral values*

Heroic epics have become a question in various fields of analysis. One of the main courses in the collection, publication and study are educational worth. Folklorists, historians, ethnographers, musicians, pedagogues, psychologists have estimated all their considerations in order to clarify the essence of the story by speaking from the episodes of the epos. The analysis of "Kitabi-Dada Gorgud", "Koroghlu", "Gara Malik", "Gachaq Kerem", "Gandal Naghy", "Gachaq Nabi", "Gara Tanriverdi", "Samad bey" and other epics is a noticeable indication of this. Issues such as the national hero and his endless love for him, social relations, heroic and heroic imaginations of the people, the general system of moral and spiritual values, children, family upbringing, respect for elders, etc. determine the main point. This seems to be the principal theme in the analysis of those who refer to the epos. All this highlights the importance of studying the issues of education as a problem in the study of heroic epics.

**Məsələnin qoyuluşu:** Qəhrəmanlıq dastanları və onun tərbiyəvi dəyərlər baxımından tədqiqi problemləri.

**İşin məqsədi:** "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Qandal Nağı" və s. dastanlarının tədqiqində tərbiyəvi məsələlərinin qoyuluş və təhlilinin ümumi aspektlərini aydınlaşdırmaq.

Qəhrəmanlıq dastanlarında tərbiyə və onun ümumi istiqamətlərinin təhlili XX əsrin əvvəlləri ilə, daha doğrusu, sovetlər dönəmi ilə yeni sferaya daxil olur. Ümumiyyətlə, xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqi istiqamətində olan canlanma, Azərbaycan ziyalılarının bu prosesə bir mədəni hərəkat olaraq qoşulması, hətta təşkilatlanma ("Azərbaycanı tədqiq və tətöbbö cəmiyyəti", "Azərbaycanı öyrənmə yolu" və s.) kifayət qədər ciddi nəticələrin əldə olunması üçün əsas oldu. H.Zeynallı, S.Mümtaz, V.Xuluflu, B.Çobanzadə, H.Əlizadə, C.Əfəndizadə, A.Şaiq, S.Mümtaz, B.Behcət və s. ziyalılar gördüyü böyük işləri ilə tarix yazdılar. H.Zeynallının, V.Xuluflunun, H.Əlizadənin dastanlar ətrafında söylədiyi mülahizələr, apardığı təhlillər mahiyyətə yönəlikli məsələ kimi maraq doğurur. Aşıq Hüseyn Bozalqanlıdan, Aşıq Əsəddən yazıya alınan "Koroğlu" dastanının iki qolunu və bir sıra əhvalatları V.Xuluflu 1927-ci ildə nəşr etdirmişdir. 1929-cu ildə bu nəşrə daha dörd qol əlavə etməklə geniş ictimaiyyətə təqdim etmişdir. "Azərbaycanı öyrənmə yolu"nun xətti ilə çap olunan bu dastanlar H.Zeynallığının redaktorluğu ilə işıq üzü görmüşdür. V.Xuluflu dastanın "Əlavə" bölməsində vurğulayır ki, "Koroğlu nağılları haqqında cürbəcür rəvayətlər vardır.

Bəzi aşıqların dediyinə görə, Koroğlu nağılı qırx gecəlik söhbətdir. Qazax qəzasının Bozalqanlı kəndi sakini aşıq Hüseynin bildirdiyinə görə, Koroğlu nağıllarının başlıca beş qolu vardır: 1. Toqat səfəri, II Bağdad səfəri, III. Bolubəy, IV. Ərəb Reyhan, V. Ərzurum səfəri. Bunlardan biz birinci və ikincini ələ keçirə bildiyimizdən ancaq onları çap etdik. Yerdə qalanlar da çox məruf nağıllardı, onların da ələ keçiriləcəyi təbiidir" [3, s.161]. Folklorşünasın "Koroğlu" dastanına həssaslığı və toplayıb geniş ictimaiyyətə təqdim etməsi qəhrəmanlıq dastanına olan münasibətin ifadəsidir və "40 gecəlik söhbət" adı ilə vurğulaması xalq arasında ona olan sonsuz marağın təzahürüdür. Qəhrəmanlıq dastanları özlüyündə tərbiyə, əxlaq, təsir baxımından bütün parametrlərdə xalqın düşüncəsinin, tarixinin faktı olaraq yaşarılıq qazanmışdır. XIX əsr elmi-nəzəri fikrin görkəmli nümayəndəsi N.Dobrolyubov vurğulayırdı ki, "xalq ən ağır vəziyyətlərində tarixə, tarixi qəhrəmanlarına müraciət etməklə oradan güc alır və problemlərini həll edir. "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları bu baxımdan xalqın müraciət etdiyi ən möhtəşəm abidələrdəndir. V.Xuluflunun marağının və dastanla bağlı olanları yazıya gətirməsinin məqsədində də bunlar dayanır. Xalq qəhrəmanına xalq sevgisi etnosun bütünlükdə tarixini, əxlaq, mənəviyyat, tərbiyə, vətənpərvərlik, şəxsiyyət və cəmiyyət münasibətlərini və s. nəyi varsa hamısını əhatə eləmək gücü ilə müəyyənləşir. Bütün olanları və görmək istədiklərini öz qəhrəmanında cəmləşdirməklə onu ideallaşdırır. Məsələn, Qazan xan, Bamsı Beyrək, Buğac, Burla xatun, Koroğlu, Nigar xanım, Qaçaq Nəbi, Həcər, Qaçaq Kərəm və s. kimi el qəhrəmanlarının şəxsində olan keyfiyyətlər, formalaşmış mükəmməl təsəvvür sistemləri bunun nümunəsidir. Məsələn, xalq Koroğlunu təkcə qəhrəmanlıq keyfiyyətləri ilə faktlaşdırmır, həm də onu şair, aşıq, gözəl səsə malik sənətkar kimi də əbədiləşdirir. Çənlibel timsalında ideallaşdırılan mükəmməllik, birlik və ailə-cəmiyyət münasibətləri etnosun mənəviyyat zənginliyinə, törə münasibətlərinə bağlanır.

Azərbaycan dastanlarının XX əsrdə toplanması, nəşri və öyrənilməsi baxımından gərəkli işlər görmüş şəxsiyyətlərdən birisi H.Əlizadədir. O, "Koroğlu" dastanının 14 qolunu toplamış və 1941-ci ildə çap etdirmişdir [4]. Burada da diqqət yetirilən məsələlərdən biri də mövzu və ideya baxımından dastanların təhlilinə verilən önəmdir. Ümumiyyətlə, H.Əlizadə "Koroğlu" dastanı ilə bağlı toplamalara qədər ustad sənətkarların yaradıcılığı ilə əlaqədar əvəzsiz toplama işləri görmüşdür. "Dastanlar və nağıllar" kitabını 1937-ci ildə nəşr etdirmişdir. "Aşıq Valeh", "Aşıq Əmrah", "Novruz", "Şah İsmayıl", "Tahir Mirzə", "Məsum", "Alı xan və Pəri xanım", "İbrahim", "Diləfruz və Xəzangül", "Səyyad və Sədət" [2] kimi dastan nümunələri bir bütöv olaraq H.Əlizadə tərəfindən ustadların repertuarından yazıya alınmışdır. Bunlardakı motiv və situasiyaların zənginliyi, milli-əxlaq, tərbiyə və davranış kodları və onun ümumi sistemi hər bir dastan nümunəsində aparıcı xətt kimi özünə yer alır. Dastanlar bir növ xalq pedaqogikasının əsaslı mənbəyi olma funksiyasını yerinə yetirir. Ailə institutu, sosial sferada münasibətlərin nizamı

timsalında ən klassik nümunələr dastanlara daşınır. Aşıqların repertuarında yüz illər boyunca yaşarılıq qazanan bu nümunələr həm də tərbiyə örnəyi kimi etnosun yoluna işıq tutmuşdur. “Azərbaycan sovet hakimiyyətinin ikinci onilliyi qəhrəmanlıq dastanlarının da əsaslı toplanıb nəşr edildiyi dövrdür. 1934-cü ildən sonra “Koroğlu” və “Qaçaq Nəbi” dastanlarının toplanması uğrunda yürüş başlanır. Bu illərdə Azərbaycan folklorunun toplanması sahəsində ən faydalı və məhsuldar işlərdən biri xalqımızın qəhrəmanlıq epopeyası olan “Koroğlunun toplanmasıdır” [9, s.33]. Həmin illərdə “Qaçaq Nəbi” dastanı ilə bağlı 220 səhifəlik yazı Qubadlıdan toplanaraq mətbuatda hadisə səviyyəsində qeyd edilmişdir. “Qaçaq Nəbi” dastanı 1938-ci ildə ayrıca kitab şəklində çap olunmuşdur. Ə.H.Tahirov, Ə.Axundov, A.Nəbiyev müxtəlif illərdə “Qaçaq Nəbi” dastanını nəşr etdirmişlər. Bu nəşrlərin hamısında qabardılan əsas məsələ xalqın qəhrəmanlığının, etnosa sahib durma missiyasının təlqin və təbliği məsələsi olmuşdur. Çünki etnik sistem və onun nüvəsini təşkil edən müəyyənləşmiş törə və yasaqlar bütün aspektlərdə təlim və tərbiyənin uğurluluğu ilə daşınır. Kazan universitetinin professoru Mirzə Kazım bəy bunları xalqların daha əski çağlarındakı mədəniyyət layları müstəvisində təhlilə gətirir və vurğulayır ki, “əfsanəsi olmayan xalq, rəvayəti olmayan ölkə yoxdur. Köçərilərdə bu nəsildən-nəslə şifahi şəkildə keçirilir.

Yarımmədəni xalqlarda bu nümunələr onların etiqadlarının əsasını, yazılı ədəbiyyatının, tarixinin əsas məzmununu təşkil edir. Mədəni xalqlarda isə müqəddəs bir şey kimi onların təxəyyülü üçün zəngin qida mənbəyinə çevrilir” [3, s.36]. Köçərilərin, yarımmədəni və mədəni xalqların əfsanə, mif, rəvayət örnəkləri üzərində aparılan bu təhlillərdə etnomədəni sistemin ümumi dinamikası, tarixi-mədəni prosesin gedişi aydınlaşma məqsədi daşıyır. Bunun isə mahiyyətində həmin təsəvvürlərin etnik çevrə daxilində mənimsədilməsi, bir təsəvvür və mədəniyyət, dünyagörüşü hadisəsi olaraq yaşadılması dayanır. Çünki etnik mühitin müəyyənləşdirdiyi əxlaq və davranış klişeləri etnik şüurun pozulmaz və toxunulmaz törəsi olaraq yasaqlanır. Ona görə də Azərbaycan folklor mühitinin arsenalında mühüm bir hissəni tutan qəhrəmanlıq dastanları özündə tərbiyənin ailə-mühit çərçivəsində ciddi modellərini müəyyənləşdirir.

Dastan tədqiqatçıları, dilçilər, etnoqraflar, tarixçilər, musiqişünaslar bütün təhlillərində onların ehtiva etdiyi məzmuna, mahiyyətində qatlaşan mənəviyyat və əxlaq düsturlarına, ailə və cəmiyyət institutlarının müəyyənləşdirdiyi formullara bağlanmaqla qənaətlərini təhlil etmək yolunu tuturlar. “Qəhrəmanlıq dastanları Azərbaycan xalqının mənəvi mədəniyyətinin formalaşmasında mühüm rol oynayan şifahi xalq yaradıcılığının ayrılmaz tərkib hissəsidir. Dastanların Azərbaycan xalqının milli yaddaşının qorunub saxlanmasında, nəsildən-nəslə ötürülməsində əvəzsiz rolu vardır. Tarixin keşməkeşli dövrlərində azərbaycanlılar müxtəlif səpkili xalq dastanlarımızın ovqatına köklənmiş, ata-babalarımızın göstərdikləri qəhrəmanlıqlardan vəcdə gəlmiş, ruhlanmış, vətən uğrunda

mübarizəyə qalxmışlar.

Tarixi-etnoqrafik mənbə rolunu oynayan dastanlar etnik-mədəni varisliyi və milli yaddaşı qorumağa, etnogenez probleminin bir çox aspektlərini öyrənməyə imkan verir" [6, s.6]. Ümumiyyətlə, xalq bir bütöv olaraq milli yaddaşı, onun bütün paradiqmatik məzmununu əhatə etmək gücü ilə həmişə maraq doğurmuşdur. Çünki janrın özünün bir forma olaraq sərgilədiyi rəngarənglik, məsələn, janr səviyyəsi, mifdən atalar sözü, məsəllərə, nəzmlə nəsrin əlaqələnməsi timsalında imkanlılığa, rəvayət, əfsanə motivlərini öz içərisində əks etdirə bilmək gücünə görə mühüm önəm daşıyır. Ona görə də tarixi, etnoqrafik, sözlü ədəbiyyat, xalqın etnopedaqoji və etnopsixoloji sistemlərindəki oturuşmuş şüuraltı və şüurüstü kodları müəyyənləşdirmək üçün ən əsaslı mənbədir. Bütün bunlar isə bir nitq və mədəniyyət janrı olaraq epos-dastan mühitində genişliklə özünün ifadəsini tapır. Belə olan tərzdə dastan, eləcə də digər folklor janrları tərbiyəyə yüklənir.

Azərbaycan qəhrəmanlıq dastanlarında tərbiyə və onun ümumi sisteminə olan həssaslıq bütün dövrlərdə qəhrəmanlıq dastanlarının daxili zənginliyinə, janrın ehtiva etdiyi məzmundan mətn informasiyasına qədər ciddi bir mükəmməlliklə bağlanır. Onun sinxron və diaxron yanaşmalardakı potensiyası bütünlükdə etnik sistemin təfəkkür intelleksiyasına, arxaik yaddaşdan günümüzə daşıyıb gətirdiklərinə bağlanır. Dastan ümumi simmetrik formulu ilə məhz bu möhtəşəm funksiyanı yerinə yetirmək amalına köklənir. Ona görə də ayrı-ayrı dönəmlərdə ayrı-ayrı elm sahələrinin dastan mühitinə marağı həmişə güclənən istiqamətdə getmişdir. XX əsrin ilk yarısında görülən işlər, toplama, nəşr və tədqiq sahəsində başlayan hərəkat özlüyündə XIX əsrin sonlarından başlayan milli oyanışın, mədəni mühitdə mövcud canlanmanın yüksələn istiqamətini səciyyələndirir. S.Mümtaz, F.Ağazadə, B.Çobanzadə, Ə.Abid, Y.V.Çəmənzəminli, H.Əlizadə, B.Behcət, S.Hüseyn, H.Zeynallı, S.Hüseyn, C.Əfəndizadə, V.Xuluflu və s. kimi görkəmli simalar dastanların öyrənilməsinə xüsusi həssaslıq göstərmişlər. Məsələn, XIX əsrin sonu XX əsrin əvvəllərinin görkəmli simalarından olan B.Behcət "Qaçaq Nəbi"nin tarixi (vəsiqə və sənədlər üzrə)" əsərini xalqın qəhrəmanlıq tarixinin ən möhtəşəm hadisəsi olaraq yazıya gətirir.

Tarixçi, dinşünas, folklorçu, pedaqoq B.Behcət qaçaq hərəkatının tarixinə, Qaçaq Nəbi ilə bağlı mənbələrə lazımı qədər bələd olan yeganə şəxsiyyət idi. Çünki həmin dövrdə Zəngəzur mahalının qazısı olmuş, çar hökuməti, Xalq Cümhuriyyəti və sovetlər dönəmi zamanını bir ziyalı olaraq yaşamışdı. Bu əsər zamanında geniş ictimaiyyətə çatdırılmamış, B.Behcətin 37-ci il repressiyası zamanı özü ilə birgə repressiya qurbanına çevrilmişdir. Son dövrlərdə, daha doğrusu, 2011-ci ildə "Qaçaq Nəbi"nin tarixi (vəsiqə və sənədlər üzrə)" əsəri ədəbi ictimaiyyətə çatdırılmışdır. "Qaçaq Nəbinin dövrü", "Qaçaq Nəbinin yurdu", "Qaçaqlıq və onun ümumi səbəbləri", "Xalq Qaçaq Nəbiyə və ümumi qaçaqlara nə fikirlə baxırdı", "Qaçaq Nəbi və onun ailə vəziyyəti", "Qaçaq Nəbinin qaçaqlıqdan əvvəlki həyat şəraiti", "Qaçaq Nəbi Murad qalasında", "Camal qalası və onun

binası" və s. başlıqlar altında verilənlər bütün tərəfləri ilə tərbiyəvi mahiyyətə, xalq və qəhrəman təsəvvürünün aydınlığına xidmət edir. M.Ə.Rəsulzadə, İ.Hikmət, Ə.H.Tahirov, Ə.Axundov, M.H.Təhmasib, P.Əfəndiyev, V.Vəliyev, İ.Abbaslı, A.Nəbiyev, M.Allahmanlı və başqaları "Qaçaq Nəbi" dastanı və onun məzmun xətləri, qaçaq hərəkatı və xalq qəhrəmanı şəxsində Qaçaq Nəbinin ətrafı və s. məsələlərlə bağlı sistemli təhlillər aparmışlar.

Qəhrəmanlıq dastanlarının Azərbaycan dastan mühitində genetikasını və bir təfəkkür, mənəviyyat, əxlaq hadisəsi olaraq daşınışını təhlilə gətirən tədqiqatçılar mahiyyət müstəvisində etnomədəni şüurun mövcudluq parametrlərinə daha çox diqqət yetirirlər. Burada isə özünü göstərən ana xətt etnosun əxlaq və davranış, ideya-mənəvi tərbiyə, şəxsiyyət və cəmiyyət, toplum və fərd, ailə və ağsaqqallıq institutları səviyyəsində müəyyənləşmiş tabulardır. "Bilqamıs", "Manas", "Uralbatır", "Canqar", "Corabatır", "Edige", "Kitabi-Dədə Qorqud", "Boz yigit", "Oğuz Kağan", "Koroğlu", "Qaçaq Nəbi", "Qndal Nağı", Dəli Alı", "Qaçaq Kərəm" və s. dastan nümunələrinin bütünlükdə nüvəsini təşkil edən bu düşüncə və tərbiyə modeli aparıcı və əsas olan kimi qorunur. Bəhlul Behcət şəxsiyyət-qəhrəman-xalq müstəvisində bağlantıları diqqət önünə gətirərək yazır: "Qaçaq Nəbinin tarixini yazarkən yeri gəldikcə onun xalqla rabitəsini və dostluq əlaqələrini bəyan etmişik və bununla da xalqın Nəbini və onun dəstəsini nə dərəcədə sevdiyini də göstərmişdik.

Başqaları tərəfindən daim cəbr və istismara uğramış xalq, ümumiyyətlə, Nəbini daim öyrənir və onun hərəkətlərini izləyir və bu hərəkət və fəaliyyət nəticələrini maraqla bir-birinə yetirir və bu mübarizənin kimin tərəfinə və kimin zərərinə olduğunu aydın dərk edir və nəticələrini alqışlayır, dastanlar oxuyur və oxuduqca qoşulan bədii parçaları bir qəhrəmanlıq dastanı olaraq toylarda və başqa el yığıncaqlarında ətrafa yayırdılar.

Saz şairləri və el aşıqları öz məclislərini daha çox maraqlı keçirmək üçün ən əvvəl Qaçaq Nəbidən və onun haqında qoşulan bədii parçalardan başlayırdılar" [1, s.252]. Göründüyü kimi, ensiklopedik zəka sahibi B.Behcət öz təhlillərində Qaçaq Nəbiyə olan məhəbbətin qaynağını və böyük sevginin mahiyyətini diqqət önünə gətirir. Xalq qəhrəmanına olan sevgi və bu qəhrəmanlığı zərurətə çevirən məsələlər, xalq arasında olan əhvalatlar, hekayətlər, el sənətkarları tərəfindən qoşulan mahnılar bütün aspektləri ilə özlüyündə milli-mənəvi dəyərləri, toplumun qəhrəmanlıq təsəvvürlərini aydınlaşdırır. Nümunə üçün digər bir epizoda da diqqət yetirək: "Nəbi yoldaşlarına qarşı çox hörmətcil və qayğı göstərən idi. O, bu barədə bir "Koroğlu" xasiyyəti daşıyırdı. Bununla belə onun dəstəsi çox izdihamlı olmazdı. Onun bütün hərəkətləri 20 nəfərdən çox olmayan yoldaşları ilə olurdu" [1, s.142]. Burada Qaçaq Nəbi ilə bağlı vurğulanan fikirlər və Koroğlunun xatırlanması bütünlükdə xalqın qəhrəmanlığının bir tərbiyə, etnosa sahib durmaq missiyası olaraq xatırlanması etnik milli yaddaşın mükəmməllik formulunu müəyyənləşdirir. M.Ə.Rəsulzadə "Azərbaycan tarixində qaçaq hərəkatı" adlı

məqaləsində xalq-toplum-zalım timsalında qaçaq hərəkatı ilə bağlı qənaətlərini ümumiləşdirir və bu hərəkata xalq sevgisinin qaynağını aydınlaşdırmağa çalışır: "Azərbaycanda qaçaq hərəkatı əsasən rus çar rejiminə və yerli zülmkarlara qarşı mübarizə prosesində meydana gəlmişdir. Azəri xalqı öz gördükləri işlərlə igidlik və yenilməz qəhrəmanlıq dastanı yaradan qaçaqları sevmiş, təriflәmiş və qorumuşdur. Çünki qaçaqlar Azərbaycanın zülmdən qurtarması uğrunda mübarizə aparmışlar" (7). Bütün bunlar xalqın bədii-estetik təfəkküründə kodlaşmış sistemin "Alp-Ər Tonqa"dan, "Oğuzu Kağan"dan, "Boz Qurd"dan yaxın zamanımızın dastan nümunələrindəki qəhrəmanlıq və vətənpərvərlik anlamında tərbiyə fəlsəfəsinin ümumi axarını müəyyənləşdirir.

**İşin elmi yeniliyi:** "Koroğlu", "Qaçaq Kərəm", "Qaçaq Nəbi", "Qara Tanrıverdi" və s. dastanların tədqiqi bir istiqamətdə milli-mənəvi dəyərlərin araşdırılması probleminin aydınlaşmasına köklənmişdir. Çünki bu nümunələr xalq pedaqogikasının enerji qaynağı olaraq mükəmməl faktura ilə müəyyənləşir.

**İşin tədqiq əhəmiyyəti:** Qəhrəmanlıq dastanları xalqın tarix, tərbiyə, mənəviyyat dərsliyidir. Onun mahiyyətində olanların aydınlaşması etnomədəni sistemin məzmunu üçün əsaslı mənbə funksiyasını yerinə yetirir. Milli-mənəvi dəyərlər toplusu olaraq onların öyrənilməsi tarixi-mədəni prosesin gedişi haqqında dolğun təsəvvür formalaşdırır və sistemli təhlillərə şərait yaradır.

## ƏDƏBİYYAT


1. *Behcət B.* Qaçaq Nəbinin tarixi (vəsiqə və sənədlər üzrə). Bakı: Çıraq, 2011, 296 s.
2. Dastanlar və nağıllar / toplayıb tərtib edəni H.Əlizadə. Bakı: Azərnəşr, 1937, 461 s.
3. *Казым бек Мирзе.* Мифологии персов по Фирдовси / Северное обозрение, отд. IV, СПБ, 1848, с.32-43
4. Koroğlu / Vəli Xuluflu nəşri. Bakı: Elm, 1999, 200 s.
5. Koroğlu / toplayan H.Əlizadə. Bakı: Azərnəşr, 1941, 226 s.
6. *Quluzadə T.* Qəhrəmanlıq dastanlarında Azərbaycan etnoqrafiyasının əksi. Bakı: Elm və təhsil, 2018, 236 s.
7. *Rəsulzadə M.Ə.* Azərbaycan tarixində qaçaq hərəkatı. www//rasulzade.orq.
8. *Talıbov Y., Ağayev Ə., İsayev İ., Eminov A.* Pedaqogika. Bakı: Maarif, 1993, 292 s.
9. *Umudov Q.* Azərbaycan folklorşünaslığı: tarixi, problemləri. Bakı: ADPU, 2011, 273 s.


Redaksiyaya daxil olub 28.10.2020

# İctimai elmlər

*UOT 94 (479.24)*

***N.Ş.Ağayeva***
*AMEA Naxçıvan Bölməsi*
*nuraagaoglu@gmail.com*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ XATİRƏ MUZEYLƏRİ

***Açar sözlər**: Naxçıvan, muzey, fond, milli-mənəvi dəyərlər, xatirə muzeyləri*

Məqalədə müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında yaradılan xatirə muzeyləri haqqında məlumat verilir. Son illərdə muxtar respublikada aparılan quruculuq işlərinin tərkib hissəsi kimi muzeylərin binaları əsaslı şəkildə bərpa olunub, fondları zənginləşdirilib. Muxtar respublika rəhbərliyi tərəfindən muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin qurulması sahəsində görülən işlərin əhəmiyyəti xüsusi olaraq vurğulanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq muxtar respublikada idarə, müəssisə və təşkilat işçilərinin hər həftənin şənbə günü müəyyən olunmuş cədvəl əsasında muzeylərə kollektiv gedişi təmin olunub. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə səbəb olub ki, məqalədə həmçinin bunların əhəmiyyətindən bəhs olunur.

***Н.Ш.Агаева***

## МЕМОРИАЛЬНЫЕ МУЗЕИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

***Ключевые слова:** Нахчыван, музей, фонд, национально-духовные ценности, мемориальные музеи*

В статье рассказывается о мемориальных музеях, созданных в Нахчыванской Автономной Республике в годы независимости. Также отмечается, что в последние годы в рамках созидательной работы, проводимой в автономной республике, здания музеев были основательно отреставрированы, фонды пополнились. Подчеркнута важность работы, проделанной руководством автономной республики в области интерактивного общения между музеями и учебными заведениями. В соответствии с Распоряжением Председателя Верховного Совета Нахчыванской Автономной Республики от 19 декабря 2014 года «О дальнейшем укреплении связей с музеями» в автономной республике сотрудникам ведомств, предприятий и организаций по субботам предоставляется коллективное посещение музеев. Реализация этих мероприятий привела к росту интереса к музеям, всестороннему изучению и популяризации нашей истории и культуры; в статье также рассматривается их важность.

**N.S.Aghayeva**

## MEMORIES MUSEUMS OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

***Keywords***: *Nakhchivan, museum, fund, national-spiritual values, memorial museum*

The article provides information about the memorial museums established in the Nakhchivan Autonomous Republic during the years of independence. It is also noted that in recent years, as part of the creative work carried out in the autonomous republic, the buildings of museums have been thoroughly restored, the funds have been enriched. The importance of the work done by the leadership of the Autonomous Republic in the field of establishing interactive communication between museums and educational institutions was emphasized.In accordance with the Order of the Chairman of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic dated December 19, 2014 "On further strengthening relations with museums" , in the autonomous republic employees of departments, enterprises and organizations The importance of the implementation of these measures in the field of increasing interest in museums, comprehensive study and promotion of our history and culture was discussed.

### Giriş

Muzeylər qədim dövrlərdən bizə miras qalan milli-mənəvi dəyərlərimizin qorunmasında və bu günümüzə çatdırılmasında mühüm rol oynayan mədəniyyət ocaqlarıdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildə muzey işçilərinin respublika müşavirəsi keçirilmiş, müşavirənin yekunlarına əsasən respublikamızda “Muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında” qərar qəbul olunmuşdur. Muzeylərin yaradılması və fəaliyyəti sahəsində 24 mart 2000-ci il tarixdə qəbul edilmiş “Muzeylər haqqında” Azərbaycan Respublikası Qanununun Azərbaycan Respublikasının Prezidenti tərəfindən 22 may 2009-cu il tarixdə imzalanmış “Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında” sərəncamın mühüm rolu olmuşdur [5].

Naxçıvan Muxtar Respublikasında muzey işinin təşkilinin yaşı çoxdur. Belə ki, Naxçıvanda ilk muzey 1924-cu ildə təşkil olunmuşdur. Muxtar respublikada muzeylərin təşkili işində 1996-ci ildən sonra bir sıra mühüm addımlar atılmışdır.

“Muzeyləri qorumaq hər kəsin vətəndaşlıq borcudur”, - deyən Ulu öndərin qayğısı ilə müstəqillik dövründə muxtar respublikada aparılan quruculuq işlərinin tərkib hissəsi kimi burada bir sıra yeni muzeylər yaradılmış, əvvəlki muzeylərin binaları əsaslı sürətdə bərpa olunmuş, fondları zənginləşdirilmişdir [10].

Ulu öndərin bizlərə miras qoyduğu siyasi kursun davamçısı olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan

Dövlət Tarix Muzeyinin yaranmasının 95 illiyi münasibətilə keçirilən tədbirdə muzeylərin əhəmiyyətindən danışaraq qeyd etmişdir ki, "Tarixi-mədəni irsi qorumaq, mühafizə və təbliğ etmək gələcəyimizə olan diqqətdir. Əgər elm müəssisələri tarixi öyrənir, tədqiq edərək üzə çıxarırlarsa, muzeylər də onu yaşadaraq gələcək nəsillərə çatdırır". Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muzeylərə göstərdiyi qayğının nəticəsidir ki, bu gün Naxçıvan Muxtar Respublikasını "muzeylər diyarı" da adlandırmaq olar. Hal-hazırda muxtar respublikada 28 muzey və 1 muzey tipli müəssisə olan Naxçıvan Dövlət Rəsm Qalereyası fəaliyyət göstərir. Qeyd etmək istərdik ki, muxtar respublika muzeylərində ümumilikdə 134000-dən çox eksponat mühafizə olunur [9].

Müstəqillik illərində Naxçıvan diyarında bir neçə xatirə muzeyi təşkil olunmuşdur ki, onlardan biri də Cəlil Məmmədquluzadənin Ev Muzeyidir. Bu muzey 1998-ci ildə Naxçıvan şəhərində Cəlil Məmmədquluzadənin doğulduğu, uşaqlıq və gənclik illərini keçirdiyi evdə yaradılmışdır. Muzeydə böyük ədibin həyat və yaradıcılığına aid 2300-dən çox eksponat mühafizə olunur və nümayiş etdirilir. Cəlil Məmmədquluzadə və onun ailəsinə məxsus şəxsi məişət əşyaları, o cümlədən yazıçının əsərləri, onun müasirlərinə aid sənədlər və s. muzeyin qiymətli eksponatları sırasındadır [2].

1999-cu ildə yaradılan Heydər Əliyev Muzeyi Ümummilli liderin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı öz üzərinə götürərək bu gün də həmin missiyanı uğurla həyata keçirir. Muzeyin zəngin ekspozisiyası onu seyr edən hər kəsin qəlbində dərin iz qoyaraq yüksək təəssürat yaradır. Muzey Ulu öndərimizin dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik ideyalarını təbliğ etməklə yanaşı, gəncləri Ümummilli liderimiz Heydər Əliyev kimi xalqa, Vətənə və dövlətə sədaqətli olmağa çağırır. 2005-2006-cı illərdə əsaslı şəkildə yenidən qurulan muzey 2006-cı ilin dekabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir. 564 kvadratmetrlik ekspozisiya zalından ibarət muzeyin kompozisiya, dizayn, işıq və ornament tərtibatı göz oxşayır. Yüksək səviyyədə muzey xidməti göstərmək üçün burada kitabxana yaradılmış, ulu öndərimiz haqqında çəkilmiş filmləri seyr etmək üçün televizor və videomaqnitofon yerləşdirilmiş, kompüter dəstləri quraşdırılmış, muzeyin internet saytı (www.aliyev-museum.nakhchivan.az) yaradılmışdır.

Qeyd etmək yerinə düşər ki, Ümummilli liderimiz Heydər Əliyev 1999-cu il oktyabr ayının 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək muzeyin ekspozisiyası ilə tanış olmuşdur. Ulu öndərin muzeyi ziyarəti zamanı çəkilmiş tarixi fotolar bu gün muzeyin ekspozisiyasında nümayiş etdirilir. Muzeydə nümayiş etdirilən eksponatlar Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və

jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, Ulu öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir [7].

1997-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə Şəhidlər Muzeyi yaradılımışdır. Muzey 500 eksponatla fəaliyyətə başlayıb. 8 avqust 2000-ci il tarixdə muzeyin adı dəyişdirilərək Xatirə Muzeyi adlandırılıb. 2015-ci ildən muzey Şəhidlər Xiyabanı yaxınlığında yeni inşa edilən binada fəaliyyət göstərir. Muzeydə soyqırımı faktları, şəhidlərin fotoşəkilləri, ermənilərə qarşı döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda Milli və Sovet İttifaqı qəhrəmanlarının fotoşəkilləri, şəxsi əşyaları və onlara aid olan digər materiallardan ibarət ümumilikdə 2000-dən artıq eksponat var. Onlardan 337-si ekspozisiyada sərgilənir. Muzeyin ekspozisiyası xronoloji ardıcıllıqla qurulub [1].

Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndələrindən biri, təsviri sənətimizdə realist dəzgah boyakarlığının banisi Bəhruz Kəngərlinin xatirəsini əbədiləşdirmək məqsədilə 2002-ci ildə Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi yaradılıb. Muzeydə qorunub saxlanılan və nümayiş etdirilən 1200-dən çox eksponatdan 63-ü rəssamın əsərlərinin orijinalı, qalanları isə əsərlərin fotosurətindən, habelə ailəsi, həyat və fəaliyyəti ilə bağlı sənədlərdən, məişət əşyalarından və digər materiallardan ibarətdir. Xəstəliyi ilə əlaqədar qısa ömür sürmüş və cəmi 7 il yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq imkanı qazanmış Bəhruz Kəngərli 2000-ə qədər rəsm əsəri yaratmışdır [8].

Şahtaxtinskilər Muzeyi 2010-cu ildə Kəngərli rayonunun Şahtaxtı kəndində yaradılıb. Burada iki ekspozisiya otağı ilə yanaşı, iki yardımçı otaq vardır. Muzeydə 150-dən çox eksponat nümayiş etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli ictimai xadim, publisist və maarifçi Məhəmməd ağa Şahtaxtinskinin anadan olmasının 160 illiyinin qeyd olunması və xatirəsinin əbədiləşdirilməsi haqqında" 2006-cı il 27 fevral tarixli, "Şahtaxtinskilər muzeyinin yaradılması haqqında" 2010-cu il 9 fevral tarixli sərəncamları muzeyin ekspozisiyasında sərgilənir [4]. Şahtaxtinskilər haqqında məlumatlar, onların nəsil şəcərəsi, əlyazmaları, müasirlərinin fotoşəkilləri və digər eksponatlar bütöv bir ziyalı nəsli haqqında dolğun təəssürat yaradır. Muzeydə təkcə Məhəmməd ağa və Behbud ağa Şahtaxtinskilərin deyil, tariximizin müxtəlif dövrlərində yaşayıb fəaliyyət göstərmiş və milləti, dövləti üçün mübarizə aparmış Şahtaxtinskilərin hamısı haqqında materiallar toplanmışdır.

Cəlil Məmmədquluzadənin Cəlilkənd kəndində Xatirə Muzeyi Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinin filialı kimi 1987-ci ildə ədibin

vaxtilə müəllim işlədiyi Şərur rayonunun Cəlilkənd kəndində yaradılıb. 2013-cü ildən müstəqil fəaliyyət göstərən muzey 2015-ci ildə müasir memarlıq üslubunda inşa olunan yeni binaya köçürülüb. Muzey giriş hissə, ekspozisiya zalı, fond otağı və 2 iş otağından ibarətdir. Muzeyin fondunda 1000-ə yaxın eksponat var. Onlardan 200-dən çoxu ekspozisiya zalında nümayiş etdirilir. Eksponatlar əsasən ədibin müxtəlif illərdə qələmə aldığı əsərlərdən, istifadə etdiyi əşyalardan, "Molla Nəsrəddin" jurnalının müxtəlif nömrələrindən, eləcə də Cəlil Məmmədquluzadə irsindən bəhs edən kitablardan ibarətdir. Muzeydə nümayiş olunan bu dəyərli nümunələrin hər biri Azərbaycanda tənqidi realizm ədəbi cərəyanının və "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi, kiçik hekayə janrının və satirik publisistikanın yaradıcısı kimi böyük şöhrət qazanan ədibin irsinin öyrənilməsi üçün əvəzsiz mənbələrdir [6].

Məmməd Arazın Ev Muzeyi 2014-cü il dekabrın 1-də Xalq şairinin xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə onun doğulub boya-başa çatdığı Şahbuz rayonunun Nursu kəndində yaradılıb. Muzeyin binası iki mərtəbədən ibarətdir. Xalq şairi Məmməd Arazın zəngin irsini əks etdirən eksponatların yerləşdiyi muzey şairin həyat və yaradıcılığı haqqında geniş məlumat almağa imkan verir. Ekspozisiyada şairin müxtəlif illərdə nəşr olunan, eləcə də görkəmli söz ustasının həyat və yaradıcılığından bəhs edən kitablar, mənalı həyat yolunun müxtəlif dövrlərini əks etdirən fotoşəkillər və digər materiallardan ibarət ümumilikdə 1000-dən çox eksponat nümayiş etdirilir. Ötən dövr ərzində Məmməd Araz yaradıcılığının ətraflı tədqiq olunması, muzeylə ümumtəhsil məktəbləri arasında virtual dərslərin keçirilməsi və şairin irsinin layiqincə təbliğ edilməsi təmin edilmişdir [5].

Məhəmməd Tağı Sidqinin Ev Muzeyi 2015-ci ilin avqustunda görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin anadan olmasının 160 illiyi münasibəti ilə yaradılıb. Muzey binası iki mərtəbəlidir. Ekspozisiya zalı binanın ikinci mərtəbəsində yerləşir. Birinci mərtəbə muzey əməkdaşlarının iş otaqlarından ibarətdir. Ekspozisiya zalında M.T.Sidqinin hikmətli sözlərindən seçmələr, ömrünün müxtəlif dövrlərini əks etdirən, eləcə də ailə üzvləri, sənət yoldaşları və vaxtilə onun şagirdləri olan görkəmli şəxsiyyətlərin fotoşəkilləri nümayiş etdirilir. Həmçinin burada görkəmli maarifçinin tərcümeyi-halı, əlyazmaları, nəşr olunan məqalə və kitabları, eləcə də teatr sahəsindəki xidmətlərini əks etdirən dəyərli nümunələr, görkəmli pedaqoqun zəngin irsinin öyrənilməsi ilə bağlı keçirilən konfransların materialları, qəbul olunan proqramlar, Məhəmməd Tağı Sidqi haqqında yazılmış kitab, jurnal, qəzet materialları və fotoşəkillər qorunur. Muzeydəki eksponatlar M.T.Sidqi yaradıcılığını tədqiq edənlər üçün dəyərli elmi mənbələrdir. Muzeydə 300-ə yaxın eksponat nümayiş olunur [5].

**Nəticə**

Ümumiyyətlə, qeyd etmək istəyirik ki, 1996-ci ildən sonra muxtar respublikada olan muzeylərə dövlət qayğısı yüksək səviyyədə olmuşdur. Maddi-mədəniyyət nümunələrinin qorunub saxlandığı, təbliğ və nümayiş olunduğu muzeylərimiz həmişə diqqət mərkəzindədir. Muzeylər bu gün həm də azərbaycançılıq ideologiyasının, milli dəyərlərimizin, nümunəvi şəxsiyyətlərin ömür yollarının daşıyıcısı və təbliğatçısıdır. Bu baxımdan muxtar respublikada muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin qurulması sahəsində görülən işlər özündə böyük məna və məzmun daşıyır. Artıq muxtar respublikanın muzeylərində açıq dərslərin keçirilməsi ənənəyə çevrilib. Burada məqsəd böyüməkdə olan gənc nəsildə milli-mədəni irsimizə məhəbbət oyatmaq və onları zəngin tarixi keçmişimizlə tanış etməkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına [2] uyğun olaraq muxtar respublikada idarə, müəssisə və təşkilat işçilərinin hər həftənin şənbə günü müəyyən olunmuş cədvələ əsasən muzeylərə kollektiv gedişi təmin olunur. Bu tədbirlərin həyata keçirilməsi muzeylərə marağın artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə və təbliğinə şərait yaradır.

**ƏDƏBİYYAT**


1. *Əkbərova R.* Hamımızın üz tutduğu ünvan: Xatirə Muzeyi. "Şərq qapısı" qəz., 9 sentyabr 2017, s.4.
2. *Əliyev R.* Cəlil Məmmədquluzadənin ev-muzeyinə yeni eksponatlar təqdim olunub. "Şərq qapısı" qəz., 27 dekabr 2016, s.2
3. "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 19 dekabr 2014-cü il tarixli Sərəncamı.
4. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti. Kəngərlidə Şahtaxtinskilər muzeyi yaradılır. "Azərbaycan" qəz., 19 fevral 2010
5. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti. Maddi-mədəni sərvətlər xəzinəmiz olan muzeylər tariximizin saxlanc yeridir. "Şərq qapısı" qəz., 18 may 2013, s.2.
6. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti. Muzeylər xalqımızın maddi-mənəvi sərvətlər xəzinəsidir. "Şərq qapısı" qəz., 18 may 2018, s.3.
7. *Orucəliyev R.* Heydər Əliyev Muzeyi. "Şərq qapısı" qəz., 16 fevral 2013, s.2.
8. http://behruzkengerli.nakhchivan.az/
9. http://turizm.nakhchivan.az/index.php/m-d-niyy-t/2015-12-29-22-27-26
10. http://naxcivantv.az/index.php/ri/21897-nax%C3%A7%C4%B1van-d%C3%B6vl%C9%99t-tarix-muzeyinin-95-illik-yubileyi-qeyd-olunub.html


Redaksiyaya daxil olub 08.11.2020

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2020, C.68, №3, s. 53-64
Transactions of Pedagogical University. Series of humanitarian, social and pedagogical-psychological sciences – 2020, V.68, №3, pp. 53-64

*UOT 94(479.24)*

***Ə.R.Fərhadov***
*Milli Azərbaycan Tarixi Muzeyi*
*ali_farhadov@yahoo.com*

# SERAYA ŞAPŞAL VƏ AZƏRBAYCANIN GÜNEYİNDƏ YƏHUDİLİYİN TARİXİNDƏN (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ)

***Açar sözlər:*** XIX –XX əsrin əvvəlləri, Qacar, Azərbaycan, yəhudi, Şapşal

Məqalədə XIX-XX əsrin əvvəllərində Azərbaycanın güneyində yəhudilik mövzusundan və dövrün görkəmli musəvi mütəfəkkiri, dövlət xadimi Seraya Şapşaldan bəhs olunmuşdur. Həmçinin məşrutə inqilabına, onun səbəb və nəticələrinə nəzər salınmışdır. Məşrutə inqilabı öncəsi yəhudilərin digər qeyri-müsəlmanlar kimi təzyiqlərə məruz qalması, inqilabdan sonra bir qədər öz milli-dini haqlarına qovuşduqları bildirilmişdir. Məqalədə XIX əsrin sonunda dünya yəhudilərinin Nəsrəddin şah Qacardan yəhudi haqlarını tələb etməsi, XX əsrin əvvəlində Qacar hakimiyyətinin konstitusiyaya və parlamentarizmə münasibətləri təqdim edilmiş, şah rejiminin xalqa zidd siyasəti haqqında, siyasi fəaliyyəti barədə məlumat verilmişdir. Qacar sarayında xidmət etmiş rusiyalı diplomat, şərqşünas Seraya Şapşalın həyat və yaradıcılığından bəhs edilmişdir. Göstərilmişdir ki, karaim mənşəli olan Şapşal Rusiya hökumətinin razılığı ilə Qacar sarayında xidmət etmiş, vəliəhd Məhəmmədəli Mirzənin müəllimi, daha sonra da şahın məsləhətçisi olmuşdur. O, məşrutə inqilabı dövründə inqilabçılara qarşı şahı dəstəkləmiş, parlamentin dağıdılmasında rol oynamışdır. Bu dövrdə oynadığı mənfi rola baxmayaraq sonralar o, bir dini rəhbər kimi karaimliyin tamamilə türkləşdirilməsində mühüm xidmətlər göstərmiş, bu mövzuda əsərlər yazmışdır. Həmçinin Azərbaycan və türk ədəbiyyatının tədqiqində, karaimliyin tədqiqində, Azərbaycan-yəhudilik əlaqələrinin öyrənilməsində müsbət fəaliyyət göstərmişdir. Məqalədə M.Ə.Rəsulzadə, Ə.Ağaoğlu, Ə.Hüseynzadə kimi Azərbaycanın görkəmli dövlət xadimlərinin, ziyalıların məşrutə inqilabına, Qacar hakimiyyətinə, həmçinin Şapşala münasibəti təqdim edilmişdir. M.Ə.Rəsulzadənin Şapşalın məşrutə dövründəki mənfi fəaliyyətini tənqid etməsinə baxmayaraq sonralar onun elmi yaradıcılığına xoş münasibəti, yəhudiliyə və digər xalqlara olan tolerant münasibəti məqalədə göstərilmişdir.

***А.Р.Фархадов***

## СЕРАЯ ШАПШАЛЬ И ОБ ИСТОРИИ ЕВРЕЙСТВА В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ (В XIX-НАЧАЛЕ XX ВВ.)

***Ключевые слова:*** XIX-начало XX веков, Гаджар, Азербайджан, еврей, Шапшаль

Статья посвящена теме иудаизма в Южного Азербайджане в начале XIX и XX веков, а также Серая Шапшалу, выдающемуся еврейскому мыслителю и государственному деятелю того времени. XIX и начало XX века – один из самых

бурных периодов в истории Азербайджана. в статье так же рассматривается конституционная революция, ее причины и последствия. Говорят, что до конституционной революции евреи, как и другие немусульмане, подвергались преследованиям, а после революции они восстановили некоторые свои национальные и религиозные права. В статье представлены требования евреев к правам евреев от Насреддина Шаха Гаджара в конце XIX века и отношение гаджарского правительства к конституции и парламентаризму в начале XX века. В частности, была предоставлена информация об антинародной политике и политической деятельности шахского режима. Обсуждались жизнь и деятельность Серая Шапшаль, российского дипломата и востоковеда, служившего во дворце Гаджар. Было отмечено, что Шапшаль, который был караимским по происхождению, служил в гаджарском дворце с согласия правительства России, был учителем наследного принца Мухаммадали Мирзы, а затем советником шаха. Он поддержал короля против революционеров во время конституционной революции и сыграл роль в роспуске парламента. Несмотря на негативную роль, которую он сыграл в этот период, позже он, как религиозный лидер, внес важный вклад в полную тюркизацию караимизма и написал работы на эту тему. Он также сыграл положительную роль в изучении азербайджанской и турецкой литературы, изучении караимизма, изучении азербайджано-еврейских отношений. В статье представлено отношение видных азербайджанских государственных и интеллектуальных деятелей, таких как М.А.Расулзаде, А.Агаоглу, А.Гусейнзаде к конституционной революции, гаджарскому правительству, а также к Шапшале. Несмотря на то, что М.А.Расулзаде критиковал негативную деятельность Шапшала в конституционный период, позже в статье было показано его позитивное отношение к его научной работе, толерантное отношение к иудаизму и другим народам.

***A.R.Farhadov***

## SERAYA SHAPSHAL AND ABOUT THE HISTORY OF JEWISH IN SOUTH AZERBAIJAN (IN THE XIX-BEGINNING OF THE XX CENTURY)

***Keywords**:* XIX-early XX centuries, Gajar, Azerbaijan, jew, Shapshal

The article is devoted to the topic of Judaism in South Azerbaijan at the beginning of the 19th and 20th centuries, as well as Seraya Shapshal, an outstanding Jewish thinker and statesman of that time. The 19th and early 20th centuries are one of the most turbulent periods in the history of Azerbaijan. As well as the article examines the constitutional revolution, its causes and consequences. It is said that before the constitutional revolution, Jews, like other non-Muslims, were persecuted, and after the revolution they restored some of their national and religious rights. The article presents the claims of Jews to the rights of Jews from Nasreddin Shah Gajar at the end of the 19th century and the attitude of the Gajarian government to the constitution and parliamentarism at the beginning of the 20th century. In particular, information was provided on the anti-popular policy and political activities of the Shah's regime. The life and work of Seraya Shapshal, a Russian diplomat and orientalist who served in the Gajar

Palace, were discussed. It was noted that Shapshal, who was of Karaim origin, served in an Gajarian palace with the consent of the Russian government, was a teacher to Crown Prince Muhammadali Mirza, and then an adviser to the Shah. He supported the king against the revolutionaries during the constitutional revolution and played a role in the dissolution of parliament. Despite the negative role he played during this period, he later, as a religious leader, made an important contribution to the complete Turkicization of Karaimism and wrote works on this topic. He also played a positive role in the study of Azerbaijani and Turkish literature, the study of Karaimism, the study of Azerbaijani-Jewish relations. The article presents the attitude of prominent Azerbaijani state and intellectual figures, such as M.A. Rasulzade, A. Agaoglu, A. Huseynzade, to the constitutional revolution, the Gajarian government, and also to Shapshal. Despite the fact that M.A. Rasulzade criticized Shapshal's negative activities during the constitutional period; later the article showed his positive attitude towards his scientific work, tolerant attitude towards Judaism and other peoples.

XIX-XX əsrin əvvəllərində Qacar dövlətinin hakimiyyəti altında olan Azərbaycanın güneyi çoxmillətli, çoxdinli və çoxməzhəbli bir bölgə idi. Bu dövr Azərbaycan tarixinin ən keşməkeşli dövrlərindən biridir. Türkmənçay müqaviləsindən sonra Azərbaycanın güneyi Qacar dövlətinin tərkibində qalmışdı. Burada şiəlik dövlət dini olub dini icmalar arasında, məzhəblər arasında şiddətli problemlər mövcud idi. Xeyli sayda sünnilər, zərdüştilər, yəhudilər və müxtəlif xristian məzhəbləri mənsubları (nəsturi aysorlar, ermənilər və s.) yaşasa da, onlara mənfi münasibət var idi. Məqalədə bütün bu məsələlərin işığında XIX-XX əsrin əvvəllərində Azərbaycanın güneyində yəhudilərin vəziyyəti və rusiyalı yəhudi, karaim mənşəli din xadimi, filoloq, dövlət xadimi Seraya Şapşalın yaradıcılığı tədqiq edilmişdir.

Burada şahlıq rejimi müsəlman xalqa zülm etdiyi kimi, babi və bəhailər, xristian və yəhudilər də ayrı-seçkiliyə məruz qalırdılar. Bu ayrı-seçkilik və zülmlər Rusiya və İngiltərə kimi imperialist dövlətlərin istifadə etdiyi müxtəlif babi üsyanlarına, tənbəki qiyamına, məşrutə inqilabına, hətta Nəsrəddin şahın öldürülməsinə, Məhəmmədəli şahın ölkədən qovulmasına səbəb olmuşdu. Sadə xalqla yanaşı, C.Əfqani, M.F.Axundzadə kimi ziyalılar, Mirzə Şirazi kimi görkəmli ruhanilər də Qacar hakimiyyətinə qarşı etiraz edir, mübarizə aparırdılar. XX əsrin əvvəlində Qacar hökmdarı Müzəffərəddin şah, onun Təbrizdə iqamət edən vəliəhdi, Azərbaycan hakimi Məhəmmədəli Mirzə idi. “Molla Nəsrəddin” jurnalında Məhəmmədəli Mirzənin xalqa zidd siyasəti tənqid edilmiş, məşrutə inqilabı dəstəklənmişdi. XIX əsrin ortalarında baş verən babi üsyanları, 1891-1892-ci illərdə Nəsrəddin şaha və ingilis müstəmləkəçiliyinə qarşı baş verən Tənbəki üsyanı, daha sonra Nəsrəddin şahın 1896-cı ildə sui-qəsdlə öldürülməsi Azərbaycanda onsuz da ağır olan vəziyyəti daha da pisləşdirmişdi. Ölkə yeni bir inqilabın astanasında idi.

Qeyri-müsəlmanlara mənfi münasibət nadan ruhanilərdən qaynaqlandığı kimi, dövlət də bu kimi hallardan sui-istifadə edirdi. Məsələn, şah rejiminə və nadan din xadimlərinə etiraz edənlər babi adı ilə günahlandırılır, qətl edilirdi. Bu ittihamlarla minlərlə Azərbaycan ziyalısı, öz xalqı üçün, millətinin azad, xoşbəxt, digər millətlərlə bərabərhüquqlu, dini hürriyyət içində yaşaya bilməsi üçün mübarizə aparan bir çox din xadimi ya sürgün edilmiş, fiziki cəhətdən yox edilmiş, ya da ölkədən qaçmağa məcbur buraxılmışdır. Qacar hakimiyyətinin yarıtmaz ictimai-siyasi idarəetməsi, dini azadlığın boğulması, feodal və ruhani zülmü əhalini dini bir qurtuluş ideyası olan Mehdiliyə və buna əsaslanan babiliyə güclü zəmin hazırladı. Bu ideya XIX əsrin 40-50-ci illərində bütün Qacar dövlətini silkələyən babilik hərəkatının ortaya çıxmasına səbəb oldu. M.Ə.Rəsulzadə "İran və türkləri" əsərində yazır ki, "şah öz rejimini qorumaq və ruhanilərin rəğbətini qazanmaq üçün ölkədəki dini və dünyəvi zülmlərə qarşı mübarizə aparan babilərə qarşı qəddarca davranıb onların başçılarını edam etdirdi. O, hətta babilik ittihamı ilə babi olmayan hürriyyətpərəstləri, rejim düşmənlərini də məhv etdirirdi" [25, s.68]. Müsəlmanlarla münasibətdə babilər, əliilahilər, xristian və yəhudilər daha aşağı sosial statusda idilər.

Yəhudilərin bu bölgədəki tarixi e.ə. VI əsrdən başlayır. Əhəməni çarı Kirin zamanında Babil əsarətindən qurtulan yəhudilər burada məskunlaşdılar. Sasanilər zamanında da burada rahat həyat sürən yəhudilər ərəb istilasından sonra digər qeyri-müsəlmanlar kimi dini əsarətə düşdülər, "əhli-kitab" adlanıb cizyə vergisi verməyə başladılar. Hz. Məhəmmədin qeyri-müsəlmanlara tolerant münasibətinə və onları cizyə qarşılığında qorumasına baxmayaraq dinlərarası münasibət qarşılıqlı nifrət həddində idi. Çünki qeyri-islami dinlərin mənsubları napak, murdar sayılırdı [13, s. 85; 35, c.276]. Qacarların ilk dövründə hələ də ikinci dərəcəli vətəndaş sayılan zərdüştilərin öldürülməsi heç bir cəzaya səbəb olmayan bir hərəkət sayılırdı [17, s.543]. Lakin xristianlar bir qədər şanslı olub Rusiya, Avropa və ABŞ tərəfindən dəstəklənir, xarici missionerlər onlara yardım edirdilər. XIX əsrdə müsəlman kürdlərin xristianlara olan hücumları amerikan missionerlərini ABŞ-dan siyasi yardım istəməyə məcbur etmişdi [4, s. 13]. İngilis missionerləri xristian aysorları kürd hücumlarına qarşı təşkilatlandırır, maliyyə yardımı edir [9, s. 544], missioner məktəblərində təhsil verir, qəzet, jurnal açıb maarifləndirirdilər. Lakin yəhudilər daha ağır və alçaldıcı durumda idilər [41, c.138]. Onların yəhudilikdən imtina edib müsəlmanlaşmaları üçün ciddi təzyiqlər var idi [39]. Hətta 1839-cu ildə Məhəmməd şah Qacar yəhudilərin müsəlmanlaşdırılması üçün fərman da vermiş, lakin Avropa dövlətlərinin təzyiqi ilə bu fərman ləğv edilmişdi [45].

XIX əsrin ikinci yarısında Azərbaycanın güneyində yəhudilər əsasən Səlmas, Souçbulaq, Miyandab şəhərlərində az sayda yaşayırdılar [21, s.12]. Onların vəziyyəti yenə ağır olub din dəyişdirməyə məcbur edilirdilər. Alman mənşəli rusiyalı hərbçi və tədqiqatçı İ.Qerber məlumat verir və qeyd edir ki,

"ermənilər və yəhudilər xanın əmri ilə paltarlarının sinəsinə sarı rəngli bir parça taxmağa məcbur olurlar ki, bu, onların qeyri-müsəlman olmasına işarədir. Mömin müsəlmanlar onları kafir və murdar sayır və qətiyyən salamlaşmırlar" [36]. General V.Zubovla birgə yürüşdə iştirak edən tarixçi, dövlət xadimi P.Butkov da qeyd edir ki, "müsəlmanlar yəhudilərlə kölə kimi rəftar edirlər. Özləri də çox kasıbdırlar" [41, c.110]. Yəhudilərin Qafqaza köçməsinin səbəbi də onlara olan daha pis münasibətlə, hətta zorla müsəlmanlaşdırılma cəhdi ilə əlaqədar idi [41, c.111, 120]. Rusiyanın Qafqazı işğalından sonra bölgənin yəhudiləri və erməniləri onları müsəlman hakimiyyətindən və cizyə vergisindən xilas etdikləri üçün rus məmurlara öz təşəkkürlərini bildirmişdilər [41, c.123].

Nəsrəddin şah Qacarın 1873-cü il Paris səyahətində "Alyans"ın (Ümumdünya Yəhudi İttifaqı) prezidenti, Fransa dövlət xadimi İ.A.Kremye yəhudilərə təzyiqlərə son qoyulması üçün şaha ərizə ilə müraciət etmişdi. Şahın Kremyeyə vədinə və bu sahədəki cəhdinə baxmayaraq yəhudilərə olan təzyiqlər məşrutə inqilabının qələbəsinə qədər qismən davam etmişdi. "Alyans" ancaq 1898-ci ildən sonra burada öz yəhudi məktəblərini açmağa nail olmuşdu [39].

XX əsrin əvvəli bölgə yeni bir inqilaba hamilə idi. XIX əsrdə Nəsrəddin şahın dövründə xaricilər tərəfindən də dəstəklənən babi üsyanları, şaha sui-qəsd, ingilis müstəmləkəçiliyinə qarşı 1891-1892-ci illər tənbəki qiyamı baş vermişdi. Sadə xalqla yanaşı, C.Əfqani, M.F.Axundzadə kimi ziyalılar da şah rejiminə qarşı idilər. Ölkədə universitet, Qərb tipli hərbi məktəblər açmaq, idarəetmədə Dövlət Şurası nümunəsilə dünyəvi islahatlar keçirməyə çalışmasına baxmayaraq tənbəki imtiyazını ingilislərə verən Nəsrəddin şah C.Əfqani və Mirzə Şirazi kimi ruhanilər tərəfindən küfrlə ittiham edildi. Şahın 1896-cı ildə öldürülməsi ölkəni yeni bir təlatümlə qarşı-qarşıya qoydu. Görkəmli Azərbaycan mütəfəkkiri Ə.Ağaoğlu yazırdı ki, "Məşrutə inqilabını hazırlayan səbəblər – idarəçilikdə uyğunsuzluq; hakimiyyətdən sui-istifadə; xalqa zülm; əhalinin hədsiz fəqirliyi və ehtiyac içində olması; əcnəbi hücumları idi. Müsəlmanların xariclə münasibətlərinin artması və bu sayədə müəyyən qədər avropalılaşması, Rusiyada və xüsusən Qafqazdakı oyanma hərəkatları da buna təsir etdi" [3, s. 51]. Həqiqətən də Avropa və Rusiyadakı fikir plüralizmi, demokratik insan haqları uğrunda mübarizə və monarxiyaya qarşı çıxışlar burada da öz təsirini göstərməyə başlamışdı.

1906-cı ildə məşrutə inqilabının təsirilə Müzəffərəddin şahın konstitusiyanın qəbulu və parlamentin açılmasına icazə verməsi ölkədə qeyri-müsəlmanların halının yüngülləşməsinə səbəb oldu. Lakin ruhanilərin konstitusiya layihəsinin bəzi maddələrinə etirazları var idi. Məsələn, 8-ci maddədə deyilirdi ki, "Qacar məmləkətinin əhalisi hökumət qanunun qarşısında bərabər hüquqa malikdir". Ruhanilər deyirdi ki, "Müsəlman və kafir şəriət cəzalarında eyni hüquqlu ola bilməz. Bir müsəlman bir yəhudini, zərdüştini və ya başqa bir kafiri öldürsə, onu ölüm cəzasına məhkum etmək olmaz, ondan qan

bahası alınmalıdır". Xüsusilə zərdüştilər parlamentdən hüquqi ayrı-seçkiliyin qaldırılmasını tələb edirdilər [30, s.372]. "Molla Nəsrəddin" jurnalı da mürtəce din xadimlərinin qeyri-müsəlmanlara təhqiramiz münasibətini öz səhifələrində geniş işıqlandırırdı. Məsələn, jurnalda mürtəce mollanın dili ilə belə yazırdı: "Millət deyəndə yer üzündə bircə müsəlman millətidir, özgə millətlər qeyri-insan kimi bir şeydirlər" [22, s.111]. Görkəmli Azərbaycan mütəfəkkiri Ə.Hüseynzadə də yazırdı ki, "Bu nəzəriyyəyə görə, bir qaç milyon müsəlmandan başqa bütün bəşəriyyət pak deyil" [16, s.233]. Həqiqətən də öz yaradıcılığında islam, müasirlik və türkçülük anlayışlarını sintez etməyə çalışan Ə.Hüseynzadənin mürtəce din xadimlərinə qarşı mübarizəsi milli, dini maarifçilik baxımından əhəmiyyətli idi.

Qeyd edək ki, bölgədə yəhudilərə qarşı təzyiqlərə son qoymağa çağıran "Alyans" [Ümumdünya Yəhudi İttifaqı] 1904-cü ildə Həmədanda ilk yəhudi məktəbini də açmışdı. Yəhudi məktəblərinin açılması xristian, şiə və bəhai missionerlərinin yəhudiləri assimilyasiya etmələrinə qarşı yəhudilərin müqavimətini qüvvətləndirmiş oldu [39].

Qacar konstitusiyasına 1907-ci il düzəlişləri ilə bütün xalqın qanun qarşısındakı bərabərliyi təsdiq olundu, sünni, xristian, yəhudi və zərdüştilərin haqları artırıldı, lakin burada yeganə istisna babi və bəhailərə olan mənfi münasibət idi [2, s. 340].

XX əsrin əvvəlində burada 50 min yəhudi, o cümlədən 100 min bəhai, 80 min erməni, 90 min aysor, 15 min zərdüştinin yaşadığı qeyd olunur [1, s.18]. Bu dövrdə bölgədə fəaliyyət göstərən M.Ə.Rəsulzadə 1909-1911-ci illərdə sosial-demokrat istiqamətli Demokrat Partiyasının orqanı olan «İrane-nou» qəzetinin baş redaktoru idi [31, s.78]. Qəzet xarici müdaxilələrə qarşı bütün etnik və dini qrupları vahid bir kimlikdə birləşməyə də çağırırdı. Məsələn, qəzetin 16 fevral 1910-cu il sayındakı "Biz vahid millətik" məqaləsində belə yazırdı: "Şah hökuməti bizi bir-birimizdən uzaqlaşdırdı. Bəzilərinin zərdüşti olması bəhanəsilə müsəlmanlar tərəfindən öldürülməsinə icazə verir, digərlərini yəhudi olduqları üçün düşmənçiliyi qızışdırır, bir qismini erməni olduğu üçün yabançı elan edir, başqalarını türkçülükdə ittiham edərək, onlara qarşı farslarda, türklərin qəlbində isə farslara qarşı düşmənçilik oyadırdı. Biz müxtəlif dillərdə və şivələrdə danışan, allaha müxtəlif tərzdə inam bəsləyən vahid millət təşkil etməliyik. Nə müsəlman və zərdüşti, nə erməni və yəhudi, nə də fars və türk vardır, biz vahid millətik" [27, s.307; 18, s.87]. Təəssüf ki, xarici işğal dövründə düşmənə qarşı əhəmiyyətli olan bu ideya Qacarların süqutundan sonrakı Pəhləvi hakimiyyəti dövründə və daha sonralar digər etnik qrupları farslaşdırmağa xidmət etməyə başladı.

Təbrizdə Qacar vəliəhdi Məhəmmədəli Mirzənin əsas müşaviri rus dili müəllimi kimi yanında saxladığı, mənşəcə krımlı karaim (musəvi türk icması-Ə.F.) olan [32, c.13] Seraya xan Şapşal (1873-1961) rusiyalı şərqşünas, türkşünas alim və diplomat idi [30, s.178, 181]. Şapşal Rusiya casusu kimi Məhəmmədəli

Mirzənin üzərində böyük təsirə malik idi [3, s. 67; 11, s. 156]. Vəliəhd özünü dindar kimi göstərib dua və dini rəvayətlər kitabları nəşr etdirsə də, əslində Rusiyapərəst idi, kazak paltarında şəkil çəkdirir, zalımlıqla, talançılıqla vaxt keçirirdi [30, s.178-181]. Məhəmmədəli Mirzənin sonralar məşrutə əleyhinə olan irticaçı fəaliyyəti də buna sübutdur. O, atası Müzəffərəddin şahın 1906-cı ildə təsdiq etdiyi konstitusiyaya [19, s.187-188] və parlamentə müxalif çıxmış, 1908-ci ildə Şapşalın tövsiyəsilə [7, s.200] və kazakların hərbi dəstəyilə parlamenti zorla dağıtmışdı. Onun ikiillik hakimiyyəti dövründə din azadlığını, insan hüquqlarını tələb edən babi və bəhailərə, şah rejiminə qarşı çıxan mütərəqqi müsəlman din xadimlərinə, konstitusiya tərəfdarı məşrutəçilərə, azad mətbuata olan zülm və qətllər adi hal almışdı. 1908-1909-cu illərdə məşrutə tələbilə baş verən Təbriz üsyanını qanla boğmaq istəyən Məhəmmədəli şah Azərbaycanı aylarla mühasirədə saxlamış, bölgəni aclıq və qan içində boğmaq istəmişdi. Ölkənin şimalı Rusiyanın və güneyi İngiltərənin müstəmləkəsinə çevrilmişdi.

Qacar dövrünün əsas hakimiyyət təmsilçilərindən biri olan Şapşal Qacar dövlətinin Rusiyadakı səfiri Mirzə Rza xanın təşəbbüsü, Rusiya Xarici İşlər Nazirliyinin təqdimatı və çar II Nikolayın şəxsi razılığı ilə Qacar hökmdarı Müzəfərəddin şah Qacarın böyük oğlu, Azərbaycan əyalətinin valisi və Qacar taxt-tacının vəliəhdi Məhəmmədəlinin rus dili müəllimi və mürəbbisi təyin olunmuşdu [42]. O, bununla bağlı 1901-1908-ci illərdə Qacar dövlətində yaşayıb işləmiş, bir müddət Təbrizdəki Loğmaniyyə məktəbində müəllimlik də etmişdir [15, s.16-17]. Burada o, "Ədib-üs-Sultan" adı ilə də tanınırdı [38, c.25; 40, c.64].

Vəliəhd Məhəmmədəli atasının ölümündən sonra 1907-ci ilin yanvarında Şah taxtına əyləşərək S.Şapşalı özünün müşaviri və general-adyutantı (saray naziri) təyin etmişdi. S.Şapşal həmçinin Şahın fərmanı ilə bir sıra orden və medallar ilə təltif olunmuşdu. O, Məhəmmədəli şahı tamamilə öz təsiri altına ala bilmişdi və onunla o qədər yaxınlaşmışdı ki, sözün həqiqi mənasında şahın ailə üzvünə çevrilmişdi. Şah hətta bəzi idarəetmə məsələlərini S.Şapşala etibar etmişdi. Şahı dəfələrlə məşrutəçilərin sui-qəsdindən xilas edən [15, s.16-17] Şapşal Rusiyanın bölgədəki siyasi və iqtisadi maraqlarını uğurla təmin edirdi. Bölgədə yəhudilərə və ermənilərə qarşı planlanan kütləvi təqiblərin qarşısı da bir neçə dəfə Şapşal tərəfindən alınmışdı [32, c.15].

Məhəmmədəli Mirzənin Şapşalın təsiri altında olduğunu "Molla Nəsrəddin" jurnalı da qeyd edir [22, s.133]. M.Ə.Rəsulzadə yazır ki, "Məhəmmədəli Mirzənin ustadı Şapşal ona rus dili dərsi verirdi, qibleyi-aləmin kəlləsi isə rus dilini qəbul etmədi. Amma adam öldürmək, vətən satmaq, əhdi-peyman pozmaq, tənbəllik və zülmkarlığı öyrənib həyata keçirməyi öyrənmişdi" [15, s.16-17]. M.Ə.Rəsulzadə Məhəmmədəli Mirzəni "fırıldaqçı" [25, s.18], ingilis şərqşünası E.Braun isə Şapşalı "qəddar dahi" [7, s.118] adlandırmışdı.

Məşrutə inqilabının qələbəsi nəticəsində 1909-cu ildə Məhəmmədəli şahın qovulmasından sonra Şapşal da ölkəni tərk etdi. E.Braun yazır ki,

məşrutəçilər Rusiyadan çəkindikləri üçün Şapşala toxunmadılar [7, s.207]. Şapşal getdikdən sonra Rusiya Xarici İşlər Nazirliyində, Peterburq Universitetində şərqşünas-pedaqoq, İstanbulda saray kitabxanasında kitabxanaçı və tərcüməçi, Litva və Polşada karaim dini icmasının rəhbəri vəzifələrində fəaliyyət göstərmişdir [32, c.13-23]. O, II Dünya müharibəsində karaimlərin etnik olaraq yəhudi olmadığını alman faşistlərinə sübut edərək onları soyqırımından qoruya bilmişdi [42]. M.Ə.Rəsulzadə Şapşalın məşrutə dövründəki şahpərəst fəaliyyətini, məşrutəyə qarşı mübarizəsini tənqid etsə də, elmi yaradıcılığını yüksək qiymətləndirmiş, Polşada mühacirət dövründə yazdığı məktublarda Şapşala "Çox möhtərəm Sürəyya Bəyəfəndi!" deyərək müraciət etmişdi [14, s.10-19].

Ümumiyyətlə, M.Ə.Rəsulzadə türklük və islam ideyalarına bağlılıqla yanaşı multikultural, tolerantlıq, xalqlar dostluğu ideyalarına da sadiq idi. 1918-ci il dekabrın 10-da Azərbaycan Cümhuriyyəti Parlamentinin iclasında o, belə deyirdi: "Azərbaycan Cümhuriyyəti övladını ögey-doğmaya ayırmaz: erməni, rus, yəhudi, gürcü, nemsə, polyak və sair azlıqda olan millətlər Azərbaycan vətəndaşı qalmaqla bərabər, milli-mədəni muxtariyyətə malik olub kəndi ümuri-məzhəbiyyə, milliyyə və mədəniyyələrini kəndiləri idarə etməlidirlər" [24, s.24]. M.Ə.Rəsulzadə 1919-cu ilin sentyabrında Qubada səyahətdə olarkən yəhudi ravvini və yəhudilərlə də görüşmüş və belə demişdi: "Oxuduğunuz Tövrat bizcə Kitabi-İlahidir. İnandığımız Quran kimi asimanidir. Quran bizə başqa dinlərə ehtiramı əmr edər. Cinsimiz türkdür. Türk dövlətlərində yəhudi zidliyi görülməmişdir. Müsəlman və Türk Cümhuriyyəti olan dövlətimizdə bütün millətlərlə bərabər siz yəhudilər də gərək şəxs və gərək millət etibarilə əmin və amanda olub, rahət yaşayacağınızdan əmin ola bilərsiniz!". Bu haqda məlumat Cümhuriyyətin rəsmi dövlət qəzeti olan "Azərbaycan"ın 1919-cu il 279-280 nömrəli (22-23 sentyabr) saylarında "M.Ə.Rəsulzadə Qubada" başlıqlı məqalədə verilmişdi [12]. M.Ə.Rəsulzadənin 1915-ci il martın 22-də "İqbal" qəzetinin 892-ci sayında nəşr olunan "Yəhudi istiqlalı" adlı məqaləsində isə yəhudilərin Fələstində müstəqil İsrail dövləti qurma arzusundan bəhs olunmuşdu [12].

Musəvi dininə mənsub karaim türklərinin tarixini, mədəniyyətini dərindən tədqiq edən Şapşal "Krım Karay türkləri" əsərinə görə filologiya doktoru elmi adına da layiq görülmüşdü [32, c.18]. "Karaim adı arami-ibrani dilində "qara" sözündən gəlib "müqəddəs yazını [Tövrat] çox oxuyanlar" mənasındadır [10, s.97; 26, s.424-426]. Şapşal "Krım Karay türkləri" məqaləsində karaimlərin türkcə yazılmış Tövrat əsərindən bəhs edir [10, s.104] və karaim türklərinin musəviləşmiş xəzərlərin nəslindən olduqlarını qeyd edir [10, s.104-105]. Şapşalın türklüyə bir xidməti də karaimlərin istifadə etdiyi dini terminologiyadakı yəhudi terminlərini türkcə terminlərlə əvəz etməsi olmuşdur [20, c.255-273; 5]. O, türkcə danışan Şərqi Avropa və Krım karaim yəhudilərinin Altay bütpərəstliyini gizli şəkildə qoruyan qədim türklərin varisi kimi təqdim etsə də [28, s.349; 5], bu fikir

digər yəhudi mütəxəssislər tərəfindən qəbul edilməmişdir.

Lakin Şapşalın bu fikirlərilə razılaşmayan şərqşünaslar da vardır. Onlara görə VIII əsrdə musəviliyi seçən xəzərlər Tövratla yanaşı onun təfsiri sayılan Mişna və Talmudu da qəbul edirdilər [29, s.117-120]. Karaimlər Tövratın "Qanunun təkrarı" bölümündə yer alan "Sizə verəcəyim əmrlərə heç nə artırıb-əskiltməyin. Yalnız Allahınız Rəbbin əmrlərinə – sizə verəcəyim əmrlərə riayət edin" [23, s.196] hökmünə əməl edərək müqəddəs kitabın təfsiri sayılan Mişna və Talmudu qəbul etməzlər, ancaq Tövratın əmrlərinə riayət edərlər [26, s.424-426]. Qeyd edək ki, Azərbaycanın Quba bölgəsində yaşayan yəhudilərin türk-xəzər mənşəli olduğu fikri görkəmli Azərbaycan tarixçisi A.A.Bakıxanov tərəfindən də irəli sürülmüşdür [33, c.154; 6, s.15]. Lakin bu fikri qəbul etməyən yəhudi tədqiqatçılar da var. Məsələn, Azərbaycanın yəhudi əsilli tədqiqatçısı M.Bekker qədim türk xaqanlığı olan Xəzər aristokratiyası arasında iudaizmin yayılmasını göstərsə də, onların əslən İsrail mənşəli olduğunu bildirir [34, c.15-18].

S.Şapşal Azərbaycan ədəbiyyatı mövzusunda da tədqiqatlar aparmışdır [44]. Onun "İran Azərbaycanı xalq ədəbiyyatı nümunələri" əsəri də milli ədəbiyyatımız baxımından əhəmiyyətlidir. Əsərdə Azərbaycan nağılları, ata sözləri, tapmacalar, folklor nümunələri, yerli ləhcələr və s. haqqında dəyərli məlumatlar verilmiş, mətnlər polyak dilinə tərcümə edilərək Azərbaycan-polyak-alman dillərində də lüğət təqdim edilmişdir [8, s.353-355]. Musəvi din xadimi olmasına baxmayaraq Şapşal islam dini, müsəlman adət-ənənələri və məscidlərlə də xüsusi maraqlanmış, Quranı dəfələrlə oxumuş, ondan iqtibaslar gətirmişdi [38, c.26]. Mütəfəkkirin "İran şiələrinin bədii təsvirində müsəlman müqəddəsləri" adlı əsəri də var [43, c.1; 37, c.153].

Son olaraq deyə bilərik ki, məşrutə inqilabından əvvəl yəhudilər məzlum durumda olmuş, təzyiqlərə məruz qalmış, çox vaxt Qafqaza və başqa ölkələrə köçüb sığınacaq axtarmışdılar. Bunda Qacar şah rejimi ilə yanaşı, nadan ruhanilərin də rolu olmuşdur. Qacar sarayında xidmət edən S.Şapşal məşrutə inqilabında konstitusiya və parlamentarizmə düşmən mövqedə olub şah rejimini dəstəkləsə də, bir şərqşünas alim kimi Azərbaycan ədəbiyyatının, yəhudiliyin və karaimliyin tədqiqində qiymətli rol oynamış, yəhudi-türk əlaqələrinin öyrənilməsində böyük xidmətlər göstərmişdir. Məhz bu amil ta Xəzər xaqanlığı dövründən başlayan Azərbaycan-yəhudilik əlaqələrinin tədqiqi və təbliği baxımından mühüm əhəmiyyətə malikdir. M.Ə.Rəsulzadə də Şapşalın məşrutə inqilabındakı mənfi rolunu göstərsə də, onun elmi xidmətlərini yüksək qiymətləndirmiş, həm də Azərbaycanda yaşayan yəhudilərlə yaxın əlaqələr qurulmasında mühüm rol oynamışdır. Məqalədə Qacar hakimiyyətinin xalqa zidd fəaliyyəti, Şapşalın şah sarayındakı rolu, məşrutə dövründəki fəaliyyəti, elmi yaradıcılığı, karaimliyə və türklüyə xidmətləri haqqında məlumat verilmiş, qaynaqlar əsasında təsvir edilmişdir. Məqalədə Şapşalın azərbaycançılıq baxımından əhəmiyyətli olan ədəbi fəaliyyəti, Azərbaycan ədəbiyyatını,

folklorunu tədqiq və təbliğ etməsi, karaim-türk əlaqələrini araşdırması qeyd olunmuşdur. Həmçinin məqalədə Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Şapşalın siyasi, elmi, dini fəaliyyəti kompleks şəkildə ortaya qoyulmuş, dövrün qaynaqları əsasında tədqiq və təqdim edilmişdir.

## ƏDƏBİYYAT


1. *Abrahamian E.* A history of modern Iran / E.Abrahamian. Cambridge: Cambridge University Press, 2008, 228 p.
2. *Afary J.* The place of Shi'i clerics in the first Iranian constitution // Critical Research on Religion 1(3). 2013, pp.327-346
3. *Ağaoğlu Ə.* İran və inqilabı. Bakı: Azərnəşr, 2009, 152 s.
4. *Aydın M.* Misyonerlik Kıskacında Nesturiler: Katolik, Ortodoks ve Protestan Misyonerlerin Nesturiler Arasındaki Faaliyetleri ve Bunun Siyasi Sonuçları // Erdem, № 2, 2011, s.1-30
5. *Ахиезер Г.* Потерянные колена, фарисеи и потомки хазар // Лехаим, № 4, 2007 / https://lechaim.ru/ARHIV/180/ahiezer.htm
6. *Bakıxanov A.* Gülüstani-İrəm / Tərc. ed. M. Əskərli. Bakı: Minarə, 2000, 224 s.
7. *Browne E.G.* The Persian Revolution of 1905-1909. Cambridge: Cambridge University Press, 1910, 470 p.
8. *Caferoğlu A.* Tahlil ve tenkitler // Тюркологический сборник. (Türkoloji mecmuası), №23. Москва, 1970, s.268-272 / https://dergipark.org.tr/en/download/article-file/172782
9. *Curzon G.N.* Persia and the Persian question. vol.1, London: (n.y.), 1892, 731 p.
10. *Çulha T.* Sereya Şapşal'a Göre Karay Türkleri ve Karayca // Türk Dilleri Araştmaları, №12, 2002, s.97-188
11. *Erol A.* İran inkılabının (1906-1911) Azerbaycan edebiyatındaki yansımaları üzerine bir inceleme // Karadeniz araştırmaları, № 34, 2012, s.147-162
12. *Əhməd D.* Rəsulzadənin Quba səyahəti, ravvinlə görüş / https://qaynarinfo.az/az/resulzadenin-quba-seyaheti-ravvinle-grus-tvrat-semavi-kitabdir/
13. *Fığlalı E.R., Şimşek R.* Bahailik ve el-Kitabu'l-Akdes (Türkçe Çeviri) / e-Makalat [Mezhep Araştırmaları], № III/2, 2010, s.7-144
14. *Həmzəyev M.* Əlaqələrimizin Karaim kökənli telləri. "525-ci qəz.", 30 yanvar, 2016, s.10
15. *Həmzəyev M.* Şapşal İran əks-inqilabının episentrində. "525-ci qəz.", 6 fevral, 2016, s.16-17
16. *Hüseynzadə Ə.* Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 480 s.
17. *Hüseynzadə Ə.* Seçilmiş əsərləri: 2 clddə., II c., Bakı: Çaşıoğlu, 2008, 580 s.
18. *Kabiri S.* İran modernleşmesi bağlamında sosyolojinin doğuşu ve kurumlaşması. İstanbul: İstanbul Universiteti, 2019, 307 s.
19. *Kəsrəvi Ə.* Tarixe-məşruteye-İran. Tehran: Müəssəseye-intişarate-Əmir Kəbir, 1343, 906 s.

20. *Кизилов М.* Новые материалы к биографии Шапшала / Материалы девятой международной конференции по иудаике. Моква, ч.1, 2002, с. 255-273
21. *Memmedova İ.* 18-19. Yüzyılın Başlarında Azerbaycan'ın Nüfus Yapısı // Yeni Türkiye, № 60, 2014, s.1-34
22. *Məmmədquluzadə C.* Əsərləri: 4 cilddə. II c., Bakı: Öndər, 2004, 548 s.
23. Müqəddəs Kitab. Bakı, [t.y.] / http://www.kitabxana.net/files/books/file/1447926392.pdf, 1991 s.
24. *Paşayev A.* Azərbaycan Xalq Cümhuriyyəti [1918-1920], Parlament (Stenoqrafik hesabatlar). I c., Bakı: Azərbaycan, 1998, 976 s.
25. *Rəsulzadə M.Ə.* İran türkləri / Tərt. ed. Y.Türkel. -Bakı: Təknur, 2013, 100 s.
26. *Sinanoğlu M.* Karailik // TDV İslam Ansiklopedisi: 44 cilddə, XXIV c., İstanbul: TDV yay., 2001, s.424-426
27. *Sumbatzadə Ə.* Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). Bakı: Elm, 1985, 316 s.
28. *Shapira Dan D.Y.* A Jewish Pan-Turkist: Seraya Szapszal (Şapşaloğlu) and his Work Qırım Qaray Türkleri (1928) (Judaeo-Türkica XIII) // Acta Orientalia Academiae Scientiarum Hungaricae, Vol. 58, № 4, 2005, pp.349-380
29. *Taşağıl A.* Hazarlar // TDV İslam Ansiklopedisi: 44 cilddə. XVII c., İstanbul: TDV yay., 1998, s.116-120
30. *Təbrizi Ə.K.* İranın məşrutə inqilabının tarixi: 2 cilddə, I c., / Tərc. ed. A.Ə.Haşimi. Essen: Nima Verlag, 2003, 528 s.
31. *Uzun E.* Güney Azerbaycan basın tarihi. Trabzon: Türk Ocağı yay., 2002, 193 s.
32. *Алтынкайнак Э.* Хаджи Серайя Хан Шапшал: Биографический очерк // Karadeniz Araştırmaları, №2, 2004, с.13-23
33. *Ахмедов Э.М.* А.К.Бакиханов: эпоха, жизнь, деятельность. Баку: Элм, 1989, 228 с.
34. *Беккер М.* Евреи Азербайджана: История и современность. Баку: Озан, 2000, 80 с.
35. *Березин И.Н.* Путешествие по Востоку-2: Путешествие по Северной Персии / И.Н.Березин. Казань : Тип. Губ. прав., 1852, 432 с.
36. *Гербер И.Г.* Записки о находящихся на западном берегу Каспийского моря, между Астраханью и рекою Кура народах и землях об их состоянии в 1728 году / http://www.vostlit.info/Texts/Dokumenty/Kavkaz/XVIII/1720-1740/Gerber_Johann_Gustav/text3.htm
37. *Зайцев И.В.* «Что мне делать и как быть?» (письма Серайя Марковича Шапшала академику В. А. Гордлевскому: 1945-1950) // Вестник Евразии. Acta Eurasica. № 4 (38). Москва, 2007, с.147-169
38. *Зайцев И.В., Кизилов М.Б.* Путешествие Серая Шапшала по Турции в 1911 году // Восточный архив, № 1 (27), 2013, с.25-34
39. Иран // https://eleven.co.il/diaspora/regions-and-countries/11843/
40. *Петров-Дубинский О.В.* С.М.Шапшал (Эдиб-ус-Султан) – учитель Валиахда Мохаммеда-Али, генерал-адъютант Мохаммед-Али-шаха // Восток, № 5, 2007, с.64-78
41. *Семенов И.* Очерк этнической истории евреев Восточного Кавказа в VI –

начале XX в. // История и культура горских евреев. Москва: Всемирный конгресс горских евреев, 2018, с.88-120

42. Шапшал Серай / Электронная еврейская энциклопедия / https://eleven.co.il/judaism-trends/karaites-medieval-sects/14746/
43. *Шапшал С.М.* Мусульманские святые в художественном изображении шиитов Персии // Восточный сборник. Санкт-Петербург, 1913, с.1-16
44. http://www.anl.az/down/meqale/turkologiya/2019/03/715205 (meqale).pdf // E.Fuad. Təbriz folkloru Sürəyya xan Şapşalın təqdimatında // Türkologiya, №3, 2019, s.45-52
45. http://www.iranchamber.com/religions/articles/history_of_iranian_jews2.php // M.Price. A brief history of Iranian Jews.

Redaksiyaya daxil olub 08.11.2020

*UOT 159.9:316.37*

***X.O.Xəlilova***
*AMEA Fəlsəfə İnstitutu*
*xalida-83@rambler.ru*

# MƏHKUMUN ŞƏXSİYYƏTİ VƏ SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *məhkumun şəxsiyyəti, sosiallaşma, sosial-psixoloji xüsusiyyətlər, cinayətkar psixologiyası*

Məqalədə yeni iqtisadi və sosial münasibətlər sisteminin formalaşdığı bir dövrdə şəxsiyyətin davranışını tənzimləyən hüquqi, sosial və dəyər normalarının dəyişməsindən danışılır. Qeyd olunur ki, bu, öz növbəsində insanın həyat tərzinə və onun şəxsiyyətinin təşəkkülünə ciddi təsir göstərir. Proses sosial-psixoloji cəhətdən araşdırılaraq hüquqazidd davranış, cinayətkarın şəxsiyyətin, cinayətkar davranışın mahiyyətini və mexanizmini açmağa imkan verir.

***Х.О.Халилова***

## ЛИЧНОСТЬ И СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ОСУЖДЕННОГО

***Ключевые слова:*** *личность осужденного, социализация, социально-психологические особенности, психология преступника*

В статье рассматриваются изменения правовых, социальных и ценностных норм, регулирующих поведение личности в период формирования новой системы экономических и социальных отношений. Отмечается, что это, в свою очередь, оказывает серьезное влияние на образ жизни человека и формирование его личности. Этот процесс изучается с социально-психологической точки зрения и позволяет раскрыть сущность и механизм противоправного поведения, личность преступника, преступное поведение.

***Kh.O.Khalilova***

## PERSONALITY AND SOCIAL PSYCHOLOGICAL CHARACTERISTICS OF THE CONVICTED PERSON

***Keywords:*** *personality of a convicted person, socialization, socio-psychological features, psychology of a criminal*

The article examines changes in legal, social and value norms that regulate the behavior of an individual during the formation of a new system of economic and social relations. It is noted that this, in turn, has a serious impact on a person's lifestyle and the formation of his personality. This process is studied from a socio-psychological

point of view and allows you to reveal the essence and mechanism of illegal behavior, the identity of the offender, criminal behavior.

**Giriş**

Cəmiyyət şəxsiyyət üçün təkcə xarici mühit deyil, şəxsiyyət cəmiyyətin üzvü olaraq ictimai münasibətlər sisteminin obyektidir. Burada şəxsiyyətin motivləri, cəhdləri, yönəlişləri, rəğbəti və nifrəti onun ictimai əlaqələrdə obyektiv münasibətlərinin necə olmasından, mənşəyindən, vətəndaşlıq hüququndan, cəmiyyətdəki mövqeyindən və fəaliyyətindən və s. asılıdır. Bu proses insanda müxtəlif sosial keyfiyyətlərin (iradi, əməli, intellektual, emosional və s.) formalaşmasına təsir edir.

Şəxsiyyət dedikdə, ilk növbədə fərd kimi cəmiyyətin üzvü olaraq sosial keyfiyyətlər sistemini – ictimai fəallığı; motivlərin davamlığı; şəxsi məna – sosial yönəlişlər, mövqe, emosiya, hisslər, maraq və meyillər; münasibətlər sistemini – əməyə, özünə, başqalarına, əşyalara və s. olan münasibəti xarakterizə edir (1).

İnsanın bir şəxsiyyət kimi formalaşmasına təbii şərtlərlə (ətraf mühitin ümumi amilləri, iqlim şəraiti) yanaşı, sosial amillərlə də (yaşadığı, fəaliyyət göstərdiyi konkret tarixi şərait, maddi, siyasi, sosial və əmək şəraiti) şərtlənir. Onun inkişafına eyni zamanda endogen və ekzogen amillər də təsir göstərir.

İnsan psixikası və davranışı ətraf mühitin təsiri ilə şərtlənir. Bu təsir fəaliyyət prosesində birbaşa deyil, dolayı yollarla baş verir. Lakin hər bir təsir sinir sisteminin xüsusiyyətlərindən, həyat təcrübəsindən, sərvət meyillərində və digər amillərdən asılı olaraq ayrı-ayrı şəxslərdə müxtəlif reaksiyalar doğurur. Ona görə də eyni şərait insanlara müxtəlif cür təsir göstərərək əks fəaliyyət yarada bilər. Bu fikri məhkumun psixologiyasına və davranışına da aid etmək olar. Çünki azadlıqdan məhrum olunma mühiti məhkumun psixologiyasına müxtəlif cür təsir edir. Burada məhkumlar öz xarakterlərinə, iradi keyfiyyətlərinə, öz keçmiş həyatlarına, psixoloji yönümlərinə, tələblərinə və digər xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Müəyyən edilmişdir ki, məhkum psixologiyasını şərtləndirən amillərdən biri də məhz onun azadlıqdan məhrum olmasına olan münasibətdir. Bunun əsasında məhkumları üç qrupa – öz cinayətkar əməllərinin peşmançılığını çəkənlər; törətdiyi cinayət əməlinə görə peşman olmayan məhkumlar; cinayətkar həyat tərzini şərtləndirən məhkumların psixi halətləri çox dərin köklərə malik olması. Cinayətkar həyat tərzinə talançılar, qatı cinayətkarlar, residivistlər və s. daxildir [6, s. 18].

Burada "Məhkumun şəxsiyyəti" anlayışını, yalnız sosial mühitin təsiri ilə əlaqələndirmək olmaz. Çünki azadlıqdan məhrumetmə yerlərində onun həyata keçirdiyi müəyyən sosial funksiyalar mövcuddur və sosial təsir psixoloji təsirlər vasitəsilə həyata keçirilir [2, s.25]. Məşhur psixoloq S.L.Rubinştein qeyd etmişdir ki, şəxsiyyətin daxili şərtləri xarici prinsiplər vasitəsilə şərtlənir və

penitensiar psixologiya məhkumun şəxsiyyəti probleminə sosial, psixoloji və fiziki birlik kimi baxır. Burada müqəssir, cinayətkar, istintaqda olan şəxs, günahlandırılan, məhkum şəxsiyyəti anlayışlarını fərqləndirmək lazımdır. Cinayət prosesinin müxtəlif mərhələlərində şəxsiyyət yeni ictimai münasibətlərə daxil olaraq yeni hüquq və vəzifələrə malik olur. Hər mərhələdə şəxsiyyətin motiv və yönəlişləri fərqli ola bilər. Lakin dominantlıq təşkil edən xüsusiyyətlər çətin ki, dəyişsin: istiqamət, xarakter, emosional-iradi sfera və s. Onu da qeyd etmək lazımdır ki, belə kritik dövrlər onun həyat anlamında və davranışında dəyişikliklərə səbəb ola bilər .

Cinayətkarın və ya məhkumun şəxsiyyətinin müəyyən sosial vəziyyətdə yerinə yetirilməli sosial funksiyaları mövcuddur. Qeyd etmək lazımdır ki, insan məhkum olunduqdan sonra məhkum adını qazanır və azadlıqda olduğundan fərqli sosial rollar – rejim, əmək fəaliyyəti, təlim və digər qoyulan tələblərdən irəli gələrək dəyişir. Yəni insanların həyat şəraiti fərdlərin davranış və fəaliyyətinin qarşılıqlı əlaqəsi, psixoloji durumu onların düşdüyü mühitdən asılıdır. Məhkumluq yeni ictimai münasibətlərə daxil olmağa və onu şəxsiyyət kimi xarakterizə edən öncəki əlaqələrdən təcrid olunmasına gətirir. Məhkumun şəxsiyyəti dedikdə, sosial keyfiyyətlər prizmasından cəzasını çəkən şəxs başa düşülür [3, s.15]. Bu zaman məhkum olunmuş şəxs cəzaçəkmə müəssisəsinin qoyduğu qada və məhdudiyyətlər əsasında fəaliyyətini tənzimləməli olur.

Azadlıqdan məhrumetmə yerlərində məhkumların həyat şəraiti və fəaliyyəti onların şəxsiyyətinə, uyğunlaşmasına və sosiallaşmasına mühüm təsir edir. Bundan əlavə azadlıqdan məhrumetmə yerlərində qoyulan şərtlər və onların təsiri də müxtəlifdir: onların yerləşməsi, quruluşu, ərazisi və binaların görünüşü, rəhbərliyin məhkumlarla münasibət tərzi və s. hallar həyat fəaliyyəti prosesinə təsir edir. Eyni şərtlərdə cəzaçəkən məhkumlar fərdi həyat təcrübəsinə, psixoloji xüsusiyyət və keyfiyyətlərinə görə özlərini fərqli göstərirlər.

Məhkumun şəxsiyyətinin quruluşunu bioloji, psixoloji və sosial komponentlər təşkil edir. Bioloji quruluş insanın müxtəlif təbii xüsusiyyətlərini əhatə edir. Şəxsiyyətin psixoloji quruluşu isə sosial cəhətdən əhəmiyyətli fəaliyyət növlərini və münasibətlərini müəyyən edən zehni xüsusiyyət və keyfiyyətlərin məcmusudur. Bura yaş, cins, somatik, neyrodinamik və s. daxildir. Şəxsiyyətin psixoloji strukturu fəaliyyət və ünsiyyətin sosial əhəmiyyətli formalarını müəyyən edən psixi xüsusiyyət və keyfiyyətlərini əhatə edir və bir neçə altsistemdən ibarətdir:

- şəxsiyyətin dəyər oriyentasiyaları – cəmiyyətdə mövcud dəyərlərə şəxsi münasibəti;
- individin əsas həyat funksiyaları onun davranışının daxili determinantları və müvafiq ehtiyacları ilə ifadə olunur;

Sosial struktur fərd və cəmiyyət arasındakı qarşılıqlı təsirlərin əsas formalarını göstərir:

• şəxsiyyətin əsas dəyərləri və onun həyat funksiyaları ilə əlaqələr;

• digər insanların reaksiyası ilə bağlı məlumatın daxil olması və onun fərdi davranışında əks olunmuş sosial-şəxsi nəzarət [6, s.65].

Sosial status sosial rol və həyat tərzi kimi kateqoriyaların köməyi ilə səciyyələnir, eyni zamanda sosial qrup və sosial-demoqrafik məlumatlarla (təhsil, ailə vəziyyəti və s.) müəyyən edilir. Sosial rollar şərti olaraq bir tərəfdən sosial statusla, digər tərəfdən isə şəxsiyyətin fərdi psixofiziki xüsusiyyətləri ilə reallaşdırıla bilər.

N.A.Andreyevin fikrincə, elm şəxsiyyət strukturunun daxilinə nüfuz edərək məhkumun formalaşmasının əsasını təşkil edən üç sistemi – subyektiv "Mən", əks olunan "Mən", rollu "Mən"i ehtiva edir. Məhkumun subyektiv "Mən" sistemi – insanı ətraf mühitdən təcrid edərək digər "Mən"ə, bütövlükdə "qeyri-Mən" strukturlarına qarşı öz daxili mahiyyəti haqqında təsəvvürlər kompleksidir. Subyektiv "Mən"in əsas məqsədi – insanın muxtarlaşması, onun həyat yönümlərinin və istiqamətlərinin, şəxsi məna sisteminin, fərdiliyinin formalaşdırılmasıdır. Burada məhkumun şəxsiyyətinin kriminal özünü müəyyən edilməsinə (tanımasına) səbəb olan spesifik və deviant davranışın son həddinin seçilməsi, həmçinin özünəməxsus sosial-psixoloji özünümüdafiə üsullarının müəyyən edilməsi vacibdir [3, s.15].

Əks olunan "Mən" sistemi fərdi qapanma və xarici özünüifadə arasında bir növ vasitəçi kimi çıxış edir. Əks olunan "Mən" sisteminin təhlili məhkumun özü haqqında kompleks təsəvvürləri müəyyən etməyə imkan verir. Bu təsəvvürlər insanların özünə və digərlərinə olan real qiymətləndirməni ehtiva edir.

Rollu "Mən" sistemi məhkumun özünü real təsdiqinə cavabdehlik daşıyır. Bu da fərd tərəfindən real olaraq yerinə yetirilən sosial funksiyalarla bağlıdır. Bu sistem insanı konkret xarici nəticələrin əldə olunmasına yönəldərək, öz potensiyalarını ayrı-ayrı şəxslərin və cəmiyyətin gözləntilərinə uyğun olaraq əlamət və xüsusiyyətlər vasitəsi ilə reallaşdırmağa imkan verir. Bu sistemin inkişaf etməməsi mühitə uyğunlaşma prosesində bir sıra çətinliklər yaradır.

Bir qayda olaraq, məhkumun şəxsiyyət sistemlərinin strukturunda şəxsiyyətin dezinteqrasiyasına (təcrid, təcavüz, münaqişələr və s.) səbəb olan fikir ayrılığı müşahidə olunur. "Həyat tərzi" kateqoriyası insanın həyat fəaliyyətinin növlərini və onun digər formaları ilə əlaqəsini tənzimləyir.

70-ci illərin sonlarından K.Platonovun şəxsiyyətin psixodinamik konsepsiyası Penitensiar psixologiyada geniş yayılıb, çünki digər nəzəriyyələrdən fərqli olaraq "şəxsiyyət xəritəsi" – metodik vasitələr burada mövcuddur. 80-ci illərdə tədqiqat proqramlarının hazırlanması zamanı penitensiar psixoloqların əksəriyyəti onlara daha uyğun olan şəxsiyyət

nəzəriyyələrinə (S.L.Rubinşteyn, A.N.Leontev, A.Q.Kovalev, V.N.Myasişev və s.), konsepsiyalarına əsaslanırdılar. Bu baxımdan K.K.Platonovun məhkum şəxsiyyətin strukturu, bütün səviyyələri əhatə edən – sosial, biososial, bioloji cəhətdən diqqətini müəyyən altqruplara və inteqrativ xüsusiyyətlərə yönəldərək onun xüsusiyyət və fərqlərini müəyyən etməyə imkan verərək praktiki əhəmiyyət kəsb edir [6, s.144].

Məhkumun şəxsiyyətinin alt struktur və xüsusiyyətlərinə aşağıdakılar daxıldir:

1. Şəxsiyyətin bioloji şərtlənən xüsusiyyətlərinin (temperament, cins, yaş) alt strukturu. Məşqlər vasitəsilə müəyyən funksiyaların təkrarlanması kimi inkişaf edir;
2. Şəxsiyyətin psixi proseslərinin alt strukturu (yaddaş, təfəkkür, nitq və s.). Tapşırıqların köməyi ilə inkişaf edir;
3. Şəxsiyyətin təcrübəsinin alt strukturu. Öyrənmə prosesində inkişaf edir;
4. Şəxsiyyətin istiqamətinin alt strukturu. Tərbiyə prosesində inkişaf edir;
5. Qabiliyyətin inteqrativ alt strukturu. Bura kriminal qabiliyyətlərin inkişafı; maddi ehtiyacların təmin olunma istiqaməti; həbsxana sənəti (həbsxana poeziya və nəsri, sənətkarlıq, rəsmlər ) aiddir;
6. Xarakterin inteqrativ alt strukturuna daxildir: həbsxana vərdişləri, yalançılıq, qəddarlıq, aqressivlik, məsuliyyətsizlik, soyuqluq, parlaq ifadə edilmiş fərdiyyətçilik və eqoizm; zərərli vərdişlərin mövcudluğu (alkoqolizm, narkomaniya, cinsi pozğunluqlar); impulsivlik və "qəddar" iradənin mövcudluğu; affektiv reaksiyaların yaranmasının yüngüllüyü; emosional kütlük; həbsxana qanunu ilə tənzimlənən münasibətlərin mövcudluğu; xarakterin aksentuasiyası [5, s.112].

A.Q.Kovalevə görə, məhkumun şəxsiyyəti müxtəlif dərəcəli kriminal yoluxmadan asılı olaraq fərqlənir:

- qlobal cinayətkar tip (cinayətkar həyat tərzinə tam yoluxmuş kriminal tip);
- parsial tip (kriminala qismən yoluxmuş);
- kriminalqabaq tip [4, s.14].

Kriminalqabaq tip şəxslər öz mənəvi-psixoloji xüsusiyyətlərinə görə müəyyən vəziyyətə düşdükdə mütləq cinayət törədirlər. Bu tipin alt tiplərinə aiddir: a) həddən artıq emosional həyəcanlıq göstərərək kifayət qədər özünü idarə edə bilməməsi, müvafiq vəziyyətlərdə xuliqanlıq törətməsi, qısqanclıq, qəzəb və s. hallarda qətl və ya ciddi bədən xəsarəti yetirmək ; b) özünə zəhmət vermədən yaxşı yaşamağı sevən, yoldan çıxmağa asanlıqla razı olan yüngülxasiyyətli tənbəllər [1, s.21].

Resediv cinayətlərdə məhkumun şəxsiyyətinin təhlili göstərir ki, bu tip şəxslər başqaları ilə münasibətlərində, davranışında səbirsizlik, mədəni-mənəvi dəyərlərə laqeydlik və maraqlarının ümumi səviyyəsinin aşağı olması bunun

göstəricisidir. Belə ki, ailədə ilkin lazımi tərbiyənin, diqqətin, qayğının olmaması ilə yanaşı, məktəbdə pozulan maraq və tələbatlar şəxsiyyətin formalaşmasına mənfi təsir göstərir. Mənəvi yaxın olan insanlarla ünsiyyət, onların düşüncələri və tərbiyəsi insanda davamlı stereotiplərin təzahürünə gətirib çıxarır. Elementar və mədəni-etik normalara məhəl qoymayan şəxslər, əxlaqi davranış qaydalarını tanımayaraq dar eqoistik mövqedən hərəkət edə bilər. Hər hansı ləyaqətsiz baxış və davranışa cavab olaraq fiziki şiddət, təhdidlər və hər hansı bir cəza insanda sui-qəsd və ya ona təhrik yarada bilər. Lakin bu tip şəxslərin cinayəti ona bənzərlər tərəfindən ittiham edilmir, əksinə, bəyənilir və təşviq edilir. Təəccüblü deyil ki, bu tip şəxslər törətdiyi cinayətə görə özlərini təqsirli hesab etmirlər [4, s.15].

Azadlıqdan məhrumetmə yerlərinə düşdükdə və orada daha çox korlanmış şəxslərlə ünsiyyət şəxsin düşüncə tərzinin düzgün formalaşmasına maneə yaradır. Bu cür cəmiyyətə zidd baxış, vərdiş və hərəkətlərin davamlı olması davranış tərzinə təsir edərək mənfi hallar yaradır. Bu zaman o, hələ davranışını ölçən əxlaq normalarına əhəmiyyət vermir. Daha çox sosial cəhətdən deformasiya olan şəxslər prinsiplərlə yaşayırlar. Müdriklərin qeyd etdiyi kimi, rüsvay edilmişə rüsvayçılıq ölüyə ikinci ölüm kimidir. Azadlıqdan məhrumetmə yerlərində qoyulan şərtlər insanlarda tamam fərqli həyat fəlsəfəsini aşılayırlar. Bu tip şəxslər cinayətkar həyat tərzini davam etməsi üçün hər şeyi edirlər. Hətta məhkumları əməkdaşlara qarşı çevirə də bilərlər.

Təhlükəli residiv cinayətkar cəmiyyətdə mövcud davranış qaydalarına qarşı üsyan edərək və bir sıra şəxslərə narahatlıq yaradaraq, əxlaq normalarını pozaraq resosiallaşmayan insan şəxsiyyətin antisosial psixoloji tipinə çevrilir. Onlar daim mövcud sosial şəraitə asanlıqla uyğunlaşırlar və öz şəxsi mənfəəti naminə istənilən hərəkətə yol verən həyasız, iradəli, fəal insanlardır. Yəni özünü xilas etmək üçün başqalarını qurban verərək qətl törədəndirlər. Cinayət törətmiş məhkumların əksəriyyəti özlərini həmfikir hesab edirlər. Eyni zamanda yoldaşlıq və həbsxana qardaşlığının, nümayişkarcasına göstərilmiş hörmətin arxasında insan həyatına laqeyd münasibət, həyasızlıq, qəddarlıq durur. Azadlıqdan məhrumetmə yerlərində bəzi məhkumlar residiv cinayətlər zamanı zahirən qeyri-müəyyən davranırlar, rejim tələblərini yerinə yetirmək, rəhbərliklə ziddiyyətə yol verməməyə çalışırlar, digərləri isə əksinə, mövcud qaydaları pozur. Onlar öz məqsədlərini cinayətkar fəaliyyəti davam etdirməkdə, cinayətkarlığa qarşı mübarizə aparan qanun və orqanlarla "yarış"da görürlər (E.Bern).

Bir çox məhkumlar alkoqolizm və narkomaniyadan əziyyət çəkirlər. Bu tip şəxslərdə yüksək emosionallıq, affektiv reaksiyaların yaranmasında rahatlıq, davranış motivlərinin qeyri-sabitliyi, impulsivlik, gözlənilməz davranış müşahidə olunur. Onlar üçün müqəddəs bir şey yoxdur, hər şey içkiyə xərclənə və ya satıla bilər. Əyyaş və narkomanlar asanlıqla faydalı bir şey etmək istəyi

ilə alovlanır və enerji ilə işə başlayırlar, lakin başladığı işi adətən sona çatdırmırlar. Onların sevdiklərinə olan bağlılığı azalır, daşürəkli, məsuliyyətsiz və aldadıcı olurlar. Eyni zamanda iş qabiliyyəti aşağı düşür, çətinliklə hər hansı məşğuliyyət növünə yiyələnirlər, işə fokuslana bilmirlər, yəni avaralanaraq və başqalarının hesabına yaşayırlar [3, s.56].

Məhkumları əməllərinə görə qaçışa meyilli, dələduz davranışlı, islahedici müəssisənin nizamını pozan, girov götürmə, seksual və psixi pozğunluqlara görə ayırırlar. Beləliklə, müxtəlif kateqoriyalı məhkumların psixi aləmində həm ümumi, həm də spesifik xüsusiyyətlər vardır. Burada məhkumun psixologiyasını anlamaq üçün onun şəxsiyyət yönümlərinə (ideya, ehtiyac, maraq, həyat planı və dəyər istiqamətləri), eləcə də məhkumların özləri haqqında olan təsəvvürlərə diqqət yetirmək lazımdır. Onların mənfi xüsusiyyətləri asılılıq və istehlakçı motivasiyası ilə əlaqələndirilir. Yaranan çətinlik və uğursuzluqları onlar bədxahlıqla, ətrafındakıların düşmənçiliyi ilə izah edirlər. Müxtəlif dərəcələrdə olsa da, məhkumlar arasında xarakterin ayrı-ayrı xüsusiyyətləri: sərtlik, emosionallıq, həyəcanlılıq, qeyri-bərabərlik və eqoistlik özünü göstərir. Bununla da həbsxana submədəniyyəti formalaşır.

Azadlıqdan məhrumetmə yerlərinin spesifik şərtlərinin təsiri altında psixi proseslərin qavranılması, diqqət, yaddaş, düşüncə, hiss, iradə, xarakter, əsasən də cəza çəkilmə istiqamətləri dəyişir.

İşçilərin məhkumun şəxsiyyətinin fərdi-psixoloji xüsusiyyətlərini bilməsi onun cinayət cəzasının çəkilməsi zamanı davranış və fəaliyyətini, həmçinin resosializasiya prosesini proqnozlaşdırmağa imkan verir. Məhkumların davranışını qabaqcadan görmək üçün onların fəaliyyətinin nəticələrini bilmək kifayət deyil. Obyektiv qiymətləndirmə əldə etmək üçün şəxsin hansı məqsəd və motivlərə əsaslandığını müəyyən etmək lazımdır. Eyni zamanda burada məhkum şəxsiyyətinin münasibətlər sisteminə, öz cinayətinə və cəzasına olan münasibəti mühümdür. Bu yanaşmadan asılı olaraq məhkumlar aşağıdakı kateqoriyalara ayrılır [5, s.28]:

a) ilkin istintaqda tövbə edən şəxslər vurduqları ziyanı dərk edirlər. Onlar tez bir zamanda koloniyanın, dəstənin həyat ritminə daxil olurlar, işləmək və öyrənmək istəyirlər, rejimə riayət edirlər, ictimai təşkilatların işində iştirak edirlər;

b) məhkumluğunu ədalətsiz hesab edənlər isə öz əməllərinə cinayətkar kimi baxmayan şəxslərdir. Onlar koloniyada rejimə, tərbiyə prosesinə və administrasiyaya fəal-mənfi münasibət göstərirlər.

Beləliklə, sosial normalar şəxsiyyətin münasibətlər sisteminin formalaşmasında, şəxsin davranış və rəftarının bu və ya digər formalarında mühüm rol oynayır. Bu normalar hər hansı cəmiyyətin üzvü olan fərdin istiqamətləndirici və hərəkətverici qüvvəsi olması ilə yanaşı, müxtəlif sosial qrupların hərəkət və ənənələrini də tənzimləyir. Bununla yanaşı, həmin

normaların şəxsiyyətin şüur və davranış səviyyəsində təzahürlərinin mexanizminə və qanunauyğunluqlarına təsiri şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətlərini, ayrı-ayrı psixi keyfiyyətlərini də izah etməyə imkan verir. Məhz buna görə də fərddə cinayətkar yönümün formalaşması bu və ya digər formada onun davranış və əməllərinə təsiri, onun kriminal davranışının şəxsiyyətin atributuna çevrilməsi mexanizm etibarilə həmin neqativ sosial təsirlərin sayəsində baş verir.

**Nəticə**

Göstərilənlərdən belə nəticə çıxarmaq olar ki, məhkum şəxsiyyətinin yeni şəraitə uyğunlaşması, onun hüquqi sosializasiyası mürəkkəb və çətin prosesdir. Burada xarici təsirlərlə yanaşı, daxili psixoloji hazırlığın, istək və meylin olması da mühümdür. Bəzən şəxsiyyətin strukturunda obyektiv və subyektiv olanın qarşılıqlı təsiri ayrı-ayrı şəxslərdə fərqli şəkildə, özünəməxsus formada təzahür edir. Məhz buna görə də bəzi şəxslər hüquq normalarını bildiyi halda, həmin normalara qarşı hərəkət edirlər. Yəni hüquqazidd davranışlara əl atırlar. Bu zaman ayrı-ayrı fərdlərdə cinayətkar şəxsiyyətlərin hüquqi sosializasiyası baş vermir. Öz cinayət əməlinə görə məhkumluq çəkdikdə və ya cəza müddəti bitdikdə belə, yeri gəldikdə, şərait yarandıqda təkrar kriminal əməllərə yol verə bilər. Bu halda məhkumun və ya cinayətkarın sərvət meyli, əxlaqi keyfiyyətləri, şəxsiyyətinin istiqamətləri onun hüquqi sosializasiyasına imkan vermir və ya ciddi surətdə buna mane olur. Məhz buna görə də onun şəxsiyyətinin strukturunu geniş təhlil etməklə yanaşı, onu bu kriminal əməllərə təhrik edən amilləri (xarici və ya daxili) müəyyən etmək gərəkdir. Şəxsiyyətin strukturunu müəyyən edərkən onun əhatə dairəsini, yaşayış yerini, şəraitini, ünsiyyət mühitini və şəxsi münasibətlərini araşdırmaq gərəkdir. Bunlarla yanaşı, bu prosesdə sosial və bioloji amillərin də rolu mühümdür. Burada əsas məsələ bu amillərin cinayətkar şəxsiyyətinin strukturunda yerinin və ya mövqeyinin müəyyən olunmasındadır. Yəni hər hansı şəxsin cinayət yoluna düşməsi əsas məsələ deyildir, əsas məsələ cinayətkar əməlinin onun təhtəlşür sferasında özünə yer etməsi və daxili təhriklərlə şərtlənən psixoloji yönümünün formalaşması şəraiti və onun səbəbləridir. Bütün bu amillər cinayətkar şəxsiyyətin formalaşmasına neqativ psixoloji yönümlərin ona necə təsir etməsi və onların fərdin davranış və rəftarlarında, əməllərində necə təzahür etməsindədir.

Edilən təhlillərdən belə nəticəyə gəlmək olar ki, məhkumun şəxsiyyəti – cinayət cəzası çəkən və sosial keyfiyyətləri nəzərə alınan müəyyən bir insandır; o, özünəməxsus xüsusiyyətlərlə: fərdiliyi, əhatə edən insanlarla münasibətləri, fəaliyyət növü, özünüdərk, psixi bazanın sabitliyi və eyni zamanda dinamikliyi, psixoloji xüsusiyyət və keyfiyyətlərin tipi ilə xarakterizə olunur.

Məhkum şəxsiyyətinin özünəməxsus cəhətlərindən biri də gələcək həyat perspektivini görə bilməməsidir. Bu hal mühit və şəraiti düzgün

dəyərləndirməsinə təsir edir. Hər hansı cəza tədbiri onda intiqamçı hərəkət təsiri bağışlayır və bütün bunlar məhkumda qəzəb, kin hallarını doğurur. Buna görə də ilk növbədə hər bir məhkumun fərdi-psixoloji xüsusiyyətlərini daha yaxşı tanımaq və onun üçün adekvat olan psixoloji təsir üsullarından istifadə etmək lazımdır.

**ƏDƏBİYYAT**


1. *Bayramov Ə., Əliyev B.* Hüquq psixologiyası / Dərslik. Bakı: Təhsil, 2012, 656 s.
2. *Алферов Ю.А.* Личность осужденного. М., 1990, 326 s.
3. *Андреев Н.А.* Социология исполнения наказания. М., 2001, 304 s.
4. *Бартол К.* Психология криминального поведения. М., 2003, 352 s.
5. *Дмитриев Ю.А., Казак Б.Б.* Пенитенциарная психология / Учебник. Ростов-на-Дону, 2007, 682 s.
6. *Поздняков В.М.* Отечественная пенитенциарная психология: история и современность. М., 2000, 270 s.


Redaksiyaya daxil olub 27.07.2020

***UOT 94(479.24)***

***Ə.C.Qurbanlı***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*qurbanli.68@ mail.ru*

# AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR-DƏN DEPORTASİYASI VƏ QAÇQINLAR PROBLEMİNİN YARANMASI (1988-1989-CU İLLƏR)

***Açar sözlər:*** *deportasiya, azərbaycanlı, erməni, qaçqınlar*

Məqalədə Ermənistan SSR-də azərbaycanlılara qarşı həyata keçirilmiş deportasiya və soyqırımı siyasəti təhlil edilmiş, soydaşlarımızın başına gətirdiyi faciələr öz əksini tapmışdır. Qeyd edilir ki, azərbaycanlıların tarixi torpaqlarından deportasiyası ermənilərin torpaqlarımıza qarşı ərazi iddiaları ilə bir vaxta düşmüş, "Böyük Ermənistan" mifik planına uyğun həyata keçirilmişdir. Azərbaycanlıların deportasiyası zamanı adi insan hüquqları pozulmuş, bu siyasət amansızlıqla həyata keçirilmiş, yüzlərlə azərbaycanlı soyqırımı siyasətinə məruz qalmışdır.

***А.Дж.Гурбанлы***

## ДЕПОРТАЦИЯ АЗЕРБАЙДЖАНЦЕВ ИЗ АРМЯНСКОЙ ССР И ВОЗНИКНОВЕНИЕ ПРОБЛЕМЫ БЕЖЕНЦЕВ (1988-1989 ГГ.)

***Ключевые слова:*** *депортация, азербайджанец, армянин, беженцы*

В статье анализируется политика депортации и геноцида азербайджанцев в Армянской ССР, отражаются трагедии, постигшие наших соотечественников. Отмечается, что депортация азербайджанцев с их исторических земель совпала с территориальными претензиями армян на наши земли и была осуществлена в соответствии с мифическим планом «Великой Армении». Во время депортации азербайджанцев были нарушены обычные права человека, эта политика безжалостно проводилась, а сотни азербайджанцев подверглись политике геноцида.

***A.J.Gurbanli***

## DEPORTATION OF AZERBAIJANIS FROM ARMENIAN SSR AND UPRISING THE PROBLEM REFUGEES (1988-1989 YY.)

***Keywords:*** *deportation, Azerbaijani, armenian, refugees*

In the article the deportation of aboriginal Azerbaijan Turks from their historic ethnic lands, from present Armenia t erritory during 1988-1989 is investigated, the deportation of Azerbaijani is looked through together with the pretension of Armenia against Azerbaijan. Every kind of provocations of Armenians with the pretension of

creating "Great Armenia" to clean Armenia from Turks and other nations are interpreted with concrete facts and is given information on deportation of peaceful population from home lands. In the article it is noted that the deportation has been realized against the reaction of human rights of Azerbaijan Turks and international laws.

Ermənistan Respublikası ərazisində Azərbaycan türklərinə qarşı deportasiya siyasətinin araşdırılması aktuallığı ilə diqqəti cəlb edir. Belə ki, bu siyasət bu günün özündə belə davam edir, bir milyon azərbaycanlı öz tarixi torpaqlarında etnik təmizləməyə məruz qalmışdır. Bu kontekstdə Ermənistan SSR-dən azərbaycanlıların deportasiyası problemini bir daha təhlil etmək, onun səbəblərini və nəticələrini bir daha nəzərdən keçirmək gərəkdir.

XX əsrin 80-ci illərinin axırlarında erməni millətçiləri üçün əlverişli tarixi şərait yarandı. M.S.Qorbaçovun apardığı "Perestroyka" siyasəti nəinki sovet cəmiyyətində yaranmış reqressiv inkişafı nizamlaya bilmiş, əksinə ölkənin bütün regionlarında mərkəzdənqaçma meyillərini xeyli gücləndirmişdi. Ölkədə gedən prosesləri diqqətlə izləyən "erməni siyasətçiləri" və şovinist dairələri dağılmaqda olan imperiyanın xarabalıqları altından böyük bir ərazi ilə çıxmaq istəyirdilər. Onlar bu məqsədlə Azərbaycanın əzəli və tarixi tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinə ərazi iddiaları etməyə və onu Ermənistana birləşdirmək üçün mübarizəyə başladılar. Ermənistanda Azərbaycanın ərazi bütövlüyünə qarşı açıq separatçılıq hərəkatının baş qaldırması ilə "Türksüz Ermənistan" planı gerçək siyasətə çevrilməyə başladı. SSRİ rəsmi dairələrinin himayəsi ilə Yerevanda kütləvi mitinqlər keçirilməyə başladı. Mitinqlərdə "Qarabağ merna" ("Qarabağ bizimdir"), "Rədd olsun türklər" kimi millətçi şüarlar səslənirdi [14, s.12].

Hadisələr ərəfəsində Ermənistan SSR-də azərbaycanlılara qarşı dövlət səviyyəsində aparılan bütün etnik təmizləmələrə baxmayaraq respublikada əhalinin 1979-cu il siyahıya alınmasının nəticələrinə görə, Ermənistanda 161 min türk əhali yaşayırdı [9].

Dağlıq Qarabağda baş verən hadisələrdən bəhanə kimi istifadə edən erməni millətçiləri aborigen türk əhalisini onlara məxsus tarixi torpaqlarından qovulmasının həyata keçirilməsinə başladılar. Həmin günlərdən öz təhlükəsizliklərinə təminat görmədiyinə görə Ermənistandan 4000-dən artıq azərbaycanlı qaçqın Azərbaycan SSR-ə gəlməyə başladı [12, s.6]. Bu qaçqınlar əsasən azərbaycanlıların yığcam yaşamadıqları qəsəbələrdən, Yerevan, Eçmiadzin, Leninakan, Kirovakan, Qafandan və başqa şəhərlərdən idilər.

Ermənilər Azərbaycan türklərini tarixi torpaqlarından qovmaqla və hamılıqla Ermənistanı tərk etməyə, digər tərəfdən isə Azərbaycan SSR-də ictimai-siyasi vəziyyətin gərginləşdirilməsinə, erməni-azərbaycanlı münaqişəsi törədilməsinə can atırdı. Məqsəd isə Azərbaycan SSR-də gələcək millli

zəmində törədiləcək təxribatları, Dağlıq Qarabağ münaqişəsini azərbaycanlıların adına yazmaq üçün süni zəmin hazırlamaq idi.

Azərbaycanlıların öz torpaqlarından qovulması da onların təhrikçilik siyasətindən irəli gəlirdi. Fevralın 28-də Sumqayıt şəhərində cinayətkar qrupların təhriki ilə erməni əhalisinə qarşı törədilən faciə və talanlar zahirən Ermənistandan axıb gələn çoxsaylı qaçqınlarla əlaqəli olsa da, erməni təhrikçiləri onların törədicisi olmuşlar [11, s.72].

Ermənistan KP MK-nın orqanı olan "Kommunist" qəzetində Sumqayıt hadisələrindən sonra respublikanı tərk etmiş azərbaycanlı qaçqınlar haqqında informasiyanın bir neçə gündən sonra respublika mətbuatına çıxarmaqla erməni mətbuatı ictimai rəyi Sumqayıt hadisələrinə yönəldir, respublikanı tərk etmiş qaçqınlar axınını orada baş vermiş hadisələrlə əlaqələndirməyə çalışırdılar [19, s.72].

Ermənistandan qovulan azərbaycanlı qaçqınların Azərbaycana gəlməsi faktı isə Azərbaycan KP MK-nın I katibi Ə.Vəzirovun tapşırığı ilə ictimaiyyətdən gizli saxlanılır, əhaliyə bu barədə demək olar ki, məlumat verilmirdi.

Mart ayının 3-dən etibarən Ermənistanda vəziyyət kəskin surətdə dəyişmiş, milli münasibətlərdə yaranmış gərginlik pik həddinə çatmışdı. Artıq respublikada etnik zəmində toqquşmalar baş verirdi. May ayının 11-də Ararat (Vedi) rayonunun Şirazlı kəndində qırğınlar, talanlar nəticəsində 64 azərbaycanlı evi dağıdılmış, 8 mənzil yandırılmış, 330 ailənin əmlakı yandırılaraq talan edilmiş, 80-dən artıq azərbaycanlıya isə bədən xəsarəti yetirilmişdi [10, s.26].

Ermənistanda yaranmış vəziyyətlə əlaqədar Azərbaycana qaçqın axını güclənmişdi. Respublikanın kütləvi informasiya vasitələri 10 iyul 1988-ci ildən etibarən ilk dəfə olaraq azərbaycanlı qaçqınlar barədə xəbərlər verirdi [5]. "Azərinform"un məlumatında bildirilirdi ki, Ermənistanda yaranmış mürəkkəb, gərgin vəziyyətlə əlaqədar olaraq azərbaycanlı qaçqınlar kütləvi surətdə respublikamıza gəlməkdədir [5].

Ermənistandan qovulmuş azərbaycanlıların sayı o qədər çox idi ki, Azərbaycan SSR Nazirlər Sovetinin yanında qaçqınların işi üzrə xüsusi komissiya yaranmışdı [5]. Komissiyanın məlumatında qaçqınların sayı 20 min nəfər (4 min ailə) göstərilir [5]. Ermənistandan gəlmiş azərbaycanlılar müvəqqəti olaraq respublikanın 43 rayonunda yerləşdirilmişdi [5].

Bakıya, Sumqayıta, Gəncəyə, Dağlıq Qarabağa gedən yollar qaçqınların üzünə bağlandığından çətin vəziyyət yaranmışdı. Adamlar vağzallarda, yol qıraqlarında gecələyirdilər. Fermalara, məktəb binalarına, tarla düşərgələrinə, xüsusi yerlərə yerləşdirilənlərin sayı gündən-günə artırdı. Mart-iyun aylarında Azərbaycan SSR-ə 30 minə yaxın azərbaycanlı qaçqın gəlmişdi. Qaçqınlarla işləyən xüsusi informasiya mərkəzi yaradılmadığından itkin düşən, ailəsini

itirən adamların da sayı çoxalmışdı. Azərbaycan rəhbərliyi Dağlıq Qarabağa gedən bütün yolları kəsərək qaçqınların bu istiqamətə, hətta qohumlarının yanına belə getməsinə imkan vermirdi. Dağlıq Qarabağın kəndləri və şəhərləri ilə sövdələşib evini dəyişmək üçün razılığa gələn qaçqınlar da bu imkandan məhrum edilmişdi.

Qaçqınlar əsasən Dağlıq Qarabağda məskunlaşmaq istəyirdilər. Azərbaycanda demoqrafik tarazlığın pozulması barədə yalan məlumatlarla çıxış edən ermənilər, xüsusən də Ermənistanın rəsmi orqanları Mərkəzi hökumət qarşısında hay-küy qopardaraq Dağlıq Qarabağ əhalisinin demoqrafik tərkibinin qaçqın düşmüş azərbaycanlılar hesabına dəyişdirilməsinə etiraz etdilər. Ə.Vəzirov başda olmaqla Azərbaycanın qətiyyətsiz, kommunist rəhbərləri Dağlıq Qarabağda və Şuşada məskunlaşmaq istəyən azərbaycanlılara məskunlaşmağa imkan vermədilər.

Ermənistan SSR-də vəziyyət gündən-günə ağırlaşır, millətçi-ekstremist təşkilatların fəaliyyəti güclənməkdə idi. İyunun 17-20-də Yerevanın teatr meydanından erməni dəstələri avtobuslarla şəhərin 10-15 kilometrliyində yerləşən Masis rayon mərkəzinə, Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar edir, adamların döyülməsi, təhqir olunması adi hala çevrilmişdi. Hadisələr nəticəsində 20-dən çox azərbaycanlı yaralanmışdı [10].

Azərbaycanlıların həyatı üçün yaranmış real qorxu və vəziyyətin həddən artıq ciddi olması və qaçqın axını Azərbaycan rəhbərliyini və əslən Ermənistandan olan Azərbaycan vətəndaşlarını narahat etməyə bilməzdi. Azərbaycan KP MK Ermənistan SSR-də azərbaycanlıların yaşadığı yerlərdə vəziyyəti normal hala salmaq üçün Ermənistan hökuməti ilə birgə razılığa əsasən M.S.Məmmədov, N.Fətəliyev başda olmaqla məsul partiya rəhbərləri Ermənistanda azərbaycanlıların yaşadıqları kəndlərdə onların vəziyyətləri ilə tanış olmuş, onların çoxsaylı şikayətlərinə baxmışlar [5].

Noyabr ayının əvvəllərindən başlayaraq Ermənistanda Azərbaycan türkləri əleyhinə mitinqlər keçirilir, onların dərhal respublika ərazisindən qovulmasını tələb edirdilər. "Qarabağ" komitəsinin fəalları bu planın həyata keçirilməsində canfəşanlıq göstərirdilər. 1988-ci ilin noyabrın 4-də "alimlər və yenidənqurma uğrunda mübarizə"yə həsr olunmuş Yerevan şəhərində keçirilən çoxminli mitinqdə çıxış edən, komitənin fəallarından biri olan Ermənistan Elmlər Akademiyasının müxbir üzvü R.Kazaryan türklərin qovulması barədə mitinq iştirakçılarına çağırış edərək bildirirdi: "Dəstələrin köməyi ilə köçürməni təmin etmək lazımdır. Bizə bütün onilliklər ərzində ilk dəfə Ermənistanı təmizləmək üçün nadir imkanlar verilmişdir. Mən bunu on aylıq mübarizəmizin ən böyük nailiyyəti hesab edirəm" [13, s.15].

Meydandakı mitinqdən sonrakı günlərdə respublikadan azərbaycanlı əhalinin qovulması prosesi sürətlə həyata keçirilməyə başladı. Artıq 1988-ci ilin

noyabrın axırlarına yaxın azərbaycanlı qaçqınların sayı 80 min nəfərə çatırdı. Azərbaycanlı qaçqınların Ermənistandan Azərbaycana axını əhalinin emosiyasına təsir göstərir, narazılıqlar dalğası izdihamlı mitinqlərdə özünü göstərirdi [7].

Dağlıq Qarabağda və Ermənistanda sovet orqanlarının, millətçi təşkilatların rəhbərləri iki xalqı qırğına təhrik edir, Azərbaycan SSR-nin daxili işlərinə kobud şəkildə qarışırdılar. Noyabr ayının 16-dan başlayaraq Dağlıq Qarabağda, xüsusən də Ermənistanda baş verən hadisələrlə bağlı Bakı şəhərində çoxminli mitinqlər keçirilir, Ermənistandan azərbaycanlıların qovulması pislənilir, orada yaşayan azərbaycanlıların konstitusiya hüququnun tapdalanmasının qarşısını almaq üçün onların yaşadığı regionda Muxtar Vilayət yaradılması tələb olunurdu [4].

Bu tələblərdən narahat olan Ermənistan rəhbərliyi Ali Soveti noyabrın 22-də Ali Sovetin sessiyasını dayandıraraq deputatları və rayon rəhbərlərini yerlərdə "qayda-qanunu bərpa etməyə" göndərdilər. Əslində isə noyabrın 28-dək Ermənistan SSR-dən azərbaycanlılardan təmizləmək aksiyasını həyata keçirmək barədə göstəriş verilmişdi. Ermənistanda faciəli hadisələrin qarşısını almaq üçün V.N.Samsonovun rəhbərliyi ilə Ermənistana göndərilmiş qoşun hissələri Ermənistan hökumətinə tabe etdirilmiş, bəzi hallarda respublika rəhbərliyinin xüsusi göstərişi əsasında nəzarəti həyata keçirirdi. Hərbi komendantlıq azərbaycanlı əhalinin təhlükəsizliyini qorumaq kimi funksiyanı yerinə yetirmək əvəzinə yoxlanılmamış dezinformasiyalar verməklə əhali arasında çaşqınlıq yaradır, yalan məlumatlarla ermənilərin qisasçılıq hisslərini daha da qızışdırırdı.

Ermənistan SSR Daxili İşlər Nazirliyinin 28 noyabr məlumatında isə deyilirdi ki, respublikanın rayonlarında, xüsusən də ermənilərlə azərbaycanlıların qarışıq yaşadığı rayonlarda gərgin vəziyyət davam edir, milli zəmində ağır nəticələrə gətirib çıxaran hadisələr qeydə alınmışdır. Bir sıra rayonlarda – Quqarkda, Kalininoda, Vardenisdə, Gorusda azərbaycanlılar və ermənilər arasında silahlı atışmalar qeydə alınmış və yolları kəsərək, daş ataraq, təsadüfi hallarda hətta odlu silahdan da istifadə edərək avtonəqliyyat vasitələrinin hərəkəti üçün təhlükə törədirlər [16].

Azərbaycan SSR-də azərbaycanlı qaçqınların işi üzrə respublika komissiyasının məlumatında isə bildirilirdi ki, Ermənistanda vəziyyətin kəskinləşməsi ilə əlaqədar didərginlərin sayı durmadan artır. Ermənistan SSR Nazirlər Sovetinin məlumatında noyabrın əvvəlindən 30 noyabra qədər respublika ərazisini 40.652 nəfər azərbaycanlı tərk etdiyi bildirilirdi [17].

Noyabr ayının 24-dən başlayaraq Ermənistandan azərbaycanlıların zorakılıqla qovulması faktları qeydə alınmışdır. Ermənilər Masis (Zəngibasar) rayonunun Zəhmət, Dostluq, Zəngilər, Rəncbər və başqa azərbaycanlılar yaşayan kəndlərində Rayon İcraiyə Komitəsinin sədri Gevorkyanla və Rayon

Daxili İşlər şöbəsinin rəisi vəzifəsini icra edən İsgəndəryan azərbaycanlı əhalisinə ültimatum verərək onlardan tezliklə rayon ərazisini tərk etmələrini tələb etmişdilər [15, s.154].

Quqark rayonunda ermənilərin törətdiyi vəhşiliklər nəticəsində 30-dan çox azərbaycanlı qətlə yetirilmiş, Şaumyan (Vartana) kəndində isə 14 nəfər azərbaycanlı vəhşicəsinə öldürülmüş və yandırılmışdı [1, s.138]. Yerevan şəhəri xüsusi rayonun hərbi komendantı V.N.Samsonovun məlumatında isə Quqark rayonunun azərbaycanlı ailələrinin erməni özbaşınalıqlarından yaxa qurtarmaq üçün Şaumyan, Arcut, Hallavar, Gözəldərə və başqa kəndlərdəki, azərbaycanlıların dağlara çəkildiyi bildirilirdi [3].

Armenpressin Respublika Daxili İşlər Nazirliyinə istinadən yaydığı xəbərdə Masis, Ararat, Noyomberyan, Spitak, Quqark və başqa azərbaycanlılar yaşayan rayonlarda vəziyyətin olduqca ağır olması, toqquşmalar nəticəsində xeyli insanların yaralandığı bildirilirdi [16]. V.N.Samsonovun 2 dekabr 1988-ci ildə verdiyi məlumatda isə Quqark, Kalinino, Stepanavan rayonlarında baş vermiş toqquşmalarda artıq ölüm hadisələrinin olduğu xəbər verilir, Ermənistanın bütün azərbaycanlılar yaşayan rayonlarında vəziyyətin kəskin və ağır olması göstərilirdi [19].

Azərbaycanda isə Ə.Vəzirovun bilavasitə göstərişi ilə Ermənistanda azərbaycanlıların öldürülməsinə və yaralanmasına dair faktların mətbuat səhifələrinə çıxarılması qadağan edilmişdi: "Azərinform" azərbaycanlıların Ermənistanda kütləvi vəhşiliyə və zorakılığa məruz qalmasını Azərbaycan SSR Daxili İşlər Nazirliyinə və Respublika Səhiyyə Nazirliyinə istinadən yaydığı xəbərdə bütün bunları şaiyə və uydurma adlandırırdı [2].

Bakı şəhəri xüsusi rayonu hərbi komendantının verdiyi məlumata görə, Ermənistanda yaranmış vəziyyətlə bağlı Azərbaycan KP MK-nın müvəkkilləri, əvvəllər Ermənistanın Quqark, İcevan, Krasnoselsk, Vardenis, Qafan rayonlarının keçmiş vətəndaşlarının nümayəndələri dörd zabit qrupu ilə birlikdə noyabrın 30-da bu rayonlarda olmuşlar. Müəyyən edilmişdir ki, bu rayonlarda vəziyyət hələ də ağır və çox vaxt qeyri-müəyyəndir [4].

Bakı şəhəri xüsusi rayonu zabitlərinin, Azərbaycan SSR Nazirlər Sovetinin, Qafan, Sisyan, İcevan rayonlarından köçmüş azərbaycanlıların nümayəndələrindən ibarət səyyar qrup dekabr ayının 1-də Ermənistanın azərbaycanlılar yaşayan rayonlarında olmuş, vəziyyətlə ətraflı tanış olmuşlar. Məlum olmuşdur ki, respublikada azərbaycanlıların vəziyyəti olduqca ağırdır, demək olar ki, onların təhlükəsizlikləri orada olan sovet əsgərləri tərəfindən qorunmur [14].

Yerevan şəhəri Hərbi Komendantı öz vəzifəsini yerinə yetirmədiyindən Bakı şəhəri xüsusi rayonun hərbi komendantı işə qarışmış, onun V.N.Samsonova verdiyi sərəncamda şəraitin normal hala salınması üçün zəruri olan yerlərdə, bütün azərbaycanlı yaşayış məntəqələrində əsgəri qornizonlar

yerləşdirilməsi tələb edilirdi [4].

Dağlıq Qarabağ və onun ətrafında yaranmış mürəkkəb vəziyyətlə, regionda qaçqınların sayının gündən-günə artması, qaçqın əhalinin yerləşdirilməsi, onlara tibbi, ərzaq yardımı göstərmək və onların problemlərini yerindəcə həll etmək məqsədilə SSRİ hökuməti tərəfindən SSRİ Nazirlər Soveti sədrinin birinci müavini B.E.Şerbinanın başçılığı altında hökumət komissiyası yaradılmışdı [7].

Bakı şəhəri xüsusi rayonu komendantı Tyaqunov isə öz növbəsində Quqark, Stepanavan, Ararat, Kalinin, Masis rayonlarında qalmaqda olan kəskin vəziyyəti yaxşılaşdırmaq üçün tədbirlər görüldüyünü, Ermənistandan getmək istəyən azərbaycanlıların əsgəri bölmələrin mühafizəsi ilə yola salındığını bildirirdi [3].

Hərbi komendantlıq Ermənistanda azərbaycanlı əhalinin təhlükəsizliyini yerindəcə təmin etmək əvəzinə azərbaycanlı əhalinin Ermənistandan köçürülməsi prosesinə başladı. Azərbaycan SSR Nazirlər Soveti Ermənistanda azərbaycanlıların ağır vəziyyətini nəzərə alaraq onların sıx yaşadıqları yaşayış məntəqələrindən köçürülməsi və daşınması üçün Bakı şəhər xüsusi rayonunun hərbi komendantı M.Tyaqunov ilə birlikdə tədbirlər gördüyünü bildirirdi [3].

Dekabrın 1-dən 2-dək Masis rayonundan 3800, Spitakdan 400 nəfər, Ararat rayonundan 450 nəfər, Kalinino rayonundan 150 nəfər, Kirovakandan 482 nəfər, Stepanavandan 614 nəfərin hərbi vertolyotlarla Azərbaycan ərazisinə daşındığını bildirirdi. Hökumət tərəfindən verilən məlumatda dekabrın 2-dək azərbaycanlı qaçqınların sayının 78 mini keçdiyi aydın olur [2].

Görülən tədbirlər nəticəsində Stepanavan və Masis rayonlarından azərbaycanlılar tamamilə köçürülmüş, Qafan rayonunun Girətağ, Kürdlər, Çaykənd, Pürülü, Payəqan, Hacabad yaşayış məntəqələrinin azərbaycanlı sakinləri (130 ailə) avtomobil nəqliyyatı ilə əsgəri bölmələrin mühafizəsi altında Qafan rayon mərkəzinə gətirilərək elektrik qatarı ilə Zəngilana gətirilmişdi [2].

Ermənistan SSR-dəki daimi yaşayış yerlərini tərk etmiş əhali ilə iş üzrə respublika hökumət komissiyasının 8 dekabr 1988-ci il tarixli iclasında Nazirlər Sovetinin sədri H.Seyidov Ermənistandan Azərbaycana 110 mindən çox azərbaycanlı qaçqının gəldiyini bildirirdi [8].

Ümumiyyətlə, 1988-1989-cu illərdə Azərbaycan Respublikası Qaçqınlar Cəmiyyətinin 1997-ci məlumatında Azərbaycana Ermənistandan 39739 ailə, 189497 nəfər azərbaycanlı qaçqın gəlmişdir. Bu məlumat doğru sayıla bilməz. Belə ki, bu siyahıya qaçqın gəlmiş ailələrin əsgərlikdə olan övladları və Azərbaycanda oxuyan tələbələr daxil edilməyib. Bütün bunları nəzərə alsaq, 1988-1989-cu illərdə Azərbaycan SSR-ə 230 mindən artıq azəbaycanlı qaçqın gəlmişdir.

Ermənistandan Azərbaycan türklərinin vəhşiliklə qovulması respublika

rəhbərliyinin Mərkəzi hökumətlə razılaşdırılmış və birgə həyata keçirdikləri ardıcıl siyasətin nəticəsi idi. Ermənistan KP MK-nın 1989-cu ildə qəbul etdiyi qərar da bu faktı təsdiq edir. Ermənistan KP MK ümumi şöbəsinin müdiri L.Çaxmaxçyan tərəfindən "Pravda" qəzetinin redaksiyasına göndərdiyi məlumatda göstərilirdi ki, Ermənistanda Stepanavan, İcevan, Yeğeqnadzor, Quqark, Krasnoselo, Ararat, Masis, Amasiya, Noyomberyan rayonlarında vətəndaşların konstitusiya hüquqları kobud surətdə pozulmuş, vəziyyəti sabitləşdirmək və millətlərarası toqquşmaların qarşısını almaq üçün tədbir görülməmiş, rayon rəhbərləri tərəfindən azərbaycanlı əhalinin kütləvi surətdə köçməsi təşkil edilmişdir [20].

Rəsmi Moskvanın separatizmə göz yumması, erməni ekstremizmini himayə etməsi nəticəsində 1988-ci ilin axırlarınadək Ermənistan ərazisində Azərbaycan türklərinin yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məntəqələri boşaldıldı. Ümumiyyətlə, Ermənistanın 22 kənd və rayonundan, 6 şəhərindən 231 min nəfərdən artıq əhali tarixi torpaqlarından deportasiya olundu.

Azərbaycan Respublikası Qaçqınlar Cəmiyyətinin tərtib etdiyi siyahıda isə 1988-1989-cu illərdə Ermənistanda 217 nəfər azərbaycanlı həlak olmuş, minlərlə adam şikəst edilmişdir [6]. 36 nəfər müxtəlif işgəncələrlə, 18 nəfər güllə ilə, 14 nəfər yandırılaraq, 16 nəfər avtomaşınla vurulmuş, 48 nəfər isə ermənilər tərəfindən aldıqları müxtəlif xəsarətlər nəticəsincə dünyasını dəyişmişdir. Noyabr-dekabr aylarında kütləvi qovulma nəticəsində 48 nəfər dağlarda borana düşərək ölmüşdür. Yerdə qalanlar isə həkim qəsdi və müxtəlif hadisələrdən sonra ölənlər və itkin düşənlərdir.

Göründüyü kimi, azərbaycanlıların deportasiyası məqsədli siyasətin nəticəsi olmuş, bu, xüsusi amansızlıqla və dövlət səviyyəsində həyata keçirilmişdir.

Beləliklə, aşağıdakı nəticələrə gəlmək olar:

1) XX əsrin 80-ci illərinin axırlarında azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası və SSRİ rəhbərlərinin təhriki ilə xalqımıza qarşı təcavüz və cinayətlərin yeni dalğası başladı.

2) Erməni təcavüzü nəticəsində xalqımız soyqırıma məruz qaldı. Masisdə, Şirazlıda, Qafanda, Quqarkda ermənilər dəhşətli qırğınlar törətdilər.

3) Bu siyasətin həyata keçirilməsində partiya və sovet orqanları, şovinist dairələr xüsusi fəallıq göstərdilər.

4) Ermənistanda Azərbaycan türklərinin və başqa etnik qrupa mənsub xalqların deportasiyası ilə Ermənistan monoetnik respublikaya çevrildi.

## ƏDƏBİYYAT


1. *Arzumanlı V., Mustafa N.* Tarixin qara səhifələri. Deportasiya. soyqırım, qaçqınlıq Bakı: Qartal, 1998, 280 s.
2. Bakı şəhəri hərbi komendantının məlumatı. "Kommunist" qəz., Bakı, 4 dekabr №281, 1988
3. Bakı şəhəri hərbi komendantının məlumatı. "Kommunist" qəz., Bakı, 9 dekabr №286, 1988
4. Bakı şəhəri hərbi komendantının məlumatı. "Kommunist" qəz., Bakı, 28 noyabr №276, 1988
5. DQMV ətrafında vəziyyətə dair. "Kommunist" qəz., Bakı, 10 iyul, №162
6. *Eldar İ.* Ermənistan türklərinin 1988-ci il soyqırımı. Bakı: Bayatı, 1994, 112 s.
7. Hökumət Komissiyasında. "Kommunist" qəz., Bakı, 12 dekabr №282, 1988
8. Hökumət Komissiyasında. "Kommunist" qəz., Bakı, 8 dekabr №285, 1988
9. *Həsənova L.L.* Azərbaycanlılar Ermənistan SSR-də, ermənilər Azərbaycan SSR-də. Tarixi demoqrafik təhlil (1920-1989-cu illər) // Bakı Universiteti xəbərləri, 1999, №4
10. *Vəlizadə İ, Muradov B.* Ermənistan azərbaycanlılarının soyqırımı. Bakı: Gənclik, 1996, 172 s.
11. *Бунятов З.* Почему Сумгаит? История Азербайджана по документам и публикациям. Баку: Елм, 1989, 354 с.
12. *Дашдемиров А.* Беженцы // Вестник Аналитики, №3, 2005, с.5-6
13. Двадцать месяцев за борьбу (сборник выступлений). Ереван: Изд.АОД, 1989, 45 с.
14. *Ереванлы А.О.* Черное лето 1988 года (Ереванские события), Баку: Элм 2001, 110 с.
15. История Азербайджана по документам и публикациям. Баку: Елм, 1989, 354 с.
16. Информация Министерства Внутренних Дел Армянской ССР. Газ. «Коммунист», Ереван, №278, 29 ноября 1988 г.
17. Информация военного коменданта города Ереван. Газ. «Коммунист», Ереван, №276, 25 ноября 1988 г.
18. Информация военного коменданта города Ереван. Газ., «Коммунист», Ереван, №281, 4 декабря 1988 г.
19. Информация агентства «Арменпресс». Газ. «Коммунист», Ереван, №53, 3 марта 1988 г.
20. Отвенность за безотвенность. Газ. «Правда», Москва, №17, 17 января 1989 г.


Redaksiyaya daxil olub 01.11.2020

*UOT 94(479.24)*

***Ə.F.Məmmədov***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*mammadovanvar1969@mail.ru*

# SOVETLƏŞMƏDƏN SONRA İLK AYLARDA AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT

***Açar sözlər:*** *Azərbaycan, XI ordu, işğal, müqavimət, üsyan, vəhşilik*

Məqalədə bolşevik Rusiyası tərəfindən Azərbaycanın işğal olunmasından sonrakı ilk aylarda vətənimizin ayrı-ayrı bölgələrində siyasi durumun kəskinləşməsi və işğala qarşı baş vermiş üsyanlar probleminin bir hissəsi ilk dəfə elmi dövriyyəyə cəlb olunmuş ilkin mənbələr əsasında araşdırılmışdır. XI Ordu hissələrinin tərkibində olan ermənilərin azərbaycanlı əhaliyə qarşı törədilmiş özbaşınalıqlarda iştirakı da məqalədə geniş şəkildə öz əksini tapmışdır. Bu özbaşınalıqlara qarşı Azərbaycan xalqının göstərdiyi müqavimət qüvvələrin son dərəcə qeyri-bərabər olması səbəbindən məğlubiyyətlə nəticələnmişdir.

***А.Ф.Мамедов***

# ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ В АЗЕРБАЙДЖАНЕ В ПЕРВЫЕ МЕСЯЦЫ ПОСЛЕ СОВЕТИЗАЦИИ

***Ключевые слова:*** *Азербайджан, XI армия, оккупация, сопротивление, восстание, зверство*

В статье на основе частично впервые введенных в научный оборот первоисточников исследуются вопросы обострения политического положения в отдельных регионах Азербайджана в первые месяцы после оккупации его большевистской Россией. В статье также нашли широкое отражение зверства армян, принимавших участие в боевых действиях на стороне Красной Армии против азербайджанского населения. Сопротивление азербайджанского народа окончилось поражением из-за неравнозначного соотношения противоборствующих сил.

***A.F.Mammadov***

# POLITICAL SITUATION IN AZERBAIJAN IN THE FIRST MONTHS AFTER SOVIETIZATION

***Keywords:*** *Azerbaijan, the XI army, occupation, resistance, revolt, atrocity*

The article examines the exacerbation of the political situation in certain regions of Azerbaijan in the first months after its occupation by Bolshevik Russia on the basis of the primary sources that were first introduced into scientific circulation. The article also broadly reflected the atrocities of Armenians who took part in hostilities on the side of the Red Army, against the Azerbaijani population. The resistance of the Azerbaijani people

ended in defeat due to the unequal balance of the opposing forces.

## Giriş

Sovetlər dönəmində ideoloji qərəzlər və siyasi konyunktura səbəbindən tədqiqatdan kənarda qalmış problemlərdən biri də Sovet hakimiyyətinə qarşı getmiş müqavimət hərəkatı problemidir. Tariximizin susqunluqla qarşılanan, unudulan və unutdurulmağa çalışılan bir çox hadisələri son 25-30 ildə ciddi şəkildə öyrənilərək öz layiqli qiymətini almış, layiqli yerini tutmuşdur. Bu da şəksiz, tariximizin elmi mənzərəsinin formalaşdırılmasına xidmət etməklə yanaşı, eyni zamanda xalqın milli qürurunu, doğma torpağa bağlılığı, vətənpərvərlik hisslərini gücləndirməyə yönəlmişdir. Təqdim olunan məqalədə uzun müddət üzərindən sükutla keçilmiş, yalnız müstəqilliyimizin yenidən bərpasından sonra tədqiqinə başlanılan Sovet hakimiyyətinin ilk aylarında yeni rejimə qarşı baş vermiş üsyanlar probleminin bəzi məsələlərinin üzərində dayanılacaq.

Azərbaycana təcavüz edəcək XI Ordu komandanlığı artıq 1920-ci ilin martın sonlarında Bakı əməliyyatına hazırlıq işlərinə başlamışdı. Bu məqsədlə aprel ayının ortalarında Azərbaycanın şimal sərhəddində XI Ordunun xeyli hissəsi toplaşmışdı. Aprelin 21-də Qafqaz cəbhəsi komandanlığı (Tuxaçevski, Orconikidze, Zaxarov) 490 saylı direktivlə XI Orduya aprelin 27-də Azərbaycan sərhəddini keçərək Bakı quberniyasını ələ keçirmək əmrini verdi. İki gün sonra bu direktivə düzəliş edildi: ordunun son vəzifəsi kimi tək Bakı quberniyası deyil, bütünlükdə Azərbaycanın ələ keçirilməsi hesab olunurdu.

Nəhayət, bütün hazırlıq işləri tamamlandıqdan sonra aprelin 27-də Azərbaycan Xalq Cümhuriyyətinə qarşı daxili və xarici qüvvələrin əvvəlcədən düşünülmüş qəsd ssenarisi işə salındı. Sovet Rusiyasının hərbi təcavüzü, yerli kommunistlərin destruktiv tərz-xətti ilə bərabər Azərbaycan silahlı qüvvələrinin Qarabağda döyüşlər apardığı bir şəraitdə “Birinci respublikanın” süqutunu bilavasitə gerçəkləşdirən faktor oldu.

Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə nəticələnmiş aprel çevrilişi formal olaraq bir siyasi dövlət sisteminin tamamən dağıdılaraq yenisi ilə əvəzlənməsi hadisəsi olsa da, mahiyyət etibarilə son dərəcə fərqli proseslərə rəvac vermişdi; bu hadisə nəticəsində Azərbaycan yeni ad və yeni ictimai-siyasi qiyafədə bərpa olunan, fəqət öz imperiya məğzini saxlayan struktura daxil edilirdi və əhəmiyyətli dərəcədə öz müstəqilliyini itirirdi.

Çar Rusiyasının müstəmləkələrinə münasibətdə yeritdiyi siyasətin bir qədər fərqli formada bolşevik rejiminin ilk vaxtlarında da davam etdirilməsi – aprel çevrilişinin ardından ölkədə faktiki işğal rejiminin bərqərar olması, milli ruhun boğulması, yürüdülən sosial-iqtisadi kurs, xüsusən də kəndə və kəndliyə münasibətdə soyğunçu siyasət əhalinin hiddətinə səbəb olmuşdu. 1920-1921-ci illərdə Azərbaycan işğala qarşı ümumxalq üsyanlarına meydan olmuş, sonrakı illərdə də bolşevik rejimi əleyhinə çıxışlar ara verməmiş, respublikanın bir çox

şəhərlərində, yaşayış məntəqələrində gizli siyasi təşkilatlar fəaliyyət göstərmişdi. Xalqımızın bolşevik rejiminə qarşı apardığı azadlıq mübarizəsi sovet hakimiyyətinin ilk dönəmində Azərbaycanın demək olar ki, bütün qəzalarını bürümüşdü. Təqdim olunan məqalədə onlardan Gəncə, Qarabağ, Zaqatala və Nuxa qəzalarında baş vermiş üsyanların üzərində dayanılacaq.

Aprelin 27-dən etibarən Azərbaycanın işğalına başlayan XI Ordu işğalın ilk bir ayı ərzində Vətənimizin ərazisindəki bütün strateji əhəmiyyətli bölgələri tutaraq Bakıda XI Ordunun qərargahı və 28-ci diviziya, Yevlaxda 32-ci, Azərbaycanın Ermənistanla sərhəddində 20-ci, Lənkəranda isə 1-ci və 18-ci Qafqaz diviziyaları, eləcə də Cənubi Qafqaz dəmir yolunun Azərbaycan ərazisindəki hissəsi boyu zirehli qatarlar yerləşmişdi [23, s.144].

Bolşevik-rus ordu hissələri ilk gündən özlərini bu yerlərin sahibi kimi aparır, yerlərdəki hakimiyyət orqanları olan Qəza İnqilab Komitələrini saymır, özbaşına evlərdə axtarışlar apararaq oğurluq, qarət və talançılıqla məşğul olmağa başlayır. Zaqatala qəza Qax məntəqə Hərbi İnqilab Komitəsinin sədri Süleymanovun Azərbaycan Mərkəzi Hərbi İnqilab Komitəsinə yazdığı 28 may 1920-ci il tarixli məktubunda bu barədə göstərilirdi: “Zaqatala qəzasına daxil olmuş Kurişkonun komandanlıq etdiyi Xüsusi Qafqaz Diviziyası və Ümumrusiya Fövqəladə Komissiyası Xüsusi Şöbəsinin hərbi hissələri burada kəndləri qarət edir, bu zaman qadınlara qarşı kobud rəftar edilir, evlərdə aparılan özbaşına axtarışlar zamanı Quran, müqəddəs kitablar ayaq altına atılır, əhalinin dini hissləri təhqir olunur. Bu işlərdə erməni daşnaklarından da istifadə olunur. Əgər belə hərəkətlərin qarşısı vaxtında alınmazsa, bu, tezliklə böyük partlayışa səbəb olacaq və Sovet hakimiyyətini rəğbətlə qarşılamış sadə xalq ondan üz döndərəcək” [3, s.4].

Ağdaş və Göyçay qəzaları üzrə fövqəladə komissarın məruzəsində deyilirdi ki, qəzalarda mənzil salmış 18-ci süvari diviziya demək olar bütün taxılı müsadirə etdiyindən əhali aclıq çəkməkdə idi [5, s.73-75]. Sovet tarixşünaslığında qəhrəman komandir kimi qələmə verilən [25, s.194] P.V.Kurışkonun başçılıq etdiyi əlahiddə süvari diviziya Fövqəladə Komitə və Xüsusi Şöbə ilə birlikdə Zaqatala qəzasında qarət və zorakılıqlarla məşğul olurdu. Qax Nahiyə İnqilab Komitəsinin məktubunda (1920, 28 may) süvari diviziyanın əhaliyə 3 milyon manat həcmində ziyan vurduğu, Xüsusi Şöbənin məsum insanları həbsə alaraq işgəncə və təhqirlərə məruz qoyduğu qeyd edilirdi [4, s.52-53].

XI Ordu əsgərlərinin özbaşınalığı, başqalarına dərs vermək üçün əhalinin gözü qarşısında nümayişkaranə şəkildə günahsız insanları güllələməsi xalqın qəzəbinə səbəb olur. Xalq kütlələri rekvizisiyadan, ərzaq və mallarının zorla müsadirəsindən, Xüsusi Şöbə nümayəndələrinin özbaşınalığından hiddətlənmişdi. Quzğunlaşmış əsgərlərə müqavimət göstərmək iqtidarında olmayan silahsız əhali isə xilas yolunu evlərini, mal-mülkünü ataraq dağlara, meşələrə qaçmaqda görürdü. Əhali qırmızı ordunun nəinki sadə xalqın qeydinə qalmaq, hətta onlara bel bağlamış yerli kommunistlərlə belə hesablaşmaq niyyətində olmadıgını anlayır.

Bütün bunları əvvəlcədən görən demokratik ziyalılar hələ sovet hakimiyyətinin ilk günlərində yazırdılar: "Öz istiqlaliyyəti naminə qurbanlar vermiş, qazandığı azadlığı iki il ərzində var qüvvəsi ilə qoruyan və əziz bilən Azərbaycan xalqı ona zorakı yolla qəbul etdirilən yeni qayda-qanunla barışa bilməz" [14, s.23]. Bu barədə M.Ə.Rəsulzadə yazırdı: "İşğaldan bir ay sonra Azərbaycan dəhşətli işğala məruz qaldığını başa düşdü... xalq dözmədi və üsyan etdi" [24, s.163]. Müsavat partiyasının rəhbərlik etdiyi "Azərbaycanın İstiqlal Komitəsi" isə ölkə işğal edildikdən sonra yaydığı bəyannamədə Azərbaycandakı sovet hakimiyyətini işğalçı və qəsbkar adlandıraraq xalqı itirilmiş müstəqilliyin bərpası uğrunda mübarizəyə səsləmişdi [19, s.33].

Kütləvi həbs və repressiyalarla müşayiət olunan işğala qarşı çevrilmiş xalqın qəzəb dalğası Azərbaycanın müxtəlif bölgələrində sovet tarixşünaslığında "bəy", "xan", "molla" iğtişaşları kimi adlarla damğalanaraq üstündən sükutla keçilmiş kütləvi xalq hərəkatlarına səbəb olur. Sovet tarix elmi bu məsələlərin üstündən sükutla keçsə də, işğalın ilk aylarında bütün Azərbaycanı antisovet üsyanları bürüdüyünü sənədlərin yaddaşından silmək mümkün olmadı.

İlk üsyan Azərbaycan Milli Ordusunun əsas qüvvələrinin toplaşdığı Gəncədə baş verir. Şəhərdə yaşayan ermənilər vasitəsilə Gəncədə üsyanın hazırlanması, bolşevik-rus ordu hissələri üzərinə hücumun olacağı barədə xəbər alan sovet hakimiyyət orqanları təcili əks tədbirlər görməyə başlayırlar [23, s.147]. Bu məqsədlə mayın 18-də Gəncəyə ezam olunmuş Daxili İşlər komissarı H.Sultanov Qəza İnqilab Komitəsinin yığıncaqlarını təşkil edərək yaranmış vəziyyətlə bağlı tədbirlər görməyə başlayır [7, s.60]. Əvvəlcə Gəncə komendantı şahzadə Məmməd Mirzə Qacar, daha sonra 1-ci piyada diviziyanın rəisi general-mayor Cavadbəy Şıxlinski və 3-cü Gəncə piyada alayının komandiri polkovnik Cahangirbəy Kazımbəy vəzifədən kənarlaşdırılır [12, s.37].

Bu, həmin vaxtı Gəncədə yerləşmiş general Şıxlinskinin komandanlıq etdiyi 1-ci Azərbaycan diviziyası, 3-cü Gəncə alayı, Nuxa süvari alayının təlim dəstəsi, onun bir taboru və diviziya qərargahının komendant komandasından ibarət üsyançı qüvvələri də hazırlıq işlərini sürətləndirməyə vadar edir. Formal olaraq bu hissələr 1-ci Ümumazərbaycan fəhlə-kəndli piyada diviziya və süvari briqadalarını təşkil etsə də, Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 11 may qərarı ilə mövcud birləşmələr yenidən təşkil edilməklə XI Ordunun Hərbi İnqilab Şurasına tabe edilirdi. Mayın 22-də C.Kazımbəyin təşəbbüsü ilə hərbçilərin bir qrupu – Məşədi Bağırbəy və Əlibəy, Gəncə hərbi qarnizonunun rəisi general-mayor Cavadbəy Şıxlinski, 3-cü Gəncə piyada alayının komandiri polkovnik Cahangirbəy Kazımbəyov, 3-cü süvari diviziyasının komandiri polkovnik Teymurbəy Novruzov, Gəncənin keçmiş komendantı Məmməd Mirzə Qacar, Gəncə qəzasının sabiq general-qubernatoru Əmirxan Xoyski, Gəncənin sabiq polis rəisi Qənbər Tağı oğlu, eyni zamanda məşhur qaçaqlar Sarı Ələkbər, Topalhəsənli Cabbar və digərlərinin iştirakıyla keçirilmiş toplantıda silahlı üsyana qalxaraq dəmir yolu

stansiyasını tutmaqla Bakı ilə qərb bölgələrin əlaqəsini kəsmək, oradakı bolşevik-rus ordu birləşmələrinin Azərbaycanın içərilərinə doğru hərəkətinin qarşısını almaq, nəhayət, bolşevik hakimiyyətini devirmək qərara alındı [7, s.60]. Qarabağda yerləşən Milli Ordu birləşmələri ilə əlaqə yaratmaq məqsədi ilə Gəncə üsyanının rəhbərləri tərəfindən bölgəyə iki nəfər zabit göndərmiş, bolşeviklərlə mübarizədə Gürcüstanla ittifaqa nail olmaq üçün isə C.Kazımbəyin göstərişi ilə Gəncədə gizli yaşayan gürcü polkovniki Tiflisə yola düşmüşdü [14, s.38]. Denikinçi zabitlərdən alman əsilli polkovnik Hauzen üsyançı piyada hissələrin komandiri, polkovnik Nikolayev isə artilleriya batareyasının komandiri təyin olunmuşdu. Üsyançıların əsas zərbə qüvvəsini polkovnik C.Kazımbəyin rəhbərlik etdiyi Azərbaycan Milli Ordusunun Gəncədəki 3-cü Gəncə alayı və 3-cü Nuxa alayının süvari hissələri təşkil edirdi. Üsyanın gedişində polkovnik C.Kazımbəy qarnizon rəisi təyin olunmuşdu [26]. Qaçaq Sarı Ələkbər və Qəmbərin tabeliyindəki 2000 nəfərlik dəstəsi, qaçaq Qasım Kosaqanlı, qaçaq Mikayıl və başqa dəstələrin, eyni zamanda üsyana qoşulmuş şəhər əhalisi ilə birlikdə üsyançıların ümumi sayının 10-12 minə çatdığı göstərilir [16, s.87; 22, s.115].

Gəncə üsyanının yatırılmasında iştirak etmiş 20-ci diviziyanın komandiri M.D.Velikanovun məlumatına görə, üsyan ərəfəsində Gəncədə bolşeviklərin sərəncamındakı qüvvələr XI Ordunun 20-ci atıcı diviziyasının bütün arxa cəbhə idarələri ilə birgə 178 və 180-cı alayları, 2 süvari və 1 rabitə taboru, diviziya qərargahının komendant komandası – cəmi 30 pulemyotu olan 2000 əsgəri, eyni zamanda 20-ci Qafqaz briqadasının Gəncənin 20 verstliyindəki Zurnaabad kəndi ətrafında yerləşmiş 8 pulemyotlu 450 nəfərlik süvari batareyası, eləcə də bu diviziyanın Yelenendorf məntəqəsindəki artilleriya qərargahı və iki topçu taborundan ibarət idi. Bu qüvvələrdən artilleriya divizionu və 3-cü briqadanın qərargahı istisna olmaqla digər bütün nizami hissələr şəhərin erməni məhəlləsində, 3-cü briqadanın qərargahı, 2 süvari tabor və diviziyanın bütün arxa cəbhə idarələri isə azərbaycanlılar yaşayan hissəsində yerləşmişdi. Bundan əlavə qəzanın yaxınlığındakı Gəncə-Ağstafa stansiyasında isə "Timofey Ulyantsev" zirehli qatarı dayanmışdı [23, s.147]. Üsyan mayın 25-dən 26-na keçən gecə başladı. Gəncədə milli qüvvələrin hazırlığından xəbər tutan şəhər komendantı həmin gecə Azərbaycan diviziyası əsgərlərinin gözətçi məntəqələrini ələ keçirməyi əmr edir. Milli qüvvələr isə qırmızı əsgərlərin bu hücumunu dəf edərək əks-həmləyə keçirlər. Üsyançı hissələr həmin gecə şəhərin azərbaycanlılar yaşayan hissəsindəki qırmızı qüvvələrin üzərinə hücum edərək qısa vaxtda 20-ci diviziyanın buradakı iki yüngül atlı taborunun müqavimətini qıraraq 3-cü briqadanın qərargahı və təchizat şöbəsini, beləliklə də şəhərin bu hissəsinə nəzarəti ələ keçirir. Tutulmuş komanda heyəti, siyasi işçilər, qırmızı əsgərlər həbs olunurlar. Həmin gecə Milli Ordu qüvvələri şəhərin müsəlmanlar yaşayan hissəsində yerləşmiş qırmızı hissələri tərksilah edərək təxminən 600 nəfərlik şəxsi heyətini həbs edir [6, s.25]. Eyni vaxtda şəhərin ermənilər yaşayan hissəsində 500 nəfərlik Milli Ordu qüvvələri qırmızı hissələrə

qəfil hücum edərək 200 əsgəri əsir götürür, mühasirədə olan 2100 nəfərdən təslim olmaq tələb olunur. Lakin qüvvələr nisbətinin qeyri-bərabər olması milli qüvvələri geri çəkilməyə məcbur edir. Həbsxanadakı keçmiş məhbuslar azad edilir, silah anbarı ələ keçirilir, şəhərin müsəlman əhalisi silahlandırılaraq üsyançı qüvvənin sayı 10 minə çatdırılır. Geri çəkilən XI Ordu, Xüsusi Şöbə və Siyasi Şöbənin bütün müəssisələri üsyançılar tərəfindən ələ keçirilir [7, s.60].

Gəncədə üsyanın başlanması ilə quberniyanın dağlıq hissəsində ermənilər yaşayan kəndlərdən könüllülər axışaraq XI Ordu komandanlığına üsyançılarla mübarizədə öz xidmətlərini təklif edirlər. 20-ci diviziyanın komandiri Velikanovun verdiyi məlumata görə, komandanlıq ermənilərin hərbi qüvvə kimi yararsız olduğunu bildiyi halda qüvvə çatışmazlığı səbəbindən onları silahlandıraraq arxada ikinci dərəcəli funksiyaları yerinə yetirən xüsusi dəstələr təşkil etməyə məcbur olmuşdu [23, s.149].

Mayın 28-i gün ərzində üsyan rayonuna – 20-ci atıcı diviziya komandiri M.D.Velikanovun sərəncamına P.V.Kurışkonun başçılıq etdiyi 18-ci süvari diviziya, M.Q.Yefremovun komandanlığı ilə "Karl Marks" və "III İnternasional" kimi iki zirehli qatardan ibarət əlavə hərbi qüvvə göndərildi [23, s.152].

Artıq Azərbaycanın bir çox bölgələrində həyəcanlar başlamışdı. Üsyan edən rayonlar Gəncə üsyançıları ilə əlaqə yaratmağa cəhd edirdilər. Belə ki, ayın 29-u qırmızı hissələrin şəhərə hücumlarının davam etdiyi bir vaxtda Şuşada üsyançıların tərəfinə keçmiş Şəki süvari alayı Gəncəyə girməyə cəhd etmiş, lakin Yelenendorf yaxınlığında baş verən döyüşdən sonra bu alay geri çəkilməyə məcbur olmuşdu [23, s.155].

Üsyançıların üzərinə ümumi hücum mayın 31-ə təyin edilmişdi. M.D.Velikanovun verdiyi məlumata görə, mayın 30-u axşama doğru həlledici Gəncə əməliyyatı qabağı bolşeviklərin ixtiyarında 175, 176, 178, 179 və 180-cı olmaqla 5 atıcı alay, rabitə taboru, diviziya qərargahının komendant komandası, xizəkçilər dəstəsi, könüllü ermənilərdən təşkil olunmuş hər biri 100 nəfərlik iki dəstə, 3 desant zirehli qatar bölüyü, 18-ci Qafqaz diviziyasının 4 alayı, 20-ci Qafqaz briqadasının 2 alayı, artilleriya, hər biri 2-3 topa malik 6 zirehli qatar, topçu divizion, 2 yüngül artilleriya divizionu, 18-ci süvari divizionu, dağ atlı taboru, 42-ci xətti taboru, 2 zirehli maşın-cəmi 5 piyada alay, 6 süvari alay, 7 əlahiddə hissə və dəstə, 57 top, 2 zirehli maşın və bir neçə zirehli qatar vardı [23, s.155].

Axşama doğru XI Ordu hissələri şəhəri nəzarətə ala bilirlər. Azərbaycan ordusu qüvvələrinin bir hissəsi mühasirəni yarıb dağlara çəkilməyə müvəffəq olur. Cahangirbəy Kazımbəy başda olmaqla digər bir dəstə isə Bərdə istiqamətinə, oradan da Qarabağın içərilərinə doğru irəliləyərək Nuru paşanın hərbi birləşmələrinə qoşulur [14, s.42]. Üsyan rəhbərlərindən Cavadbəy Şıxlinski hələ şəhərin alınmasına bir-neçə saat qalmış süvari dəstənin müşayiəti ilə Qazaxa, doğma kəndi Salahlıya gətirilmiş, bir qədər sonra o, üsyanın digər təşkilatçıları olan Nəsibbəy Yusifbəyli, Fətəli Xan Xoyski və şahzadə Məhəmməd Mirzə

Qacarla Zaqataladan Gürcüstan ərazisinə keçə bilmişdi [27].

Mühasirədən çıxmağa imkanı olmayanlar isə amansız terrora məruz qalır. XI Ordunun komandanı Levandovski Gəncənin alınması uğrunda gedən əməliyyatlara rəhbərlik etmiş 20-ci diviziyanın komandiri Velikanovdan tələb edirdi: "...kvartal-kvartal şəhərin dağıdılmasına başlayın. Üsyanın yatırılması qəddar və rəhmsizcəsinə divan tutulmaqla həyata keçirilməlidir. Qırmızı əsgərlərin axıdılmış qanına görə bütün üsyan iştirakçılarını məhkəməsiz güllələyin" [22, s.116].

Üsyanın yatırılmasından sonra güllələnmə və qarətlərlə müşayiət olunan kütləvi həbslər həyata keçirilir. Üsyanın şahidlərindən bolşevik Salman Levin aparılmış həbslər nəticəsində Gəncə həbsxanasında 800-ə qədər məhbusun olduğunu göstərirdi [26]. Həbs olunanlar arasında general Stankeviç, İsrafilbəyov, Adilbəy Zülqədərov, keçmiş şeyxülislam Axund Pişnamazzadə [2, 23 arxa], eyni zamanda məşhur generallar S.Mehmandarov, Ə.Şıxlinski [21, s.84], polkovnik Hauzen də [26] vardı.

Gəncədə üsyanın davam etdiyi bir vaxtda Azərbaycanın başqa bir bölgəsində – Tərtərdə və Qarabağda həyəcanlar başlamışdı. Qarabağ üsyanı mayın 21-23-də baş vermiş Tərtər hadisələri ilə başladı. Belə ki, ayın 21-də yerli əhalidən olan silahlı hissələrin Tərtərdəki sovet bölmələri və bölgəni tərk edən Qırmızı Ordu alayı üzərinə silahlı hücumu Tərtərdə həyəcanlara səbəb olur. XI Ordunun 32-ci diviziyasının Tərtərdə yerləşmiş 282-ci piyada alayı mayın 21-də yerini axşama doğru onu əvəz etmək üçün gələcək yeni rus alayına vermək üçün şəhəri tərk edərkən zorla buradakı Azərbaycan Milli Ordusunun 3-cü süvari Şəki alayına məxsus atları da aparmaq istədikdə qarşıdurma yaranır [17]. Baş vermiş döyüşdə Qırmızı Ordu hissələri 80 nəfər itki verərək geri çəkilməyə məcbur olur. Bu döyüşdə onların komandiri də öldürülür [2, 29 arxa].

Gəncədə üsyanın başlanması xəbəri alınan kimi Cəbrayıl ətrafında milli qüvvələrin toplantısı keçirildi və üsyanın mayın 29-dan 30-a keçən gecə başlanması qərara alındı. Gəncə üsyanının gedişi ilə bağlı məlumat almaq məqsədilə kiçik dəstə ilə Bərdədən Yevlaxa hərəkət edən Ehsan Xan Naxçıvanski XI Ordu hissələri tərəfindən yolda yaxalanaraq güllələnir, bu təqibdən yaxa qurtara bilmiş 32 əsgər özlərini Bərdəyə çatdıra bilmiş, burada bir həftə boyunca qırmızı hissələrə qarşı rəşadətlə müqavimət göstərmişlər. Bu hadisə tarixdə "32-lər dastanı" kimi qalmışdır [20, s.111].

İyunun 3-dən 4-nə keçən gecə general Nuru paşa silahdaşları polkovnik Zeynalov, polkovnik Səfiyev və sabiq pristav Qalabəyovla birlikdə çoxsaylı üsyançı dəstə ilə Şuşaya gələrək yerli İnqilab Komitəsi üzvlərini həbs edib özünü "Qarabağ hakimi" elan etdi. İyunun 5-də Qarabağda sovet hakimiyyətinin devrildiyi elan olunur, polkovnik Zeynalov Qarabağın Milli Hərbi Qüvvələrinin komandanı təyin olunur. Tərtər çayına qədərki ərazilər üsyançılar tərəfindən tutulur və qırmızı qüvvələr çayın sol sahilinə sıxışdırılır [18, s.113].

1920-ci il iyunun 9-da XI Ordu komandanlığı üsyanın yatırılması ilə bağlı xüsusi əmr imzaladı. Əmrdə 32-ci diviziyanın sərəncamına verilməklə 20-ci atıcı diviziyanın bir briqadası, zirehli avtomobillər və müsəlman fəhlə dəstəsinin iştirakıyla genişmiqyaslı hücumun həyata keçirilməsi nəzərdə tutulmuşdu. Bu məqsədlə 18-ci süvari diviziya da buraya yeridilmişdi. Bundan əlavə qırmızı hissələri hücum zamanı hərbi təyyarələr müşayiət etməli idilər. Üsyançı qüvvələr də həlledici döyüşlərə hazırlaşırdı. Bu ərəfədə polkovnik Səfiyevin komandanlıq etdiyi 1-ci tatar süvari alayı, Cavanşir piyada alayının bölmələri, top divizionu və digər bölmələr Tərtərçayın sol sahilində müdafiə mövqeyi tutmuşdu [1, s.130].

Qırmızı hissələrin genişmiqyaslı hücumu iyunun 10-da başlayır. Hindarx yaxınlığındakı döyüşdə Zeynalovun rəhbərlik etdiyi üsyançı dəstə məğlub olaraq geri çəkilmək məcburiyyətində qalır, bu zaman qırmızı hissələr tərəfindən ələ keçirilmiş üsyan fəallarından Cəmşid, Adil bəy və Xanlar bəy Sarıcalılı güllələnirlər [20, s.112].

İyunun 11-də Tərtər və Bərdə qırmızı hissələr tərəfindən tutulur, üsyançılar Tərtər çayına qədərki əraziləri tərk etməyə məcbur olurlar və Ağdamda cəmləşirlər. Burada Nuru paşanın başçılığı ilə 4 minə qədər üsyançı toplaşmışdı. Ağdamın tutulması ilə Şuşaya yol açılır. Həmin gün axşama yaxın Xankəndi və Əsgəran qırmızı hissələr tərəfindən tutulur. Həbs olunmuş bolşeviklər azad olunur. Bu barədə iyunun 13-də teleqramla Leninə xəbər verən Q.K.Orconikidze yazırdı: "Qarabağda qiyam yatırılmışdır. Qoşqu ləvazimatları və atlarla birlikdə 8 top, 28 pulemyot, döyüş ləvazimatı olan anbarlar, tüfəng və pulemyotlar ələ keçirilmişdir. Hərəkatın təşkilatçıları başda Nuru paşa olmaqla qaçmışdır" [16, s.91]. İyunun 15-də 20 və 32-ci diviziyanın hissələri Şuşanı tuturlar [35, s.161].

Qarabağda üsyan tam yatırılmamış isə Zaqatala qəzasında həyəcanlar başlamışdı. 1920-ci il may ayının ortalarından etibarən Zaqatala qəzasındakı rus əsgəri hissələrinin artırılması əhali arasında həyəcanlara səbəb olur. Məscidlərdə, kənd yığıncaqlarında imamlar, ağsaqqallar əhalini "islam dinini təhqir etməyə gəlmiş qırmızı hissələr"ə qarşı mübarizəyə çağırırdılar. Üsyana hazırlıq işlərinə rəhbərliyi Tala kəndinin ağsaqqalı və imamı Hafiz Əfəndi Molla Ramazan oğlu və onun təşəbbüsü ilə qəzanın Hacı Qurban Hacı İbrahim oğlu, Şeyxzadə Şeyx Molla Məhəmməd Şeyx Əhməd oğlu, Müslüm Əfəndi, Aslanbəy Qardaşov, Bəşirbəy Qalacov və bölgənin digər nüfuzlu adamlarından təşkil edilmiş Üsyana Hazırlıq Komitəsi edirdi. Üsyançı qüvvələrin ali baş komandanı Hafiz Əfəndi, onun köməkçisi Hacı Qurban seçilmişdi [9, s.17-18]. Üsyançıların sıralarında keçmiş çar və Azərbaycan Xalq Cümhuriyyətinin ordularında xidmət etmiş, hərbi işi yaxşı bilən zabitlər olduğundan üsyana yüksək səviyyədə hazırlıq görülmüşdü. Onların əsas məqsədləri Zaqatala qəzasında sovet hakimiyyətini devirmək, rus qoşunlarını bölgədən çıxarmaq və devrilmiş milli qüvvələrin hakimiyyətini bərpa etmək idi.

Tala, Car, Balakən və Zaqatala şəhər əhalisinin əksəriyyət təşkil etdiyi ümumi sayı 3 minə qədər olan üsyançı qüvvələr 1920-ci il iyunun 9-u çətinlik

çəkmədən bölgədəki rus hisssələrini məğlub edərək Zaqatala qalasını ələ keçirir. Bu zaman polkovnik Əhməd Dibirovun komandanlıq etdiyi Zaqatala alayı bitərəf mövqe tutmuş, alayın bir taboru isə üsyançılara qoşulmuşdu. Qalada yerləşən Qəza İnqilab Komitəsinin üzvləri həbs olunur və bölgədə sovet hakimiyyətinin devrildiyi elan olunur. Qalanın alınması ilə Hafiz Əfəndinin başçılığı altında Zaqatala Qəza Xüsusi Müdafiə Komitəsi yaradılır. Komitə bir həftə ərzində Zaqatala qəzasında hakimiyyəti əldə saxlaya bilmişdi. Bu müddətdə Zaqatala Qəza Xüsusi Müdafiə Komitəsi tərəfindən vətənə xəyanət ittihamı ilə Qəza İnqilab Komitəsinin həbs olunmuş üzvləri ölümə məhkum edilmişdilər [9, s.18]. Hafiz Əfəndinin göstərişi ilə Gürcüstan tərəfdən baş verə biləcək istənilən müdaxilənin qarşısını almaq üçün Alazan çayının sahilində yerləşən kəndlərin əhalisinə silah paylanmışdı [8, s.6-7].

Zaqatala qəzasından alınan xəbərlərdə qalada yerləşən üsyançı qüvvələrin Yevlaxa doğru hərəkət edərək Qarabağ üsyançıları ilə birləşmək niyyətində olduqları göstərilirdi [10, s.1]. Buna görə də XI Ordunun komandanlığı üsyançılar tərəfindən həbs olunaraq ölüm hökmü kəsilmiş Qəza İnqilab Komitəsinin üzvlərini xilas etmək və qəzada sovet hakimiyyətini bərpa etmək üçün tələsik qalaya hücum planını hazırlayır. Bu məqsədlə Bakıdan könüllü bolşeviklərdən təşkil edilmiş batalyon, VII Qafqaz diviziyasının bir briqadası, plastun alayı, II atlı alay, Qarabağ üsyanını yatırmış 20-ci diviziyanın bir briqadası, zirehli maşın və artilleriya Zaqatala qəzasına gətirilir. XI Ordunun komandanı Levandovski və Hərbi İnqilab Şurasının üzvü Vesnikin bu barədə 1920-ci il iyunun 13-də verdiyi əmrdə II atlı korpusunun komandiri Vodopyanova VII Qafqaz diviziyası, könüllü kommunarlardan ibarət dəstə, 58-ci piyada briqada və 27-ci zirehli dəstədən təşkil edilmiş böyük qüvvə ilə Zaqatala üsyanının yatırılması, əhalinin tərksilah edilməsi üçün ayın 16-sı üsyançıların yerləşdiyi qala üzərinə hücuma keçmək göstərişi verilirdi. Bunun üçün 58-ci piyada briqadasının komandiri Todorskiyə və 32-ci diviziyanın komandiri Şteqerə ayın 15-nə kimi Vodopyanovun sərəncamına keçmək üçün Nuxaya gəlmək əmr olunurdu [25, s.71].

Həlledici əməliyyata rəhbərlik X1 Ordunun II atlı alayının komandiri V.F.Vodopyanova həvalə olunmuş, Azərbaycan İnqilab Komitəsinin üzvü Əliyev onun köməkçisi təyin olunmuşdu. Tərəflər arasında qalanın ələ keçirilməsi uğrunda baş vermiş həlledici döyüş zamanı səhər tezdən XI Ordunun Zaqatala qəzasında toplanmış çoxsaylı hissələri artilleriya və zirehli texnikanın köməkliyi ilə üsyançıların əsas istinadgahı olan qala üzərinə hücuma keçirlər. Bu arada qaladakı üsyançı qüvvələrin hökumət hissələrinin qala üzərinə başlanmış hücumun dəf edilməsi ilə məşğul olduğu bir vaxtda qalada həbsdə olan II Zaqatala alayının keçmiş batalyon komandiri Kuznetsov nəzarətçilərdən yayınaraq 3 pulemyot ələ keçirə bilmiş, qalada həbs olunmuş kommunistləri azad edərək daxildən üsyançılara qarşı döyüşlərə başlayır [33, s.21]. Axşama qədər davam edən qanlı döyüşlərdən sonra qaladakı üsyançılar çoxsaylı bolşevik-rus ordu hissələrinin hücumlarına tab gətirə bilmir və fədakar qala müdafiəçilərinin müqaviməti qırılır.

Bu döyüş və strateji əhəmiyyəti olan qalanın əldən getməsi demək olar ki, üsyanın taleyini həll edir. Məğlub edilmiş üsyançılar qalanı tərk etdikdən sonra dağlara, meşələrə çəkilməyə məcbur olurlar. VII Qafqaz diviziyasının komandanlığından verilən məlumatda tərəflər arasında baş vermiş son döyüş zamanı XI Ordu hissələrinin itkisinin 30 nəfər ölən və yaralanan olduğu, üsyançıların isə bundan on dəfə artıq itki verdiyi göstərilirdi [11, s.6].

Sonrakı günlərdə qəzanın ayrı-ayrı yerlərində müqaviməti davam etdirən kiçik üsyançı qruplar da məğlub edilir və əsgəri hissələrin köməkliyilə iğtişaşlarda iştirak edənləri cəzalandırmaq üçün repressiv tədbirlər başlayır.

Bolşevik rejiminin ilk dönəmində yeni hakimiyyətə qarşı üsyan mərkəzlərindən biri də Nuxa qəzası idi. İyirminci diviziya komandirinin 29 may 1920-ci il tarixli məlumatında bolşevik-rus ordu hissələrinin Nuxa şəhərinə sığınmış üsyançıları çətinliklə də olsa məğlub edərək şəhərin şimal hissəsinə nəzarəti ələ keçirməsindən sonra [30, s.117] şəhərin giriş və çıxışlarının bağlandığı göstərilirdi. Buradan Zaqatala, Yevlax və Şamaxı istiqamətində gedən yollar ordu hissələri tərəfindən tutulur, bütün nəzarət məntəqələrində pulemyotlar qoyulmaqla silahlı qruplar yerləşdirilir. XI Ordu hissələrinin özbaşınalıqlarından dağlara çəkilməyə başlayan dinc əhalinin qarşısı amansızlıqla alınmaqla onların tərksilah olunması həyata keçirilir [30, s.128].

Nuxa şəhərində asayişin bərqərar edilməsi məqsədlə verilmiş 29 may 1920-ci il tarixli göstərişdə Zaxarçenkonun başçılığı altındakı 12 pulemyotla təchiz olunmuş 2 eskadrondan ibarət 600 nəfərlik qüvvənin Nuxa şəhərində 1) Qışlaqda; 2) Erməni məhəlləsində; 3) I Çayqırağıda; 4) II Çayqırağıda; 5) Doduda; 6) I Dabı Xanda; 7) II Dabı Xanda; 8) Yuxarıbaşda; 9) Gəncəli məhəlləsində olmaqla yerləşdirilməsi əmr olunurdu. Burada yerləşdiriləcək hissələrin komandirləri həm də həmin rayonların hərbi rəisləri təyin olunurdular. Onlara küçələrdə güclü piyada gözətçi dəstələri qoymaqla sovet müəssisələrini və asayişi qorumaq, insanların kütləvi halda toplanmasına heç bir halda imkan verməmək, buna cəhd edənləri silah tətbiq etməklə dağıtmaq, üsyan baş verərsə, son dərəcə amansızlıqla hərəkət etmək əmr olunurdu [33, s.9].

Nuxa üsyanının yenidən alovlanmasından ehtiyat edən XI Ordu komandanlığı eyni zamanda hərbi hissələrin cəlb edilməsi ilə şəhərdə cəza tədbirləri həyata keçirir. Nəticədə, üsyanda iştirakda təqsirləndirilən şəhər sakinlərindən 17 nəfəri güllələnir, bir qrupu isə həbs olunur. Güllələnənlərin içərisində şəhərin başçısı, pristavı, bir neçə müəssisə sahibi, adlı-sanlı tacirlər də var idi [29, s.28].

Nuxa qəzasında əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri iyunun əvvəllərindən burada üsyanın yenidən alovlanmasına səbəb olur. XI Ordu komandanlığının əldə etdiyi kəşfiyyat məlumatlarında həmin vaxtı Nuxa qəzası və Zaqatala dairəsindəki üsyançı qüvvələrin ümumi sayının 5 min (onlardan 1000-i süvari) nəfərə çatdığı bildirilirdi [33, s.16]. Nəticədə, iyunun əvvəllərindən etibarən

qəzada üsyan genişlənməkdə davam edir.

XI Ordu qərargahından verilən operativ məlumatlardan bəlli olur ki, bu zaman Nuxa qəzasındakı üsyanın mərkəzi Baş Göynük idi. Arxiv sənədlərində həmin vaxtı Baş Göynük, Baş Şabalıd və Aşağı Şabalıd kəndlərindəki üsyançı qüvvələrin sayının 700 nəfərə çatdığı qeyd olunurdu [29, 29 arxa; 32, s.84].

Qəzadakı üsyanın mərkəzi Baş Göynüyün tutulması istiqamətində görülmüş hazırlıqlar çərçivəsində ilk olaraq əməliyyata rəhbərlik edəcək qərargah yaradılır. II atlı korpusunun qərargah rəisinin XI Ordunun qərargah rəisinə yazdığı 11 iyun tarixli operativ məlumatında Baş Göynük əməliyyatına hazırlıq barədə məlumat verərək yazırdı ki, bunun üçün 37-ci alayın bir eskadronu ayrılmış, həmin alayın daha 2 eskadronuna bu məqsədlə Göynüyə (Aşağı Göynüyə - Ə.M.) gəlmək əmr olunmuşdur [34, s.122]. Nuxada yerləşdirilmiş bu qərargahın təhlükəsizliyinin təmin edilməsi məqsədilə verilmiş göstərişdə şəhərdə bir ehtiyat alay yerləşdirmək, qaladakı bütün qüllələrdə 8 pulemyotla təchiz olunmuş güclü qarovulxanalar (zastavalar) təşkil etmək əmr olunurdu. Yeqorov şəhərin komendantı təyin olunur. Nuxaya zirehli qatarla kommunist dəstəsi göndərilir, kəşfiyyat aparmaq məqsədilə aeroplanlar ayrılır. Baş Göynük əməliyyatına hazırlıqlarla bağlı verilmiş xüsusi əmrdə göstərilirdi ki, II atlı korpusunun və 7-ci Qafqaz diviziyasının bütün arxa cəbhə qurumları, iyunun 11-i saat 20-dən gec olmayaraq Nuxa qalasına köçürülməlidir. Diviziya komandiri Xmelkova şəhərdə yerləşdirilmiş alaydan həm asayişi qorumaq, həm də qaladakı hissələrə kömək məqsədilə istifadə etmək səlahiyyəti verilirdi [31, s.24; 29, 19-20 arxa]. Nuxa şəhər qarnizon rəisinə müqavimət göstərənlərə qarşı ən sərt cəza tədbirləri görməklə gün ərzində (iyunun 11-i) şəhər əhalisinin tərksilah edilməsini başa çatdırmaq əmr olunurdu [33, s.14]. V.F.Vodopyanovun 1920-ci il 13 iyun tarixli əmri ilə Nuxa rayonundakı bütün hissələr üzərində komandanlıq 7 Qafqaz diviziyasının komandirinə verilirdi [33, s.18].

Üsyançıların kifayət qədər güclü mövqelərə malik olduğu qırmızı ordu komandanlığı tərəfindən də etiraf olunurdu. XI Ordu komandanlığının iyunun 14-nə olan operativ məlumatında bununla bağlı deyilirdi: "Rəqib başlıca olaraq Baş Göynük və Baş Şabalıd rayonunda güclüdür. Hal-hazırda bizimkilər 38-ci kommunist dəstəsi və 39-cu alayın hissələri ilə həmin rayonda rəqibi məğlub etməyə çalışır. Lakin mövqenin əlverişsiz olması səbəbindən hələlik müvəffəqiyyət qazana bilmirlər. 37-ci Qafqaz alayı geri çəkilib. Atışma gedir" [35, s.11].

Tərəflər arasında həlledici döyüş iyunun 15-də baş verir. XI Ordu komandanlığının yuxarıda göstərilən məlum əmrində döyüşün nəticəsi olaraq həmin gün axşam saat 6-da üsyan mərkəzi olan Baş Göynük və Baş Şabalıd kəndlərinin tutulduğu bildirilirdi [32, s.84; 29, s.30].

Məğlub olmasına baxmayaraq bu üsyanların çox böyük tarixi və siyasi əhəmiyyəti olmuşdur. Bu, gürcü generalı Q.İ.Kvinitadzenin söylədiyi: "Gəncə üsyanı zamanı bolşeviklərin Cənubi Qafqazdakı mövqeyi o qədər zəifləmişdi ki,

Gürcüstan bolşeviklərə zərbə vuraraq Azərbaycan qarşısındakı müttəfiqlik öhdəliyini yerinə yetirmək üçün yeganə imkanı məhz bu zaman əldə etmişdi" fikrindən də aydın olur. Gəncədəki məğlubiyyət sovet rəhbərliyi tərəfindən bolşeviklərin "Cənubi Qafqazda, eləcə də bütün müsəlman şərqindəki siyasətinin iflası kimi qiymətləndirilirdi". Kadışevin məlumatına görə isə Gəncə üsyanından qorxuya düşən sovet rəhbərliyi ciddi şəkildə Bakı istisna olmaqla Azərbaycanın digər əyalətlərindən çıxmaq barədə düşünürdü [22, s.115-116].

*Nəticə*

Sovet hakimiyyətinin ilk aylarında Azərbaycanda bolşevik işğalına qarşı baş vermiş xalq üsyanlarının bir sıra məğlubiyyət səbəbləri olmuşdur ki, onların sırasında ilk növbədə ayrı-ayrı üsyan rayonları arasında rabitənin, əlaqənin demək olar ki, çox zəif olmasını göstərmək olar. Üsyanların pərakəndə şəkildə, müxtəlif vaxtlarda baş verməsi XI Ordu komandanlığına həmin üsyanları növbə ilə ayrı-ayrılıqda yatırmağa imkan verir. Gəncə, Nuxa, Qarabağ və Zaqatala bölgələrindəki üsyanlardan birinin məğlub edilməsindən sonra üsyançı qüvvələrin digər üsyan rayonuna keçməməsi də sözügedən rabitəsizliyin təzahürü idi. Üsyanların vahid mərkəzdən idarə olunmaması onların pərakəndəliyini gücləndirən əsas amillərdən biri idi.

Bolşevik-rus hissələrinin talançılığı nəticəsində var-yoxdan çıxarılmış əhali üsyançılara lazımi dəstəyi verə bilməmiş, yerlərdəki ermənilər və ruslar isə demək olar ki, hamılıqla qırmızı hissələrin tərəfində üsyançı qüvvələrə qarşı vuruşmuşdu. Üsyançı qüvvələrin silah-sursat cəhətdən təchizatının qarşı tərəflə müqayisədə zəif olması və qırmızı hissələrin say üstünlüyü də üsyanların məğlubiyyətində əhəmiyyətli rol oynamışdı. Üsyanların hamısı artilleriya və aviasiyanın cəlb edilməsi ilə yatırılmışdı.

Məğlub olmasına baxmayaraq antisovet üsyanlar Azərbaycanın istiqlal savaşı tarixində xüsusi yer tutur. Bu üsyanlar Azərbaycan xalqının kütləvi mübarizə əzminin ölmədiyini, lazım gəldikdə onu göstərməyə qadir olduğunu sübut etdi.

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 clddə, II c., Bakı, 2005, 472 s.
2. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.27, siy.1, iş 705
3. ARDA, f.410, siy.1, iş 27
4. ARDA, f.410, siy.1, iş 72
5. ARDA, f.410, siy.1, iş 81
6. ARDA, f.410, siy.1, iş 152
7. ARDA, f.410, siy.1, iş 180
8. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.1, siy.1, iş 124
9. ARPİİSSA, f.1, s.231, iş 19

10. ARPİİSSA, Surət fondu, iş 317
11. ARPİİSSA, Surət fondu, iş 329
12. *Bayramova R.M.* Azərbaycan rəhbərliyində ixtilaflar və daxili-siyasi çəkişmələr (1920-1925-ci illər). Bakı: Elm, 2007, 196 s.
13. *Əhmədova F.N.* Nərimanov. İdeal və gerçəklik. Bakı: Elm və həyat, 1998
14. *İbrahimli X.* Azərbaycan siyasi mühacirəti, Bakı, Elm, 1996, 304 s.
15. *İsayev Ə.* Gəncə qiyamı. "Həyat" qəz., 8 may 1992-ci il
16. *Katibli M.* Çingiz İldırım. Bakı: Azərnəşr, 1964, 108 s.
17. *Məmmədzadə M.B.* Otuzikilərin dastanı. "Fəryad" qəz., 28 may 1991-ci il
18. *Rəhimov Ə.C.* 1920-ci ildə Azərbaycanda mülkədar torpaq sahibliyinin ləğvi. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1962, 210 s.
19. *Rəsulzadə M.Ə.* Azərbaycanda milli hərəkat. Bakı: Elm, 2009, 128 s.
20. *Qasımlı M.* Azərbaycan türklərinin milli mücadilə tarixi. 1920-1945 (türk dilində). İstanbul, 2006, 111 s.
21. *Аскеров-Кенгерлинский А.* Трагедия Азербайджана // Хазар, 1990, №3 (4), стр. 68-87
22. *Безугольный А.Ю.* Народы Кавказа и Красная Армия. 1918-1945 гг. Москва: Вечер, 2007, 512 с.
23. *Великанов М.Д.* Гянджинское восстание и его ликвидация (Воспоминания) // Война и револьюция, 1928, №2, с.142-158
24. *Гулиев* Дж.Б. К истории образования Второй республики Азербайджана. Баку: Элм, 1997, 164 с.
25. Интернациональная помощь XI Армии в борьбе за победу Советской власти в Азербайджане. Документы и материалы (1920-1921). Баку: Азернешр, 1989, 196 с.
26. Газ. "Коммунист" 9-го июня 1920 г.
27. Газ. "Коммунист" 19-го июня 1920 г.
28. Газ. "Коммунист" 23-го июня 1920 г.
29. Российский Государственный Военный Архив(РГВА), ф. 195, оп. 3, д. 228
30. РГВА, ф. 195, оп. 3, д. 232
31. РГВА, ф. 195, оп. 3, д. 324
32. РГВА, ф. 7717, оп. 1, д. 18
33. РГВА, ф. 7940, оп. 1, д. 12
34. РГВА, ф. 7940, оп. 1, д. 50
35. *Траскунов М.Б.* Героический боевой путь XI Армии на фронтах гражданской войны (1918-1921 гг.). Тб., 1958, 274 с.

Redaksiyaya daxil olub 23.11.2020

*UOT 94*

***R.K.Mirzabayova***
*ANAS Institute of the History of Science*
*royamirzabayova@gmail.com*

# CONTRIBUTIONS OF TURKS TO WORLD HISTORY OF SCIENCE: MATHEMATICS IN THE MIDDLE AGES

***Keywords:*** *turks, mathematics, Islam, science, al-Khwarazmi, Nasir al-Din al-Tusi*

The article is devoted to the contributions of Turks to the mathematics in the Middle Ages in context of world history of science. One of the most brilliant periods of science in the Eastern civilization begins with the establishment of the religion of Islam. Basic ideas and knowledge in sciences began to create in the Islamic Golden Age. One of such sciences is mathematics.

The outstanding Turkic mathematicians gave invaluable contributions to the establishment of ideas on mathematics. The study investigates the development of history of mathematics through the scientists such as al-Khwarazmi, al-Farabi, Qadi Zada al-Rumi, Nasir al-Din al-Tusi, Ulugh Beg Mirza and so on. In this article, the method of historical excursus is used through the reliable English-language sources. The relevance of this article is that mathematical scientific ideas by the Turkic scientists gave significant contributions to form mathematics as a science today.

***R.K.Mirzəbəyova***

## TÜRKLƏRİN DÜNYA ELM TARİXİNƏ TÖHFƏLƏRİ: ORTA ƏSRLƏRDƏ RİYAZİYYAT

***Açar sözlər:*** *türklər, riyaziyyat, İslam, elm, əl-Xarəzmi, Nəsirəddin Tusi*

Məqalədə Orta əsrlərdə türk alimlərinin riyaziyyat elminə verdiyi töhfələrdən bəhs edilir. Şərq sivilizasiyasında elmin ən parlaq dönəmlərindən biri İslam dininin yaranması ilə başlamışdır. Elm haqqında əsas ideya və biliklər məhz islamın Qızıl Çağında geniş vüsət almışdır. Belə elmlərdən biri də riyaziyyat idi.

Görkəmli türk alimləri riyaziyyat elminin inkişafına dəyərli töhfələr vermişlər. Tədqiqatda riyaziyyatın inkişaf tarixi Əl-Xarəzmi, əl-Fərabi, Rumi Qədizadə, Nəsirəddin Tusi, Uluq bəy və s. alimlər nümunəsində nəzərdən keçirilir. Məqalədə ingilisdilli mənbələr əsasında tarixi ekskurs metodundan istifadə edilmişdir. Bu məqalənin aktuallığı ondadır ki, türk alimlərinin riyazi elmi fikirləri bu gün riyaziyyatın bir elm kimi formalaşmasına əsaslı töhfələr vermişdir.

***Р.К.Мирзабекова***

**ВКЛАД ТУРОК В ИСТОРИЮ МИРОВОЙ НАУКИ: МАТЕМАТИКА В СРЕДНИЕ ВЕКА**

***Ключевые слова***: *турки, математика, Ислам, наука, аль-Хорезми, Насиреддин Туси*

Статья посвящена вкладу средневековых турецких ученых в математику. Самый яркий период науки в восточной цивилизации начался с возникновением Ислама. Основные идеи и знания о науке получили широкое распространение в Золотой Век ислама. Математика была одной из таких наук.

Выдающиеся турецкие ученые внесли ценный вклад в развитие математической науки. История развития математики в исследовании рассматривается на примере Аль-Харазми, аль-Фараби, Руми Гадизаде, Насреддина Туси, Улуг бека и других ученых. В данной статье приложен метод исторического экскурса на основе англоязычных источников. Актуальность статьи заключается в том, что математические идеи тюрксих ученых в сегодняшней день внес существенный вклад формированию математики как науки.

## *Introduction*

The Quran and hadiths (sayings of Prophet) made Muslims to seek knowledge and to ponder the mystery of God’s Creation, the universe and its meaning. The entire universe and its contents are signs of God’s activity which the Muslims are urged to study. No religion has given a more powerful incentive for the study of science. Here are some of the hadiths:

1. Go even as far as China to seek knowledge.
2. Scholar’s ink is holier than martyr’s blood.
3. He who pursues the road to knowledge, God will direct him to the road to paradise.
4. The brightness of a learned man compared to that of a mere worshipper is like the stars.
5. Obtain knowledge; its possessor can distinguish right from wrong; it shows the way to Heaven.
6. Seeking knowledge is required for every Muslim.

The Abbasid scholars believed in these Prophetic endorsements, to seek knowledge by revealing the mystery of the creation by God and thus to build an intellectually vital and flourishing Islam [15, p.4].

### *Science in the Islamic Golden Age*

Historically, the years of the Islamic Golden Age differ among scientists but the Islamic Golden Age should be identified as a great process rather than a certain period of years with any sharp beginnings and endings. If only military

and political leadership are considered, the Golden Age lasts about eight centuries. So, this period begins around 750 CE and continues through the inauguration of Bayt al-Hikma (House of Wisdom) in Baghdad in the second half of the 8th Century CE until the destruction of the latter city by the Mongols in 1258 CE. Other historians extend the period to the sixteenth century CE but most regard this timeline as being over reaching and call for a return back to earlier periods of intellectual and scientific accomplishments. The Abbasid Caliphate built on the Umayyad military and administrative heritage, gained more political full growth and was militarily sufficiently powerful to pay attention to creating scientific and cultural development. In many respects, the House of Wisdom, brought together into a single system all of the known knowledge of the day. Nearly all of the knowledge was translated in Arabic and was spread broadly across the entire Islamic empire. Thus, it served as a library and scriptorium, a store house of knowledge from other regions of the world, a major center of translation, and an educational institution that has been unmatched by either Eastern and Western communities [14, p.28-29].

Since the first centuries of establishment of Islam, Turks have been involved in the development of Muslim civilization, giving significant and valuable contributions to world culture, including world science. That is precisely the Turkic scholars of the Middle Ages, along with the scholars of Middle Asia, North Africa, Iran, Afghanistan, Central Asia, North India and the North Caucasus, were commonly known as “Muslim scholars”, and nowadays the world’s outstanding historians call them by this name. Muslim scholars are often referred incorrectly as Arab scholars in Western literature. But the main force in the development of science was not only Arab scholars. Turkic scientists also wrote a large number of significant works, and further improved the analysis and interpretation of the works of the most famous scholars of the West and East by writing the commentaries on these works. Even their commentaries were more popular than the original texts. Later, their works were translated into different languages and studied by scientists from different countries.

Medieval Muslim scientists were engaged in several sciences. Among them natural and exact sciences could gain more achievements. In his philosophy, Farabi classified the sciences in that period as following:

1. Science of language
2. Science of logics

***3. Mathematical sciences - arithmetic, geometry, optics, astronomy, music, science about weight, science about sophisticated methods (mechanics as a science about mechanisms and spiritual sophisticated methods)***

4. Natural and Religious sciences (natural study, physics and metaphysics)
5. Civil Sciences (Politics, Jurisprudence and Scholastic theology) [12, p. 9].

***Role of Turkic scientists in the mathematics in the Middle Ages***

In the Middle Ages, the mathematics in the Islamic world reached a high level of its development. The basic trends in mathematics are achievements in the field of algebra, number system adopted from India and transmitted to Europe, a decimal system and fractions, the concept of zero, a system for calculating square roots of numbers, solution methods of algebraic equations, spherical geometry, astronomical mathematics in astronomy, Euclidean geometry and non-Euclidean geometry, limit concepts and so on. Even scientists in Europe admit that the teachers of mathematics that cause to our renaissance are Muslim scholars.

The achievement that stood out was the work of a math's expert called al-Khwarizmi. He was mathematician, astronomer, and geographer during the Abbasid Caliphate, a scholar in the House of Wisdom in Baghdad. He established a new system of numbers that came to be called Arabic numerals and the decimal system. This method, along with other Golden Age mathematics advances, made counting and calculating simpler. For instance, it was far easier for farmers to count the crops they harvested and sold. Merchants and tax collectors were able to keep more precise records. And builders could more exactly measure plots of land and the floor plans of houses [8, p.34].

Тем не менее, следует отметить, что не всегда отношения между Россией и Азербайджаном идут гладко, имеются определенные трения и напряженность, особенно в связи с двойственной политикой Москвы на фоне армяно-азербайджанского, Нагорно-Карабахского конфликта, которая является также сопредседателем Минской Группы ОБСЕ. Отношение России к армяно-азербайджанскому, Нагорно-Карабахскому конфликту сопровождалось попытками России укрепить свое военное присутствие в регионе, а также не допустить вовлечения в конфликт Турции, Ирана и третьих сил [25]. В последующие годы Москва пыталась установить баланс в отношениях с Ереваном и Баку, чего продолжает делать и сегодня [27, p.64]. Это объясняется тем, что для России особо значимую роль на Южном Кавказе играет Армения, которая является ее традиционным «форпостом» в данном регионе. Некоторые российские аналитики утверждают, что Армения просто обречена быть вечным союзником России [8, с.314] и "в геополитическом коде Армении доминирует традиционный российский вектор" [10, с.179], так как, находясь в геополитической и экономической изоляции со стороны Турции и Азербайджана, возникает проблема выживания армянского государства, видевшее спасение в союзничестве с Россией. В Армении располагается крупнейшая на Южном Кавказе российская 102-я военная база в Гюмрю, части ПВО, пограничные, ракетные и прочие мобильные средства быстрого реагирования. Россия взяла на себя основную роль защиты сухопутных границ Армении и ее воздушного пространства, снабжает эту страну всем необходимым вооружением [24]. Особо также следует отметить военное сотрудничество Армении и России в рамках ОДКБ.

Однако, несмотря на некоторые трудности, Азербайджан и Россия продолжают развивать взаимоотношения и оказывать поддержку по многим геополитическим вопросам, смогли также дипломатически и конструктивно подойти к вопросу о закрытии Габалинской РЛС в Азербайджане в декабре 2012 г., которое неоднозначно было воспринято общественными кругами [21].

Таким образом, Азербайджан развивает всестороннее экономическое, политическое и военное партнерство и сотрудничество с Россией, оснащаясь

современными вооружениями российского производства в сфере обеспечения национальной безопасности. Между двумя государствами заключено свыше 166 межгосударственных и межправительственных соглашений [22], регулирующих связи в различных областях. Сегодня Азербайджан и Россия успешно разделяют схожие позиции в таких структурах как ООН, ОБСЕ, ПАСЕ, развивают двустороннее региональное, международное, энергетическое, торгово-экономическое сотрудничество и гуманитарные связи [11], среди которых наиболее важную роль играют "АМОР", Всероссийский Азербайджанский Конгресс и т.д.

## ЛИТЕРАТУРА


1. Azərbaycan-Rusiya münasibətləri. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Rəsmi Saytı / http://mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20-%20Rusiya.pdf
2. *Babaoğlu H.* Azərbaycan Respublikasının müasir dunya siyasətində yeri ve rolu. Bakı, 2009, 328 s.
3. *Piriyev* A.M. Siyasi strategiya və milli təhlükəsizlik. BDU, 2005, 545 s.
4. *Алиев И.* Каспийская нефть Азербайджана. М.: Известия, 2003, 712 с
5. Бакинская Декларация. Официальный визит в Азербайджан / По итогам российско-азербайджанских переговоров подписан пакет межгосударственных соглашений /9.01.2001./ Официальный сайт Президента Российской Федерации/http://kremlin.ru/events/president/news/40282
6. *Власов А.* «Опираясь на себя, Азербайджан продолжает накапливать внешнеполитический капитал» // Российская газета. 2012 г. 25 декабря / http://www.rg.ru/2012/12/25/strana.html
7. *Гасанов А.М.* Политика национального развития и безопасности Азербайджанской Республики. Баку: Zərdabi LTD MMC, 2014, 672 с.
8. *Гаджиев К.С.* Геополитика Кавказа. М.: Меж. отношения, 2001, 464 с.
9. *Гусейнова И.* Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру. Баку: Тахсил, 2005, 504 с.
10. *Дарабади П.Г.* Кавказ и Каспий в мировой истории и геополитике XXI века. М.: Изд. Весь Мир, 2010, 216 с.
11. Документы, подписанные в ходе рабочего визита Президента Российской Федерации Владимира Путина в Азербайджанскую Республику / Официальный сайт Президента Российской Федерации, 13 августа 2013 года / http://news.kremlin.ru/ref_notes/1508
12. Договор о дружбе, сотрудничестве и взаимной безопасности между Российской Федерацией и Азербайджанской Республикой от 3 июля 1997 года / Официальный сайт МИД Российской Федерации. http://www.mid.ru/spd_md.nsf/twowebcantr?openview&RestrictToCategory=%D0%90%D0%97%D0%95%D0%A0%D0%91%D0%90%D0%99%D0%94%D0%96%D0%90%D0%9D

13. *Жильцов С.С., Зонн И.С., Ушков А.М.* Геополитика Каспийского региона. М., 2003, 280 с.
14. *Зонн И.С., Жильцов С.С.* Каспийская трубопроводная геополитика. Состояние и реализация. Москва: Восток-Запад, 2011, 317 с.
15. *Зуева А.* Баку и Москва берут Южный Кавказ под крыло: грядут масштабные проекты. Sputnik, 2018 / https://ru.sputnik.az/expert/20180102/413451855/rossija-azerbajdzhan-konflikt-karabah-sotrudnichestvo.html
16. *Коппитерс Б.* Региональная система безопасности для Кавказа // Свободный Брюссельский университет / http://poli.vub.ac.be/publi/crs/rus/Vol5/coppieters.htm#_edn3
17. *Мехдиев З.* Все транспортные коридоры региона пересекаются в Азербайджане // ИА day.az, 19.09.2018 / https://news.day.az/politics/1043745.html
18. *Никольский* А. Межгосударственные отношения России и Азербайджана РИА Новости, 27.09.2018 / https://ria.ru/spravka/20180927/1529384196.html
19. *Насибова М.* В 2018 году Россия и Азербайджан еще больше углубят двусторонние связи – взгляд из Москвы / ИА day.az, 05.01.2018 / https://news.day.az/politics/965303.html
20. *Пашаев* Х. Манифест одного посла. О том, как начиналась дипломатическая миссия Азербайджана в Америке. Баку: Развитие регионов, 2009, 356 с.
21. Пресс-конференция президентов Российской Федерации и Азербайджанской Республики. Баку, 2013 г. / Официальный сайт Президента России / http://kremlin.ru/transcripts/19030#sel=
22. Российско-азербайджанские отношения / Официальный сайт МИД Российской Федерации / http://www.mid.ru/bdomp/ns-rsng.nsf/6bc38aceada6e44b432569e700419ef5/b1c94c24eb29ad53c32571bd0034d7c7
23. Саммит "каспийской пятерки"/ Подписана "конституция" Каспийского моря // Sputnik. Az, 12.08.2018 / https://ru.sputnik.az/trend/kaspij_sammit_09082018/
24. *Чернявский С.И.* Новый путь Азербайджана. М: Азер-Медиа. Книга и бизнес, 2002, 350 с.
25. *Язькова А.* Россия и независимые государства Кавказа // Кавказ & Глобализация, Т.3, Вып. 1, 2009
26. *Roger Williamson.* South Caucasus: perceptions and challenges of the region // Wilton Park Paper, 2006
27. *Tazhin M.* The Geopolitical Role of the Main Global Players in Central Asia American Foreign Policy Interest, 2008, Vol.30, No 2, p.64

Redaksiyaya daxil olub 07.09.2020

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2020, C.68, №3, s. 122-130
Transactions of Pedagogical University. Series of humanitarian, social and pedagogical-psychological sciences – 2020, V.68, №3, pp. 122-130

*UOT 39*

***M.A.Seyidzadə***
*Milli Azərbaycan Tarixi Muzeyi*
*mseyidzade43@gmail.com*

# AZƏRBAYCANDA ƏNƏNƏVİ XINA MƏRASİMİ HAQQINDA (MATM ETNOQRAFİYA FONDUNUN MATERİALLARI ƏSASINDA)

***Açar sözlər:*** *toy, xınayaxdı, xına camı, xına ləçəyi, muzey*

Azərbaycanda qız bəyənmə, elçilik, bəlgə, nişan, paltarkəsdi, xına və nəhayət, toy şənliyindən ibarət olan evlənmək mərasimlərinin hər birinin ayrı-ayrılıqda maraqlı, özünəməxsus, zəngin detalları vardır. Toydan bir neçə gün əvvəl icra olunan xına özünün rəngarəng xüsusiyyətləri və maraqlı cəhətləri ilə yaddaqalan bir mərasimdir. "Xınayaxdı" mərasimində gəlin qıza xına qoyulduqdan sonra nəmər salınır. Axşam xına mərasiminə gələn oğlan evinin adamları (qadınlardan ibarət) gəlin üçün xonça tutub gətirərdilər. Xonçada xına, xına camı, xınabənd, qolçaq, ləçək, müxtəlif bəzəklər və şirniyyatlar, qənd, çay və s. olardı. Şənlikdə oğlanın anası, bacıları, böyük gəlin və yaxın qohumları ilə bərabər, daha çox gənc qızlar iştirak edərdilər. Qonaqlar yemək yeyər, çalıb-oxuyardılar. Camda xına isladıb hazır edər, gəlin qızın əl-ayağına yaxardılar. Gəlinin əllərinə və ayaqlarına xınanı ərli qadın, həmçinin bəxti gətirmiş və yarımış qadın yaxmalı idi. Qeyd olunmalıdır ki, Milli Azərbaycan Tarixi Muzeyinin "Etnoqrafiya fondu"nda mühafizə olunan xına camı, xına qabı, xına ləçəkləri, xınabəndlər, xına bağları, həmçinin xına qolçağı xına mərasimi ilə bağlı unikal maddi mədəniyyət nümunələridir.

***М.А.Сейидзаде***

# О ТРАДИЦИОННОМ ОБРЯДЕ ОКРАШИВАНИЯ ХНОЙ В АЗЕРБАЙДЖАНЕ (НА ОСНОВЕ МАТЕРИАЛОВ ФОНДА ЭТНОГРАФИИ НАНА)

***Ключевые слова:*** *свадьба, хна, чаша для хны, платок для хны, музей*

В Азербайджане имеются такие брачные обряды, как смотрины девушки, сватовство, первые подарки жениха невесте, обручение, представление нарядов невесты, окрашевание хной и, наконец, свадебное торжество, у каждого из которых есть интересные, своеобразные, богатые детали. Церемония окрашевания хной, проводимая за несколько дней до свадьбы, имеет разнообразные нюансы и детали. После окрашивания невесты раздавались свадебные сладости. Вечером в дом невесты приходили женщины из дома жениха с подносом угощений. На поднос кладется хна, миска, сосуд, нарукавник, чепчик, разные украшения, сахар, чай и т. д. В застолье принимали участие мать, сестры, старшие невестки и другие близкие родственницы жениха, а также девушки. Гости ели и танцевали. В миске размачивали хну и мазали полученный

раствор на руки и ноги невесты. Окрашивать руки и ноги невесты должны были счастливые, обеспеченные замужние женщины. Следует отметить, что хранящиеся в фонде этнографии национального музея истории Азербайджана чаши, миски, сосуды для разведения хны, специальные чепчики и подвязки, а также нарукавники являются уникальными предметами культуры, связанными с обрядом окрашивания хной.

***M.A.Seyidzade***

**ABOUT THE TRADITIONAL RITUAL OF HENNA IN AZERBAIJAN (BASED ON MATERIALS FROM THE ETHNOGRAPHY FOUND OF ANMH)**

***Keywords:*** *wedding, henna, henna bowl, henna kerchief, museum*

There are such marriage ceremonies as a bridegroom, matchmaking, the groom's first gifts to the bride, betrothal, presentation of the bride's outfits, henna dyeing and, finally, a wedding celebration, each of which has interesting, original, rich details in Azerbaijan. The henna dyeing ceremony, held a few days before the wedding, has a variety of nuances and details. After dyeing the bride, wedding sweets were distributed. In the evening, women from the groom's house came to the bride's house with a tray of treats. After dyeing the bride, wedding sweets were distributed. In the evening, women from the groom's house came to the bride's house with a tray of treats. Henna, a bowl, a vessel, an over sleeve, a cap, various decorations, sugar, tea, etc. are placed on the tray. The mother, sisters, older daughters-in-law and other close relatives of the groom, as well as young girls attended the feast. The guests ate and danced. Henna was soaked in a bowl and the resulting solution was smeared on the bride's hands and feet. Happy, wealthy married women should have dyed the bride's arms and legs. It should be noted that bowls, containers for mixing henna, special caps and garters, as well as over sleeves, stored in the Ethnography fund of the National Museum of the History of Azerbaijan, are unique cultural objects associated with the rite of henna staining.

## Giriş

Xına mərasimi və ya “xınayaxdı” türk xalqlarının, eləcə də Azərbaycan xalqının ənənəvi toy adətləri sırasında özünəməxsus yer tutmuşdur. Keçmişdə türk xalqlarının milli toy adətlərinin əsas mərhələlərindən biri olan xına mərasimi bəzi lokal cəhətləri nəzərə alınmasa, demək olar ki, bir-birindən fərqlənmir. Toydan bir neçə gün əvvəl icra olunan xınayaxdı özünün rəngarəng xüsusiyyətləri ilə həmişə xüsusi maraqla qarşılanmışdır. Müasir dövrdə də türk xalqlarında xınayaxdı mərasimi, bir qayda olaraq, qız evində zəngin və təntənəli şəkildə icra olunmaqdadır.

Azərbaycanda qız bəyənmə, elçilik, bəlgə, nişan, paltarkəsdi, xına və nəhayət, toy şənliyindən ibarət olan bu evlənmək mərasimlərinin hər birinin ayrı-ayrılıqda maraqlı, özünəməxsus, zəngin detalları vardır.

Etnoqraf Q.Rəcəbli bütövlükdə evlənmə prosesi üçün etnoqrafik anlayış kimi "toy-düyün" ifadəsinin işlədilməsini daha məqsədəuyğun hesab etmiş və göstərmişdir ki, Azərbaycanda evlənmə prosesi bir neçə mərhələdən ibarət olmuşdur: qız bəyənmə, elçilik, nişan və toy şənliyi. Qız evində olan bu sonuncu toy şənliyi Azərbaycanın əksər bölgələrində "xınayaxdı", bəzi yerlərdə "xına toyu", Bakı, Lənkəran və Şəki bölgələrində "qız toyu", Qazax bölgəsində isə "yegəl" adlanırdı. Qeyd olunmalıdır ki, "xınayaxdı" gecəsindən başlayaraq nişanlı qıza "gəlin qız", adaxlı oğlana isə "bəy oğlan" deyilirdi [10, s.315].

Etnoqrafik məlumatlara görə, axşam xına mərasiminə gələn oğlan evinin adamları (qadınlardan ibarət) gəlin üçün xonça tutub gətirərdilər. Xonçada xına, xına camı, xınabənd, qolçaq, ləçək, müxtəlif bəzəklər və şirniyyatlar, qənd, çay və s. olardı. Şənlikdə oğlanın anası, bacıları, böyük gəlin və yaxın qohumları ilə bərabər, daha çox gənc qızlar iştirak edərdilər. Qonaqlar yemək yeyər, çalıb-oxuyardılar. Camda xına isladıb hazır edər, gəlin qızın əl-ayağına yaxardılar. Gəlinin əllərinə və ayaqlarına xınanı ərli qadın, həmçinin bəxti gətirmiş və yarımış qadın yaxmalı idi. Müasir dövrdə xına qutusu, xına səbəti, xına zənbili, xına şamı və güllər mərasim zamanı qız evinə gətirilən əsas nəsnələr idilər. Təbii ki, müxtəlif şirniyyatlar da xına gecəsinin əsrlərdir davam edən nəsnələrindən biri hesab edilir; gəlinin əllərinə xına yaxılması və bununla bağlı digər detallar da öz yerində. Xına mərasimi zamanı xınayaxdı nəğmələri yaddaqalan və könüloxşayan olur. Nəğmələr birbaşa adıçəkilən mərasim və gəlinin oxşaması ilə bağlıdır. Əllərə xına yaxarkən:

*Birinci Dəstə:*
*Bu evlərin uzunu,*
*Əllərə xına yaxarlar*
*İkinci Dəstə:*
*Çoban qaytar quzunu,*
*Əllərə xına yaxarlar*
*Birinci Dəstə:*
*Gedin deyin əmimə*
*Əllərə xına yaxarlar*
*İkinci Dəstə:*
*Versin mənə qızını*
*Əllərə xına yaxarlar*
*Birinci Dəstə:*
*Çəkil get, sənə qurban,*
*Pəncərədən baxarlar.*
*Gəlmişəm, dərim səni,*
*Qəlbimə hörüm səni.*
*Qapı, pəncərə bağlı,*
*Bəs necə görüm səni?* [11, s.113-114]

Və ya:
*Kəmər bağla belinə,*
*Şirni verin əlinə.*
*Gəl, bizim əziz gəlin,*
*Xına qoyum telinə.*
*Nəqarət:*
*Ay xınanı yaxın dəstinə-dəstinə,*
*Xəbər getsin düşməninə, dostuna* [11, s.11].

Bəzi yerlərdə toyun bu sonuncu mərhələsi "xınayaxdı" adlanır. Gəlinin əlinə yaxılacaq xına oğlan evində isladılıb gətirilir. Sərpayı qız evində xına gecəsi əsas rol oynayır, mübarəkdarlıq edib söyləyir:

*Xeyir-dua qıza verin,*
*Sürməni gözə verin.*
*Xınanı yaxın əlinə*
*Xəbər getsin obasına-elinə* [3, s. 13].

Toydan öncə gəlinin əllərinə xına yaxılmasını tərif edən xanəndə də oxuyub onu tərif edir:

*Ad barmağa qızıl üzük*
*Taxdın bərəkallah, gəlin,*
*Əllərinə əlvan xına*
*Yaxdın bərəkallah gəlin* -

deyib oynaq mahnı oxuyur [1, s.133].

Azərbaycan toyunda xınayaxdı mərasimi yalnız qadınların və qızların iştirakı ilə keçirilir. Belə ki, qız evində həyata keçirilən son mərasimlər – xınayaxdı, toy hamamı, gəlin bəzəmə ilə toyun birinci mərhələsi başa çatır. Qaqauzlarda və qaraqalpaqlarda da xınayaxdı qız evində keçirilən son mərasim olur. Taciklərdə də "xinobandon" qız evinin son toplantısı hesab olunur. Lənkəran-Masallı bölgəsində müasir dövrdə bəzən oğlan əlinə qız evində gətirilmiş xına yaxılır. Bu hallara istisna kimi baxmaq lazımdır, "xına" mərasimi qadın xarakterli mərasim hesab olunur. Dağıstan tərəkəmələrində əllərinə xına yaxılan gəlin qıza "Ağ əllərdə əlvan xına, yak bərəkallah, gəlin" deyirlər [7, s.103-105]. Anadolu türklərində xına mərasimində oxunan folklor nəğmələri ilə bağlı nümunələr maraqlıdır:

*Vurun kızın kınasını,*
*Çağırın gelsin anasını.*
*Ha vallahi bu dileyim,*
*Gelin, kınan kutlu olsun,*
*Sağdığın inek sütlü olsun* [13, s.23].

Nəzərdən keçirilən folklor nümunəsində gəlin qıza xına yaxılmasına hazırlaşırlar, həmçinin bu münasibətlə qutlu olsun deyir, təbrik edib alqış

edirlər. Qeyd olunmalıdır ki, Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda mühafizə olunan xına camı, xına qabı, xına ləçəkləri, xınabəndlər, xına bağları, həmçinin xına qolçağı xına mərasimi ilə bağlı unikal maddi mədəniyyət nümunələridir. Xınayaxdı ilə bağlı bu və ya digər detalları öyrənmək üçün bu maddi mədəniyyət nümunələri əhəmiyyəti olan əşyalardan hesab olunur. Etnoqrafik müşahidələrə əsaslanan N.Quliyeva göstərmişdir ki, xınayaxdıdan bir gün əvvəl oğlan evi qız evinə xonça gətirir. Xonçanın birinə qırmızı paltar, 2 bəzəkli şam və xına, o birinə isə şirniyyat qoyurlar. Həmçinin qız evinə güzgü göndərilir. Axşam xına hazırlanır, qızın əl və ayağına, həmçinin saçına qoyulur. Səhərisi xınayaxdıya hazırlıq görülür, çalğıçılar gəlirilir. Xınayaxdıya çağrılan qonaqlar və oğlan evi qız evinə gələrdilər. Adətən, çalğıçılar və dəvət olunan qonaqlar qadınlardan ibarət olurdu. Xınayaxtısı olan qız məclisdə oturmazdı. Xınayaxdının yarısında qızı "sağdış" və "soldışı" məclisə gətirərdilər. "Sağdış" və "soldış" qızlardan biri mütləq oğlan evindən olmalı idi. Adətən, gəlini məclisə gətirəndə oğlan evindən gətirilən xonçaları qızın (gəlinin) qarşısına qoyurlar (9, s.41). Xınanı, adətən, xına camında hazırlayardılar. Cama xınanın üzərinə ılıq su əlavə edib palçıq şəkli alıncaya qədər qarışdırardılar. Alınmış palçıq şəklində olan xınanı gəlin qızın əllərinə və ayaqlarına yaxardılar. MATM Etnoqrafiya fondunda mühafizə edilən aşağı hissəsi konus formalı, gövdəsi dairəvi olan olan xına qabı misdəndir və qalaylıdır (inventar 6596). Ağız hissəsi isə diliklidir. XIX-XX əsrin əvvəllərinə aiddir. Fondda mühafizə olunan digər mis xına camı qalaylı olub ağız hissəsi xaricə çevrilmiş, dilimlidir. Xına camı XIX-XX əsrin əvvəllərinə aiddir (inventar 9327). 7710 inventar saylı xına qolçağı XX əsrin əvvəllərinə aiddir. Qırmızı zərxaradan olan qolçağın kənarına zərbafta, qıraqlarına tünd bənövşəyi qaytan tikilib. Xına qolçağı yaxılan xınadan sonra gəlinin əlinə keçirilərdi. Xınanın yaxşı tutması üçün əllər bir müddət bu qolçaqda qalmalı idi. Xına gecəsində gəlinlik qıza xına libası geydirilir, qadınların yığışdığı otağa gətirilir, diz çökərək oturdurlar. Qadınlar, qızlar xına mərasiminə uyğun olaraq xına türküsü deyirlər. Xına türküsü bitənə qədər gənc qızlardan biri şamları gəlinin başı üzərində gəzdirir. Xına yaxılıb qurtarandan sonra oğlan evi tərəfindən gəlinə qızıl bağışlanır (bilərzik və ya sırğa). Xına türkülərini nəzərdən keçirərkən izlənən "Qız anam xınan qutlu olsun", "Xınan əzilsin", "Hanı əlimin xınası", "Məni unutmayın qardaşlar, zalım ana, zalım ata" və sair ifadələr xınayaxdı və gəlinin ata evini tərk etməsi fikrini çatdırır [6, s.1]. Elə mərasimə rəng qatan, xoş ovqat yaradan də bu mənalı, ədəbi ifadələrdir. Çox zaman bölgələrdə xınayaxdı ilə bağlı xor ilə deyilən maraqlı "haxışda"lar da söylənilir. Anadolu bölgəsində xınayaxdı ilə bağlı lirik məzmunlu, lakin kövrək, həzin janrda maraqlı nəğmələr dillər əzbəridir:

*Xınam yaxıldı əlimə,*
*Qurşaq bağlandı belimə,*

*Düğüncülər ev önünə.*
*Gəldi anam gedirəm.*
*Anam qızın gəlin oldu,*
*Sənin deyil, elin oldu.*
*Halal eylə, halal eylə.*

Mərasimdə gəlinə xına yaxıldıqdan sonra rəngarəng və müxtəlif parçalardan olan xınabəndlərlə barmaqlar sarınardı. Xınabənd barmaqlara xına qoyanda hər birini ayrı-ayrılıqda bağlamaq üçündür. Adı qeyd olunan fondda gəlin üçün müxtəlif parçalardan rəngarəng xınabəndlər vardır. Belə ki, fondda mühafizə olunan 4535 inventar saylı üçbucaq formalı xınabəndlərin bəzilərinin üzəri qırmızı rəngli zərxaradan, kənarları göy rəngli zərxaradan ibarətdir. Astarı yaşımtıl sətin, kənarları isə çəhrayı qanovuzdandır. Digər xınabəndlərin üzəri çəhrayı rəngli tirmədən, astarı qırmızı ipəkdən, kənarı göy qanovuzdandır. Xınabəndlər XX əsrin əvvəlinə aiddir. İnventara 10 ədəd xınabənd daxildir. Sarı qanovuzdan olan digər xınabənd XX əsrin əvvəllərinə aiddir. Xınabəndin yuxarı hissəsi xaradan, kənarları tünd göy qanovuzdan, arxası güllü çitdəndir (9749 inventar saylı). Qeyd olunmalıdır ki, fondda 9749 inventar saylı xınabəndin eynisi – 9750 inventar saylı xınabənd də mühafizə olunur. Həmçinin XX əsrin əvvəllərinə aid üçbucaq fomalı, üzəri bənövşəyi zərxaradan, astarı qırmızı çitdən (2230 inventar saylı), üzəri qırmızı zərxaradan, astarı qırmızı qanovuzdan (9691 inventar saylı), yuxarı hissəsinə zərbafta tikilmiş, üzəri qırmızı zərxaradan, astarı bənövşəyi qanovuzdan olan (9580 inventar saylı) xınabəndlər fondda mühafizə olunur. Məlumdur ki, adətən, gecə vaxtı oğlan evindən qız evinə xına aparılardı. Məclisdə yalnız qadınlar və qızlar iştirak edərdilər. Xına məclisinin xərcini oğlan evi öz üzərinə götürərdi [3, s.65].

XIX-XX əsrin əvvəllərində Azərbaycanda demək olar ki, əksər bölgələrdə xına mərasimlərində xına yaxılması prosesində xınabənddən istifadə edilərdi. Fondda mühafizə edilən xeyli sayda zövqlə tikilmiş xınabəndlər göz oxşayır: Xınabənd (3111 saylı inventar) rəngli qanovuz parçadan tikilmişdir (8 ədəd). Astarı çitdəndir. Müxtəlif ölçülü olub, ikisinin kənarına qıvrım tikilib. Digər xınabənd XX əsrin əvvəllərinə aiddir. Üçbucaq formalı olan moruğu rəngli qanovuzdan, astarı narıncı çitdən tikilmiş xınabənd XX əsrin əvvəllərinə aiddir (7079 inventar saylı). Açıq qırmızı ipəkdən və astarı tünd qırmızı çitdən tikilmiş digər xınabənd də həmçinin XX əsrin əvvəllərinə aiddir (8500 inventar saylı). XX əsrin əvvəllərinə aid olan qırmızı rəngli qanovuz parçadan, astarı narıncı çitdəndir. Xınabənd üçbucaq formadadır (7115 inventar saylı). Üçbucaq formada qırmızı zərxara parçadan tikilmiş xınabəndin astarı mitqal parçadandır. XX əsrin əvvəllərinə aiddir (3220 inventar saylı). İki hissədən ibarət olan 7116 inventar saylı, zövqlə tikilmiş xınabənd üçbucaq formalıdır. XX əsrin əvvəllərinə aid olan xınabənd qırmızı qanovuzdan, astarı narıncı rəngli pambıq

parçadan tikilmişdir. 7078 saylı xınabənd üçbucaq formalı olub üzü moruğu rəngli qanovuzdan, astarı narıncı rəngli çitdəndir. Astarında isə rus fabrikinin möhürü var. 8501 inventar saylı xınabənd qırmızı qanovuzdan, astarı zoğalı çitdəndir. XX əsrin əvvəllərinə aiddir. 7617 inventar saylı xınabənd XX əsrin əvvəllərinə aid olub qırmızı qanovuzdan, astarı qırmızı çitdən tikilmişdir. Qırmızı zərxaradan, astarı zoğalı qanovuzdan olan 2 ədəd xınabənd XX əsrin əvvəllərinə aiddir. Xınabənd üçbucaq formalıdır (4152 inventar saylı). Üçbucaq formada olan 2 ədəd üzü moruğu rəngli qanovuzdan, astarı narıncı bezdən olan xınabənd XX əsrin əvvəllərinə aiddir (8508 inventar saylı). Üzü qarışıq güllü çitdən, astarı çəhrayı, ağ, qırmızı güllərdən ibarət üçbucaq formalı xınabənd XX əsrin əvvəllərinə aiddir (2876 inventar saylı). Elat tərəkəmə toy adətində həna (xına) yaxma mərasimi gəlin gedən qızın sağdışı, soldışı, nişanlı və ərgən qızların şən keçən sevimli mərasimidir. Bu mübah məclisdə çalıb-oxuma, şənlik-şuxluq üzərində qurulur. Məclisin xanəndəsi isə hənayaxma mərasimində xorun müşayiəti ilə gəlin gedən qıza xeyir-dua verir. Qızlar həmçinin “Al xınanı, a gəlin, yax xınanaı, a gəlin” - deyib nəğmə oxuyurlar [4, s.137-138].

“Xınayaxdı” mərasimində gəlin qıza xına qoyulduqdan sonra nəmər salınır. Xına yaxıldıqdan sonra oğlan evinin yaxın adamları, qohumlar gəlinə zinət əşyalarından hədiyyələr təqdim edirlər. Bu hədiyyələri su dolu kasaya atırlar. Xına mərasiminə gətirilən zinət əşyalarından əlavə xonça da tutub gətirirlər. Qeyd olunmalıdır ki, xına mərasimində şənlənən qızlar məclisindən ayrı bəy oğlanın dostları da oynayıb şənlənirlər. Verilən məlumata görə, bu zaman qız evindən bir nəfər bəy və onun dostlarınının qabağına “ikirəngli” çay gətirib qoyur. Çayı içib qurtardıqdan sonra boş nəlbəkiyə nəmər qoyulur [8, s.2]. Kənd toyu ərəfəsində xına yaxılması və bununla bağlı bir sıra mərasim detalları nikaha qədər vacib və əhəmiyyətli ənənələrdən hesab olunur. Xına mərasimi toya bir gün qalmış keçirilən “xınayaxdı” mərasimidir. Əlinə xına yaxılan gəlin artıq evlənməyi qəbul etmiş olur və geri dönüşü yoxdur (2, s.56). Xınayaxdı evlilik öncəsi qız evində təşkil edilən mərasimdir. Xınanı su ilə isladıb əllərə və ayaqlara yaxırlar. Axşam yeməyindən sonra qatı kütlə halına salınan xına ovuca yaxılır və barmaqlar yumulur, yumruq vəziyyətində olan əllər bezlə sarınır. Ertəsi gün əllər açılıb yuyulduqda qırmızıya boyanmış halda olur [5, s.61]. Toy mərasimləri ilə bağlı adətlər sırasında xınanın son dərəcə xüsusi yeri vardır. Toydan bir gün öncə həm gəlin qıza, həm də damada xına yaxılması üçün təşkil edilən xına gecəsi adət-ənənələrimizin hələ də imtina edilməyən bir sferasıdır. Toydan əvvəl könül xoşluğu və sevinclə yaxılan xınanın uğur və bərəkət ifadə etdiyi bildirilir. Eyni zamanda gəlin qızın əllərinə xına yaxılması onun özünü evinə və həyat yoldaşına həsr etməsinin, yuvasında xoşbəxt olmasının bir növ ifadəsidir. Xınanın gəlinin belinə bağlanan lent və üzünə örtülən duvaq kimi qırmızı al rəngi onun bəkarətinin simvoludur [12,

s.109]. Xına gecəsinə şam işığının nur saçması, ətrafı işıqlandırması şairin misralarında şövqlə işıqlandırılmışdır:

*Hınna gecesi şem tutup cariye-i mah*
*Tas-ı felek içre şafakı kıldı müheyya*

Və ya:

*Arus oldı bu gece şem-i rena*
*Anünçün yakdılar payına hınna* [12, s. 110].

Şamdan əlavə xına ləçəyi xınayaxma mərasiminin ayrılmaz detallarından biridir. Gəlinin əllərinə xına yaxıldıqdan sonra əksər vaxtlarda xına ləçəyi ilə sarıyıb xınabağı ilə bağlayırlar. Muzeyin Etnoqrafiya fondunda saxlanılan xına ləçəkləri xüsusi gözəlliyə malik maddi mədəniyyət nümunələridir. XX əsrin əvvəllərinə aid bir cüt xına ləçəyi üçbucaq formada olub qırmızı zərxaradan, astarı qırmızı çitdən tikilmişdir (2538 inventar saylı). 1680 inventar saylı xına ləçəyi XX əsrin əvvəllərinə aiddir. Tünd qırmızı rəngli güllü parçadan tikilmiş xına ləçəyinin astarı tünd qırmızı çitdəndir. 1681 inventar saylı digər xına ləçəyi göstərilən 1680 inventar saylı xına ləçəyinin eynisidir. Həmçinin fondda mühafizə edilən, mitqal parçadan olan üçbucaq formasında xına ləçəyi (8499 inventar saylı), üçbucaq formasında, üzəri qırmızı qanovuz, astarı bənövşəyi sətin parçadan olan xına ləçəyi (3219 inventar saylı), zərxara parçadan, astarı narıncı sətin parçadan olan yenə üçbucaq formasında xına ləçəyini (7114 inventar saylı) göstərmək olar. Bundan əlavə özünün funksiyası və görünüşü cəhətdən əhəmiyyətli sayılan maraqlı, qotazlı xına bağlarını vacib xına mərasimi detallarından hesab etmək olar. Qotazlı xına bağı görünüş cəhətdən unikal maddi mədəniyyət nümunəsidir. 6597 inventar saylı nümunəyə nəzər saldıqda, bir cüt çəhrayı rəngli, yun sapdan toxunulmuş, bir ucunda qotazı olan xına bağı görünür. 2123 inventar sayına daxil olan 3 cüt xına bağı qırmızı rəngli yun sapdan toxunmuşdur. Orta hissələrində düyün olan xınabəndlərin uclarında eyni rəngli qotazlar var. Xına bağları, yuxarıda göstərildiyi kimi, xınabəndlərin açılmaması üçün onların üzərindən bağlanır.

**Nəticə**

Milli dəyərlər xalqın mənəvi dünyasını, məişətini, onun keçmişi ilə bağlı zəngin yaradıcılıq sferasını özündə geniş şəkildə əks etdirir. Toy adətlərinin də daxil olduğu milli dəyərlərin yaddaşlarda saxlanmasında və təbliğ edilməsində MATM Etnoqrafiya fondunun böyük rolu vardır. “Xınayaxdı” mərasiminə aid olan xına camı, xınabənd, xına ləçəyi və xına bağlarının saxlanması, qorunması, həmçinin təbliği istiqmətində muzeyin bu fondunun əvəzsiz xidmətləri vardır.

**ƏDƏBİYYAT**

1. *Abdulla B.* Azərbaycan mərasim folkloru. Bakı: Qismət, 2005, 208 s.
2. *Altun İ.* Kandıra türkmənlərində doğum, evlenme ve ölüm. İzmit: Yayıncı yayınları, 2004, 416 s.
3. Azərbaycan folkloru antologiyası. X kitab (İrəvan çuxuru folkloru). Bakı, Səda, 2004, 471 s.
4. Azərbaycan folkloru antologiyası. XXI kitab (Qazax örnəkləri). Bakı: Elm və təhsil, 2012, 376 s.
5. *Çiftoğlu A.* Türk mədəniyyətində gəlin bəzəmə və bəzəmə ustaları // Milli Folklor, 2017, №113, s.54-68
6. Evlenme geleneğleri / https://osmaniye.ktb.gov.tr/TR-163649/evlenme gelenekleri
7. *Xürrəmqızı A.* Azərbaycan mərasim folkloru. Bakı: Səda, 2002, 210 s.
8. Xınayaxdı mərasimi haqqında / Gənc ailə. 14 oktyabr, 2013, s. 1-2
9. *Quliyeva N.* XIX-XX əsrlərdə Bakı şəhər əhalisinin ailə və ailə məişəti. Bakı: Elm, 2011, 240 s.
10. *Rəcəbli Q.* Toy. Azərbaycan etnoqrafiyası: 3 cilddə, II c., Bakı: Şərq- Qərb, 2007, s.315-331
11. Şənlik mərasim nəğmələri (Tərtib edən və ön söz müəllifi AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev). Naxçıvan: Əcəmi, 2010, 192 s.
12. *Tanrıbuyurdu G.* Klassik türk şeirində bir simvol dili olaraq xına. İnsan və Toplum Elmləri Araştırması, V c., 2016, s.102-115
13. Ümiteli köyünde kına gecesi. TFA. 1970, № 252, s.19-28

Redaksiyaya daxil olub 03.11.2020

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2020, C.68, №3, s. 131-137
Transactions of Pedagogical University. Series of humanitarian, social and pedagogical-psychological sciences – 2020, V.68, №3, pp. 131-137

# Pedaqoji-psixoloji elmlər

*УДК 37*

***Р.А.Халилов***
*Филиал МГУ им. М.В.Ломоносова*
*puroshottama999@yandex.ru*

## ЦЕЛЬ ОБРАЗОВАНИЯ – ВОСПИТАНИЕ ХАРАКТЕРА

***Ключевые слова:*** *ценностно-ориентированное образование, общечеловеческие ценности, характер, духовное образование*

В статье говорится о значимости ценностно-ориентированного образования. Подчеркивается значимость того, что целью образования является развитие характера. Дается описание инновационных учебных учреждений, которые во главу угла ставят развитие общечеловеческих ценностей и их интеграцию в образовательный процесс. Под общечеловеческими ценностями понимаются пять главных ценностей: истина, праведность, мир, любовь и ненасилие как фундаментальные основания соответствующих форм духовной культуры, предполагающие гармонию, меру, равновесие целостного мира человека и его конструктивного жизнеутверждения в культуре.

***R.Ə.Xəlilov***

## TƏHSİLİN MƏQSƏDİ – XARAKTERİN TƏRBİYƏSİ

***Açar sözlər:*** *dəyəryönümlü təhsil, ümumbəşəri dəyərlər, xarakter, mənəvi təhsil*

Məqalədə dəyəryönümlü təhsilin əhəmiyyətindən bəhs olunur. Təhsilin məqsədinin xarakterin inkişaf etdirilməsi olduğunun əhəmiyyəti vurğulanır. Ümumbəşəri dəyərlərin inkişafını və təhsil prosesinə inteqrasiyasını ön plana qoyan yenilikçi təhsil müəssisələrinin təsviri verilir. Ümumbəşəri insan dəyərlər beş əsas dəyər kimi başa düşülür: həqiqət, salehlik, sülh, sevgi və qeyri-zorakılıq, mənəvi mədəniyyətin uyğun formalarının təməli olaraq insanın ayrılmaz dünyasının harmoniyasını, ölçüsünü, tarazlığını və onun mədəniyyətdəki konstruktiv həyat təsdiqini nəzərdə tutur.

***R.A.Khalilov***

## PURPOSE OF EDUCATION – TRAINING OF CHARACTER

***Keywords:*** *value-based education, human values, character, spiritual education*

The article deals with value-based education. Importance of the fact that the purpose of education is character development is emphasized. A description of innovative educational institutions is given, which brings the development of universal

values and their integration into the educational process to the forefront. Human values are understood as five main values: truth, righteousness, peace, love and non-violence as the fundamental foundations of the corresponding forms of spiritual culture, presupposing harmony, measure, balance of the integral world of man and his constructive life affirmation in culture.

В июле месяце в Индии в Университете Высшего Знания имени Сатья Саи Бабы проходила международная конференция по образованию, на которой приняло участие свыше 280 учителей из более чем 50 стран мира, в том числе и Азербайджана. Конференция была посвящена интегрированию программ по общечеловеческим ценностям в систему образования. На конференции были организованы круглые столы по различным вопросам образования. Представители разных стран делились своим опытом внедрения ценностно-ориентированного образования в систему государственного образования. В таких странах как Индонезия, Канада, Таиланд, Англия, Казахстан и др. уже накоплен огромный опыт в этом направлении. В таком маленьком островном государстве как Фиджи на уровне Министерства Образования была разработана программа по родительству и интеграции общечеловеческих ценностей в учебную программу. Учебные пособия, посвященные ценностно-ориентированному образованию, были изданы при поддержке Европейского Союза. Все это еще раз показывает насколько значимо и актуально все это для нынешнего образования. Общенациональный лидер Гейдар Алиев, подчеркивая важность образования, основанного на общечеловеческих ценностях, говорил следующее: «Сегодня мы тоже должны воспитывать молодежь в духе чистоты, беспорочности, высокой нравственности и морали" [2, s.224]. На конференции говорилось о том, что нынешняя система образования несовершенна, что она не способна воспитывать в учащихся нравственные, этические и духовные ценности.

Образование и Воспитание сильно отличаются друг от друга! Воспитание – это Основа, а Образование – это то, что поддерживается Основой. Все тексты, которые мы читаем, дают нам только образование. Но этого совершенно недостаточно. Мы должны стремиться получать образование вместе с воспитанием. Сегодня мы полагаемся на разум, недооценивая важность характера. Характер должен идти в ногу с развитием разума. Развивать разум, не заботясь о соответствующем развитии характера, – тщетное занятие. Образование заканчивается характером. Характер заключается в стремлении преодолеть эгоистическую жадность. Человек без доброго характера не может считаться образованным. Если бы человек усвоил, хотя бы крупицу того, что он познал, и применил бы в своих мыслях, словах и делах – это бы полностью

изменило его. Не форма делает человека человеком, а его поступки и поведение. Подобным же образом, простое обретение книжного знания не делает человека образованным в истинном смысле этого слова. Подобное мирское образование негативно по своей природе. Человек должен понимать различие между образованием (education) и воспитанием (educare). Образование направлено на накопление информации, а воспитание – на внутреннюю трансформацию. Образование ограничено физическим и ментальным уровнями. Даже если человек обретет множество степеней, но его сердцу будет не хватать чистоты, то такого человека нельзя назвать образованным человеком. В наши дни очень немногие люди стремятся понять, что такое воспитание. Только те, кто обрели практическое знание и мудрость, смогут понять и принять концепцию воспитания. Остальных будут вводить в заблуждение ученые степени. Такие люди заинтересованы в обретении и распространении одного лишь книжного знания. Подобные тщетные усилия не сделают их поистине образованными. В наши дни студенты получают различные академические степени: бакалавр гуманитарных наук, магистр искусств, магистр управления бизнесом, доктор философских наук и т.д. Тем не менее, очень редко встречаются люди, которые понимают истинную цель образования и его внутренний смысл.

Такие общечеловеческие ценности как истина, добродетель, внутренний покой, любовь и ненасилие играют важную роль в деле воспитания характера человека. Сегодня эти ценности приобретают всё большую значимость. В современном обществе упор делается на интеллектуальное развитие ребёнка. Однако, самым важным является раскрытие внутреннего «Я» ребенка путем развития пяти сфер личности, а именно физической, психической, интеллектуальной, нравственной и духовной. Для этого необходимо создание благоприятной и здоровой образовательной среды для ребенка с целью развития полноценной личности.

Для выхода из эволюционного кризиса необходима образовательно-воспитательная система, пробуждающая и закрепляющая общечеловеческие ценности. Поиски таких систем воспитания и образования осуществлялись на протяжении всей истории человечества, начиная с древнейших времён, выдающимися личностями, которые прокладывали пути, ведущие к разуму и сердцу человека, разрабатывали соответствующие методы и практики. В недавнем прошлом выдающиеся учёные Л.Выгодский, А.Макаренко, В.Сухомлинский, а в настоящее время академик Ш.А.Амонашвили, академик РАО Д.М.Маллаев, академик М.П.Щетинин, академик А.Х.Мирзаджанзаде, А.А.Ализаде, Т.Джафарли.

Доктор психологических наук, академик РАО Ш.А.Амонашвили

основал мощное движение «Гуманной педагогики». Академик М.П.Щетинин основал государственное учреждение лицей-интернат комплексного формирования юношей и подростков, основу воспитательно-образовательной программы которого, составляют духовно-нравственные ценности, воспитание гражданина – патриота своей страны и вместе с тем уважительного отношения к другим народам, их культуре, традициям, вероисповеданию. Доктор педагогических наук, профессор Д.М.Маллаев разработал и внедрил в двадцати учебных заведениях Дагестана (от дошкольного до вуза) систему образования, построенную на общечеловеческих ценностях.

В Копенгагене Европейским институтом ESSE разработана программа семинаров под общим названием «Введение в духовность». В основу этой программы положен принцип «Educare» от латинского «Educere», означающий выявление того, что уже находится внутри». Этот термин используется для обозначения сути программы, которая преследует цель не обучения в привычном смысле, а образования, т.е. придание осознанной формы тому, что изначально свойственно человеческой природе и связано с вечными духовно-нравственными ценностями. Принцип «Educare» («Эдюкаре») имеет два аспекта: мирской и духовный. Потому что, для гармоничного развития человеческой личности и светское, и духовное образования необходимы, подобно тому, как птице для полёта необходимы два крыла. Учителя из Австрии, Дании, Голландии, Германии, Греции, входящие в состав преподавательской команды этого института, ведут занятия по системе «Educare» («Выявление»). «Educare» означает «извлечь изнутри», «выпустить», «дать проявиться». Общечеловеческие ценности изначально присущи каждому человеку, он рождается с ними, их надо только проявить и осознать.

Цель образования «Educere» – выявить, закрепить высокие духовно-нравственные качества в каждом человеке.

Такое образование возможно лишь тогда, когда человек начинает заниматься самоисследованием. Великий Сократ посвятил этому всю свою жизнь.

Шри Сатья Саи Баба – ректор Университета в Индии впервые в практику образовательных учреждений ввел как воспитательную программу, разработанную им – учение об общечеловеческих ценностях с конкретной практической методикой их выявления, развития и закрепления. Эта программа была включена в образовательный курс в 1986 году в колледже для девушек в городе Анантапур, а годом позже в колледже для юношей в Вайтфилде.

Университет Шри Сатья Саи Бабы – один из двух лучших университетов Индии уникальный пример того, как древние традиции

могут гармонично сочетаться с современностью. По сути, это современный гурукулам (индуистская школа). Традиционно, в гурукулах студенты или ученики жили в ашраме своего гуру (учителя). Гурукула была местом, где ученики жили вместе на равных, независимо от своего социального положения, сложившаяся веками система передачи знаний от учителя ученикам. Основной упор в этом учебном учреждении делается на развитие характера. По данным соцопроса, проведенного психологами, было выявлено, что 90% успеха во всех видах деятельности зависит от характера человека и лишь 10% от его академических знаний. Вот почему в этих учебных заведениях упор делается именно на формирование благородного характера.

Это главная наука, которой должны обучать в университете. Он создал систему непрерывного образования от детского сада и начальной школы до докторантуры. Тысячи юношей и девушек посещают эти учебные заведения и в полном объеме достигают высшего уровня интеллектуального и духовного превосходства, которым славится Индия. Начальная школа и университеты предлагают полный набор научных дисциплин абсолютно бесплатно. Обширный учебный план включает обучение таких дисциплин как физика, химия, биология, математика, а также музыку, танцы и литературу.

Итог образования – характер. «*Политика без принципов, образование без воспитания характера, наука без гуманизма, коммерция без морали не только бесполезны, но и опасны*», - говорит Шри Сатья Саи [3, s.224].

Поэтому в учебных заведениях Саи главное – это воспитание личности, личности гармоничной, творческой, созидательной и в высоком смысле слова патриотичной.

Вместе с общеобразовательными дисциплинами студенты изучают принципы нравственности, морали, духовные практики и общее. Цель университета – формирование характера студентов в соответствии с высокими нравственными принципами. Программа обучения помогает студентам развить в себе такие добродетели как чистота сердца, приверженность истине и высшим идеалам, дисциплина и верность долгу.

Выпускник Кембриджского университета известный таиландский преподаватель и учёный (сотрудник НАСА) д-р Арт-онг Джумсаи, делясь своим многолетним опытом преподавания в самых престижных учебных заведениях своей страны, говорит: «*Учителя должны всегда помнить, что произнесённое слово обеспечивает лишь 10 процентов восприятия переданного сообщения. Усвоение этого сообщения на 90 процентов зависит от того, как мы передаём информацию*» [1, s.9].

В своём выступлении 26 сентября 2000 года на крупной

Международной конференции по образованию, проходившей в Индии, в которой приняли участие представители восьмидесяти стран, и темой, которой явилось «Укрепление системы обучения общечеловеческим ценностям», д-р Джумсаи сказал: «*Чтобы получить информацию, ведущую к трансформации, мы должны понимать суть процесса эффективного обучения»*. Он говорил о важности включения общечеловеческих ценностей в план каждого школьного урока, будь то естественные науки или математика. Он привёл такой пример:

«*Вместо того, чтобы просто дать ребёнку научное определение воды как химического соединения, имеющего формулу $H^2O$, ему необходимо также рассказать о полезности воды. Где бы ни протекала река, её воды служат людям. Вода утоляет жажду, нужна для орошения полей, для приготовления пищи и т.д. Предложите детям стать такими, как вода: всем помогать и со всеми делиться. Такая подача информации будет трансформировать ребёнка*» [2, s.9].

Общечеловеческие ценности представляют собой систему аксиоматических максим, содержание которых не связано непосредственно с конкретным историческим периодом развития общества или конкретной этнической традицией, но, наполняясь в каждой социокультурной традиции собственным конкретным смыслом, воспроизводится, тем не менее, в любом типе культуры в качестве ценности. К общечеловеческим ценностям относят: человеческую жизнь (ее сохранение и развитие в природной и культурной формах). Различают ценности (в связи со структурой бытия) природные (экологические) и культурные (свобода, право, образование, творчество, общение). По формам духовной культуры ценности классифицируют на нравственные (добро, смысл жизни, совесть, достоинство, ответственность), эстетические (прекрасное, возвышенное), религиозные (вера), научные (истина), политические (мир, справедливость), правовые (права человека, правопорядок). Каждая историческая эпоха и определенный этнос выражают себя в иерархии ценностей, определявшей социально допустимое. В современном мире значимы нравственные и эстетические ценности античности, гуманистические идеалы христианства, рационализм Нового времени, парадигма ненасилия 20 в. (М.Ганди, М.Л.Кинг). В современную эпоху глобальных перемен особое значение приобретают абсолютные ценности добра, красота, истины, любви, праведности и веры как фундаментальные основания соответствующих форм духовной культуры, предполагающие гармонию, меру, равновесие целостного мира человека и его конструктивного жизнеутверждения в культуре.

## ЛИТЕРАТУРА

1. *Арт Онг Джумсаи* / доклад Международной конференции по образованию. Индия, 2000
2. *Адель Абдулла.* Гейдар Алиев и национально-духовные ценности. Баку: Гисмет, 2007, 74 с.
3. Сатьопанишад в 2 т. / автор-составитель Анил Кумар Камараджу. М.: Амрита-Русь, 2004, 224 с.

Redaksiyaya daxil olub 12.10.2020

*UOT 37*

***F.N.İbrahimov, V.Ə.Abdurahmanov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı*
*abdurahmanov_v@mail.ru*

# PEDAQOJİ PROSESDƏ EHTİVA OLUNAN MƏZMUNUN HƏRƏKƏT FORMALARI

***Açar sözlər:*** *pedaqoji proses, idrak prosesi, texnoloji proses, pedaqoji texnologiya, sistem, struktur, altsistem, mərhələ, obyekt, subyekt*

Məqalədə göstərilir ki, pedaqoji proses ehtiva etdiyi əsas komponentlərin qarşılıqlı idrak fəaliyyəti olmaqla texnoloji yanaşmalara açıq tamdır. Onun idarəedən və idarəolunan altsistemləri vardır. Bu sistemə daxil olan əsas komponentlər dialektik bağlılığı olan idrak məsələlərinin həllini həyata keçirirlər. Öyrədənlər pedaqoji prosesə pedaqoji texnologiyaları formulə etdikləri didaktik təbiətə malik problemli idrak məsələsinin həll üsulu kimi daxil edirlər. Bu idarəetmə tərzi tələbələrin dərrakəli və zəkalı fəaliyyətlərinin səmərəli idarə olunması mühitinin optimallığına (analitik və evristik fəaliyyətlərinin vahidin tərəfləri kimi birləşdirilməsinə) müsbət təsir edir.

Məqalədə belə bir qənaət hasil olunur ki, "sistemli yanaşma" praktiklər tərəfindən pedaqoji prosesin təşkil və idarə olunmasında yol verə biləcəkləri yanılmaların azaldılmasına müsbət təsir etməklə yanaşı, onları idarəetmə prosesini didaktik mahiyyətli problemli məsələlərin həlli modelindən istifadəyə yönəldir.

***Ф.Н.Ибрагимов, В.А.Абдурахманов***

## ФОРМЫ ДЕЙСТВИЙ СОДЕРЖАНИЯ, ОТРАЖЕННЫЕ В ПЕДАГОГИЧЕСКОМ ПРОЦЕССЕ

***Ключевые слова:*** *педагогический процесс, познавательный процесс, технологический процесс, педагогическая технология, система, структура, подсистема, этап, объект, субъект*

В статье показано, что педагогический процесс открыт для технологических подходов, при взаимодействии основных компонентов познавательной деятельности. Он имеет контролируемые подсистемы. Основными компонентами этой системы являются решение когнитивных проблем, связанной диалектикой. Преподаватели включают педагогические технологии в педагогический процесс как решение когнитивных проблем, связанных дидактикой. Эта форма управления оказывает положительное влияние на оптимальность (совмещение аналитической и эвристической деятельности как стороны одной единицы) среды для эффективного управления перцептивной и интеллектуальной деятельности студентов.

В статье делается вывод о том, что «системный подход» не только положительно влияет на уменьшение ошибок, которые практикующие

специалисты могут совершать в организации и управлении педагогического процесса, а также направляет их к процессу управления использованием дидактических моделей решения проблем.

***F.N.Ibrahimov, V.A.Abdurahmanov***

## FORMS OF ACTION CONTENT CONTAINED IN THE PEDAGOGICAL PROCESS

***Keywords:*** *pedagogical process, cognition process, technological process, pedagogical technology, system, structure, subsystem, stage, object, subject*

The article shows that the pedagogical process is completely open to technological approaches, with the interaction of the main components of the cognitive activity. It has controlled and manageable subsystems. The main components of this system are the solution of cognitive problems with dialectical connection. Teachers incorporate pedagogical technologies into the pedagogical process as a solution to a problem-based cognitive problem of their didactic nature. This controlled style has a positive effect on the optimality of the environment for the effective controlled of students' perceptual and intellectual activities (combining analytical and heuristic activities as aspects of the unit).

The article concludes that a "systematic approach" not only has a positive effect on the reduction of errors that practitioners may make in the organization and controlled of the pedagogical process, but also directs their controlled process to the use of didactic problem-solving models.

Pedaqogika elm sahəsində təhsil, təlim, tərbiyə və pedaqoji prosesin tədqiqi, daha mükəmməl hala gətirilməsi, bunların optimal variantlarının işlənilməsi, invariantlarının müəyyənləşdirilməsi, əsaslı şəkildə arqumentlədirilmiş qanunauyğunluqlara dayanan prinsiplərin formulə olunması, bu prinsiplərə konkret situasiyalarda istinad olunması təcrübəsinin işlənilməsi, məzmun və forma dialektikasının interpretasiyası və s. aspektlərdə tədqiqatlar aparılmış, monoqrafiyalar, tədris ədəbiyyatı ərsəyə gətirilmiş, qabaqcıl və novator təcrübə ünvanlarında müşahidələr, təhlillər aparılmış və sözügedən təcrübələrin yayılması yönümündə cəhdlər edilmişdir. Danılmaz həqiqətdir ki, həmin aspektlərdə edilmiş cəhdlərin intensivliyinə və davamlılığına baxmayaraq pedaqoji elmin inkişaf tendensiyası, tədqiqat nəticələri sivilizasiyanın çağırışlarına arzuolunan səviyyədə adekvat deyildir, öyrəncilərin idrak imkanlarını səfərbər edən təhsil-tərbiyə modelləri praktik pedaqoqların sərəncamına verilməmişdir.

Görünür ki, pedaqoji proseslərin tədqiqinə və idarə olunmasına yanaşma tərzini dəyişməyə ehtiyac vardır. Akademik A.X.Mirzəcanzadə pedaqoji proseslərə sistem kimi yanaşılmasına çağırış edərək yazırdı ki, tərbiyə insan cəmiyyətinin həmişəyaşar problemlərindəndir və həmişə hər bir dövr üçün

təkamül prosesi keçirən psixoloji bir sistemdir. Onun fikrincə, bütövlükdə tərbiyə prosesinin aşağıdakı altsistemləri mövcuddur:

1. Texnoloji (maddi və mənəvi şərait, fəaliyyətin bütün növləri, tədris planı və sistemli rəhbərlik);

2. Sosial-psixoloji (təbiətə, mədəniyyətə, insanlara, öz-özünə münasibətlərin bütün növləri);

3. Mədəni-şəxsi (şəxsiyyətin mənəvi və intellektual-estetik imkanları, özünütəkmilləşdirməyə və ali hisslər aləminə qarşı iradə) [4, s.68].

Akademik A.X.Mirzəzadə doğru buyurmuşdur. Hadisə və proseslərə, onların dərk edilməsinə "sistem-struktur" adlanan baxışla yanaşmaq müasir dövrün səciyyəvi xüsusiyyətidir [6, s.21-26]. Hər hansı bir hadisəni daha dərindən öyrənmək, onun inkişaf qanunauyğunluqlarını aşkar etmək naminə bu hadisəni onu təşkil edən komponentlərinə, mühüm və mühüm olmayan xassələrinə ayırmaq və onları ayrı-ayrılıqda araşdırmaq vacib əhəmiyyət kəsb edir.

Sistemi təşkil edən elementləri, bunların qarşılıqlı təsirini öyrənmədən buradakı davamlı, mühüm və zəruri əlaqələri ayırd etmək mümkün olmur. Elementlərin, bunların əmələ gətirdiyi bütövlə, tamla əlaqəsini də öyrənmədən, açmadan həm sistemin funksiyası, həm də hər bir elementin tama nəzərən funksiyaları kölgədə qalır. Hər bir sistemin özünəməxsus strukturu və bu strukturun daşıyıcı olduğu funksiyası var. Sistemə onun struktur və funksiyasının vəhdətindən ibarət tam kimi baxmaq olar. Sistemlər bir-birindən təkcə struktur və funksiyalarına görə deyil, həm də başlıca olaraq strukturla funksiyanın vəhdətinin necəliyi ilə, bu vəhdətin xarakteri ilə fərqlənirlər. Hər bir sistem özündən aşağı struktur səviyyəli sistemə nəzərən daha mükəmməl sistem kimi çıxış edir. Hər bir sistemin özünəməxsus altsistemləri vardır [2, s.104-107].

Akademik A.X.Mirzəcanzadə L.Bertalanfinin sistem təhlili ideyasına əsaslanaraq yazırdı ki, tədqiqat obyektinə (*həm də idarəetmə obyektinə* - kursiv bizimkidir) sistem kimi baxılması üçün o, aşağıdakı tələbləri ödəməlidir:

1) Obyekt (tam) altsistemlərdən (hissələrdən) ibarət olmalıdır;

2) Altsistemlərin bir sistem halında birləşməsi məsələnin dürüst qoyuluşuna – tədqiqat məqsədinə (*idarəetmə məqsədinə* - kursiv bizimkidir) kömək etməlidir;

3) Sistemdə altsistemlərin qarşılıqlı əlaqəsini təyin edən xassə mövcud olmalıdır;

4) Sistem böyük sistemin bir hissəsi (altsistemi) olmalıdır [4, s.8]

Pedaqoji proses tam, mürəkkəb, dinamik sistemdir. Pedaqoji prosesdə obyekt və subyekt arasında daim qarşılıqlı təsir baş verir. Pedaqoji proses daxilən bir-biri ilə bağlı olan proseslərin məcmusudur. Bu proseslərin mahiyyəti ondan ibarətdir ki, burada mənimsənilən sosial təcrübə mənimsəmə subyektinin keyfiyyətinə çevrilir. Pedaqoji proses təlim, təhsil, tərbiyə və inkişaf proseslərinin

mexaniki birləşməsi deyildir. Qarşılıqlı əlaqələrin dialektikası özünü bir-biri ilə bağlı həyata keçirilən proseslərin məqsədində, vəzifələrində, məzmununda, forma və metodlarında göstərir. Həmin prosesləri təhlil edən zaman əsas məqsədi təhlilə cəlb olunan prosesin spesifik cəhətlərindən fərqləndirmək lazım gəlir. Pedaqoji proseslər silsilə xarakteri daşıyır. Bütün pedaqoji proseslərin inkişafında eyni mərhələlər nəzərə çarpır. Mərhələlər prosesin tərkib hissələri deyil, onun inkişaf ardıcıllığıdır. Pedaqoji prosesin üç başlıca mərhələsi – hazırlıq, əsas, yekun mərhələləri vardır. Hazırlıq mərhələsində prosesin nəzərdə tutulmuş istiqamətdə və sürətlə baş verməsi üçün zəruri şərait yaradılır. Bu mərhələdə aşağıdakı mühüm vəzifələr həll olunur: qarşıya məqsədin qoyulması, şəraitin diaqnostikası, nailiyyətlərin proqnozlaşdırılması, prosesin inkişafının planlaşdırılması və s. Pedaqoji prosesdə əsas mərhələ qarşılıqlı əlaqəli, mühüm elementləri özündə birləşdirir. Əsas mərhələ özlüyündə digər sistemlərdən nisbi təcrid olunmuş bir sistemdir. Onun aşağıdakı elementləri vardır: qarşıdakı fəaliyyətin məqsəd və vəzifələrinin müəyyən olunması və izah edilməsi; pedaqoqlarla şagirdlərin qarşılıqlı təsiri; pedaqoji prosesin nəzərdə tutulmuş metodları; vəzifələri və formaları; əlverişli şəraitin yaradılması; məktəblilərin fəaliyyətini stimullaşdırmaq üçün müxtəlif tədbirləri həyata keçirmək; pedaqoji prosesin digər proseslərlə əlaqəsini təmin etmək. Pedaqoji prosesin səmərəliliyi bu elementlərin bir-birilə məqsədyönlü əlaqəsindən, onların istiqamətinin və praktik həyata keçirilməsinin ümumi məqsədə və bir-birinə zidd olmamasından asılıdır. Pedaqoji prosesin həyata keçirilmə mərhələsində onun idarə edilməsi ilə bağlı operativ qərarlar qəbul etmək üçün əks-əlaqənin mühüm rolu vardır. Əks-əlaqə prosesi keyfiyyətli idarə etmək üçün əsasdır. Bununla əlaqədar qeyd etmək lazımdır ki, pedaqoji proses xeyli dərəcədə özünü tənzimləyən sistemdir, çünki orada iştirak edən insanlar öz iradəsinə və sərbəst seçmə imkanına malikdirlər. Pedaqoji prosesin gedişində operativ əks-əlaqənin yaradılması qarşılıqlı təsir prosesində vaxtında düzəlişlər aparmağa kömək edir. Pedaqoji prosesin yekun mərhələsi alınan nəticələrin təhlili ilə başa çatır [5, s.95-106].

Sonrakı mülahizələrimizin asan anlaşılması məqsədilə bir daha qeyd edək ki, istənilən sistemə ona nəzərən daha geniş olan sistemin komponenti və ya altsistemi kimi baxmaq olar, onda hər hansı sistemin komponentləri öz növbəsində yeni səviyyəli sistem kimi görünə bilər. "Sistemin vəziyyəti" dedikdə, onun zəruri xassələrinin məzmunu, "sistemi əhatə edən mühit" dedikdə, onun vəziyyətinə təsir göstərən bütün faktorlar başa düşülür.

Bu baxışlarımıza dayanaraq pedaqoji prosesdə transformasiya olunan "Pedaqoji texnologiya"nın funksiyasına, imkandaşıyıcılıq xüsusiyyətinə açıqlama verək. Bu məqsədlə (S, R) sistemınə baxaq. S hər hansı subyekt, R isə abstrakt (konkret) sistem yaradan çoxluq olsun. R çoxluğunu pedaqoji proses hesab edək. Əgər R-ə əsas imkandaşıyıcı komponent kimi daxil olmuş idarəetmə subyektinə R-i sistem hesab etmək üçün kifayət olan bütün elementləri, R-in elementlərinin

xassələri, R-də müəyyən olunmuş münasibətlər məlumdursa, həmin subyektə nəzərən R sistemi stasionardır. Əgər R ilə əlaqəyə girmiş sistemə R-in sistem olması üçün zəruri olan R-dən heç olmasa, bir element, əlaqə və ya xassə məchul olarsa, onda həmin subyektə nəzərən R sistemi problemli sistem olur [2, s.105-107]. Beləliklə, hər hansı R sisteminin stasionar və ya problemli sistem olması onunla əlaqəyə girmiş subyektin malik olduğu bilik, təcrübə və sairədən asılıdır, onun özü ilə müəyyən, başqa sözlə, R sisteminin problemliliyi nisbi məfhumdur. R sistemində başlanğıc vəziyyət (şərt) əsasən öyrənənlərin prosesdə imkandaşıyıcılıq funksiyasına hazırlıq səviyyəsi və reallaşdırılacaq altstandarlarla şərtlənir (öyrədən özünün subyektiv anlamına adekvat şəkildə başlanğıc vəziyyəti formulə etmiş olur). R sistemində son vəziyyət altstandartların ehtiva etdiyi bilik və bacarıqların öyrənənlərin təcrübəsinə daxil edilməsi, onlarda müvafiq şəxsi keyfiyyət dəyişiklikləri ilə bağlıdır. R sistemində verilmiş vəziyyətdən (başlanğıc vəziyyətdən) son vəziyyətə keçmək üçün nəzəri və təcrübi əsas idarəetmə bazisidir. Subyektiv anlamımıza görə, sözügedən bazis prosesin tamlığını, prosesdə öyrənənlər üçün bərabər şəraitin yaradılmasını, öyrənənyönümlülüyünü, inkişafyönümlülüyünü, öyrənənin fəaliyyətinin stimullaşdırılmasını, prosesdə dəstəkləyici mühitin mövcudluğunu özünə transformasiya etməlidir. Pedaqoji prosesdə tətbiq olunan texnologiya öyrədən altsistemin ehtiva etdiyi didaktik mahiyyətli idrak məsələsinin həlli üzrə pedaqoqun fikri fəaliyyət formasıdır.

Qənaətimizə görə, pedaqoji texnologiyanın öyrədən altsisteminə belə bir statusda (məzmunun hərəkət forması kimi) daxil edilməsi "pedaqoji texnologiya" terminin şərh olunmasında fikir müxtəlifliyini məhdudlaşdırır, tətbiq edilməli olan texnologiyanın seçimində və ya formalaşdırılmasında yanlışlıqları azaldır, optimal variantın tətbiqi ehtimalını artırmış olur, öyrədənin pedaqoji texnologiyanı idarə etdiyi real prosesə daxil etməsi baxımından yaradıcı fəaliyyət göstərməsinə, konkret situasiyaya uyğun axtarış aparmasına səbəb olur, bu zaman həm öyrədənin imkanları səfərbər olunur, həm də öyrənənlərin mənimsəməyə qabilliyi qiymətləndirilmiş olur, pedaqoji proses səmərəli idarəolunma keyfiyyətini əxz edir, qərarların qəbul olunmasında yanılmalar maksimim dərəcədə azalmış olur.

Əslində pedaqoji prosesdə formulə olunmuş didaktik təbiətli idrak məsələsinin həll üsulu kimi tətbiq olunan texnologiya – nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsini təmin etməyə imkan verən, elmi əsaslar üzərində qurulmuş, məkan və zaman səviyyəsində proqramlaşdırılmış pedaqoji prosesin bütün komponentlərinin birgə fəaliyyət sistemidir. Eyni zamanda texnologiya təlim-tərbiyə prosesinin paradiqmalarını müəyyənləşdirən elə alqoritmlər sistemidir ki, onun tətbiqi öyrənəndə tələb olunan keyfiyyətləri formalaşdırmağa xidmət edir, təlim prosesinin layihələşdirilməsi, mərhələli diaqnostikasını, idarəçilik baxımından nəticələri korrektə etməyə imkan verir.

Pedaqoji prosesi bir sistem kimi işləyib hazırlayanda və həyata keçirəndə onun bütün komponentlərinin üzvi birliyini (vəhdətini) təmin etməyə çalışmaq lazımdır. Çünki bu komponentdən birində baş verən dəyişiklik məntiqi olaraq digərlərində dəyişiklik əmələ gətirir. Metodikadan fərqli olaraq pedaqoji texnologiya ehtiva olunduğu sistemdə əsas komponentlərin (idarəedən və idarəolunanların) fəaliyyətinin məzmunu və təşkili qaydalarını (üsullarını) işləyib hazırlamağı nəzərdə tutur (daha ətraflı məlumat üçün bax: [3])

Pedaqoji prosesin idarəolunma texnologiyası prosesin müvəffəqiyyətlə həyata keçməsinin həlledici şərtlərindən biridir, başqa sözlə, yuxarıda şərhi verilən R sistemində didaktik təbiətli idrak məsələsinin həllnin səmərəliliyinə əsas yaradan imkandaşıyıcı komponentdir. Bunsuz pedaqoji prosesdə "imkan-hərəkət-yeni keyfiyyət"dən bəhs etmək absurd olardı. Pedaqoji prosesə hər hansı texnologiyanın daxil edilməsinin səmərəliliyi fəaliyyətin təhlili, diaqnostikası, proqnozun müəyyənləşdirilməsi və layihənin işlənib hazırlanması komponentləri ilə şərtlənir.

Pedaqoji prosesin həyata keçirilməsi texnologiyası özündə aşağıdakı kimi altsistemləri ehtiva edir, başqa sözlə, onu belə substratda təsəvvür etmək olar: informasiyanı vermək texnologiyası; tədris-idrak fəaliyyətinin və digər inkişafetdirici fəaliyyət növlərinin təşkili texnologiyası; şagirdlərin fəallığının stimullaşdırılması texnologiyası; pedaqoji prosesin gedişinin tənzimlənməsi texnologiyası; pedaqoji prosesə cari nəzarətin həyata keçirilməsi texnologiyası.

Burada bir qədər haşiyə çıxaraq vurğulayaq ki, altsistem kimi fərqləndirilən həmin texnologiyaların məcmusu (dialektik vəhdəti) pedaqoji prosesin həyata keçirilməsi texnologiyasını təşkil edir. Bunların içərisində fəaliyyətin təşkili texnologiyası mərkəzi yer tutur. Əslində bu, pedaqoji prosesin fəaliyyətinin əsasında qoyulan niyyətin və layihənin reallaşdırılmasıdır.

Pedaqoji prosesi həyata keçirməsi prosesində pedaqoqun rəhbərlik fəaliyyəti ilə bəşər təcrübəsindən hansısa layihələndirilən zəruri hissəni mənimsəmək məqsədi ilə sistemə qatılanların müstəqilliyinin, təşəbbüskarlığının və yaradıcılığının inkişaf etdirilməsini üzvi surətdə uyğunlaşdırmaq lazımdır. Bu məqsədlə müəllimin idarəedici təsiri (fasiltatorluğu) ilə öyrənənlərin özünüidarə fəaliyyətini əlaqələndirməyin rasional ölçüsünü tapmaq olduqca vacibdir. Pedaqoji prosesin gedişində düzgün əks-əlaqənin yaradılması müəllimin təşkilatçılıq fəaliyyəti ilə şagirdlərin özünüidarəsini korreksiya etmək üçün lazımdır. Bu əks-əlaqə qarşıya qoyulmuş vəzifələri effektli həll etmək üçün zəruridir (daha ətraflı məlumat üçün bax: [5])

"Sistem-struktur" fəlsəfi düşüncə tərzinə əsaslanan yanaşma təhsil sahəsində konseptual problemlərin və müxtəlif xarakterli layihələrin, pedaqoji, psixoloji, sosial məqsədlərin yerinə yetirilməsində və bir sıra problemlərin həllində yeni imkanlar açır. Sözügedən problemlərə bunları aid etmək olar: pedaqoji prosesin nəticələrinin əvvəlcədən yüksək dəqiqliklə müəyyən edilməsində və

prosesin idarə olunmasında; qazanılmış praktik təcrübənin elmi əsaslarla təhlili, sistemləşdirilməsi və ondan səmərəli istifadə olunmasında; təhsil, təlim-tərbiyə və sosial problemlərin kompleks həllində; şəxsiyyətin hərtərəfli inkişafını təmin edən əlverişli şəraitin yaradılmasında; təhsil sistemində effektivliyi təmin etmək üçün ehtiyatlardan səmərəli istifadə olunmasında; təlim prosesində təhsil alanlara təsir edən qeyri-normal halların azaldılmasında; sosial-pedaqoji problemlərin həlli üçün yeni texnoloji yanaşmaların, modellərin işlənilməsində və daha effektli metodların seçilməsində.

**Mövzunun aktuallığı**. Pedaqoji prosesə sistem kimi yanaşma həm onun, həm də bu prosesdə özündə ehtiva olunan altsistemlərin təbiətinin elmi əsaslarla aydınlaşdırılması və altsistemlər arasındakı dialektik əlaqələrin dərk olunması üçün imkanları genişləndirir. Bu yanaşma həm pedaqoji prosesi idarə edən şəxsə didaktik mahiyyət daşıyan idrak məsələsini həll etmək üçün ilkin verilənləri dürüst seçməyə, bazis prinsiplərini tətbiq etməyə, həll prosesini həyata keçirməyə, əldə olunmuş nəticəni dəyərləndirməyə, refleksiya əməliyyatını aparmağa, eyni zamanda prosesə öyrənci kimi daxil olan şəxslərin idrak fəaliyyətlərinin – analitik və evristik məntiqlərinin idarəolunan prosesə çevrilməsinə əsas yaradır. Pedaqoji prosesə “sistem-struktur” baxış onu texnoloji innovasiyalara açıq edir, bu prosesə pedaqoji texnologiyanı idarəetmə məsələsinin həll üsulu kimi transformasiya edilməsi mühitini formalaşdırır.

**İşin elmi yeniliyi və praktik əhəmiyyəti.** Pedaqoji prosesin səmərəli idarə olunan mükəmməl sistemə çevrilməsi problemi ilə bağlı yeni yanaşma tərzi diqqət mərkəzinə çəkilmişdir. Bununla da pedaqogikanın fəlsəfədən ayrı düşməsi kimi təhlükəli tendensiyaya qarşı çağırış edilmişdir. Sistemli yanaşma praktiklərin pedaqoji prosesin təşkilində və idarə olunmasında yol verə biləcəyi yanılmaların azalmasına müsbət təsir edir. Bu yanaşma praktik pedaqoqu idarəetmə prosesinin didaktik mahiyyətli problemli məsələlərinin həlli modelindən istifadə olunmasına yönəldir.

**Nəticə.** Pedaqoji proses ehtiva etdiyi əsas komponentlərin qarşılıqlı idrak fəaliyyəti olmaqla texnoloji yanaşmalara açıq tamdır. Onun idarəedən və idarəolunan altsistemləri vardır. Bu sistemə daxil olan öyrədənlər və öyrənənlər dialektik bağlılığı olan idrak məsələlərinin həllini həyata keçirirlər. Öyrədənlər pedaqoji prosesə pedaqoji texnologiyaları formulə etdikləri didaktik təbiətə malik problemli idrak məsələsinin həll üsulu kimi daxil edirlər. Bu idarəetmə tərzi öyrənənlərin dərrakəli və zəkalı fəaliyyətlərinin səmərəli idarə olunması mühitinin optimallığına (analitik və evristik fəaliyyətlərinin vahidin tərəfləri kimi birləşdirilməsinə) müsbət təsir edir.

## ƏDƏBİYYAT

1. *İbrahimov F.N., Hüseynzadə R.L.* Pedaqogika / Dərslik: 2 cilddə, I c., Bakı: Mütərcim, 2013.706 s.
2. *İbrahimov F.N.* Təlimdə alqoritmik və evristik fəaliyyətin optimal nisbətlərinin əsaslarına dair oçerklər. Bakı: Mütərcim, 1998, 398 s.
3. *Mehrabov A., Abbasov Ə, Zeynalov Z, Həsənov R.* Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006, 372 s.
4. *Mirzəcanzadə A.X.* İxtisasa giriş / Dərs vəsaiti. Bakı: ADU nəşriyyatı, 1990, 368 s.
5. *Paşayev Ə.X., Rüstəmov F.A.* Pedaqogika / Dərs vəsaiti. Bakı: Nurlan, 2007, 464 s.
6. *Аверьянов А.Н.* Системное познание мира. М.: Наука, 1985, 263 с.

Redaksiyaya daxil olub 08.05.2020

*UOT 372.0:002*

***S.P.İbrahimova, P.H.İbadova***
*Odlar Yurdu Universiteti*
*sevaibrahimova10@gmail.com, parvana077@gmail.com*

# YENİ VƏ İNTERAKTİV TƏLİM TEXNOLOGİYALARININ ƏNƏNƏVİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN MÜQAYİSƏLİ TƏHLİLİ

***Açar sözlər:*** *texnologiya, informasiya, təlim, təhsil, pedaqoq, innovasiya, yeni nəsil*

Yeni pedaqoji texnologiyaların tətbiqində əsas məqsəd demokratikləşdirmə, humanistləşdirmə, fərdiləşdirmə, inteqrasiya və humanitarlaşdırma prinsiplərini həyata keçirə bilən, müasir tələblərə cavab verən məktəblilərin yetişdirilməsi, intellektual zənginliyə və potensial gücə malik olan nəslin formalaşdırılmasıdır. Qabaqcıl pedaqoqlar dünya təcrübəsinə əsaslanaraq yeni pedaqoji texnologiyaların şəxsiyyətə yönəlmiş təlim, fəal idrak, inkişafetdirici təlim, qabaqlayıcı təlim, təlim-tərbiyə sisteminin çevikliyi, əməkdaşlıq, dialoji təlim prinsiplərini tədris prosesinə gətirmişlər. Pedaqoji texnologiyalardan istifadənin əsas istiqamətləri innovasiyalarla əlaqədər biliyin, müvafiq anlayışların düzgün mənilmsənilməsi, müasir təlim prinsipləri, təlim metodlarından öz yerində maksimum səmərəli istifadə olunması ilə bağlıdır.

***С.П.Ибрагимова, П.Г.Ибадова***

# ТРАДИЦИОННЫЕ И ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ НОВЫХ И ИНТЕРАКТИВНЫХ ТЕХНОЛОГИЙ ОБУЧЕНИЯ И ИХ СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ

***Ключевые слова:*** *технология, информация, обучение, образование, педагог, инновация, новое поколение*

Основная цель применения новых педагогических технологий – воспитать студентов, которые могут реализовать принципы демократизации, гуманизации, индивидуализации, интеграции и гуманизации, соответствовать современным требованиям и сформировать поколение с интеллектуальным богатством и потенциалом. Основываясь на мировом опыте, ведущие педагоги привнесли в учебный процесс принципы новых педагогических технологий: личностно-ориентированное обучение, активное познание, развивающее обучение, превентивное обучение, гибкость системы образования, сотрудничество, диалогическое обучение. Основные направления использования педагогических технологий связаны с правильным усвоением знаний, связанных с инновациями, актуальными концепциями, современными принципами обучения, максимально эффективным использованием вместо них методов обучения.

***S.P.Ibrahimova, P.H.Ibadova***

**TRADITIONAL AND CHARACTERISTIC FEATURES OF NEW AND INTERACTIVE LEARNING TECHNOLOGIES AND THEIR COMPARATIVE ANALYSIS**

***Keywords:*** *technology, information, training, education, educator, innovation, new generation*

The main purpose of the application of new pedagogical technologies is to bring up students who can implement the principles of democratization, humanization, individualization, integration and humanization, meet modern requirements, and form a generation with intellectual wealth and potential. Based on world experience, leading pedagogues have brought to the teaching process the principles of new pedagogical technologies: personality-oriented learning, active cognition, developmental training, preventive training, flexibility of the education system, cooperation, dialogical learning. The main directions of the use of pedagogical technologies are related to the correct mastering of knowledge, relevant concepts related to innovations, modern teaching principles, maximum effective use of teaching methods in their place.

İnformasiya-kommunikasiya texnologiyalarından istifadə tətbiq olunarkən onun əvəzolunmaz yeni imkanları özünü faydalı şəkildə göstərməkdədir. Bunlar tədris zamanı müəllim və şagird arasındakı interaktivlik, zamandan səmərəli istifadə edilərək vaxta qənaət, təhsil alanların daha optimal və obyektiv şəkildə qiymətləndirilməsinin nəticəsidir. Müasir dünyada informasiya-kommunikasiya texnologiyalarının (İKT) tədrisə tətbiqi təhsilin ayrılmaz hissəsinə çevrilib. Artıq təhsil müəssisələrini informasiya-kommunikasiya texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil. Tədrisdə komputerdən istifadə hər şeylə maraqlanan, çox və daha dərin məlumat almağa çalışan şagird üçün informasiya mühitinin yaranmasına kömək edir. Komputer müəllim və şagird arasında elektron vasitəçi rolunu oynayır, tədris prosesini daha maraqlı, rəngarəng, əyani edir, onu intensivləşdirir. Məlumdur ki, İKT-dən istifadə etməklə müasir və interaktiv təhsil modelinin həyata keçirilməsi məktəbin və müəllim heyətinin qarşısına yeni tələblər qoyur. Pedaqoji heyətin İKT savadlılığını artırmadan, təlim-tədris prosesinə innovativ yanaşmanı formalaşdırmadan İKT-nin təhsil sisteminə səmərəli tətbiqinə nail olmaq qeyri-mümkündür. Bütün müasir dövrün tələblərindən irəli gələn dəyişikliklərin məktəblərdə uğurla və səmərəli tətbiq edilməsi avtomatik olaraq müəllimin də tədris prosesinə fərqli yanaşmasını zəruri edir. Bu səbəbdən də müəllimlərin İKT bacarıqlarına yiyələnməsi, tədris prosesində İKT bacarıqlarından pedaqoji alət kimi istifadə etməsi artıq zəruri prosesdir [5, s.2-3].

Müasir müəllim:

1. şagirdə öyrənmə yollarını öyrətməli, onlarda sərbəst olaraq lazım olan informasiyanı düzgün mənbələrdən və vaxt itkisinə yol vermədən axtarmaq, tapılmış informasiyanı sistemləşdirmək və özü üçün daha yararlı informasiyaları seçmək, seçilmiş informasiyaları analiz etmək və əldə edilmiş informasiyanı özününküləşdirərək məsələyə şəxsi münasibətini bildirmək bacarığı formalaşdırmalıdır;

2. şagirdə özünəinam hissini aşılamalı və auditoriya qarşısında öz fikirlərini sərbəst təqdimetmə bacarığı formalaşdırmalıdır;

3. istənilən fənnin tədrisində yuxarıda sadalananların həyata keçirilməsi üçün şagirdləri daim yeni informasiya texnologiyalarından istifadəyə yönəltməlidir.

İnformasiya və kommunikasiya texnologiyalarının köməyi ilə şagird informasiyanı sərbəst əldə etməyə çalışır, onun düşüncəsi və psixoloji bacarığı inkişaf edir. Ən əsası, şagird tədris prosesinin aktiv iştirakçısına çevrilir. Bununla yanaşı olaraq kompüter texnologiyalarından istifadə müəllimi şagirdlər üçün yeganə həqiqət söyləyən informasiya mənbəyi olmaqdan azad edir, o, şagird üçün artıq əməkdaşa çevrilir. İKT-nin tədris zamanı tətbiqi müəllim üçün də bir çox imkanlar yaratmışdır. Belə ki, o, dərsdə vaxta qənaət edir, informasiyanı dəqiq çatdırır, müxtəlif texniki təlim vasitələrindən eyni zamanda istifadə edir, daha böyük həcmdə informasiyanı çatdırır, müxtəlif prosesləri, xüsusilə məktəb laboratoriyalarında həyata keçirilməsi mümkün olmayan prosesləri modelləşdirir.

Bundan başqa informasiyanı istənilən kimi – qrafik, cədvəl, şəkil təqdim edir, müəllimə həmkarları tərəfindən hazırlanmış metodiki üsullardan istifadə etməyə və onların tətbiqinə kömək edir, dərsə uyğun olaraq hazır işdən istifadə edir.

Məhz bu göstəricilərə görə informasiya-kommunikasiya texnologiyaları ilə tədris ənənəvi tədris üsulundan daha üstündür. Hazırda müəllimlər İKT-nin tədrisdə tətbiqinin müsbət nəticələr verdiyini vurğulayırlar.

Belə ki, yeni texnologiyaların tədrisdə tətbiqi dərsi canlandırdığı üçün sinifdə hətta ən zəif oxuyan şagird belə prosesdən kənarda qalmır. Dərsin informasiya texnologiyalarının tətbiqi sayəsində daha maraqlı aparılması istənilən şagirdin diqqətini tədrisə yönəldir. Məsələn, yeni elektron, interaktiv “MİMİO” qurğuları təlim-tədris prosesini yalnız şagirdlər deyil, həm də müəllimlər üçün bir növ əyləncəyə çevirir. Ona görə də yeniliklər həm təlim, həm də tərbiyə prosesinin kamilləşməsinə kömək edir. Ümumiyyətlə, artıq komputerlər tədricən təhsildə yalnız informatika kursunun tədris aləti olmaqdan çıxaraq bütövlükdə təlim-tədris kompleksinin güclü inkişaf vasitəsinə çevrilmişdir. İnformasiya texnologiyalarının təhsildə sistemli tətbiqi zamanı əldə edilən nəticələr göstərir ki, informasiya texnologiyaları təhsildə mühiti tam

dəyişdirir, dərs prosesinin yeni mərhələyə qalxmasına imkan yaradır. İnformasiya-kommunikasiya texnologiyalarının geniş və hərtərəfli tətbiqi nəticəsində insan fəaliyyəti, bütövlükdə cəmiyyət dəyişikliklərə məruz qalır, tamamilə yeni reallıqlar, dəyərlər, sosial-psixoloji mühit formalaşır. Ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəblərinin İKT ilə təminatı Proqramı" bu istiqamətdə atılmış ən əhəmiyyətli addım olmuşdur. Müasir dərsin bütün mərhələləri şagirdin maraq dairəsinə, yaş səviyyəsinə uyğun qurulmalıdır. Müasir dərsi İKT-siz təsəvvür etmək çətindir. Müasir dərs dedikdə, ilk növbədə, göz önündə İKT bacarıqları olan müəllim və komputer, proyektorla təchiz olunmuş, müasir tələblərə cavab verən sinif otağı canlanır. İnformasiya və kommunikasiya vasitələrinin köməyi ilə şagirdlərdə həm intellektual və yaradıcılıq bacarıqları, həm də müxtəlif informasiya növləri ilə işləmək bacarıqları inkişaf edir. Müasir şəraitdə müəllimdən şagirdlərin şəxsi keyfiyyətlərinə arxalanan üsullardan istifadə edilməsi tələb olunur. Müasir müəllim tədris zamanı müasir tələblərə cavab verən dərs hazırlamaq üçün İKT-ni effektli tətbiq etməlidir. Həmçinin dərsin gedişi zamanı internet resurslarından istifadəyə üstünlük verərək şagirdləri internetdən düzgün istifadə etməklə kreativ biliklərə yiyələnməyə sövq etməlidir. Elektron əyani metodik vəsaitlər fənn müəlliminin resursudur, ona dərsə hazırlıq zamanı metodik kömək göstərir. Elektron dərsin üstünlüklərindən biri də odur ki, dərsin bütün mərhələləri slaydlarda öz əksini tapir. Bu da dərsin operativliyini və marağını artırır. Dərs zamanı İKT-nin son yeniliklərindən biri olan "ağıllı" lövhədən istifadə edilməsi isə şagirdlərin dərs prosesinə diqqət və marağını artırır, onları axtarışa sövq edir. Ənənəvi metodikada müəllim müəyyən bilikləri verməyə və onları tələb etməyə vərdiş idi, lakin interaktiv tədrisin istifadəsində fərqli olaraq şagird özü əsas rol oynayır və biliklərin mənimsənilməsinə özü yol açır. Bu da onların tədris motivasiyasına təsir edir. Müəllim bu situasiyada aktiv köməkçi kimi çıxış edir və onun başlıca funksiyası tədris prosesinin təşkili və stimullaşdırılmasıdır. Təhsilin informatlaşması, yeni pedaqoji texnologiyalardan istifadə ənənəvi təhsili yeni çalarlarla zənginləşdirir [1, s.1-2].

Təlim texnologiyaları 3 formada olur.

- Ənənəvi təlim
- Fəal təlim
- İnteraktiv təlim




Ənənəvi təlim metodunda müəllim əsas sima olub yalnız şagirdlərə diktə edir, öyrədir. Buna ənənəvi təlim prosesi deyilir ki, uzun illər belə təlim prosesi mövcud olmuş və bu gün də yeniliyə can ataraq yaşamaqdadır. Ənənəvi təlim prosesində müəllim fəaldır, şagirdlər isə passiv dinləyicidirlər. Müəllim deyir, şagirdlər eşidir.

Fəal təlim metodu isə elə təlim metodudur ki, dərs prosesində müəllimlə şagird arasında qarşılıqlı əlaqə, münasibət, ünsiyyət, müəllim-şagird əməkdaşlığı vardır. Şagirdlər passiv dinləyici deyillər. Onlar dərsin fəal iştirakçılarıdır, müəllimin yaxın köməkçisidirlər. Əgər passiv təlim metodunda müəllim əsas fiqur, əsas sima idisə, indi müəllim və şagird birlikdə dərsin əsas qurucusu, təşkilatçılarıdır.

İnteraktiv təlim zamanı isə müəllimin başlıca vəzifəsi şagirdlərə yardımçı olmaqdan, təlim prosesində şagirdlərin fəaliyyətini əlaqələndirib onlara yaradıcı axtarışa həvəs yaratmaqdan, axtarıb araşdırmağı, nəyi harada öyrənməyi öyrətməkdən ibarətdir.

İnteraktiv təlim prosesində şagirdin mövqeyi – “kəşf edən”, “tədqiqatçı”, araşdırıcı” mövqeyidir; o, gücü çatdığı məsələlər və problemlərlə üzləşərkən bunları müstəqil tədqiqat prosesində həll edir. Şagirdlər təlim prosesində passiv dinləyici deyil, fəal düşünən, danışan, fikir söyləyən, münasibət bildirən, bir subyekt, təlim prosesinin tamhüquqlu iştirakçısı, tədqiqatçısı kimi çıxış edir və bilikləri fəal axtarış və kəşflər prosesində mənimsəyirlər.

Təlim texnologiyası dedikdə, pedaqoji prosesdə təlimin ən yeni və ən səmərəli metodlarından, priyom, tərz və vasitələrindən istifadə etməklə yüksək elmi-intellektual səviyyəyə və nümunəvi mənəvi-əxlaqi normalara malik olan şəxsiyyətin yetişdirilməsi nəzərdə tutulur.

İnteraktiv təlim metodları həmçinin sinif otağının həmişəki tərtibatından, məşğələlərin təşkilinin adət etdiyimiz qaydasından imtina

olunmasını tələb edir.

Şagird masalarının sinif otağında yerləşdirilməsinin dörd əsas forması vardır:

1. “Sinif” forması – ənənəvi qayda
2. “Kafe” forması (“diskussiya klubu”)
3. “Ü” hərfi formasında sinif
4. “Dairə” formasında sinif

“Kafe” forması qruplarda iş üçün əlverişlidir. “U” hərfi forması rollu oyunlar zamanı, tanışlıq vaxtı, diskussiyaların gedişində daha səmərəlidir. “Dairə” forması müxtəlif diskussiyaların, dairəvi masaların keçirilməsi üçün daha rahatdır.




Yeni təlim texnologiyaları ilə keçirilən dərslərin üstün cəhətlərindən biri şagirdləri sosial cəhətdən inkişaf etdirməkdir. Belə dərslərdə təşkil edilən kooperativlər (qruplar) şagirdlərin sosial formalaşmasında mühüm rol oynayırlar. Qrupu təşkil edən şagirdlər arasında yaranan münasibət, ünsiyyət qrupdaxili davranış qaydaları ilə tənzimlənir. Belə qaydalar şagirdlərin əxlaqi-mənəvi cəhətdən formalaşmalarında gərəkli rol oynayır. Qrup davranış qaydaları aşağıdakı kimidir:

- Qrupu təşkil edən üzvlərin vəzifələrini düzgün müəyyənləşdirmək;
- Qrup liderini seçmək;
- Qrupun hər bir üzvünün fikirlərinə hörmətlə yanaşmaq və dinləmək;
- Hər kəsin öz şəxsi fikrini söyləməsi üçün imkan yaratmaq;
- Problemin həlli üçün birgə yollar axtarmaq;
- Qrup işində fəallıq göstərmək;
- Artıq hərəkətlərə yol vermədən müəllimin verdiyi mövzu ətrafında müzakirələrdə iştirak etmək;
- Söylənilən fərdi fikrin elmiliyinə diqqət yetirmək;
- Digər şagirdlərlə ünsiyyətdə yüksək mədəniyyət göstərmək [4, s.18].

Beləliklə, tədris-informativ qarşılıqlı əlaqənin strukturu tədricən dəyişir, informasiya təhsil mühiti formalaşdıqca öyrədən, öyrənən və İKT vasitələri arasında yeni səviyyəli informasiya mübadiləsi imkanları yaranır.

Vurğulamaq yerinə düşər ki, təhsil proqramlarının, konseptual modellərin, layihələrin uğuru onu tətbiq edən müəllimin, tərbiyəçinin pedaqoji qabiliyyətləri ilə şərtlənir. Müəllimlərdə pedaqoji qabiliyyətlərin formalaşması bu gün aktual məsələ kimi meydana çıxır. Ənənəvi didaktik sistemdə müəllimin didaktik və təşkilatçılıq qabiliyyətlərinə daha çox diqqət yetirilib. Müasir təhsil konsepsiyası didaktik və təşkilatçılıq qabiliyyətlərinin əhəmiyyətini qətiyyən azaltmadan bu gün təhsilin humanistləşdirilməsi şəraitində kommunikativ və perseptiv, ekspressiv və konstruktiv qabiliyyətlərin əhəmiyyətini xüsusi vurğu ilə dəyərləndirir. Müəllimlərin pedaqoji ustalığının artırılmasının başlıca yolu məktəb şəraitində pedaqoji qabiliyyətlərin psixoloji ölçülərlə inkişaf etdirilməsindən ibarətdir. Bundan başqa pedaqoji universitet və institutlarda tələbələrdə, gələcək müəllimlərdə bu qabiliyyətlər xüsusi metodika ilə inkişaf və tərbiyə olunmalıdır. Təkmilləşdirmə kurslarında müəllimlərlə elmi-metodik iş məhz pedaqoji qabiliyyətlərin inkişaf etdirilməsi yönümündə aparılmalıdır. Sosial-psixoloji treninq üsullarından sistemli istifadə olunmalıdır. Müəllimlərə autotreninqin sirlərini öyrətmək lazımdır. Müəllimlərin pedaqoji ustalığının artırılmasına respublikanın görkəmli rejissorlarının və aktyorlarının yaxından köməyi ilə müasir teatr pedaqogikasının uğurlarından da faydalanmanın vaxtı artıq çatmışdır.

**ƏDƏBİYYAT**

1. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası / “Azərbaycan müəllimi” qəz., Bakı, 2013, 25 yanvar
2. *Ağayev Ə.A.* Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2016, 551 s.
3. *Mehrabov A.* Təhsildə texnoloji yanaşmaların mahiyyəti və əsas xüsusiyyətləri / “Azərbaycan müəllimi” qəz., Bakı, 2006
4. *Xəlilov V.* İbtidai siniflərdə inkişafetdirici texnologiyalardan istifadənin başlıca prinsipləri. Bakı: Mütərcim, 2007, 103 s.
5. Təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi // Elektron Təhsil, 2013, №1

Redaksiyaya daxil olub 29.11.2020

*UOT 37*

***S.M.Quliyeva***
*Bakı Slavyan Universiteti*
*sabinaquluyeva78@gmail.com*

# VALİDEYNLƏRDƏ PEDAQOJİ SƏRİŞTƏLİLİYİN FORMALAŞDIRILMASINDA MÜƏLLİMİN ROLU

***Açar sözlər:*** *pedaqoji səriştə, məktəblə əməkdaşlıq, səriştəli valideynlər, təhsil*

Məktəbli şəxsiyyətinin formalaşdırılmasına müxtəlif amillər təsir göstərir: ailə, məktəb, ictimaiyyət. Son illərə kimi şagirdlərin tərbiyəsində əsas yeri məktəb və müəllim tuturdu. Amma indi elə deyil. Məktəb tərbiyə müəssisəsi kimi öz dominantlığını itirməyə başlayib. Müasir dövrdə valideynlərin dəstəyi olmadan uşaqların tərbiyəsində uğur qazanmaq çətinləşib. Elə bu səbəbdən də valideyn-müəllim əməkdaşlığının yeni-yeni formaları yaranıb. Valideynlər pedaqoji prosesin əsas iştirakçılarından birinə çevrilib. Ona görə də onlar zəruri səriştələrə malik olmalıdır. Məqalədə valideynlərdə pedaqoji səriştənin formalaşması yollarından bəhs edilir.

***С.М.Кулиева***

# РОЛЬ УЧИТЕЛЯ В ФОРМИРОВАНИИ ПЕДАГОГИЧЕСКОЙ КОМПЕТЕНТНОСТИ РОДИТЕЛЕЙ

***Ключевые слова:*** *педагогическая компетентность, сотрудничество со школой, компетентные родители, образование*

На формирование личности школьника влияют разные факторы: семья, школа, общество. До недавнего времени школы и учителя играли ключевую роль в обучении школьников. В данное время все не так. Школа стала терять свою доминантность как учебное заведение. В наше время трудно добиться успеха в воспитании детей без попечения родителей. По этой причине появились новые формы сотрудничества родителей и учителей. Родители стали одним из главных участников педагогического процесса. Следовательно, они должны обладать необходимыми навыками. В статье рассматриваются способы развития педагогических навыков у родителей.

***S.M.Gulieva***

# THE ROLE OF THE TEACHER IN THE FORMATION OF PEDAGOGICAL COMPETENCE OF PARENTS

***Keywords:*** *pedagogical competence, cooperation with the school, competent parents, education*

Different factors affect the formation of a student's personality: family, school,

community. Until recently, schools and teachers played a key role in the training of students. But not anymore. The school began to lose dominance as a educational institution. In our time it is difficult to achieve success in raising children without parental care. For this reason, new forms of cooperation between parents and teachers appeared. Parents became one of the main participants in the pedagogical process. Therefore, they should have the necessary skills. The article considers the ways to develop pedagogical skills in parents.

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində məktəbin cəmiyyətin tələbatlarına cavab verə bilməməsi ilə bağlı fikirlər meydana gəldi. Mədəni təfəkkürün formalaşmasına xidmət edən təhsil nəzəriyyələri pedaqoji prosesin çox ciddi idarə edilməsini, təlim prosesində müəllimin üstün mövqeyə malik olmasını nəzərdə tutduğuna görə təlim prosesində şagirdlərin müstəqilliyinə ciddi fikir verilmirdi. Bu da təbii ki, nəticədə intellektualizmə gətirib çıxarırdı. Digər tərəfdən, şagirdlərin inkişafı cəmiyyətin sosial tələbindən geri qalırdı. Məktəb təhsilinin məzmununun ağır olması uşaqların psixikasında gərginlik yaratmaqla yanaşı, şagird şəxsiyyətinin inkişafını ləngidirdi. Nəticədə, şagird öz maraq və qabiliyyətlərini, daxili potensialını realizə edə bilmirdi.

Ümummilli lider H.Əliyevin 1999-cu il 15 iyun tarixli 168 nömrəli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" [2] ilə təhsil quruculuğunda radikal addımlar atıldı, milli və bəşəri dəyərlərə, demokratik və humanist prinsipinə əsaslanan təhsil sistemi formalaşdırıldı. Ümumtəhsillə bağlı qəbul edilən qərarlar məktəb təhsilində innovativ yanaşmalara səbəb olmaqla yanaşı, valideyn-müəllim əməkdaşlığının yeni istiqamətlərini müəyyənləşdirdi. Məktəbli şəxsiyyətinin formalaşdırılmasında ailə mühitinin və valideynlərin təsirinin daha güclü amil olması fikri irəli sürüldü. Məktəb tərbiyə müəssisəsi kimi öz dominantlığını itirməyə başladı. Elə bu səbəbdən də valideyn-müəllim əməkdaşlığının yeni-yeni formaları yarandı. Valideynlər pedaqoji prosesin əsas iştirakçılarından birinə çevrildi.

Valideyn-müəllim arasında qarşılıqlı əlaqə prosesində valideynlərdə pedaqoji səriştənin inkişafı ümumpedaqoji problemdir. Çünki bu qarşılıqlı əməkdaşlıqda tətbiq edilən yeni texnologiyalar valideynlərdə uşağın təhsili, tərbiyəsi və inkişafı ilə bağlı zəruri səriştələr formalaşdırır.

Pedaqoji tədqiqatlarda innovativ proseslərin idarə olunması ideyasına uyğun olaraq valideynlərin pedaqoji səriştəliliyinin inkişaf etdirilməsinin texnoloji prinsipləri aşağıdakı kimi formalaşdırılmışdır:

- "məqsədyönlülük (ümumi strateji istiqamətə və məqsədə uyğunluq);
- elmilik (pedaqoji elmin və təcrübənin nailiyyətlərinə əsaslanmaq);
- normativlik (normativ sənədlərin nəzərə alınması);
- duallıq (bir obyektin inkişafını qurmaq);

- fərqləndirmə" [8, s.34].

Kiçik məktəbyaşlı uşaqların valideynləri ilə, yuxarı sinif şagirdlərinin valideynləri ilə aparılan söhbətin mövzusu, istifadə edilən metodlar və yanaşma tərzi tamamilə fərqli olmalıdır.

İstənilən pedaqoji texnologiyanın uğuru onun həyata keçirilməsi üçün şərait yaradılması ilə bağlıdır. Valideynlərdə pedaqoji səriştənin inkişafının əsas şərti məktəblə ailənin qarşılıqlı əlaqəsidir. Psixoloqlar insanlar arasındakı münasibətlərin aşağıdakı formalarını fərqləndirirlər: "əməkdaşlıq, paritet (bərabər), rəqabət, ədavət" [7, s.20].

Valideynlərdə pedaqoji səriştəliliyi birdən-birə və qısa bir vaxtda yaratmaq mümkün deyil. Bu proses uşağın məktəbə getdiyi gündən 11-ci sinfi bitirənə qədər davam etməlidir. Valideynlər ilk dəfə uşaqlarına dərs deyən ibtidai sinif müəllimləri ilə qarşılaşır, 4 il onlarla ünsiyyətdə olur, uşaqları sinifdən-sinfə keçdikcə ixtisas müəllimləri və sinif rəhbərləri ilə təmasda olurlar. Akademik Ş.Amonaşvilinin fikrincə, ünsiyyət elə qurulmalıdır ki, "uşaq birgə dərkin sevincini, birgə əməyin sevincini, birgə oyunun sevincini, birgə istirahətin sevincini yaşasın" [6, s.124].

Fərqli xarakterə malik müəllimlər ailə-məktəb əməkdaşlığında müxtəlif yanaşmalar tətbiq edə bilərlər. Bu, təbiidir, amma əsas məsələ valideynlərdə pedaqoji səriştəliliyin inkişafının forma və metodlarının diqqət mərkəzində saxlanılması, məktəb yaş dövrlərinə uyğun olaraq valideynlərə uşaqlarının fizioloji, psixoloji xüsusiyyətləri və öyrənmə imkanları ilə bağlı ətraflı məlumatın verilməsidir.

Körpəlik və məktəbəqədər yaş dövründən sonra kiçik məktəbyaş dövrü uşaqların həyatında mühüm rol oynayır. Hər iki mərhələdə uşaqların böyüməsi, onların təhlükəsizlik, yaradıcılıq və özünüreallaşdırma tələbatının həyata keçirilməsi valideynlərin məsuliyyəti ilə bağlı olur. Uşağın məktəbə getməsi ilə onun həyatında ciddi dəyişikliklər baş verir, onların fəaliyyət istiqamətləri dəyişir. Təlim fəaliyyəti aparıcı olduğundan oyun fəaliyyəti ikinci plana keçir. Hətta bəzi valideynlər uşaqlarının intellektual inkişafına elə aludə olurlar ki, uşaqların oyun fəaliyyəti unudulur, müxtəlif qadağalar tətbiq edilir. Valideynlər uşağın tədris fəaliyyətinə nəzarət etməklə yanaşı, uşaqlarının asudə vaxtını düzgün təşkil etməlidir. Valideynlər uşaqlarına müəllimləri, sinif yoldaşları ilə ünsiyyət yaratmağı öyrətməli, onlarda məsuliyyət (nizam-intizam qaydalarına əməl etmək, dərsdə yoldaşlarına mane olmamaq, səylə çalışmaq, müəllimdən icazə istəmək və s.) və özlərinə qarşı tələbkarlıq hissi formalaşdırmalıdır. Valideynlər uşaqlarının təlim fəaliyyəti ilə bilavasitə bağlı olan anatomik və fiziolologi (uşaqlarda çəkinin artması, əzələlərinin möhkəmlənməsi, güclərinin artması, qan-damar və ürək sisteminin sürətlə inkişafı və s.), psixoloji (idrak proseslərinin inkişaf etməsi, xüsusilə hərəkət qavrayışın sürətlə inkişafı) amilləri bilməli, tərbiyə prosesində nəzərə almalıdır. Azərbaycan psixoloqları M.Məhərrəmov, Ə.Əlizadə,

M.Həmzəyev və R.Əliyevin tədqiqatlarına görə, uşağın maddi-bioloji, emosional ehtiyaclarının təmin edilməsində ailə, sosial və idraki ehtiyaclarının ödənilməsində sosial mühit və ilk növbədə məktəb dominantlıq təşkil edir.

Kiçik məktəb yaş dövründə sinir sistemi daha çox plastik olur, davranışa nəzarət artır, emosionallıq, həssaslıq, qeyri-iradilik, mühakimə prosesinin ləngiməsi, təqlidçiliyə meyil müşahidə edilir, uşağın davranış motivi və sosial statusu (məktəbli olması) dəyişir, öz fəaliyyətini yenidən təşkil edir (oyun fəaliyyətindən təlimə keçir), psixoloji uyğunlaşmada (gün rejiminə alışmaq, sinif yoldaşları və müəllimləri ilə ünsiyyət, təlim tapşırıqlarının icrasında çətinlik çəkməsi və s.) çətinlik çəkir.

Valideynlərin təhsil sahəsində pedaqoji fəaliyyətinin istiqamətləri özünüdərkin və intellektual qabiliyyətin inkişafı, sosial əlaqələrin inkişafı, kompüter bacarığının və kiçik məktəbyaşlı övladları ilə bağlı ilkin qənaətin formalaşmasıdır. Burada əsas məsələ valideyn sevgisinə, özünün təkrarolunmazlığına inam və böyüklərə ehtiram hissinin formalaşması ilə bağlıdır. Bunun üçün vacib şərt şəxsi yanaşmada fərdin psixoloji xüsusiyyətlərinin nəzərə alınmasıdır [1, s.12].

Ümumiyyətlə, uşaqlarda özünün təkrarolunmazlığına inamın yaradılması, müsbət keyfiyyətlərə istinad edilməsi, ehtiyaclarının ödənilməsinin diqqət mərkəzində saxlanılması, yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla əməkdaşlığın həyata keçirilməsi şəxsiyyətin struktur elementi kimi tədqiqatlarda mühüm yer tutur. Bu dövrdə ailədəki tərbiyəvi fəaliyyətin əsas istiqaməti uşaqlarda əxlaq normaları, ailə üzvlərinin və ünsiyyətdə olduğu insanların davranışları ilə bağlı təsəvvürlərin formalaşdırılmasından, onlara "şərəf" və "ləyaqət" anlayışlarının mahiyyəti haqqında məlumatların verilməsidir. Uşaqlarda ədalətli dəyərləndirmə keyfiyyətinin yaranması valideynlərdə söz və əməlin birliyi, ailədə sağlam ictimai rəyin inkişafı, əxlaqi dəyərlərə üstünlüyün verilməsi ilə bağlıdır. Əks halda uşağın həqiqətə və ədalətə inamı şübhə altına düşə bilər. Kiçik məktəbyaşlı uşaqlarda davranış normalarının aşılanması onlarda ekoloji mədəniyyətin inkişafına kömək edir. Uşaqların ev heyvanlarına, quşlara, ağaclara qulluq etmələri, fauna və floraya dair hekayələr oxuması, şeirlər əzbərləməsi onlarda bir tərəfdən əməksevərlik keyfiyyəti formalaşdırırsa, digər tərəfdən onlarda ekoloji yaradıcılığı inkişaf etdirir.

Valideynlərin təlimlə bağlı səriştələrinə uşaqların həftəlik fəaliyyətini planlaşdırması, uşaq tərəfindən yerinə yetirilmiş tapşırıqları dəyərləndirilməsi və nəticələrin ümumiləşdirməsi daxildir.

Ailə ilə əməkdaşlıq prosesində ibtidai sinif müəllimləri pedaqoji rəhbərliyin aşağıdakı formalarından istifadəyə üstünlük verirlər.

- müəyyən proqram əsasında müntəzəm pedaqoji söhbətlərin keçirilməsi;
- tərbiyə və təlimin ayrı-ayrı məsələləri üzrə məsləhət;
- valideynlərə fərdi məsləhət;

- valideynlərin pedaqoji özünütəhsilə cəlb olunmasına kömək;
- ailə tərbiyəsi üzrə təcrübə mübadiləsinə həsr olunmuş valideyn konfransları;
- tərbiyə və özünütərbiyə problemləri üzrə pedaqoji disputların, sual-cavab gecələrinin keçirilməsi;
- məktəbdə açıq valideyn günləri (bu zaman valideynlər istənilən dərsi və ya istənilən dərsdənkənar məşğələni müşahidə edə bilərlər).

Valideyn-müəllim əməkdaşlığında müvəffəqiyyət qazanmaq üçün hər bir valideynə və onun övladına fərdi yanaşılmalıdır. Unutmaq olmaz ki, bəzi valideynlər məktəbin tədbirlərinə sevinclə, bəziləri isə tərəddüdlə gəlir. Müəllimin səyi nəticəsində onlar tədbirdə vahid kollektiv kimi iştirak etməlidir. Yuxarıda qeyd etdiyimiz kimi, bunun üçün müəllimlər öz şagirdlərinin ailə mühitini, valideynlərin pedaqoji səriştəliliyinin səviyyəsini yaxşı bilməlidirlər.

**1. Şagirdin ailəsinin öyrənilməsi.** Şagirdin ailəsinin öyrənilməsi müəllimə uşaqlarla daha yaxından tanış olmağa, onları adət etdikləri, sərbəst, məcburi olmayan şəraitdə görməyə, onların ailəsinin həyat tərzini anlamağa kömək etməyə (ailənin yaşam və sosial qaydaları, mənəvi, ruhi dəyərlər sistemi, onu əhatə edən insanlar, bir-birilə qarşlıqlı münasibəti, ailə ənənələri, valideynlərin pedaqoji təhsilliliyi, ailədə uşaqların həyatının və fəaliyyətinin tərbiyə məqsədlərinə və uşağın yaşına uyğun təşkil edilməsi) imkan verir.

**2. Sinif valideyn komitəsinin işi.** Tədrisin səmərəliliyini yüksəltmək məqsədilə təlim-tərbiyə işinin məqsəd və vəzifələrini bilən, valideyn komitəsinin (kollektivinin) yaradılması çox vacibdir. Valideyn komitəsinin şagird kollektivinin yaranması və inkişafında da mühüm əhəmiyyəti vardır. Valideyn komitəsinin hər bir üzvü sinif valideynləri arasında nüfuzu, təşkilatçılığı, liderliyi, tərbiyəçilik qabiliyyəti ilə seçilməli, nümunəvi ailə sahibi olmalıdır.

Adətən sinfin valideyn komitəsi tərkibinə sədr və bir neçə üzv daxil edilir ki, onların hər biri müəyyən iş sahəsinə cavabdeh olurlar. Müəyyən sahəyə cavabdeh olan valideyn sinif valideynlərindən fəalları seçərək onlarla birlikdə işi aparır. Vəzifələrinə görə işçi qruplar aşağıdakı kimi formalaşdırılır:1) uşaqların təlim nailiyyətlərini izləyən, zəif oxuyan və təlimdə geri qalan şagirdlərlə işin təşkilinə kömək edən qrup; 2) ekskursiyaların, gəzintilərin, sinifdənxaric məşğələlərin təşkilinə kömək edən qrup; 3) ailənin şagirdlərin gündəlik rejiminə riayət etməsinə nəzarət edən qrup; 4) uşaqların ailədə və məktəbdə özünəxidmət və ictimai-faydalı əməyinin təşkilinə nəzarət edən qrup.

**3. Sinif və ümumməktəb valideyn iclasları.** İbtidai sinif müəllimi – uşaqları məktəbə gedən valideynlər üçün ilk müəllimdir. Valideynlərin məktəbə münasibətinin formalaşdırılması ondan asılıdır. Məktəb təcrübəsində valideyn iclaslarının müxtəlif formalarından istifadə olunur: 1) uşaqlarda mənəvi-əxlaqi hisslərin formalaşdırılmasına həsr olunan iclaslar; 2) valideyn komitəsi tərəfindən keçirilən tövsiyə xarakterli iclaslar; 3) iclas-məsləhətlər; 4) sual-cavab əsasında

təşkil edilən iclaslar. Təcrübə göstərir ki, bu sadalananlardan ən səmərəlisi kombinə edilmiş valideyn iclaslarıdır. Kombinə edilmiş valideyn iclaslarında yuxarıda sadalanan iclasların ən vacib elementlərindən istifadə olunur. Əsas hədəfi valideynlərin pedaqoji səriştəliliyini artırmaq olan valideyn iclaslarında uşaqların müəyyən müddətdə (yarımillik, illik və s.) həyata keçirilən təlim-tərbiyə işlərinə yekun vurulur, perspektivlər müəyyənləşdirilir.

**4. Konfrans və disputlar.** Valideynlərin pedaqoji maariflənməsinə böyük diqqət yetirilməlidir. Onlar üçün məşğələlər elə qurulmalıdır ki, valideynlər sanki öz uşaqları ilə uşaqların tərbiyəsi üçün zəruri olan yeni biliklər əldə etməklə sinifdən sinfə keçir. Həmçinin müəllimlə valideynlərin birgə fəaliyyəti zamanı yaranmış konkret problemlər nəzərə alınır.

**5. Açıq qapı günləri.** İbtidai siniflərdə ayda 1dəfə açıq qapı günləri keçirmək olar. Dərslərə və sinifdənxaric məşğələlərə bütün valideynlər dəvət edilir. Onlar istənilən dərslərə gələ bilər, öz uşaqlarının necə işləməsini görə bilər və onları digər sinif şagirdləri ilə müqayisə edə bilərlər. Günün sonunda (dərsdən sonra) bütövlükdə sinfin işi, ayrı-ayrı uşaqların tərbiyəsi haqqında valideynlərlə söhbət aparmaq olar. Açıq qapı günlərinin keçirilməsi – artıq qayğı olub, çoxlu iş, hazırlıq tələb edir. Lakin bütün bunlar özünü doğruldur. Belə ki, valideynlərə hərdən elə gəlir ki, onun uşağı kitabı yaxşı oxuyur, riyaziyyatı çox da pis dərk etmir, onun aldığı qiymətlər biliklərinə uyğun verilmir. Lakin dərsdə olandan sonra müəllimin tələbləri ilə tanış olduqdan sonra öz uşağının müvəffəqiyyətini daha düzgün, obyektiv qiymətləndirə bilirlər. Kimlər ki, açıq qapı günlərində müntəzəm iştirak edir, öz uşaqlarının təlimdəki irəliləyişini görür, müəllimin gərgin əməyi ilə tanış olur, ona hörmətlə yanaşırlar. Açıq dərslərdə iştirak etməklə valideynlər başqa şagirdlərin dəftərlərinə baxa bilir, sonra fikir mübadiləsi edir, dəyərli məsləhətlər, pedaqoji təkliflər alırlar. Təcrübə göstərir ki, uşaqlar açıq dərsləri xoslayır, bu günə çox həvəslə hazırlaşırlar. Onlar öz ata və analarını gözləyir, daha yaxşı görünməyə səy edirlər. Onlar təlimdə, əməkdə öz nailiyyətlərini göstərməyə çalışırlar.

**6. Sual-cavab gecələri.** Pedaqoji maarifləndirmənin bir forması kimi sual-cavab gecələri tez-tez olmasa da, keçirilə bilər. Yaxşı olar ki, ailə tərbiyəsi üzrə silsilə söhbətlərdən sonra öz uşağının tərbiyəsi, sağlamlığı, həyatı ilə bağlı valideynləri maraqlandıran suallara cavab verilsin. Bu gecədə valideynlər onlara aydın olmayan nə varsa, ailəni narahat edən, valideynlər nədə tərəddüd edirsə, onları özləri üçün aydınlaşdırırlar. Sual-cavab gecələrinin keçirilməsinə hazırlıq əvvəlcədən aparılmalıdır. Belə gecələrə valideynlər həvəslə gəlirlər.

**7. Valideynlərlə fərdi iş.** Valideyn iclasında hər şeyi və geniş şəkildə müzakirə etmək olmaz, üz-üzə söhbət əsnasında çox şey haqqında danışmaq olar. Müəllimlə valideynlər arasında xeyirxah, inamlı münasibət qurulmalıdır. Müəllimin valideynlərlə fərdi söhbəti, məsləhətlər hər bir şagirdin ailə üzvləri ilə birbaşa əlaqə qurmağa, uşağa qarşılıqlı birgə təsirin qurulmasına çalışmaq lazımdır.

## 8. Şagirdlərin valideynləri ilə qeyri-ənənəvi iş formaları

***a) Tematik məsləhətlər.*** Hər bir sinifdə eyni problemi olan şagirdlər və valideynlər var ki, şəxsi və təlim planında uyğun çətinlikləri yaşayırlar. Bəzən bu problemlər gizli xarakterdə olur, onları yalnız elə insanlar çevrəsində həll etmək olar ki, bu problem onları birləşdirsin, bu zaman problem bir-birini anlamağa, onun birgə həllinə yönəlsin.

***b) Valideyn oxuları*** – valideynlərlə işin daha maraqlı forması olub pedaqoqun mühazirələrini təkcə passiv şəkildə dinləmək yox, bu və ya digər problem üzrə ədəbiyyatı müstəqil şəkildə öyrənmək, onun müzakirəsində iştirak etmək üçün (valideynlərə) onlara geniş imkanlar yaradır.

***c) Valideyn gecələri*** valideyn kollektivini çox gözəl şəkildə birləşdirir. Bunlar sinifdə 2-3 dəfə olmaqla tədris ili boyu sinif şagirdlərinin iştirakı olmadan keçirilir. Bu, övladının dostunun valideyni ilə ünsiyyət, uşağın körpəlik və uşaqlıq xatirələrinin bayramı olub, valideynlər qarşısında həyatın və öz uşağının qoyduğu suallara cavabların axtarılması məqamıdır.

### ƏDƏBİYYAT

1. *Abbasov A.* Ailə pedaqogikası / Dərslik. Bakı: Mütərcim, 2019, 270 s.
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, “Xalq” qəz., 15 iyun 1999
3. *Paşayev Ə., Rüstəmov F.A.* Pedaqogika. Bakı: Elm və təhsil, 2012, 476 s.
4. *Rüstəmov F.* Karl Rocers və şəxsiyyətyönümlü təhsil. Bakı: Elm və təhsil, 2019, 156 s.
5. Valideyn səriştəsinin artırılması (Layihənin rəhbəri E.Əliyev). Bakı: XXI əsr Təhsil Mərkəzi İctimai Birliyi, 2016, 110 s.
6. *Амонашвили Ш.* Основы гумманной педагогики. Здравствуйте, Дети! Кн. 6, Ч. 1, Москва: Амрита-Рус, 2013, 243 с.
7. *Ковалев С.В.* Психология современной семьи. М.: Просвещение, 1988, 324 с.
8. *Майер А.А.* Управление процессом социализации детей дошкольного и младшего школьного возраста в образовании. Автореф. дисс. ... докт. пед. наук. Москва, 2011, 40 с.

Redaksiyaya daxil olub 13.09.2020

*UOT 159.9*

***R.E.Quliyeva***
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*guliyeva.raziya@mail.ru*

# YARADICI TƏXƏYYÜLÜN DİAQNOSTİKASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİNƏ DAİR MÜASİR YANAŞMALAR

***Açar sözlər:*** *yaradıcı təxəyyül, yaradıcılıq, diaqnostika, qiymətləndirmə*

Məqalədə yaradıcı təxəyyülün diaqnostikası və qiymətləndirilməsinə dair müasir yanaşmalar araşdırılmışdır. Eyni zamanda yaradıcı təxəyyülün ənənəvi və müasir diaqnostik qiymətləndirmə vasitələri müqayisə edilərək onların üstün və mənfi cəhətlərindən bəhs olunur. Yaradıcı təxəyyülün diaqnostikası və qiymətləndirilməsinə dair ortaya çıxan nəticəyə görə, yalnız bir qiymətləndirmə metodu əvəzinə birdən çox qiymətləndirmə metodunun istifadəsi daha səmərəlidir.

***Р.Э.Кулиева***

# СОВРЕМЕННЫЕ ПОДХОДЫ К ДИАГНОСТИКЕ И ОЦЕНКЕ ТВОРЧЕСКОГО ВООБРАЖЕНИЯ

***Ключевые слова:*** *творческое воображение, творчество, диагностика, оценивание*

В статье рассматриваются современные подходы к диагностике и оценке творческого воображения. При этом сравниваются традиционные и современные диагностические способы оценки творческого воображения, обсуждаются их преимущества и недостатки. Согласно результатам диагностики и оценки творческого воображения, эффективнее использовать множество методов оценки вместо одного метода оценки.

***R.E.Guliyeva***

# MODERN APPROACHES TO THE DIAGNOSIS AND EVALUATION OF CREATIVE IMAGINATION

***Keywords:*** *creative imagination, creativity, diagnostics, evaluation*

The article considers modern approaches to diagnosis and evaluation of creative imagination. Traditional and modern diagnostic tools for the assessment of creative imagination are compared, their advantages and disadvantages are discussed as well. According to the results of diagnostics and assessment of creative imagination, it is more effective to use more than one method of assessment instead of one method of assessment.

Bir ölkənin inkişafına töhfə verən ən dəyərli resurs yaradıcı insandır. Yaradıcı insanı fərqli edən onun elm, texnologiya, sənaye və s. kimi çox sahələrdə dövrün gözləntilərindən daha yüksək bir perspektivə malik olmasıdır. Yüksək enerjiyə sahib olmaq və avtoritetə tabe olmamaq onları fərqli edən digər xüsusiyyətlərdəndir (11). Rəqabətin və dəyişikliklərin baş verdiyi bir dövrə uyğunlaşmaq, olanlara adekvat reaksiya vermək üçün insanın əsası yaradıcı təxəyyüllə təzahür edən yaradıcı potensialı aktivləşdirilməlidir. Sürətlə inkişaf edən dünyada zəngin təxəyyülə sahib istedadlı fərdlərin inkişafa yön verən və davamlı olan proqramlara ehtiyacı var. Əks təqdirdə, yaradıcılığın nümayişi və inkişafı dəstəkləməyən mühitlərdə yetişən şəxslərin potensialı məhv ola bilər. Bu kimi halların baş verməməsi üçün yaradıcı şəxsiyyətləri aşkarlamaq vacibdir. Bunun üçün doğru və sağlam yaradıcılıq diaqnostikası və qiymətləndirməsinə ehtiyac vardır. Çünki etibarlı diaqnostika və qiymətləndirmə bizə böyüməkdə olan uşaqların potensialına uyğun təhsil strukturu barədə məlumatlar verir.

Psixologiya elmində mövcud ənənəvi yanaşmalarda yaradıcı şəxsiyyətin inkişafı araşdırılarkən yaradıcı təxəyyül psixi proses kimi öyrənilib. Lakin müasir dövrdə isə təxəyyül həm də yaradıcılıq prosesi və kreativ proses kimi tədqiq edilir. Bu baxımdan yaradıcı təxəyyülün diaqnostikası və qiymətləndirilməsində yaradıcılıq, kreativlik, istedad və s. adları ilə bağlı bir çox vasitələrdən istifadə edilir.

Uşaqlarda yaradıcılıq təzahürü orijinal və təqliddən uzaqdır. Uşaq hadisələri özünəməxsus şəkildə şərh edir və yaratdığı hekayədə müxtəlif söz, səs, hərəkət və fikirlərdən istifadə edərək öz daxili aləmini əks etdirir (5). İnsanda yaradıcı təxəyyülün inkişafı digər inkişaf sahələrindən fərqlənir. Buna görə valideynlər və müəllimlər uşaqların yaş dövrünə görə yaradıcılıq xüsusiyyətlərini bilməlidirlər. Ümumiyyətlə, uşaqların yaş xüsusiyyətlərini bilən valideynlər və müəllimlər onları daha yaxşı başa düşür, ünsiyyət qurur və ona uyğun ən yaxşı təhsili verirlər. Ancaq bunu da qeyd etmək lazımdır ki, hər bir uşağın təxəyyülünün bənzərsiz olması onun inkişaf dinamikası xüsusiyyətlərinə uyğun qiymətləndirməni tələb edir.

Yaradıcı təxəyyülün diaqnostika və qiymətləndirilməsi üçün müxtəlif metodlar mövcuddur. Dennis Hocevar yaradıcılığı ölçmək üçün istifadə olunan metodları belə ümumiləşdirmişdir. Bu ümumiləşdirməyə fərqli düşünmə testləri, münasibət və maraq inventarları, şəxsiyyət inventarları, bioqrafik inventarlar, müəllim qiymətləndirməsi, dost qiymətləndirməsi, ekspert qiymətləndirməsi, məhsulların qiymətləndirilməsi, yaradıcılıq fəaliyyətləri və nailiyyətlər daxildir. Əksər tədqiqatlarda ən çox istifadə edilən metodlar üçüncü şəxsin qiymətləndirməsi və bioqrafik təhlildir. Şəxsiyyət testləri və insan psixikasının diaqnostikasında tətbiq edilən metodlar çox vaxt könüllü insanlar üzərində aparılır (4).

Yaradıcılıq testləri əsasən açıq suallardan ibarətdir. Məsələn, uşağa hər bir forma təqdim edilir və uşaqdan bu formanı hansısa obyektə bənzətməsi istənilir. Bu testlər nəticəsində uşaqda yaradıcılığın olub-olmadığı müəyyənləşdirilir (6).

Ölkəmizdə və dünyada yaradıcı təxəyyülün inkişafı ilə bağlı bir çox tədqiqatlar aparılmışdır. Yaradıcı təxəyyülün mürəkkəb psixi proses olmasına baxmayaraq onun diaqnostikasına dair ölkəmizdə çox az metodikalar vardır. İstifadə olunan metodikaların əksəriyyəti başqa ölkələrin yaratdığı metodikaların öz dilimizə uyğunlaşdırılmış formalarıdır. Nəzərə alsaq ki, dünya təcrübəsində yaradıcılıq daha əsaslı infrastuktura malikdir, bu baxımdan xarici ədəbiyyatlardan onun araşdırılması və ölkəmizdəki vəziyyətlə müqayisə edilməsi zəruridir.

4P modeli və yaradıcılığın qiymətləndirilməsi

Yaradıcı təxəyyülü və ya yaradıcılığı qiymətləndirmək üçün ən məşhur metodlardan biri 4P modelidir. 4P modeli beynəlxalq ədəbiyyatda baş hərfləri "P" olan 4 meyarın mövcudluğu ilə tanınır. "P"lərin abreviaturası bunlardır: şəxs (person), proses (processs), məhsul (product) və ətraf mühit (press/ environment).

Yaradıcı şəxs (Person)

Şəxsin yaradıcılıq potensialının qiymətləndirilməsi 4 formada aparılır: fərdi alətlər, bioqrafik inventar, davranış ölçümü və gizli nəzəriyyə (gizli intellekt nəzəriyyəsi) (14). Bu qiymətləndirmələrdə yaradıcı şəxsiyyətin xüsusiyyətləri müəyyən edilir. Məsələn, yaradıcılıq şüuru, özünəməxsusluq, müstəqillik, risketmə meyli, şəxsi enerji, maraqlar, yumor, yenilik istəyi, açıq fikirlilik, yüksək intuisiya və s. kimi xüsusiyyətlər (18). Gələcək yaradıcılığın proqnozlaşdırılması – gizli nəzəriyyələrdən istifadə edərək, valideynlərin və müəllimlərin xüsusiyyət və vəziyyətlərinin nəzərə alınaraq yaradıcılığın qiymətləndirilməsini tələb edir (14).

Yaradıcı proses (Proses)

Yaradıcı prosesin qiymətləndirilməsində Gilford'un "SOI Battery" (İntellekt strukturu batareyası) testi divergent təfəkkürü ölçən bir test olaraq əhəmiyyət kəsb edir. Bu testdə əsas divergent təfəkkür və intellektuallıq ölçülür. “SOI Battery” üzərində qurulan Torrensin yaradıcı təfəkkür testi divergent təfəkkürü və yaradıcılıq prosesi ilə yanaşı, başqa komponentləri də ölçür. Nümunə olaraq qeyd edə bilərik ki, problem həll etmə prosesinin təhlilində müəyyən olan ən vacib komponentlərdən biri onun faydalılığıdır (14).

Yaradıcı təzyiq/ətraf mühit (press)

Yaradıcı şəxsə həmişə ailə, ev və iş mühiti təsir göstərir. Mühit kimi motivasiya da yaradıcılığa təsir edən amillərdəndir (8). T.M.Amabil və digərləri fərqli mühitlərdə daxili və xarici motivasiyanın yaradıcılığa təsirini araşdırmışlar. Tədqiqatın nəticəsində xarici motivasiya və yaradıcılıq arasında

mənfi korrelyasiyanın olduğu, daxili motivasiyanın isə yaradıcı potensiala sahib insanların aşkarlanmasında köməkçi vasitə olduğu qeyd olunur. Eyni zamanda dəstəkləyici bir mühitin yaradıcı şəxsiyyət xüsusiyyətlərini üzə çıxardığı müşahidə edilmişdir. Mürəkkəb tapşırıqları yerinə yetirmək üçün çalışan yaradıcı fərdlərin güclü daxili motivasiyası olur. Bu da daxili motivasiyanın yaradıcılığa müsbət təsirindən irəli gəlir.

Yaradıcı məhsul (Product)

Yaradıcı məhsullarla bağlı araşdırmalara nəzər yetirsək, yaradıcılığın qiymətləndirilməsində konkret bir məhsula (şeir yazmaq, şəkil çəkmək, problemlərə həll yolu tapmaq) istinad edilir. Ümumiyyətlə, məhsulların standart testlərlə ölçülməsi ən zəif qiymətləndirmə formasıdır (17). Bu testlərin Runkonun araşdırma nəticəsindən sonra da istifadəsi dəstəklənməkdədir. Məsələn, Vantassel-Baska və Makfarlen 2009-cu ildə apardıqları araşdırmalarda yaradıcılığın qiymətləndirilməsində əsas problemin standart testlərdə deyil, onun düzgün istifadə edilməməsində olduğunu bildirdilər.

Bəzi hallar yaradıcı məhsulun qiymətləndirməsində problemlər yaradır. Bu problemlərdən birincisi, yaradıcı məhsulun subyektiv və ya obyektiv qiymətləndirilməsidir. Əgər yaradıcı məhsul ekspert rəyi ilə qiymətləndirilirsə, mütəxəssislər arasında fikir ayrılığı problemi yaranmaya bilər. Lakin yaradıcı məhsul, düşünmə prosesi və ya bacarıqlarla bağlı əsaslı arqumentlər varsa, bəzi problemlər ortaya çıxa bilər. Subyektivliyin ön planda olduğu bu cür qiymətləndirmələrdə mütəxəssislər qeyri-dəqiq meyarlar seçə və ya qərəzli münasibət bəsləyə bilərlər. Yaradıcı məhsul qiymətləndirməsindəki başqa bir problem ümumi sahə (domain general) ilə spesifik sahə (domain specifity) arasındakı meyar problemidir. Məhsul yönümlü və proses yönümlü yaradıcılıq qiymətləndirmələrində xüsusi sahədə (şeir yazmaq, riyaziyyat sübutu istehsal etmək kimi) və ya ümumi sahədə qiymətləndirmə fərqi müşahidə etmək çətin ola bilər. Xüsusilə davranışa, vərdişlərə və yaradıcılığa səbəb olan məlumatların müəyyən bir sahəyə xas olub-olmaması qeyri-müəyyəndir (12). Məhsul qiymətləndirməsindəki digər bir problem, etibarlılığın olmasına baxmayaraq meyarlarla əlaqədar etibarlılığın hələ də olmasıdır (14).

Ekspert rəyi və müəllim müşahidələri

Ənənəvi yanaşmalardan biri olan eskpert rəyi və müəllim müşahidəsi əsasında yaradıcılığın qiymətləndirməsinin müsbət və mənfi cəhətləri vardır (9). Ekspert yaradıcılıq qabiliyyətini asanlıqla aşkar edə və ya əksinə, onun olmamasını iddia edə bilər. Məsələn, oxşar səbəbdən Edison, Eynşteyn və Van Qog kimi məşhur alim və sənətkarların istedadları gec kəşf edilmişdir. Bunun səbəblərindən biri də mütəxəssislərin, fərdin gizli potensiallarını anlaya bilməmələridir. Ekspert rəyi ilə yaradıcılığı qiymətləndirmək üsulu müxtəlif tənqidlərə məruz qalmışdır. Ekspert rəyi ilə yaradıcılığın qiymətləndirilməsində subyektivlik, ekspertin peşəkarlığı, xidmətin bahalılığı kimi problemlərlə

qarşılaşılır. Bu səbəbləri nəzərə alaraq bəzi tədqiqatçılar Torrensin yaradıcı təfəkkür testinin ekspert rəyindən daha səmərəli bir metod olduğunu düşünür (7). Ekspert rəyi ilə aparılan qiymətləndirmə və diaqnostikada yaranan problemlərə baxmayaraq xüsusilə müəllimlərin peşəkarlıq səviyyəsi yüksək olduğu halda onların müşahidələri bu şəxslərin potensiallarını daha sağlam bir şəkildə təyin etməkdə effektiv ola bilər. Çünki müəllimlərin şagirdləri haqqında daha ətraflı məlumat əldə edə bilmələri üçün kifayət qədər zaman imkanları vardır.

Portfolio və fəaliyyətə əsaslanan qiymətləndirmə

Van-Tassel-Baska & Makfarlen (2009) araşdırmalarında ənənəvi qiymətləndirmə üsulları və testlərdən fərqli olaraq məktəb üçün daha innovativ və praktik hesab edilən portfolio və fəaliyyətə əsaslanan yaradıcılıq qiymətləndirməsinin yaradıcı düşünmə prosesi üçün daha səmərəli olduğunu vurğulamışlar. Yalnız bir məhsulu deyil, bütün yaradıcı prosesi qiymətləndirmək üçün şagirdlərin yaradıcı bacarıqlarını nümayiş etdirmələri zəruridir. Fəaliyyətə əsaslanan yaradıcılıq, müəyyən bir sahəyə aid olan yaradıcı fikirlərin öyrənilməsində və qiymətləndirilməsində istifadə edilə bilər. Kiçikyaşlı məktəblilərin fəaliyyətinin və onlar tərəfindən yaradılan məhsulun keyfiyyətinin qiymətləndirilməsi üçün ənənəvi qiymətləndirmə üsullarından istifadə edilə bilər. Fənlərarası və ya hər hansı bir sahədə məhsulun inkişaf etdirilməsi məqsədilə şagirdin yaradıcı düşünmə bacarıqlarının qiymətləndirilməsi baxımından daha əhatəli məlumat əldə etmək üçün portfoliolara müraciət edilə bilər (36).

Müsahibələr

D.Piffer araşdırmasında tədqiqatçıların müəyyən müddətdən sonra standart testlərin və anketlərin yaradıcılığı düzgün qiymətləndirmədiyi reallığı ilə qarşılaşacağını qeyd etmişdir. Eyni zamanda o, bildirir ki, standart anket və ya test metodlarına alternativ olaraq yaradılmış müsahibələr yaradıcılıq fəaliyyətini daha yaxşı dəyərləndirəcək və ətraflı məlumat verəcəkdir. Bununla yanaşı, müsahibələr yaradıcılığın ən aşağı kateqoriyası olan mini-c yaradıcılıq növünə çatmaq üçün faydalı ola bilər. Bundan əlavə yaradıcılıq üzrə ixtisaslaşmış tədqiqatçılar tələbələrə öz yaradıcılıq potensiallarını müəyyən etməsi məqsədi ilə yaradıcılıq müvəffəqiyyəti prosesi ilə bağlı suallar verə bilərlər. Məsələn, "Bu yaxınlarda sizi şəxsi zəmində yüksəlişə və ya praktik fəaliyyətə aparan bir təcrübə və ya intuisiya yaşamısınızmı?" Tədqiqatçı tərəfindən verilən ümumi sual konkret suallarla əvəzlənərək davam edən müsahibə yaradıcı fərdin müəyyən bir sahədəki yaradıcılığı haqqında fikir əldə etməyə imkan verir. Nəticədə, qeyd edə bilərik ki, müsahibələr tədqiqatçıya ən aşağı səviyyədə yaradıcılıq potensialını (həm də mini-c) göstərsələr belə, həm keyfiyyət, həm də kəmiyyət məlumatı verə biləcəkləri üçün gələcək tədqiqat və qiymətləndirmələr üçün əhəmiyyətlidir (16).

Yaradıcılığın qiymətləndirilməsinə dair tədqiqatlara nəzər salarkən görürük ki, son tədqiqatlarda ənənəvi standartlaşdırılmış yaradıcılıq testlərindən imtina etmə halları müşahidə olunur. Müsahibələr, texnoloji vasitələrin istifadəsi, portfolio və fəaliyyət əsaslı qiymətləndirmələri bunlardan bəziləridir (9, s.15). Eyni zamanda dinamik qiymətləndirmələr alternativ yaradıcılıq qiymətləndirmə sahəsinə daxil edilir və standart testlərə alternativ təqdim edir (Kaufman və digərləri).

Yaradıcılığın 4C modeli

Son illərdə tədqiqatçılar 4C modeli kimi adlandırdıqları yaradıcılığın 4 növünü müəyyən etmişlər. 4C modeli yaradıcılığın bu səviyyələrinə istinad edir: 1) mini-c, 2) kiçik-c, 3) pro-c, 4) böyük-c.

Mini-c yaradıcılıq növü – müxtəlif fəaliyyətləri, təcrübələri və instinktiv olaraq məna yükləməni özündə birləşdirir. Məsələn, taxta parçalarından quş yuvası düzəltmək, gəzinti sonrası fotoşəkillərdən albom düzəltmək və s.

Kiçik-c yaradıcılıq növü gündəlik həyatımızda mövcud problemlərin həllinə, hobbilərə, həvəskar fəaliyyətlərə, karyeraya və ya dərsdən kənar maraq dairələrinə istiqamətlənmiş yaradıcılıq növüdür. Adətən, geri dönüş və cavab tələb edən fəaliyyətləri özünə daxil edir. Naxış vurmaq, rəsm çəkmək, yemək bişirmək və ya dizayn işləri ilə məşğul olmaq mini-c yaradıcılıq növü kimi qiymətləndirilə bilər.

Pro-c yaradıcılıq dedikdə, peşəkar səviyyədə yaradıcılıq nəzərdə tutulur. Burada kiçik-c-dəki hobbi nümunələrin daha üst səviyyəsi, yəni peşəkar zəmində yaradıcılıq nümayişi baş verir. Məsələn, özündə incəsənət və dizaynı birləşdirən memarlıq işi, musiqişünaslıq, rəqqaslıq və s.

Son olaraq böyük-c yaradıcılıq növü haqqında deyə bilərik ki, o, möhtəşəmliyi ilə fərqlənən və müvafiq sahə üzrə nailiyyəti olan, mədəniyyət faktoruna təsir göstərən yaradıcılıq nümunələrini yaradan insanlara aid edilir. Bu cür yaradıcılığa malik olan insanlara nümunə olaraq Mosart, Pikasso, Mariya Küri, İbn Sina, Ziqmund Freyd və s. qeyd edə bilərik.

Yuxarıda adıçəkilən 4C modeldəki hər C fərqli kateqoriyada yaradıcılıq növlərini özündə birləşdirir. Bu səbəbdən 4C modelində qiymətləndirmə hər kateqoriya üzrə aparılacaqdır. Birincisi, mini-c və kiçik-c əsasən öz potensialını qiymətləndirməni nəzərdə tutur. Özünüqiymətləndirmə yaradıcı davranışın yoxlama siyahısının tətbiqində, öz yaradıcılığının az olduğunu və ya olmadığını düşünən şəxslərdə daha effektiv alınır. Pro-c-nin ölçülməsində CAT-dan (Consensual Assesment Technique) da istifadə edilə bilər. Əlavə olaraq qazanılan mükafatlar və ya təltiflər Pro-c qiymətləndirməsində vacib məqamlardan sayılır. Böyük-c-də isə yaradılan məhsulun, ideyanın və s. böyük mükafatlar və tarixi əhəmiyyətlilik baxımından dəyərləndirilməsidir.

Yaradıcı təxəyyülü inkişaf etmiş şəxsiyyətlərdən ibarət cəmiyyətlər, dünyada baş verən dəyişikliyin istiqamətini təyin etmək və mövcud dəyişikliyə

töhfə vermək baxımından əhəmiyyətli bir yerə sahibdirlər. Hər bir cəmiyyətin inkişaf səviyyəsi orada yaşayan şəxsiyyətlərin yaradıcılıq potensialı ilə əlaqəlidir. Ölkəmiz də inkişaf etməkdə olan ölkələr arasındadır. Yaradıcılığın elmə və incəsənətə təsiri ilə yeni inkişaf mərhələsinə addım atmaq üçün hər bir təhsil pilləsində yaradıcı təxəyyülün inkişafına önəm vermək lazımdır.

Yaradıcılığın həm fərdi, həm də ictimai əhəmiyyətinin yüksək olmasına baxmayaraq ölkəmizdə onun diaqnostikasına dair çox az sayda uyğunlaşdırılmış metodika vardır. Təhsil sistemimizdə yaradıcı təxəyyülün əhəmiyyətinə yetəri qədər diqqət yetirilmədiyinə görə ölkəmizdə, xüsusən xarici ədəbiyyatla müqayisə edildikdə, yaradıcılıqla bağlı kifayət qədər tədqiqatın olmadığı müəyyən edilir. Bundan əlavə digər ölkələrdə istifadə olunan testlər Azərbaycan dilinə uyğunlaşdırılsa da, xarici ölkələr ilə ölkəmiz arasındakı təhsil sistemindəki və sosial-iqtisadi səviyyələrdəki fərqlər ölkəmizdəki uşaqlar üçün uyğun bir yaradıcılıq qiymətləndirmə inventarının yaradılmasının zəruriliyini ortaya qoyur. Ölkəmizin yaradıcılıq baxımından ehtiyaclarını əsas götürərək orijinal və müasir diaqnostik alətlərin yaradılmasına və inkişafına ehtiyac vardır.

Yaradıcı təxəyyülün diaqnostikası və qiymətləndirilməsinə dair ortaya çıxan nəticəyə görə, yalnız bir qiymətləndirmə metodu əvəzinə birdən çox qiymətləndirmə metodunun istifadəsi daha səmərəlidir. Fərqli qiymətləndirmə metodları bir çox cəhətdən faydalıdır. Çünki yaradıcılıq çoxölçülüdür və bəzən onu ən yaxşı formada ölçmək üçün müxtəlif qiymətləndirmə metodlarından istifadə etmək zəruri olur. Bu metodların nəticələrinin mexaniki deyil, funksional birləşdirilməsi yaradıcı təxəyyülün qiymətləndirilməsində daha əhatəli və etibarlı nəticələri təmin edir.

## ƏDƏBİYYAT

1. *Bəylərov E.B.* Uşaqlarda istedadın müəyyənləşdirilməsi və inkişaf etdirilməsi. İstedadın işçi konsepsiyası. Bakı: Təhsil, 2008. 224 s.
2. *Əlizadə Ə.Ə.* Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyə edilməsi. Bakı: Maarif, 1965, 128 s.
3. *Robinson K. və Lu A.* Yaradıcı məktəblər. Bakı: Şərq-Qərb, 2018, 277 s.
4. *Kaygın B. ve Çetinkaya Ç.* Yaratıcılığın Değerlendirmesinde Yeni Yaklaşımlar // Üstün Zekalılar Eğitimi ve Yaratıcılık Dergisi, 2015
5. Ömeroğlu E.& Turla A. Okul Öncesi Dönemde Yaratıcılık Eğitimi ve Desteklenmesi // Milli Eğitim Dergisi, 151, 2001, s.49-53
6. *Sungur N.* Yaratıcı Düşünce. İstanbul: Evrim Yayınevi, 1997, s.201-216
7. *Baer, J.* (Why you shouldn't trust creativity tests. Educational Leadership, 51(4), 1994, pp.80-83

8. *Barak M.* Motivating self-regulated learning in technology education // International Journal of Technology and Design Education, 20(4), 2010, pp.381-401
9. *Coxbill E, Chamberlin S.A. & Weatherford J.* Using model-eliciting activities as a tool to identify creatively gifted elemantary mathematics students // Journal fort he Education of the Gifted, 37, 2013, pp.176-197
10. Creativity New York: Cambridge University Press, pp.125-147
11. *Davis G. A. & Rimm S. B.* Education of the gifted and talented (2nd Ed.). Englewood Cliffs, NJ: Prentice-Hall, 1989
12. *Kaufman J.C. & Beghetto R.A.* Beyond big and little: The four C model of creativity. Review of General Psychology, 13, 2009, pp.1-12
13. *Kim K.H.* Can we trust creativity tests? A review of the Torrance Tests of Creative Thinking (TTCT) // Creativity Research Journal, 18, 2006, pp.3-14
14. *Makel M. C., & Plucker J. A.* Creativity. In S. I. Pfeiffer (Ed.), Handbook of giftedness in children: Psychoeducational theory, research, and best practices New York, NY: Springer, 2008, pp.247-270
15. *Mann E.L.* The Search for Mathematical Creativity: Identifying Creative Potential in Middle School Students // Creativity Research Journal, 21(4), 2009, pp.338-348
16. *Piffer D.* Can creativity be measured? An attempt to clarify the notion of creativity and general directions for future research // Thinking Skills and Creativity, 7, 2012, pp.258-264
17. *Runco M.A.* The creativity of childrens' art // Child Study Journal, 19, 1989, pp.177-189
18. *Sternberg, R.J.* A three-facet model of creativity. In R. J. Sternberg (Ed.), The nature of creativity New York: Cambridge University Press, 1988, pp.125-147
19. *VanTassel-Baska J. & MacFarlane B.* Enhancing creativity in curriculum. In L. Shavinina, The International Handbook on Giftedness London: Springer, 2009, pp.1061-1083

Redaksiyaya daxil olub 26.11.2020

***UOT 37.01***

***M.Ə.Məmmədova***
*ADPU nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci*
*mammadova@adpk.edu.az*

# MƏSAFƏDƏN TƏHSİLİN TƏDRİSİN KEYFİYYƏTİNƏ TƏSİRİ

***Açar sözlər:*** *təhsil, məsafədən tədris, öyrənən, öyrədən, e-resurslar*

Koronavirus pandemiyası ilə əlaqədar olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci də distant və ya məsafədən təhsilə başladı. Bütün pedaqoji heyət, o cümlədən müəllimlərimiz bu prosesə cəlb olundu. Statistik olaraq onlayn dərslərdə iştirak edən tələbə sayını, keçirilən dərslərin qeydiyyatını apardıq. Bu müddətdə təhsil "DUO", "Zoom", "Microsft Teams" və "Whatsapp"-la (video və pdf) proqramları vasitəsilə tələbələrə onlayn qaydada tədris olunmuşdur. Bu prosesə 3535 tələbədən 2800-ü onlayn qaydada qoşulub (4-cü kurs tələbələri istisna olmaqla), digər tələbələrin regionlarda olması və internet probleminin mövcudluğu onların bu prosesə qoşulmasına mane olsa da, kollecin kollektivi həmrəy olaraq belə tələbələrə dəstək olması üçün müxtəlif addımlar atdı.

Kollecdə təhsil alan tələbələr üzərində müşahidə tipli tədqiqat işi aparılmış, alınan nəticələrə görə digər e-resurslardan fərqli olaraq tələbələrin əksəriyyəti onlayn, yəni müəllimlə məsafədən canlı dərs metoduna üstünlük verir.

***М.А.Мамедова***

# ВЛИЯНИЕ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ НА КАЧЕСТВО ПРЕПОДАВАНИЯ

***Ключевые слова***: *образование, дистанционное обучение, учащийся, педагог, электронные ресурсы*

В связи с пандемией коронавируса Азербайджанский государственный педагогический колледж при Азербайджанском государственном педагогическом университете также начал дистанционное обучение. К этому процессу был привлечен весь педагогический коллектив, в том числе и наши учителя. Статистически мы записали количество студентов, посещающих онлайн-классы, и количество проведенных занятий. В это время уроки проводились для учащихся онлайн через "DUO", "Zoom", "Microsft Teams" и "WhatsApp" (видео и pdf). Из 3535 студентов 2800 присоединились к процессу онлайн, и хотя другие студенты (за исключением студентов четвертого курса) находились в регионах, и проблема с интернетом помешала им присоединиться к процессу, сотрудники колледжа предприняли различные шаги для поддержки студента.

Наблюдательное исследование было проведено среди студентов колледжей, и результаты показали, что, в отличие от других электронных ресурсов,

большинство студентов предпочитают онлайн, то есть дистанционное обучение с преподавателем.

***M.A.Mammadova***

## THE IMPACT OF DISTANCE EDUCATION ON THE TEACHING QUALITY

***Keywords**: education, distance learning, learner, educator, e-resources*

In connection with the coronavirus pandemic, the Azerbaijan State Pedagogical College at the Azerbaijan State Pedagogical University has also started distance learning. The entire teaching staff, including our teachers, was involved in this process. Statistically, we recorded the number of students attending online classes and the number of classes held. During this time, classes were held for students online via "DUO", "Zoom", "Microsft Teams", and "WhatsApp" (video and pdf). Of the 3,535 students, 2,800 joined the process online, and although other students (with the exception of fourth-year students) were located in the regions and an Internet problem prevented them from joining the process, the College staff took various steps to support such a student.

An observational study was conducted among College students, and the results showed that, unlike other electronic resources, most students prefer online, i.e. distance learning with a teacher.

Yan Amos Komenskinin 1633-1638-ci illərdə qələmə aldığı "Böyük didaktika" əsərində təhsil verənlə təhsilalan arasındakı qarşılıqlı mübadilə geniş şərh olunsa da, distant təhsil konsepsiyasının 1728-ci ildən formalaşdığını qəbul edənlər də az deyil. Demək olar ki, həmin tarixdən bu günədək distant təhsil konsepsiyası olduğu kimi qalsa da, dəyişən yalnız kommunikasiya kanalları olub. Təxminən 300 il əvvəl cənab Kaleb Filipsin distant təhsilin ilk təşkilatçısı kimi "Boston" qəzetində şəhərətrafı bölgələrdən tələbələrin sürətli yazı və mühasibatlıq kursuna dəvət elanı verməsi maraq doğurur. Onun tətbiq etdiyi metod vasitəsilə tələbələrin məşğələ mövzuları həftədə bir dəfə poçtla yaşadıqları ünvana göndərilirdi. Distant təhsilin ilk mərhələsində poçt xidmətindən istifadə olunması onun təkamülü tarixində əvəzsiz rol oynamışdır.

1840-cı illərdə İsaak Pitman hazırladığı stenoqrafiyaya yazılmış mətnləri poçtla göndərməklə və düzəliş müqabilində tələbələrindən yazı alaraq steno sistemi hazırlamışdır. Bu sxem 1840-cı ildə İngiltərədə vahid poçt qiymətlərinin tətbiqi ilə mümkün oldu, sonralar bu model formalaşaraq məsafədən təhsilin təməlini qoydu [3].

Azərbaycanda məsafədən təhsilin rəsmi yaranma tarixi 19 iyun 2009-cu il hesab olunur. "Təhsil haqqında" yeni qanunun 13-cü maddəsinə əsasən Azərbaycanda təhsil almanın əyani, qiyabi, distant (məsafədən) və sərbəst (eksternat) təhsil formaları mövcuddur. Məsafədən və ya distant təhsil öyrədən və öyrənən arasında telekommunikasiya və kompüter şəbəkələri vasitəsi ilə operativ,

müntəzəm dialoq, əks əlaqə əsasında, uzaq məsafədən həyata keçirildiyi təhsil formasıdır. Distant tə hsil forması ənənəvi təhsil formalarına nisbətən öyrənənlərin müstəqilliyini, fəallığını, şüurluğunu, yaradıcılığını inkişaf etdirir. Bundan başqa, bu sistemdə az vaxtda daha çox elmi məlumatlar əldə etmək olur, tələbənin sistemli biliklər əldə etməsinə olan imkanları genişlənir. Avropanın bir çox ölkələrində bu təhsil formasından geniş istifadə olunur [2; 4].

Təhsilin distant formasından daha çox müəyyən səbəblər üzündən təhsilini artırmaq imkanı olmayan, əsasən də sağlamlıq imkanları məhdud insanlar üçün əlverişlidir. Məsafədən təhsilin zərurətə çevrildiyi hazırkı şəraitdə təhsil sisteminin yeni ideyalara, tələb-təklif paketlərinə ehtiyacı yaranmışdır. Bu sahədə aidiyyatı olan hər bir kəs öz yeni fikirlərini, tədrisin səmərəliliyini artırmaq üçün fərqli metodlar təklif etməli, ən yeni texnologiya və proqramların təhsil sahəsində tətbiqi problemlərini araşdırmalıdırlar. İnteraktiv rejim o zaman yaranar ki, öyrədən və öyrənən qarşılıqlı bilik mübadiləsi formatında çıxış edərək yeni biliklərin öyrədilməsinə nail ola bilsinlər.

Təhsil sahəsindəki mütəxəssislərin fikrinə görə, əyani təhsilin müəyyən üstünlükləri olsa da, bunun üçün çox miqdarda vəsait tələb olunur. Elə bu kimi subyektiv səbəbləri nəzərə alaraq deyə bilərik ki, digər təhsil formaları ilə müqayisədə distant (məsafədən) təhsil forması üstünlüklərə sahibdir. Qloballaşma şəraitində təhsilin ən yeni və effektiv texnologiyalarına, o cümlədən distant təhsil texnologiyalarına tələbat get-gedə artır.

Pedaqoji texnologiyalardan istifadənin əsas istiqamətləri innovasiyalarla əlaqədar biliyin, müvafiq anlayışların düzgün mənimsənilməsi, müasir təlim prinsipləri, təlim metodlarından öz yerində maksimum səmərəli istifadə olunması ilə bağlıdır. Yeni pedaqoji texnologiyalardan istifadə edən müəllimin dünya təcrübəsindən istifadə edərək yeni tədris metodları, dərs tiplərini müəyyənləşdirməsi təhsildə inkişaf üçün geniş imkanlar yaradır. Tanınmış rus pedaqoqu B.T. Lixaçov pedaqoji texnologiyaların mahiyyətinə aydınlıq gətirərək qeyd edir ki, ədəbiyyatlarda pedaqoji texnologiyalarla bağlı müxtəlif yanaşmalar və təriflər mövcud olsa da onlar məzmun etibarı ilə demək olar ki, çox yaxındırlar. Pedaqoji texnologiya psixoloji-pedaqoji qaydaların cəmidir və bunlar formaları, metodları, üsulları, priyomları, tərbiyə vasitələrini müəyyən edir. [1].

Bu təhsil forması müəllim və öyrənənlərin bir-biriləri ilə məsafədən qarşılıqlı əlaqəsi, təhsil prosesinə xas olan bütün komponentləri (məqsədləri, məzmunu, metodları, təşkilati formaları, tədris vasitələri) əks etdirən və internet texnologiyalarının xüsusi vasitələri və ya interaktivliyini özündə cəmləşdirən digər vasitələrdən istifadə olunması əsas strateji aspektlərdəndir.

Yeni pedaqoji texnologiyalardan istifadə edən müəllimin novatorluğu, onun yenilikçi kimi dünya təcrübəsindən istifadə edərək yeni tədris metodları, dərs tiplərini müəyyənləşdirməsi təhsildə inkişaf üçün geniş imkanlar yaradır. Məsafədən (distant) təhsil – tədris prosesinin elektron, telekommunikasiya,

proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma formasıdır. Bu təhsil öyrədən və öyrənən arasında əlaqəni operativ, müntəzəm dialoq, əks-əlaqə əsasında uzaq məsafədən həyata keçirir. Distant təhsilin xarakterik xüsusiyyətlərinə çeviklik, modulluluq, iqtisadi səmərəlilik, müəllimin yeni rolu, təhsilin keyfiyyətinə xüsusi nəzarət, müasir texnologiyalardan istifadə və s. aiddir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimləri də qlobal pandemiya ərəfəsində respublikamızın fədakar müəllim ordusuna qoşularaq texnologiyanın bütün imkanlarından istifadə etməklə tədrisi onlayn davam etdirdilər. Əslində onlayn dərs prosesləri, İKT vasitələri ilə dərslərin qurulması bizim üçün yenilik deyildi, artıq bir neçə ildir kompüter, proyektorla təchiz olunmuş, müasir tələblərə cavab verən sinif otaqlarımız internet, elektron lövhələrlə təchiz olunmuş, mühazirə və seminarlar bu resurslardan istifadə olunmaqla tədris olunur. Buna görə də dərslərin məsafədən tədrisi bizim üçün çətin olmadı, tez bir zamanda tələbələri dərslərə cəlb etməklə fəaliyyətimizi uğurla davam etdirdik. Ənənəvi təhsil formasında olduğu kimi, distant təhsil forması da özünəməxsus müxtəlif təlim metodları ilə zəngindir. Bu metodların əsas məqsədi və qarşıya qoyduqları vəzifələrdən ən başlıcası (demək olar ki, həm də ortada olan ən böyük problem) öyrənənlərin biri-biri ilə və öyrədənlərin bu virtual qrup üzvləri ilə qarşılıqlı əlaqələrinin sıx təşkilinə yönəldilməsidir. Respublikamızda digər təhsil ocaqları kimi kollecimizdə də bu istiqamətdə operativ işlərin görülməsi müəllimlərin işini daha da asanlaşdırdı.

Onlayn dərslərin keçirilməsi ilə bağlı kollecimizdə keçirilən toplantıda mart ayının 10-dan etibarən bu dərslərin tərtib olunmuş cədvələ uyğun olaraq keçirilməsi, yaranan problemlərin vaxtında aşkar edilməsi və bu prosesin nəzarətdə saxlanılması tövsiyə edilmişdir. 19 mart tarixində ADPU-da keçirilən görüşdə "Microsft Teams" platforması üzərindən də bu dərslərin keçirilməsi Təhsil Nazirliyinin tövsiyəsi kimi diqqətə çatdırıldı. Fənn Birləşmə müəllimləri bu təşəbbüsə çox böyük səylə qoşuldular və tələbələrin internet şəbəkə xidmətlərindən istifadə şərtlərini nəzərə alaraq fərqli elektron resurslar üzərindən öz işlərini müvəffəqiyyətlə həyata keçirdilər. Dərslər tədris fənlərinin məzmununun mənimsənilməsi, mühazirə, seminar və praktik məşğələlər təşkil etməklə həyata keçirilir. Distant təhsil zamanı öyrənənin mühazirə mətnlərini və digər elektron tədris materiallarını yazmasına ehtiyac qalmır. O, təklif olunan bütün materialları istifadə etdiyi yaddaş qurğusunda saxlamaqla arxivləşdirə bilir və istədiyi vaxt, istədiyi yerdə və şəraitdə həmin materialı oxuyub öyrənmək imkanı əldə edir. Dərslərdə iştirak etmədikdə (obyektiv səbəblərə görə), seminarda müzakirə olunan mövzular üzrə slayd-təqdimatın tərtibatı, müəllimin izahı video format halına salınır və qrupun sənədlər bölümünə yerləşdirilir ki, istənilən vaxt tələbələrin bu materiallardan istifadə etməsi mümkündür.

Pandemiyanın təsirlərini minimuma endirmək məqsədilə aparılan qabaqcıl tədbirlərdən biri də təlim-tərbiyə işlərinin dayandırılması oldu. Lakin belə ağır

dövrdə fədakarlıq göstərən müəllim ordusu insanların sağlamlığını təmin edən həkim, digər peşə sahibləri ilə yanaşı, təhsilin fasiləsizliyini təmin etmək məqsədilə əzmlə işə başladılar. Müasir elektron sistemlərdən, platformalardan istifadə edərək məsafədən dərslər təşkil etdilər, proqram materiallarının mənimsənilməsinə yüksək səy göstərdilər. Eyni zamanda öyrənənlərlə mütəmadi psixoloji-motivəedici söhbətlər apararaq ruh yüksəkliyi yaratmağa çalışdılar. Cəmiyyət bir daha əmin oldu ki, Azərbaycan müəllimləri hər zaman üzərlərinə düşən missiyanı şərəflə yerinə yetirmiş, mükəmməl bilik verməklə yanaşı, onların milli-mənəvi dəyərlər, azərbaycançılıq ruhunda tərbiyəsinə, layiqli vətəndaş kimi formalaşmasına bütün həyatını sərf etmişlər.

Pandemiya dövründə tələbələrin davamiyyətini, mənimsəmə göstəricilərini müşahidə edərkən belə qənaətə gəlmək olar ki, məsafədən dərs metodu ilə tədrisin keyfiyyəti ənənəvi dərs göstəricilərindən geri qalmır. Kollecin fənn dərslərindən məsafədən təhsilin keyfiyyət dərəcəsini öyrənmək məqsədilə ayrı-ayrı şöbələrdə təhsil alan tələbələr üzərində apardığımız müşahidə tipli tədqiqat işi bunun əyani sübutudur. Yuxarıda qeyd etdiyimiz kimi, həyat şərtlərinə uyğun olaraq bir neçə elektron dərs formalarının göstəricilərini nəzərinizə çatdırmaq istəyirik. Belə ki, 50% tələbə onlayn, yəni müəllimlə məsafədən canlı dərs metoduna üstünlük verir, 25% tələbə video-təqdimatlarla hazırlanmış, yaddaşda saxlanılan video tipli dərslərə, 17,5% öyrənən web səhifələrdən (axtarış səhifələri, youtube və s.), çox az qisimləri isə elektron kitablardan istifadə etməyə üstünlük verdiklərini müşahidə etdik.




Şəkil 1. Tələbələrin e-resurslardan mənimsəməsinin keyfiyyət göstəriciləri

Videodərslərin adi dərsdən əsas üstünlüyü odur ki, şagird bu dərsləri bir neçə dəfə təkrar izləmək imkanına malikdir. Bununla da şagird dərsi tam mənimsəyənə qədər təkrar izləyə bilər. Bu da şagirdin dərsi anlama keyfiyyətini artırır. Lakin

müşahidələrimizə əsasən deyə bilərik ki, onlayn (müəllimlə canlı bağlantı) dərs prosesinin videodərslərdən daha effektiv olduğu öz əksini tapdı. Bu isə həm canlı dərslərə marağın daha çox olmasından, eyni zamanda müəllim və tələbələrin bir-biriləri ilə məsafədən qarşılıqlı əlaqəsidir ki, burada təhsil prosesinə xas olan bütün komponentləri (məqsədləri, məzmunu, metodları, təşkilati formaları, tədris vasitələri) əks etdirən və internet texnologiyalarının xüsusi vasitələri və ya interaktivliyini özündə cəmləşdirən digər vasitələrdən istifadə olunmasından irəli gəlir. Başqa bir arqument isə: tələbələr sərbəst şəkildə elektron resurslardan istifadə zamanı daha səhlənkar və passiv mövqe tuturlar. Distant təhsil zamanı onlayn dərs prosesi bilavasitə öyrənənlərin ev mühitində keçirildiyindən mövcud vəziyyətlə əlaqədar olaraq valideynlərin də bu prosesdə iştirakını zəruri etmiş, eyni zamanda utancaqlıq və auditoriya qarşısında çıxış etmək fobiyası kimi kommunikasiya keyfiyyətləri ilə bağlı psixoloji maneələri dəf etməyə imkan vermişdir.

İnsanın inkişafında ən mühüm amil elm, təhsil və müasir biliklərdir. İnformasiya-kommunikasiya texnologiyaları da daxil olmaqla, müasir texnologiyalardan bilik və informasiyanın ötürülməsi üçün istifadə olunması qlobal səviyyədə də inkişafın əsas şərtlərindən sayılır.

Pandemiya dövrü nəinki təhsil sisteminin, insanların həyat tərzinə, davranışına, eləcə də bütün həyati fəaliyyətinə təsir etdi. Bu səbəbdən də istər pandemiya, istərsə də postpandemiya dövründə yeni tədris strategiyalarının, distant təhsil modellərinin hazırlanması əsas prioritet istiqamət zərurətini yaradır.

## ƏDƏBİYYAT


1. Xudaverdiyev N. Yeni təlim texnologiyaları anlayışının mahiyyətinə dair // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2017, c.84, №2, Bakı, s.117
2. Əhmədov İ. Təhsilin qloballaşmasında İKT amili / Təhsildə qloballaşma və İKT mövzusunda Beynəlxalq konfransın materialları, Bakı, 17-19 may, 2008 s.13
3. Christopher Pappas. The history of distance learning infographic. Elearning-industry( article), 5 february, 2013 / https://elearningindustry.com/the-history-of-distance-learning-infographic
4. http://musabiqe.edu.az/upload/iblock/5d3/tehsilde_ikt_muhazire.doc


Redaksiyaya daxil olub 08.09.2020

# YAZI QAYDALARI

- "Pedaqoji Universitetin Xəbərləri" dövri elmi jurnalının "Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər" seriyası əvvəllər nəşr olunmamış elmi məqalələri qəbul edir.
- Məqalələr **Azərbaycan, ingilis, türk** və **rus** dillərində jurnalın elektron ünvanına – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, s. 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# WRITING RULES

- "Humanitarian, social and pedagogical-psychological sciences" series of the periodic scientific journal "Transactions of Pedagogical University" accepts previously unpublished scientific articles.
- The articles can be sent in **Azerbaijani, English, Turkish** and **Russian** languages to the journal's electron address – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com**.
- Articles should be written in **Microsoft Word** writing program Times New Roman alphabet in the font size 12 punto with interval between line in the range of 1.0 characters. Page sizes: from the right and left 2.0 sm, from above 2.5 sm and the bottom 2.2 sm.
- **The title** should be written in black and capital letters in the middle.
- The structure of the article should be consist of the following format: author's first name/patronymic/last name, position, scientific degree and title, a summary and the key words in three languages (100-150 words, 11 punto) and the list of literature. Summaries written in three languages should be equal to each other and match the content of the article.
- **The drawings, pictures, graphics and tables** in the articles should be correct, clear and given in the text and writings that belong to them should be written underneath.
- References indicating in square brackets should be numbered in alphabetical order and given at the end of the article. For example: [1, 8]
- Information about any reference given on the list of literature must be complete and accurate. The bibliographic description of the source reference should be based on its kind (monographs, textbooks, scientific papers, etc.). The name of the article or thesis must be shown when referring to the symposium, conference materials or to the theses.
- The volume of the articles: 5-12 pages.
- Articles are published on the basis expert review (in confidence) by the decision of the Editorial Board of the journal. Editorial Board may return the article to the author to make corrections.
- Unpublished articles are not returned.

*Nəşriyyatın direktoru:* Hüseyn Hacıyev
*Texniki redaktor:* Mustafa Şəfiyev
*Korrektor:* Sevinc Mamoyeva

Çapa imzalanmışdır: 11.12.2020
Kağız formatı $70\times100^{1/16}$, 11,0 ç.v.
Sifariş 141. Sayı 200.

---

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli, 68